

*Akademik Teymur Bünyadov*

ŞİRİN BÜNYADOVA

# ETNOLOJİ LÖVHƏLƏR
## (İKİ CİLDDƏ)

# I CİLD

Bakı – Mütərcim – 2024

**Redaktor:** Tarix elmləri doktoru
**Əsgər Əhməd**

**Rəyçilər:** Tarix elmləri doktoru
**Solmaz Məhərrəmova**

Tarix elmləri doktoru
**Nərgiz Quliyeva**

**Bünyadova Şirin Teymur qızı. Etnoloji lövhələr (iki cilddə). I cild.** – Bakı: Mütərcim, 2024. – 200 səh.

*Akademik, məşhur tarixçi-etnoqraf alim T.Ə.Bünyadovun 95 illik yubileyinə həsr olunmuş ikicildliyin birinci kitabına daxil olan məqalələrdə xalqımızın böyüklük, kişilik, birlik, qəribçilik və əsil-nəcabətlə bağlı düşüncələri elmi baxımdan araşdırılır. Etnik ərazi amilinin, əmanətin və bayrağın əhəmiyyəti izah edilir, inkulturasiya prosesi tədqiq olunur. Qafqazda yaşayan eyni xalqın nümayəndələrinin ayrı-ayrı dinlərə sitayiş etməsinə həm sosial, həm siyasi, həm də tarixi aspektdən yanaşılır. Mədəniyyətdə və dilimizdə rənglərin yeri barədə məlumat verilir.*

*Böyüməkdə olan gənc nəslin milli və Vətənə məhəbbət ruhunda tərbiyəsi üçün əvəzsiz vəsait olan bu nəşrin məktəb və universitet kitabxanalarına yol tapacağına ümid edirik.*

ISBN: 978-9952-28-709-7

© Ş.T.Bünyadova, 2024

Könlümdə əbədi taxt quran atam
Teymur Əmiraslan oğlu Bünyadovun
95 illik yubileyinə həsr olunur.
Ruhu şad olsun.

(1928-2022)

## Mündəricat


| | |
|---|---|
| ÖN SÖZ | 5 |
| KİŞİLİK | 8 |
| AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ BÖYÜKLƏRƏ MÜNASİBƏT | 39 |
| AZƏRBAYCANLILARIN DÜNYAGÖRÜŞÜNDƏ ƏSİL-NƏCABƏT | 58 |
| TARİXİN YADİGARI BAYRAQ | 75 |
| EYNİ XALQIN DİNİ MƏNSUBİYYƏT MÜXTƏLİFLİYİ | 86 |
| BİRLİK | 101 |
| ETNİK ƏRAZİ AMİLİ | 106 |
| İNKULTURASİYA PROSESİNƏ DAİR | 116 |
| AZƏRBAYCANLILARIN DÜNYAGÖRÜŞÜNDƏ QƏRİBLİK | 136 |
| RƏNGLƏRİN DİLİ, DİLİMİZİN RƏNGİ | 153 |
| AZƏRBAYCANLILARDA ƏMANƏT ANLAYIŞI | 186 |

*Xalqımızın tarixini*
*ürəyinin qanı ilə yazanlara tapşırın.*

Teymur Əmiraslan oğlu Bünyadov



# ÖN SÖZ

Təqdim olunan məqalələr toplusu xalqımızın adət və ənənələrindən, dünyagörüşündən süzülüb gələn, etnik xarakterində yer alan və cəmiyyətdə əhəmiyyətini nisbətən saxlayan müxtəlif məsələlərin təhlilinə həsr olunmuşdur. Məqalələr toplusunun əsas məramı Azərbaycan xalqının həyat tərzində əsrlər boyu var olan bir sıra stereotiplərin, müəyyən davranışlara rəvac verən düşüncə tərzinin araşdırılması istəyidir. Təqdim olunan mövzular əhatəsinə görə rəngarəngdir və onlarda tarixi, sosial və mədəni məsələlər öz əksini tapır.

İstər tarixi gerçəklikdən yaranan materiallar sayəsində, klassik irsimizin nümayəndələrinin yaradıcılığından bəhrələnərək, istərsə də folklor nümunələri və eləcə də şəxsi müşahidələr nəticəsində əldə olunan çoxsaylı məlumatlar istifadə olunaraq mənəvi dünyamız oxuculara bu məqalələr vasitəsilə təqdim edilir. Ayrı-ayrı başlıqlar altında xalqımızın mənəvi dünyasında mövcud olan qarşılıqlı münasibətlərin, birgəyaşayışın, dünyagörüşünün, yaşam tərzinin obyektiv izahı öz əksini tapır. Burada xüsusilə də ünsiyyətdə tez-tez işlənən xalq ifadələrinin, deyimlərinin təhlilinə yer verilir.

Bir sıra məsələlərin izahı vasitəsilə onların azərbaycanlıların məişət və mədəniyyətindəki yeri izlənilməyə çalışılmışdır. Mənəvi təmizliyə səsləyən böyüklük, kişilik, birliklə bağlı düşüncələr təhlil süzgəcindən keçirilmişdir. Mənəvi dünyamızdan xəbər verən məqalələrdən birində əmanətin xalqın dünyagörüşündəki yeri müəyyənləşdirilmişdir. Əsil-nəcabətlə bağlı xalqımızın düşüncələrinə diqqət ayrılmışdır. Etnik ərazi amili haqqında təhlil aparılmışdır. Qəribçiliklə bağlı təhlildə toplumun mənəvi tələbləri, zövqləri doğma vətənə bağlılıq öz əksini tapmışdır.

Etnoloji baxımdan azərbaycanlıların keçdiyi inkulturasiya prosesinin nəzəri əsasları şərh olunmuşdur. Əsrlərdən gələn mədəniyyət çərçivəsində mühüm amilə çevrilən bayraqlar haqqındakı təqdimatda xüsusilə zəfərlə bağlı qeyrət rəmzimiz fəxrlə qeyd olunur. Bəşəriyyətin inkişafı boyunca tarixin açdığı təzadlar dolu məsələlər sırasında Qafqazda yaşayan eyni xalqın nümayəndələrinin ayrı-ayrı dinlərə sitayiş etməsinə həm sosial, həm siyasi, həm də tarixi aspektdən yanaşılmışdır.

Xalqların əsrlərcə yaradıb yaşatmağa çalışdığı dəyərlərlə əlaqədar təqdim olunan məqalələr xalqımızın daxili dünyasına işıq tutmağa istiqamətlənmişdir. Məqalələr toplusunda həyat təcrübəsindən qaynaqlanan məqamlar, etnoloji baxımdan əhəmiyyətli məsələlər yer almışdır. Belə məsələlərin əsaslı surətdə şərh edilməsi xalqın milli ruhunun və eyni zamanda ümumbəşəri humanizm ideyalarının təbliği ilə sıx şəkildə bağlıdır.

Məhz təqdim olunan mövzulara toxunulması boşluğu doldurmaq məqsədi daşıyır. İstər etnoloji, tarixi, foklor, istərsə də sosial məsələlərin cəlb olunması, onlardan dəstəkləyici material kimi istifadə olunması mövzuların əhatəliliyini təmin etmişdir. Bütün bunları nəzərə alaraq və təqdim olunan məsələlərin məişət və mədəniyyətimizdəki yerini bilərək onların izahını verməyi məqsədəuyğun bildik.

Azərbaycanlıların mənəvi mədəniyyətini dolğun ifadə etmək üçün xalqımızın şifahi yaradıcılıq nümunələrindən (dastanlar, bayatılar, atalar sözləri və s.) və informantların məlumatlarından istifadə edilməklə etnoloji lövhələr təqdim olunur. Mövzular öz mahiyyətini bütövlükdə mühitdən alır. Onlarda təbiət və cəmiyyət vəhdəti aydın görünür.

Ümidvaram ki, məqalələrlə tanışlıq adət-ənənələrimizin maraqlı incilərini üzə çıxarmaq üçün gərəkli vasitə olacaqdır.

# KİŞİLİK

Təqdim olunan məqalədə Azərbaycan xalqının dünyagörüşündə, etnik psixologiyasında əsrlərdən bəri mövcud olan kişilik anlayışı haqqında ətraflı araşdırma aparılır. Xüsusən xalqımızın etnopsixologiya və etnopedaqogika sahəsindəki xarakterik xüsusiyyətlərini tədqiqat obyekti seçərkən onun öz həyat tərzində əhəmiyyət verdiyi namus, qeyrət, kişilik məfhumlarına etnologiya elmi baxımından diqqət yetirmək vacib məsələ kimi ön plana çıxır.

Azərbaycanlıların düşüncəsində oğulun dünyaya gəlməsi bütün dövrlərdə sevindirici hadisə olmuşdur. Çünki o, bir kişi kimi yetişməli, təsərrüfatın idarə olunmasında, ailənin namusunun qorunmasında kömək etməli və nəsli davam etdirməlidir. Bu xüsusda filosof Həsən Quliyev yazır: "Azərbaycanlı paternalist cəmiyyətin tipik nümayəndəsidir: bu hər şeyə işıq salır. Belə bir cəmiyyət üçün oğul kultu kifayət qədər təbiidir: nikahın və ailənin vəzifəsi "kişi hasil etməkdir". Buna görə də "kişi"nin (oğulun) dünyaya gəlməsi nəslin davam edəcəyinə zəmanət verən daha bir (gələcək) ailənin yaranmasının başlanğıcına dəlalət edir ki, bu da bütün nəslin xüsusi bayramına çevrilir. Paternalist cəmiyyətdə özünüdərkin "mən kişiyəm" xüsusi tipi fəaliyyət göstərir" (16, 53). Elə buna görə də dünyaya qız gələndə onlara, Yetər, Kifayət, Bəsti, Qızyetər və s. kimi adlar verilirdi. H.Quliyev yazır ki, nəslin davam edəcəyinin zəmanəti oğulun, yəni

kişinin dünyaya gəlməsidir (16, 53). Doğrudan da tarixən Azərbaycan ailələrində oğlanlara evin dirəyi kimi baxılmışdır. Sonralar onlar nüfuz sahibi sayılmışlar. Belə ki, "müxtəlif nəsillərin üzvi vəhdəti olan sosiumda hər bir ailə nüfuzlu kişilərlə təmsil olunurlar və bu mənada formal şəkildə ailədə ictimai paternalizm hökm sürür: buna görə də ailədə kişinin nüfuzu bütün vasitələrlə qorunur" (16, 40).

Xalqımızın həyata və cəmiyyətə münasibətində birgəyaşayış zəminində qurulan qarşılıqlı əlaqələrində xeyir və şər, yaxşı və pis, müsbət və mənfi kimi xüsusiyyətlər dəyərləndirilərkən insanların fəaliyyətinə verilən qiymət bütün üzvlər tərəfindən qəbul olunan vahid meyara əsaslanır. Yəni insanlara onların fəaliyyətindən doğan keyfiyyətlərə görə müəyyən xüsusiyyətlər yüklənmiş olur. Məsələn, əksəriyyətlə kişilərə xitabən söylənilən "kişilik" məfhumu özündə hansı cəhətləri ehtiva etməlidir, bu sözün məzmun kaloriti nələri bir yerə cəmləşdirir sualına cavab axtarsaq, ibtidai-icma cəmiyyətindən üzü bu yana xalqımızın minilliklər boyu yaşadığı coğrafi məkanda əsas götürdüyü keyfiyyət göstəriciləri qeyd edilməlidir.

Kişilik məfhumu nə zaman yarana bilərdi? Onun yaranma kökləri bəşər tarixində ən qədim zamanların yaşam tərzinə qədər gedib çıxır. Bunun əsasında kişilərin əksəriyyətlə fiziki baxımdan qadınlara nisbətən güclü olmaları dayanır. Deməli, təməl mahiyyətdə güclülük əsas şərt hesab olunur. İkinci bir tərəfdən, bu güc onların döyüşçü və ovçu təbiətindən qaynaqlanır. Yaradılış bu keyfiyyətləri kişilərin alın yazısı kimi möhürləmişdir.

Aydın məsələdir ki, bu kəlmənin mahiyyətində hər bir xalqda olduğu kimi mərdlik, cəsurluq, səxavətlilik, mər-

həmətlilik, ləyaqətlilik nəzərdə tutulur. Dünyanın müxtəlif xalqlarında bu sözlərin ola bilsin ki, qarşılığı vardır.

İlkin mərhələdə kişilik məhz kişilərə xarakterik olan fiziki güclülük keyfiyyətindən yaranıbsa, sonralar isə daha başqa amillər kişiliyin mahiyyətinə bir dəyər kimi əlavə olunub. Dostluğa sadiqlik, mərdlik, səxavətlilik, qonaqpərvərlik, mərhəmət və s. kişilərdən cəmiyyət tərəfindən təmənna olunan tələbə çevrilib. Məhz cəmiyyətin tələbi kişiliyin xüsusiyyətlərini şərtləndirib.

İbtidai insanlar həyat şərtlərinə uyğunlaşarkən eyni zamanda birgə fəaliyyət zəminində münasibətlər qururdular. Bu münasibətlər zamana uyğun şəkildə formalaşırdı. Qarşılıqlı əsaslara söykənən bu münasibətlər müəyyən qaydalara riayət etməyi gərəkli edirdi. Patriarxal münasibətlər yaranmağa başladıqdan sonra kişilərin rolu daha da artır. Kişilərin içərisindən qəbilə və tayfa başçısı seçilir, nəsli təmsil edən üzvlər birgə şura yaradır və kişilərdən ibarət idarəetmə formalaşır.

Orta əsrlərdə cəngavərlik kişiliyin əsas məzmununu özündə cəmləşdirirdi. Bu dövrlərdə, təşkilatlarda birləşmə, orduda dostluq, məişətdə qardaşlaşma kimi məqamlara nəzər salarkən bunların mahiyyətində kişiliyin durduğunu görmək mümkündür. Kişiliyə yüklənən hansı əlamətlərdir? Mərdlik, cəsarət, mərhəmət, qorxmazlıq, barışdırıcı mövqe və bütün bunların müqabilində birliyə nail olmaq vacib şərtlərdəndir. Xüsusilə ağsaqqallıq missiyasını öhdəsinə götürmək daha geniş anlam kəsb edir. Bununla yanaşı, xalqımızın mental düşüncəsində and içib söz vermək, əhdinə sadiq qalmaq, qorxuya sinə gərmək kimi keyfiyyətlərilə başqalarına da örnək təşkil etmək kişilər üçün zəruri sayılırdı. Nəhayət, sayılan, hörmət sahibi olan sanballı insanlar kişilik mərtəbəsində yüksək he-

sab olunurdular. Təsadüfi deyildir ki, azərbaycanlılarda kişi sözü and içməyə bərabər sayılmışdır. Yəni kişi söz verirsə, müqaviləyə, yazılı razılaşmaya gərək yoxdur. Bunu fransız yazıçısı Aleksandr Düma da təsdiq etmişdir ki, azərbaycanlı ilə bir şey barədə sövdələşəndə ondan imzalanmış sənəd tələb etməyə ehtiyac yoxdur. Söz verdi, qurtardı (27, 68). Xalqın düşüncəsində də özünə belə bir fikir yer edib ki, kişinin sözü bir olar (20). Azərbaycan prezidenti İlham Əliyev qeyd edir ki, mənim sözüm imzam qədər qüvvətlidir (46).

Körpə yaşlarından oğlan uşaqları daha çox kişilərə baxaraq müəyyən keyfiyyətləri əxz etməyə çalışırlar. Çox vaxt analar da oğlanlarına sən kişisən, sən ağlamamalısan deməklə, onun fərqli məziyyətlərə malik olduqlarını vurğulamağa çalışmışlar (29). Kişilər şit-şit gülməz, ağayana olmalıdır. Xalq deyimlərində də qeyd olunur ki, arsız kişidən ərsiz arvad yaxşıdır (37, 120). Hətta oğlanlar üçün elə oyunlar seçilir ki, kişilik keyfiyyətləri qazana bilsin. Xüsusən orta əsrlərdə valideynlər fiziki cəhətdən möhkəm bədən quruluşuna malik olması üçün öz oğlanlarını güləşməyə, at çapmağa, çovqan oynamağa və s. rəğbətləndirirdilər. Bundan əlavə, təsərrüfatda ağır işlərin görülməsi məhz oğlanlara tapşırılırdı. Hətta bir sıra sənət sahələri haqda "bu, kişi işidir" deyilir.

Gündəlik həyatda atanın rol model təşkil etməsi, ümumiyyətlə, ətrafda baş verən hadisələrə reaksiya verilərkən kişi zehnilə düşünməsi oğlan uşaqlarına zamanla aşılanan tərbiyə nəticəsində ötürülmüşdür. Ailədə atanın nüfuzunun, zəhminin xüsusən analar tərəfindən vurğulanması, Azərbaycan məişətinin reallığıdır. Dəyərlər sistemi çərçivəsində ictimaiyyət içində müəyyən davranış sərgiləmək mühüm məsələ sayılır. Çünki əks təqdirdə hərəkət

qınağa səbəb ola bilər. Oğlanların rəftarı qiymətləndirildikdə əsas meyar onun kişiliyi götürülür.

Aydın məsələdir ki, hər bir xalqda özünəməxsus etnik xüsusiyyətlər vardır. Kişilər ata-ana zəhmətini yüksək qiymətləndirməlidir, ağsaqqala, qonağa, böyüklərə hörmət etməlidir. Bundan əlavə, onlar xalqını sevməli, vətənin adını uca tutmalı, torpağı qorumağı bacarmalıdır. Təbii ki, zahiri görkəm də mühüm rol oynayır. Kişinin geyimi, saçı da davranışı qədər əhəmiyyətlidir. Ulu babalardan miras qalan adətlərə sadiq qalma mühafizəkar cəmiyyətin dayaqlarını sabitləşdirmək məqsədi daşıyır.

Uşaq vaxtından oğlanlara "balaca kişi", "kişi qırığı" deyə xitab edirlər. Bundan əlavə, böyümək əlaməti olaraq, qızlara "qızlar bulağından su içib", kişilik anlamında oğlanlara "bığ yeri tərləyib" deyirlər. Türklər oğlanlara aslan parçası, qoçum deyə səslənirlər. Böyüdükdən sonra bu yaşdakı oğlanlara münasibət də təbii olaraq dəyişir. Onlar özlərini yetkin kişi kimi hiss edirlər və cəmiyyətə məhz belə təqdim etməyə çalışırlar.

Kişi ləyaqəti, kişi sözü, kişi şərəfi kimi anlayışlar oğlanların psixoloji vəziyyətinə sirayət edir. Tarixi keçmişinə hörmət, öz millətinə qarşı dərin sevgi hər bir kişinin özünüdərkinə, kimlik xüsusiyyətinə, onun şəxsiyyət kimi formalaşmasına təsir edir. Filosof H.Quliyev qeyd edir ki, kişi mənəvi keyfiyyətləri və davranışı ilə nəinki özünü, hətta özününküləri belə biabır etməməlidir. Müəllif göstərir ki, "kişi ləyaqətini itirmək taleyin mümkün cəzalarından ən dəhşətlisidir" (16, 54). Deməli, ləyaqəti qorumaq kişinin ümdə vəzifəsidir. Eyni zamanda ona inanılır ki, insan dostluqda da, düşmənçilikdə də özünü gərək kişi kimi aparsın (35).

Azərbaycanlılarda qadına əl qaldırmaq, zəif adamı döymək, yetimin malına göz dikmək, şikəstə cəza vermək, qəbristanlığa toxunmaq, dustağa zülm etmək, namusa toxunmaq kişilikdənkənar xüsusiyyətlər sayılmış və toplum tərəfindən qınanmışdır. Qızı zorla qaçıran kişiyə el arasında pis baxılır. Qadının evinə girən kişiyə də “damagir” və ya “damagirən” deyilir ki, bu da yaxşı qarşılanmır. Çünki adətə görə gəlin gərək ata evində deyil, ər evində yaşaya.

Bütün bu deyilənlərin izlərinə xalq məişətindən süzülüb gələn şifahi xalq yaradıcılığı nümunələrimizdə rast gəlmək mümkündür. Şifahi xalq yaradıcılığı nümunələrimizdə xalqımızın dünyagörüşünün izlərindəki kişiliklə bağlı xeyli məqamlar yer almışdır. Dastanlarımızda, bayatılarımızda, atalar sözlərində və digər folklor nümunələrimizdə xalqın yaşam tərzindən süzülüb gələn məqamlar, kişiliklə bağlı deyimlər öz əksini bariz şəkildə göstərir.

Dastanlarımızda kişiliklə bağlı məqamlar “Koroğlu” dastanında öz əksini belə tapıb. “Koroğlu” dastanında deyilir: “Nigar xanım bunu eşitcək kağız götürüb bir namə yazdı ki, bəs “Koroğlu, mən İstanbul xotkarının qızı Nigar xanımamam. Əyər sən doğrudan da iyidsənsə, gəl məni apar”. Naməni büküb möhürlədi, ondan verdi Bəlli Əhmədə ki: – Bu naməni çatdır Koroğluya. O əyər kişidirsə, gəlib məni aparsın. Bəlli Əhməd naməni öpüb cibinə qoydu, sonra dedi: – Xanım, bəlkə inanmadı. Nigar xanım qolundan bazubəndini də açıb ona verdi. Üstəlik bir də bir ovuc qızıl verdi ki, atdan, zaddan alıb, naməni tez çatdırsın (22, 67). Burada sevgisinə və istəklisinə sahib çıxan insanın onu yadlara yar etməməsi yolunda atacağı addıma verilən qiymət özünü büruzə verir. Daha sonra dastanda belə bir məqam da vardır ki, “Telli xanım

aşıq Cünundan Koroğlunun tərifini eşitdi, əzəl ona xələt verdi, sonra əlinə qələm alıb Koroğluya belə bir namə yazdı: "Koroğlu, sənin iyidlik tərifini eşitdim. Gəlib məni aparsan bu hünər sənə halal olsun, apara bilməsən kişiliyi yerə qoy, başına yaylıq ört" (22, 112). Kişi üçün "başına yaylıq ört" deyilməsi ona edilən ən ağır təhqirdir. Çünki, yaylığı başına qadınlar örtər.

"Kitabi-Dədə Qorqud" dastanında Qazan xan deyir ki, "çox öyünən kişilərdə bir kişilik görmədim" (28, 215). Burada sözün əsl mənasında kişilik haqqında söz söylənilir. Yəni, özünü çox öymək, yekəxana göstərmək kişiliyə yaraşan xüsusiyyət deyildir.

Kişiliklə bağlı məqamlar atalar sözlərində də yer alır. Məsələn, atalar sözlərində deyilir: Altını odda sına, kişini işdə (12). Yəni kişi öz davranışı ilə, iş başında fəaliyyəti və eyni zamanda işə münasibəti ilə daxili mənliyini büruzə verir. Digər atalar sözlərində də belə qeyd edilir: "kişinin hörməti öz əlindədir" (6, 53). Daha sonra belə fikirlər də var ki, "yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq mərd kişinin işidir" (6, 161). Doğrudan da buradan belə aydın olur ki, azərbaycanlılar pis əməl qarşılığında yenə də yaxşılıq edəni nadir və mərd insan kimi görür.

Azərbaycan atalar sözlərində kişiliyə yüklənən dəyərlər bu ifadələrdə öz əksini tapıb: "kişi vəzir olmaqla adam olmaz", "kişi vəfalı olmalıdır", "kişi öz sözünün ağası olar", "kişi öz tayı ilə gəzər", "kişi sözü üzə deyər", "kişi tüpürdüyünü yalamaz", "kişi həddini bilməlidir", "kişidə səbr olmalıdır", "kişinin alnı açıq gərək", "kişinin malı göz qabağında", "kişinin sözü ilə işi bir olar", "kişisi olmayan evin ruzisi olmaz", "ər kişinin ər oğlu olar" və s. (6, 68-69). Oğuznamədə deyilir: "ər olan rizqin taşdan çı-

qarur" (38, 61). Yəni kişi öz ruzisini daşdan çıxarar. "Ər qeyrətçün toğar" (38, 51). Ər qeyrət üçün doğar. "Ərənlərin ardı, ögi bir olur" (38, 21). Kişilərin arxası, önü bir olur. Burada deyilir ki, kişi bir fərq qoymadan hamıya eyni rəftarı göstərir.

Atamın dilindən tez-tez eşitdiyim bir xalq bayatısında deyilir ki,

*Əziziyəm, azadam da,*
*Qulam da, azadam da.*
*Var-dövlət hamıda olar*
*Kişilik az adamda.*

Bayatılardan oxuyuruq:

*Durna sanınnan keçər,*
*Ötər, sanınnan keçər.*
*İgid vətən yolunda,*
*Ölər, canınnan keçər (1, 22).*

Kişilik nümayiş etdirmək bütün dövrlərdə ən çox özünü hərbdə göstərir. Kişilik özünü vətənə xidmətlə təsdiqləyən insanlara daha çox xarakterikdir. Bütün dövrlərdə döyüşçü kimliyilə ad qazanan ər igidlər ana torpağı qorumaqla mükəlləfdirlər. Ən çətin anlarda döyüş yollarında zəfər əldə etmək üçün bir-birinə dəstək olmaq kişilik sayılır. Döyüşdə həlak olana, yara alana münasibət göstərən əsgər öz kişilik adını qorumuş olur. Mətin dostluq münasibətləri də bu zəmində yaranır və möhkəmlənir.

Azərbaycan xalqının kişiliklə bağlı fikirləri, düşüncə tərzi şairlərimizin əsərlərinə sirayət etmişdir. Orta əsr şairlərindən Qətran Təbrizi yazır:

*Kişilik və comərdlik səndən vücuda gəlmişdir (48, 142).*

Qazi Bürhanəddinin ərənlərə aşadıdakı kimi xitab etməsi tərbiyəvi əhəmiyyət kəsb edir.

*Ərənlər öz yolunda ər tək gərək,*
*Meydanda ərkək kişi nər tək gərək,*
*Yaxşı-yaman, qatı-yumşaq olsa xoş*
*Sərvərəm deyən kişi ərkək gərək (7, 90).*

Buradan belə bir fikir hasil olur ki, hər kim ki, cəsarətlə meydana girirsə, özünü sərvər hesab edirsə, o halda əməlləri də ona uyğun olmalıdır.

Orta əsr şairlərimizin əsərlərində kişiliklə bağlı maraqlı fikirlərin olması diqqətəşayandır. Məsələn, Nizami "İskəndərnamə"də yazır ki,

*Kişi rövnəqsiz iş görməməlidir (15, 47).*

Yəni kişi bir işə baş qoyubsa, onun gözəl, təntənəli və parlaq şəkildə icrasına müvəffəq olmalıdır. Kişinin başqasından fərqini mərdlikdə görən Nizami belə deyir:

*Ər ərdən mərdliklə seçilə bilər (15, 137).*

Burada şair onu göstərir ki, bir kişinin başqasından fərqindəki ölçü meyarı onun mərdliyindədir.

Əfzələddin Xaqani yaradıcılığında ibrətamiz fikirlərindən və tövsiyələrindən biri də budur:

*İstəsən güzgü tək saf olsun ürək,*
*Sinəndən on şeyi atasan gərək:*
*Haram, qeybət, kinə, paxıllıq, tamah,*
*Kibr, riya, həsəd, ədavət, kələk (3, 415).*

Əslində Xaqani burada kişidə olmaması gərəkli olan xüsusiyyətləri bir-bir sadalayır.

Orta əsr şairi Arif Ərdəbili göstərir ki, şadlıqda dostu ilə badə içən adam bərk ayaqda da kişi kimi çalışmalıdır (13, 72). Məhsəti deyir ki, "namərd kişilərdən yaxşıdır arvad" (14, 24). Bununla da orta əsrlər dövrünün baxış bucağındakı kişilik meyarlarını görmüş oluruq. Bu meyarlar indi də varlığını qoruyur.

Marağalı Əvhədi yazır:

*Öyrən insanlarda kişilik nədir,*
*Comərdlik insanı şərəfli edir.*
*İnsanlıq insana şüar olmalı*
*Adamda kişilik vüqar olmalı.*
*Özgəyə baxmasın xəyanət ilə,*
*Baxmasın təmahla ya şəhvət ilə.*
*O, diksin başını yerə həyadan,*
*Qovsun həyasızı qapıdan haman.*
*Ondan eşitməsin artıq söz bir kəs,*
*Heç vaxt öyünməsin xəlq içrə əbəs.*
*Yatmışa keşikçi olsun gecələr,*
*Xalqa kömək etsin qüvvəsi qədər.*
*Dilinin əzbəri bu olsun gərək:*
*Dara düşənlərə kömək eyləmək!*
*Hər vaxt pay ayırmaq yetimə, aca,*
*Hər vaxt arxa olmaq dula, möhtaca.*
*Özgənin eybinə göz yummaq ancaq!*
*Başqa kəs sirrinə yol axtarmamaq!*
*Pislik yol tapmasın onun halına,*
*Pis şeylər gəlməsin heç xəyalına.*
*Təmizlik, toxluqdur dostu, sirdaşı,*
*Ancaq insanlıqdır onun yoldaşı.*
*Odur seçilmişi zamanın ancaq,*
*Onunla mümkündür amanda olmaq.*

*Dostuna çevirər ürək üzünü,*
*Nəfsindən qoruyar hər vaxt özünü.*
*Dönməz qılınc ilə vursan də əgər,*
*"Şəkər" cəvab verər, desən də zəhər.*
*O, eyib örtəndir, azad, həyalı,*
*Xeyirxah, sevəndir elmi, kamalı,*
*İş görər, işinə o, muzd istəməz,*
*Öyünməz, nə də ki, alçalmaz əbəs.*
*O, hər vaxt nəfsini sındırmaq üçün,*
*Əgər nə lazımsa eyləyər bütün.*
*Yüz əzab çəksə də, heç dönməz üzü,*
*Verər çörəyini dadmamış özü.*
*Budur, xoşbəxtliyə dünyadan nişan!*
*Budur, ürəklilik, igidlik haman.*
*Kimdə tapa bilsən bu sifəti sən,*
*Çalış ki, ondan üz döndərməyəsən (24, 146-147).*

Şairin bütün bu dedikləri azərbaycanlıların kişilik haqqında əsas düşüncəsinin ümumiləşdirilmiş və gözəl şəkildə təqdim olunmasıdır.

Xaqani Şirvani isə belə yazır:

*Səxavətli kişiləri şeirimdə çox öymüşəm mən (23, 201).*

Səxavətlilik kişiliyin əsas keyfiyyətlərindən biridir.

Aşıq şeirinin qüdrətli ustadlarından biri olan Xəstə Qasım yazır:

*İsgəndər atlandı çıxdı zülmatdan,*
*Qasım, Xızr içdi abı-həyatdan.*
*Bəhs düşsə igiddən, qılıncdan, atdan,*
*Süfrəni hamsınnan kübar deyərlər (38, 335).*

Müəllif burada çox maraqlı bir fikir irəli sürmüşdür. Ənənəyə görə, kişiyə xas olan ən yaxşı keyfiyyət onun səxavəti və evinə gələnə yaxşı süfrə açıb qonaqlıq verə bilməsidir. Nahaq yerə deməyiblər ki, səxavətli insanın ruzi-bərəkəti Allahdan olar.

Saib Təbrizi bu xüsusda yazır:

*Hörmət ilə yad olar mərd kişilər ölsə belə,*
*Əsl insan da odur qəlbdə mehman olsun (25, 119).*

Şair burada mərd adamların öləndən sonra da adının hörmətlə anıldığını, əsl kişinin ürəklərdə yaşadıgını vurğulamaq istəmişdir.

Marağalı Əvhədi yazır:

*Kişi etməlidir xeyiri peşə.*
*Ta ki, adı, evi olsun həmişə.*
*Evi ədalətlə, dinlə tik ancaq*
*Yoxsa bünövrəsi suda olacaq (24, 144).*

Qazi Bürhanəddin deyir:

*Ərənlər bu dünyaya qılmaz nəzər,*
*Bunda, əqli var kişi qılmaz qərar,*
*Bu dünya kölgədürür, qovar qaçsan,*
*Bir kişi ki, qaçar andan, ol qovar.*
*Gün necə ki, seyr edər cövlanında,*
*Görməmiş siz tək cüvan dövranında,*
*Ərənlər cərgəsində deyilən söz,*
*Yerinə yetmək gərək meydanında (24, 58).*

Burada şair verilən kişi sözünün meydanda yerinə yetirilməsinin vacib olduğunu göstərmişdir.

Arif Şirvani yazır:

*Ər kişinin sözü mərdanə gərəkdir olsun,*
*Sahibi-rütbə olan şəxsdə olmaz yalan (25, 234).*

Şair göstərir ki, kişi yalan danışmaz.

Saib Təbrizi belə deyir:

*Hər adam ki, kişi tək eybini söylər üzünə,*
*Öp onun gözlərini, həq ver onun sən sözünə*
*Yaxasın verməz o əlbəttə qəmin pəncəsinə,*
*Bir adam ki, gecəni qatmış ola gündüzünə*
*(25, 121-122).*

Yəni burada deyilir ki, sözü üzə deyən mərd adamdan qorxma.

Orta əsr mühitində kişilikdən umulan əsas keyfiyyətlər əxi təşkilatının prinsiplərində təməl mahiyyət olaraq belə nizamlanır ki, üzvlüyə daxil olan hər bir kəs əli, dili və beli bağlı olmalıdır. Bu nə deməkdir? Yəni əli bağlı olmaq oğurluq etməmək, dili bağlı olmaq qeybət etməmək, beli bağlı olmaq heç kəsin namusuna toxunmamaq, təcavüz etməmək kimi şərtləri əsas götürür. Əxiliklə bağlı təfsilatlı məlumat Əsgər Əhməd tərəfindən verilmişdir. Müəllifin gəldiyi nəticədə əxiliyin əsas şərtləri belə göstərilir ki, kamil insan, doğruluq, dürüstlük, nəfsinə hakim olmaq, başqalarını düşünüb xidmət etmək, mükəmməl iş görmək, çalışqanlıq, əlinə, belinə, dilinə sahib olmaq, igidlik, ərdəmlik, onlara sığınanlara qapı açmaq, ənənəyə bağlılıq. Sonra Ə.Əhməd yazır: "Əxi əxlaqının prinsipləri İslam dini, təsəvvüf, fütüvvət hərəkatına əsas-

lanmaqla bərabər, bu prinsiplər həm də alplıq, ərənlik, qazilik, ağsaqqallıq, comərdlik, qonaqsevərlik və s. kimi qədim türk əxlaqi prinsiplərinə də söykənirdi" (9, 170-173). Əxilər orta əsrlərin daha çox sənətkar birliyi hesab olunurdu və bu birliyin tələbləri də məhz kişilikdə vacib sayılan xarakterik xüsusiyyətlər idi.

Məlum olduğu kimi, "sözün ciddi mənasında cəmiyyətdə yaşayan və fəaliyyət göstərən hər insan sosial bir dünyadır. Onun özünəməxsus sosial, əxlaqi, estetik, siyasi, intellektual və s. keyfiyyətləri var ki, bunlar da həmin insanın məqsədinin, bu məqsədə çatmaq üçün seçilən vasitələrin, fəaliyyət növü və mexanizminin təyinedici amilləridir" (4, 31). Doğrudan da bu keyfiyyətlərin vəhdətdə nəzərə alınması əsas şərtdir. Qeyd edək ki, "şəxsi qarşılıqlı münasibətlərin kökü insanların hisslər aləmi ilə bağlıdır. Onlar birinci növbədə, emosional amillər zəminində formalaşırlar. İnsanların bir-birinə verdikləri emosional qiymətlər şəxsi qarşılıqlı münasibətlərin formalaşması prosesində mühüm rol oynayır. Lakin tədricən emosional qiymətlər intellektual, mənəvi, estetik qiymətlərlə üzvi surətdə birləşir" (5, 209). Doğrudan da insanlar arasındakı şəxsi münasibətlərdə istər-istəməz emosional yanaşma və əqli təhlil süzgəcindən keçirilmə vəhdətdə olmalıdır.

Bəlli olduğu üzrə, "araşdırmalar onu deməyə əsas verir ki, insan toplumu müəyyən əlaqələrin yaranmasında və qorunub saxlanılmasında olduqca maraqlıdır. Çünki cəmiyyət üzvləri bir-birindən üzvü surətdə asılıdır və mənəvi tellərlə bağlıdır. Eyni zamanda bu bir gerçəklikdir ki, onlar istər-istəməz cəmiyyətlə, yaşadıqları toplumla hesablaşmalı olurlar. Bu və ya digər münasibətlər təbii olaraq insanları davranış etibarilə müəyyən qəlibə salır. Münasibətlər

ona ehtiyac olduğu müddətcə müəyyən çərçivəyə salınmış şəkildə davam edir. Qınaq obyekti olmaq və cəmiyyətdən kənarlaşdırılmaq qorxusu psixoloji baxımdan insanların bu və ya digər məsələdə davranışlarını nizamlamağa sövq etmişdir" (10, 5). Doğrudan da bu nizamlamada insanlara qarşı bir sıra tələblər qoyulur və umulur ki, onlar müvafiq davranış sərgiləsinlər. Xüsusən kişilərdən ağzıbütövlük, sözgəzdirməmək tələb olunduğu Nizaminin əsərlərində də var. Dahi şair Nizami Gəncəvi yazır:

*Kişidə çox xasiyyətlər var ki,*
*Ondan danışmaq olmaz.*
*Dilindən çıxan bir söz yaxşı olmazsa,*
*Səndə deyilmədən ölsə, yaxşıdır (2, 219).*

Şair burada ağzıbütöv olmağı kişiliyin əsas xüsusiyyətlərindən biri kimi qeyd edir. Burada hər sözü deməyin doğru olmadığı vurğulanır, onu öldürmək demək, açıb ağartmamağın gərəkli olduğuna işarədir. Yəni kişidə xəbərçilik olmamalıdır. El arasında belə söz də var ki, sirri qəbrə aparmaq. Bu, ağzıbütöv insanlara şamil edilir.

Bəzən qadınlar haqqında da deyirlər ki, "kişi kimi qadındır", "kişi qeyrətlidir", "kişi qızıdır", "min oğula dəyər". Bu o deməkdir ki, mənəvi cəhətdən qadın mərddir, qoçaqdır, əliaçıqdır, yeri gələndə kişini əvəz edə bilər və eyni zamanda onun cəmiyyətdə ağbirçək, el anası qismində böyük hörməti vardır. Bu deyimlə onun da kişilik xüsusiyyətlərilə fərqləndiyi göstərilir. Atalar sözlərindəki *aslanın erkəyi, dişisi olmaz* deyimi məhz bu məqsədlə söylənmişdir. Onu da xatırladaq ki, N.Gəncəvinin təsvirindəki müsbət qadın obrazları kişi qeyrətli olmaları ilə fərqlənirlər. Qadında olan mərdlik keyfiyyətlərini Nizami Gəncəvi bu sözlərlə ifadə edir:

*Örpək altında papaq sahibidir (36, 63).*
Yəni şair demək istəyir ki, kişi kimi qadındır.

N.Gəncəvinin "İskəndərnamə" əsərində İskəndərin Nüşabəyə belə dediyini görürük: "ey qadınlar padşahı, Sən gücdə, bacarıqda şir kişilərdən də irəlidəsən" (40, 212). Burada qadına verilən qiymət məhz kişiliklə eyniləşdirilir.

Müasir dövrdə bir ağayana adam haqqında bəzən deyirlər ki, köhnə kişilərdəndir. Burada adət-ənənəyə bağlı, samballı, ağırtəbiətli, hamının dərdinə yanan dəyərli el ağsaqqalı obrazı göz önündə canlanır. Xalq arasında işlənən "Köhnə kişilər" ifadəsi xüsusi məzmun kəsb edir. Əlövsət Saldaşın "Köhnə kişilər" şeirində deyildiyi kimi

*Tuş olduq biz hansı yola, bilmədik,*
*Sizin tək kamala dola bilmədik.*
*Sizin yarınızca ola bilmədik,*
*A Köhnə Kişilər, Köhnə Kişilər.*
*Söndü o ocaqlar, köz də qalmadı,*
*Daha danışmağa söz də qalmadı.*
*Sizdəki etibar bizdə qalmadı,*
*A Köhnə Kişilər, Köhnə Kişilər.*
*Gəlir tufan kimi qanlar, qadalar,*
*Qalıb su altında kiçik adalar.*
*A savadsız, alim, aqil Atalar,*
*A Köhnə Kişilər, Köhnə Kişilər.*
*Kimsəsiz görünür bu dağlar sizsiz,*
*Quruyur, sovulur bulaqlar sizsiz.*
*Yiyəsiz qalıbdı papaqlar sizsiz,*
*A Köhnə Kişilər, Köhnə Kişilər.*

*Yox oldu aradan, o sirli pərdə,*
*O xeyir-bərəkət dönərmi bir də?*
*Yeriniz görünür xeyirdə şərdə,*
*A Köhnə Kişilər, Köhnə Kişilər.*
*Keçmişik cənginə bir azğın selin,*
*Aqili, nadanı bilinmir elin.*
*Minin o atları, qayıdın, gəlin,*
*A Köhnə Kişilər, Köhnə Kişilər.*
*Allah bir işıqlı göz versin bizə,*
*Kəc baxaq əyriyə, düz baxaq düzə.*
*Diz çökür Ələvsət, baş əyir sizə,*
*A Köhnə, Kişilər, Köhnə Kişilər (33).*

Cəmiyyət qanunauyğunluqlarının təsir dairəsi daha güclü olmaqla əhəmiyyət kəsb edir. Çünki insan cəmiyyətin bir hissəsidir, o, hərəkətilə və fəaliyyətilə istər-istəməz müəyyən qanunlara tabe olan bir varlıqdır. Cəmiyyətin inkişafı ilə insan da püxtələşir, təkmilləşir, yüksək inkişaf səviyyəsinə çatır (8, 189). Sosioloji, psixoloji baxımdan yanaşıldıqda özünü təsdiq etmiş bir insan seçilmiş şəxsiyyət kimi dəyərləndirirkən onun başqalarından fərqinə bu prizmadan yanaşılır ki, kişiliyin hansı cəhətlərini o, özündə ehtiva edir. Onun xarakterinin hansı mədəni mühit və mənəvi çərçivə daxilində biçimləndiyi əsas şərtdir.

Görkəmli etnoqraf alim Teymur Bünyadov yazır ki, "el-obanı kişilərnən tanıyarlar" (17, 22). Doğrudan da el-obada məşhur olan kişilər onun təmsilçisi qismində tanınırlar, qəbul olunurlar. El-obanı ələ almanın, razılığa gəlmənin yolu da məhz belə ağsaqqal kişilər vasitəsilə mümkün olur. Belə insanlar el-obada ad qazananlardır. Təsadüfi deyildir ki, eli-obanı idarə edən kişilərə *elbaşı*,

*obabaşı* deyirlər ki, onlar da başçılıq missiyasını öz üzərinə götürən ağsaqqallardan seçilirdi. Pirani – nurani ağsaqqal olan yaşlı nəslin nümayəndəsi kişiyə deyilir.

Xəstə Qasım kişilikdə əsas ad qazanmaq olduğunu belə söyləyir:

*Xəstə Qasım kimə qılsın dadını,*
*Canı çıxsın, özü çəksin odunu,*
*Yaxşı igid yaman etməz adını,*
*Çünki yaman addan ölüm yaxşıdı (39, 34).*

Azərbaycanlıların düşüncə tərzində belə hesab edilir ki, kişi satqın olmamalıdır, kimisə güdaza verməməlidir, yalan danışmamalıdır, halal yaşamalıdır. Əks təqdirdə beləlǝri gözdən və hörmətdən düşür. Sözünə bütöv, ərdəmli olan kişilər zəifin haqqını müdafiə etməlidir (18). Kişi etimadı doğrultmalıdır. Qəyyumluq, himayədarlıq, sahiblənmə kimi xüsusiyyətlərə malik kişilərə nəsil və icma tərəfindən böyük hörmət edilir.

Kişilik məfhumu xüsusilə qadına qarşı davranışda daha səhih özünü büruzə verir. Kişi qadına münasibətində özünü necə aparırsa, bu, onun aldığı tərbiyədən xəbər verir. Vəzifə başında olanda belə, insanlar kişi kimi özlərini aparmağı bacarmalıdırlar. Məsələn, iş yerində qadına səs tonunu qaldırmamalı, üzünə qapı çırpmamalı, katibəsinə, işçisinə öz balası kimi baxmalı, əl vurmamalıdır, rüşvət alıb gözü kölgəli olmamalıdır. Ölən şəxsin adından yalan deməməlidir. "Kişi" olanın özünə sərf etmədikdə qadına salam verməyib, gərəkli olacağını anladıqda halını soruşması sadəcə bioloji varlıq olduğunu göstərir. Bundan əlavə, bir qadına yekəxana şeşələnmə və digərinə yaltaqlanma, salam verməmək üçün qaçaraq uzaqlaşma

insanlara sərfiyyət düşüncəsilə yanaşmanın bariz nümunəsidir. Belələrindən kişilik gözləmək olmaz. Rüşvət ala bilmədikdə qarşısındakı adama kobud davranmaq kişiliyə yaraşan iş deyildir. Məlumatçının da bildirdiyi kimi, qadını sipər edib arxasında gizlənmək kişilikdən deyil (18).

Aydın məsələdir ki, insanlar emosional baxımdan fərqlənirlər. Xarakter etibarilə müxtəliflik onlara bir sıra xüsusiyyətlər qazandırır. Kimisi sakit təbiətli, kimisi coşqun olur. Lakin kişilik onların zatında varsa, sadəcə hadisələrə reaksiya müxtəlifliyində özünü büruzə verir. Məlumatçı qeyd edir ki, hadisələrə ayıq münasibət, soyuqqanlı yanaşma tərzi kişilərin təmkinli olmasının göstəricisidir (30).

Azərbaycanda belə qəbul olunur ki, kişi başqasının ona çəkdiyi əməyi, zəhməti itirməməlidir. Şair Məhəmməd Şəhriyar bu xüsusda belə yazır:

*Heydərbaba, igid əmək itirməz,*
*Ömür keçər, əfsus, bəhrə yetirməz,*
*Namərd olan ömrü başa yetirməz (26, 20).*

Burada kişi olan insanın başqasının əməyini itirməməlidir fikri təsdiqlənir.

Azərbaycanda atın quyruğunu kəsmək, qadınına və silahına əl uzatmaq kişinin namusuna, şərəfinə toxunmağa bərabər sayılır. Çünki kişinin üç əsası - atı, silahı, arvadı onun namusudur. Türklərdə də belə deyilir: "at, pusat, avrat". Bu cəhət "Koroğlu" dastanında da yer alır. Dastanda deyilir: "anan Nigarı gətirməyə gedəndə mən artıq Rövşən yox, Koroğlu idim. O vaxt mən anan Nigar üçün İstanbula gedərkən cəmi dəlilər mənimlə getmək istədilər. Mən razı olmadım. İndi oğul, atdı, arvaddı, papaqdı, kişi üçün qeyrətdi" (22, 332).

Həyat yoldaşından başqalarına şikayət edən, pul görəndə quduran, arvadbaz adamlara cəmiyyətdə pis baxılır, onlar qınanır. Belələri haqqında "o niyə kişi olarmış" deyilir. Bundan başqa içkiyə, nəşəyə qurşanaraq ailəsinə əziyyət verən adamlara el arasında "kül onun kişi başına" deyirlər.

Ailənin keşikçisi olduğu üçün evdən uzaq olsa belə, kişi çalışıb onun ruzi-bərəkətini təmin etməlidir. Bir qayda olaraq qədim zamanlardan Azərbaycanda ailənin, onun problemlərinin həlli həmişə kişinin başlıca vəzifəsi və missiyası olmuşdur. Ona görə də belə deyirlər ki, kişinin özü çöldə, qazancı evdə (19). Qazana bilməyən, tənbəllik edən sağlam kişiyə xalq arasında rişxənd edilir (42). Bəzən kişilər dəyərləndirilərkən el arasında onun haqqında "insan adamdır" deyilir. Yəni kişi adamdır, mənəvi cəhətdən yüksək şəxsiyyətdir. Kişidə əqidə, ləyaqət, mənlik olmalıdır (31). T.Bünyadov da deyir ki, "ağayanalıq kişiliyə yaraşıqdı" (45, 215). Ləyaqət, yüksək mənəvi keyfiyyətləri daşıyan insanın özünə qarşı hörmətidir, ehtiram hissidir.

Onu qeyd etmək lazımdır ki, insanlar arasında qarşılıqlı güzəşt olmasa, müəyyən məqamlarda yeri gəldiyində bir-birini dəstəkləməsələr, bir sıra tələbatlarını ödəməsələr, birgə yaşayış şəraitində ictimai həyat üçün vacib olan şərtləri layiqincə yerinə yetirməsələr, münasibətlər heç cür özbaşına şəkildə yaranıb inkişaf edə bilməz. Qonşular arasındakı yaranan əlaqələrdə qarşılıqlı təsir qüvvətli olur. Müəyyən məqsəd naminə fəaliyyət göstərən tərəflərin köməyi, yaranmış vəziyyətə onların birbaşa müsbət müdaxiləsi və ünsiyyət zamanı edilən təsir qonşuluqda əsas keyfiyyətlərdəndir. Qonşuya münasibətdə əgər ərsiz qadındırsa və ya əri müvəqqəti olaraq evdə deyilsə,

ona gərəkli anda təcili olaraq yardım göstərmək kişi üçün bir mənəvi borc sayılır (34).

Dosta münasibətdə kişilik nümayiş etdirməyin öz tələbləri vardır. Qədim ovçular həm də döyüşçü sayıldığından qazandıqları həyat təcrübəsi zamanı bir-birini müdafiə əzmi və qoruyuculuq zəminində onların arasında dostluğun əsası yaranır. Bu da təbii instiktiv hal kimi qiymətləndirilməlidir. Döyüşçülük bir təşkilatlanmaya çevriləndə ordunun üzvləri bir-birinə kömək etməli olur, bunu bir borc, vəzifə kimi üstünə götürür. Hərbi təşkilatlanmada cavabdehlik prinsipi əsas sayılırdı. Belə ki, döyüşçülər yoldaşlarını meydanda tərk etməməli, yaralıları qorumalı, ölənlərin isə meyidlərini özlərilə gətirib ailəsinə təhvil verməlidirlər. Döyüşün gedişatı barədə məlumatın çatdırılması döyüşçü çaparların vəzifə borcları idi. Bu baxımdan savaş meydanında döyüşçü dostluğu xüsusi bir məna kəsb edirdi (10, 96-97). Bundan əlavə dostluq üçün uzadılan əli geri çevirməzlər. "Koroğlu" dastanında deyilir: "Qoç Koroğlu, sən buradan elə beləcə çıxıb getsən, atamı bütün dünyada bədnam elərsən. Kişi dostluq üçün uzanan əli kəsməz" (22, 246).

Kişinin əsli nəcabəti olmalıdır. "Koroğlu" dastanında deyilir:

*Tacirlikdə adı vardı,*
*Dostluğunun dadı vardı.*
*Kişilikdə zatı vardı,*
*Bu gələn Xoca Yaqubdu (22, 285).*

Zat deyərkən əsl nəcabətə işarə edilir. Bəzən el arasında ləyaqətsiz adama "zatı qırıq" deyilir.

Cəmiyyətdə oğurluq qeyri-əxlaqi keyfiyyət sayılır. Kişi oğru olmamalıdır. "Koroğlu" dastanında bu cəhət öz əksini tapıb. "Koroğlu onları tərpənməyə qoymadı. Tutub hamısının əl-ayağını bağladı, yerə uzatdı ki: – Kişi mərd olar. Oğurluq it peşəsidi. Padşahlara ədavətiniz var, dava eləyin, açıq meydanda mərdi-mərdanə savaşın, sonra xəzinəsi də sizə halaldı. Yoxsa ki, gecə oğurluq eləməyin" (22, 447)!

Kişi ləyaqətini qorumalıdır. Ləyaqət dedikdə, insanın yaşadığı həyat boyunca ədaləti üstün tutaraq başıucalıqla örnək olmaq, başqaları ilə davranışında mütəvazi olmaq şərəfli yol tutmaq, kiminsə yanında gözü kölgəli olmamaq, namusuyla nüfuz qazanmaq nəzərdə tutulur. "Koroğlu" dastanında deyilir ki, "Qara Pələng dedi: – Babacan, sən dünyagörmüş adamsan. Adam bir dəfə dünyaya gəlir, onu da gərək kişi kimi yaşaya! Çaqqaldan çaqqal, qurddan qurd olar" (22, 290). Ümumiyyətlə, insan dünyaya bir dəfə gəlir, onu kişi kimi başa vurmalıdır.

Mərdlik insanlara münasibətdə xeyirli işlər görmək, onlara qahmar çıxmaq, arxa duraraq sahiblənmək, ədalətli mövqeyi ilə alnı açıq, üzü ağ olmaqla seçilmək deməkdir. Bu keyfiyyətlərilə ad qazanıb toplum tərəfindən qəbul edilmək, hörmət sahibi olmaq şərəfinə nail olmaq mərd insanın arzuladığı məqsəddir. Kişi gərək mərd ola, prinsipial ola. Aşıq Ələsgərin dediyi kimi:

*Arif olan, gəlin sizə söyləyim,*
*İyid sözü mərd-mərdanə yaxşıdı.*
*Kişi gərək dediyindən dönməsin,*
*Biilqardan bir zənana yaxşıdı (24, 9).*

Kişi olan kəs dediyindən və ilqarından dönməz. Bundan əlavə Aşıq Ələsgər deyir:

*Kişi gərək zəhmət çəksin dər salsın,*
*Süfrə açsın, ad qazansın, dər salsın.*
*Dərsi azlar Ələsgərdən dərs alsın,*
*Altı min altı yüz ayə məndədi (24, 21).*

Burada zəhmət, qonaqpərvərlik, ad qazanma kişiliyin əsas əlamətləri kimi verilir.

Həmid Araslı göstərir ki, Qurbaninin şeirlərində mərdlik, düzlük, sədaqət motivləri qüvvətlidir və sənətkar belə yazır:

*Mərd odur ki, işin tuta mərdilən*
*Ər istəsən keç namərddən, ər dilən,*
*Rəmz anlayan, söz düşünən, dərd bilən*
*Aləmlərdə şöhrətlənib bəllənir (32, 36).*

Əslində burada ər dedikdə, əsil kişi nəzərdə tutulur, kişilik məqamındakı bütün xüsusiyyətlərə xas olan mərd insan obrazı göz önündə canlanır. Belə xarakterik xüsusiyyətlərə malik olan mərd, dərd bilənlər isə ad və şöhrət qazanır. Aşağıdakı təsnifdə doğru qeyd olunur:

*İnsan sənətsiz,*
*Kişi qeyrətsiz,*
*Kamal ibrətsiz*
*Yamandır, yaman (37, 68).*

Yetim uşaqlara himayədarlıq edənlər haqqında isə məlumatçının da qeyd etdiyi kimi xalq arasında “yetimdar” (yetimə baxan, onu saxlayan, yardım əli tutan) de-

yirlər (21). Yetimə sahib çıxmaq da kişilik sayılır. Etnoqrafik müşahidələrlə müəyyən olunmuşdur ki, Azərbaycan cəmiyyətində sahiblənmək duyğusu çox güclüdür. Şəraitin necə şərtlər gətirəcəyi bəlli olmadığı məlumdur. Həyat şəraitinin doğurduğu şərtlərə uyğun yaşamağa məcbur olan insanlar qəyyumluğa qanunauyğun bir proses kimi baxmışlar.

Kişilik dedikdə, el ağsaqqalı yada düşür. Adəti üzrə ağsaqqallığa namizəd nisbətən yaşlı nəslin nümayəndələrindən seçilirdi. Bunun əsas səbəbi ondan ibarətdir ki, yaşla insanın qazandığı təcrübə də zamanla xeyli artmış olur. Əvvəlki nəslin təcrübəsini yaxşı mənimsəmiş, tarixi faktları yaddaşında mühafizə etmiş, müşahidə qabiliyyəti yüksək olan, mərd, həyat reallığını dürüstcəsinə qiymətləndirməyi bacaran, böyük və kiçiyə hörmətlə yanaşan, səbirli, bir qədər də bəsirət gözü açıq olan şəxs ağsaqqal ola bilərdi. Cəmiyyət həyatının özü belə fəzilətli ağsaqqalın olmasını zəruri hesab edir. Azərbaycanda ağsaqqal obrazına yüklənən əsas cəhətlər, davranış qaydaları, ənənəviliyə sadiqlik amili uzun zaman ərzində mühafizə olunmuşdur. Bu da xalqın məhz bu münasibətdə mühafizəkarlığının bariz nümunəsidir. Ağsaqqalın şərəf və ləyaqətini qorumaq əhəmiyyət kəsb edən məsələ hesab olunmuşdur. Onun şərəfinə toxunmaq nəslin, tayfanın şərəfinə toxunmağa bərabər sayılmışdır. Ağsaqqal hətta fikrində yanılsa belə, bu onun nüfuzuna heç də xələl gətirmirdi. Soyadlar belə nəslin ağsaqqalının adından götürülürdü (10, 15-16). Atasının nüfuzlu el ağsaqqalı olduğunu söyləyən məlumatçı qeyd edir ki, qardaşını maşın vuranda hamı elə fikirləşirdi ki, atası Surxay kişi qəza törədən sürücünü tutduracaq, o isə sürücünün tutulmasına imkan vermədi (47). Bu da hər kişinin işi deyil.

Masa arxasında süfrə başında evin böyüyü sayılan kişi əyləşərdi. O oturmadan süfrədə yeməyə heç kim əl uzatmazdı. Bəzən müasir dövrdə beləlari barədə klassik kişilər deyilir.

Bəzən bir fikir, bir münasibət bildirəndə bu və ya digər hadisə zəminində "heç kişilikdən deyil, kişiyə yaraşmaz" – deyirik. Adına hörmət edən, millətini sevən adama pis iş tutmaq yaraşmaz. Zarafatyana sataşmalarda belə bir məsəl var ki, biri o birindən soruşur ki, adın nədir, deyilir ki, Ağakişi. Soruşan cavabında – "ağalar 1937-də getdi, kişilər də 1945-də" söyləyir. Qadınların kişilərə verdiyi qiymət müxtəlif deyimlərdə bəlli olurdu. Məlumatçı qeyd edir ki, nənəsi Gülsüm xanım deyirdi ki, o niyə kişi olsun ki, papağı üşüdüyünə görə başına qoyur (44). Təbii ki, buradakı zarafatyana sataşmada xalqımızın kişinin qeyrəti olan papaq barədə dünyagörüşü öz əksini tapır. Məlumdur ki, əsil kişilər hər zaman başına papaq qoyurdu.

Ümumən, geyim mədəniyyəti hər bir xalqın düşüncə tərzinin göstəricisidir. Özü də kişilər üçün xüsusi tələblər vardı. Ayağana davranışla bərabər eyni zamanda geyim tərzi də ona uyğun olmalı idi. Dar, sıx, gödək, əzaları göstərən geyimlər Azərbaycan cəmiyyətində kişilər üçün xarakterik olmayıb. Deməli, kişilik geyimdə də özünü göstərirdi. Məlumatçı da deyir ki, ata tövsiyyəsi belə idi ki, "hər vaxt xarici görünüşünüz daxilinizlə uyğun gəlsin. Hər vaxt kişilərin libası gaydasında olsun. Gödək pencək, gödək şalvar geyinməyin. Dost da, düşmən də insanı daima arxasından seyr edir. Pencəyi gödək kişiləri qınayaraq deyirdi ki, elə geyinin ki, ayıblarınız görsənməsin" (47).

Davranışlarda təmkini qorumaq, hərəkətlərinə diqqət yetirmək kişilikdə mühüm şərt hesab olunmuşdur. M.Süleymanov bu xüsusda yazır ki, Kürən qoçu Realnı məktəbin

son sinif şagirdlərindən birinin yoldan keçəndə "qabağını kəsib çənəsinin altını əlləyir; o zamanlar bu, çox böyük təhqir hesab edilirdi. Şagird pərt olur və evə gəlib əhvalatı anası Fatmabadama danışır. Ana tapançanı doldurub verir oğluna və deyir ki, "bu saat get onu öldür – və qəzəblə əlavə edir, – öldürməsən, mən səni öldürəcəyəm". Oğlan Kürən qoçunu güllələyib öldürür" (49, 45). Göründüyü kimi, XX əsrin əvvəllərindənə aid bir hadisədə əks olunduğu üzrə yeniyetmə də olsa, təhqiri heç kəs kişiliyinə sığışdırmırdı.

Türk dünyasında əsrlər boyu belə düşüncə hakimdir ki, əsiri, qadını, meyiti təhqir etmək olmaz. Çünki bu, kişiyə yaraşan hərəkət deyil. Kişiliyə yaraşmayan rüşvət, yalan, oğruluq, zina, qiybət, həsəd, dinindən dönmək, valideynə asilik, haram, əmanətə xəyanət, yetimin malını yemək və s. elə dində də böyük günahlardan sayılır (43, 469-472). Özünü kişi bilən adam davranışına diqqət yetirər. Hətta hörmət əlaməti kimi ünsiyyətdə yaşlı nəslin nümayəndələrinə adından sonra kişi sözü əlavə olunur, məsələn, Məcid kişi, Teymur kişi, Alış kişi, Sücayət kişi, Surxay kişi, Əli kişi və s. Hörmətli, nüfuzlu sayılan ağsaqqal kişi haqqında xalq arasında "beş kişidən biri" ifadəsi işlənir. Müharibə zamanı şücaətli ordunu daha da ruhlandırmaq üçün əsgərlərə "qeyrət, kişilik vaxtıdır" deyilir. Gələcəkdə onları kişi kimi mərd görmək arzusu ilə bir sıra ailələrdə oğlan uşaqlarına Böyükkişi, Ağakişi, Dədəkişi, Balakişi, Atakişi, Lələkişi adları qoyulur.

Ümumiləşdirmə aparsaq, kişilikdə gərəkli olan məziyyətləri şeir diliylə belə sadalamaq olar:

*Sahib çıxar dostuna, yoldaşına,*
*Dolanar gələndə qonaq başına.*
*Haram qatmaz çörəyinə, aşına*
*Halallıqla yaşamaqdır kişilik.*

*Mərd kimi atılar hərbdə meydana,*
*Sadiq olar ədalətə, imana.*
*Sözü bütöv olar, uymaz yalana*
*Əhdinə sadiq olmaqdır kişilik.*
*Ara vurub söz gəzdərən olmaya,*
*Pəl qatıb da, can bezdirən olmaya.*
*Çətin gündə heç əzdirən olmaya*
*Ləyaqətin saxlamaqdır kişilik.*
*Ağsaqqal hörmətin uca saxlaya,*
*Düşmənin sinəsin çarpaz dağlaya.*
*Ana duasına bir bel bağlaya*
*Böyüyündən halallıqdır kişilik.*
*Rüşvət ilə baş qaldırıb öyünməz,*
*Başqa insanlara heç tənə etməz.*
*Beləsinin ocağında nur sönməz.*
*Namusuyla ucalmaqdır kişilik.*
*Nəfsə əyilməyə, hər bir yaşında,*
*Dürüst ola olduğu iş başında.*
*Etmə-bulma dünyası qarşısında*
*Allahına inanmaqdır kişilik.*
*Əxi kimi əli, dili, belini*
*Bağlaya, ucalda fəzilətini.*
*Yüksəldə Vətənin şan-şöhrətini*
*Darda dosta əl tutmaqdır kişilik.*
*Yararlı olmaqdır doğma elinə,*
*Qanad gərə bilmək ailəsinə.*
*Doğma Vətəninin hər bir kəsinə*
*Bizdə adil davranmaqdır kişilik.*
*Hər yaşı ötmüşdən umma kişilik,*
*Aslanda olmayır erkək, dişilik.*
*Toplaya elini yarada birlik,*
*Böyüklüyü bacarmaqdır kişilik (11).*

Nəticə olaraq qeyd edək ki, bəşər cəmiyyəti yaranandan etibarən təbiətlə təmasda fəaliyyət göstərən insanlar arasında qadın və kişi cinslərinin fərqlənməsi, kişilərin qadınlara nisbətən əksəriyyətlə daha güclü fiziki bədən quruluşuna malik olması, onların ovçu və döyüşçü mahiyyətini şərtləndirmişdir. Bu baxımdan da kişilərdən fərqli olaraq qadınlar ocağın qoruyucusu sayılmışlar. Kişilik anlayışı bioloji varlıq kimi qəbul olunmur, o, Azərbaycan xalqının mental dünyasında mənəviyyatı ilə seçilmək deməkdir. Kişilik başqalarına öz mükəmməl davranışı ilə nümunə olmaqdır. Kişilik dedikdə, mahiyyət etibarilə fiziki baxımdan güclü, mənəviyyatca mətin davranan, dözümlü, səbirli, sabit insan obrazı nəzərdə tutulur. Eyni zamanda etnik şüurda bu anlayış altında insanlara münasibətdə xoşniyyətli, sözü bütöv, əhdinə sadiq, vətənə məhəbbət dolu, sücaətli, ədalətli, müdrik, xeyirli işlər naminə çalışan, çətinliyə sinə gərən rəşadətli, şərəfli, ləyaqətli, əsl-nəcabətli və eyni zamanda ram olunmayan, inadkar, möhkəm insan obrazı göz önündə canlanır. Çətin şəraitdən zəkası ilə çıxa bilmək bacarığı olan qabil igidlərə şamil edilən keyfiyyət kişiliyin təməlindədir. Azərbaycanlıların dünyagörüşündə namuslu kişi halal çörək yeyər, yalan söyləməz, heç kəsin haqqını tapdalamaz, başqalarına iftira atmaz, qeybət etməz, zülmə yol verməz və dövlət malını əsla oğurlamaz. Kişilik xalqımızın etnik psixologiyasında bir dəyərdir.

**Ədəbiyyat:**


1. Azərbaycan bayatıları. – Bakı: XXI – Yeni Nəşrlər Evi, – 2004, – 304 s.
2. Gəncəvi N. Leyli və Məcnun. – Bakı: Elm, – 1981, – 290 s.
3. Xaqani Ə. Seçilmiş əsərləri. – Bakı: EA nəşriyyatı, – 1956, – 477 s.

4. Siyasi biliklərin əsasları 1 buraxılış. – Bakı: Ulu, – 1997. – 192 s.
5. Bayramov Ə., Əlizadə Ə. Sosial psixologiyanın aktual məsələləri. – Bakı: Azərnəşr, – 1986. – 350 s.
6. Atalar sözü (top. Ə.Hüseynzadə). – Bakı: Yazıçı, – 1981. – 336 s.
7. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. (20 cilddə) 3 c. – Bakı: Elm, – 1984.
8. Bünyadova Ş. Orta əsr Azərbaycan ailəsi. Bakı: Elm, – 2012. – 384 s
9. Əhməd Ə. XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti. – Bakı: Elm, – 2012. – 368 s.
10. Bünyadova Ş. Münasibətlər müstəvisi. – Bakı: – 2018. – 152 s.
11. Şeir Bünyadova Şirin Teymur qızınındır. (Kişilik) 26.12. 2022.
12. https://www.sozler.im/tags/kisilik
13. Araslı N. Arif Ərdəbili və onun "Fərhadnamə" poeması. – Bakı: Elm, – 1979.
14. Məhsəti Gəncəvi. Rübailər (tərc. N.Rəfibəyli). – Bakı: Azərnəşr, – 1961. – 68 s.
15. Gəncəvi N. İskəndərnamə. – Bakı: Elm, – 1983, – 650 s.
16. Quliyev H. Arxetipik azərilər: mentalitetin simaları. – Bakı: Qanun, – 2010. – 344 s.
17. Bünyadov T. Dedim ki, yadigar qalsın. – Bakı: Səda, – 2015. – 208 s.
18. Məlumatçı Əhməd Əsgər Sücayət oğlu, 1957-ci il təvəllüdlü, (Ağdamın Zəngişalı kəndi)
19. Məlumatçı Əhmədova Fazilə İbrahim qızı, 1938-ci il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
20. Məlumatçı Nağıyev Qulu Əşrəf oğlu, 1939-cü il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
21. Məlumatçı Musayeva Esmira Ələkbər qızı, 1949-cu il təvəllüdlü (Binəqədi kənd sakini)
22. Koroğlu. – Bakı: Lider nəşriyyat, – 2005. – 552 s.

23. Azərbaycan klassik ədəbiyyatından seçmələr. Üç cilddə. I cild. – Bakı: Şərq-Qərb, – 2005. – 424 s.
24. Azərbaycan klassik ədəbiyyatından seçmələr. Üç cilddə. II cild. Bakı: Şərq-Qərb, – 2005. – 408 s.
25. Azərbaycan klassik ədəbiyyatından seçmələr. Üç cilddə. III cild. – Bakı: Şərq-Qərb, – 2005. – 456 s.
26. Şəhriyar M. Seçilmiş əsəsrləri. – Bakı: Azərnəşr, – 1966, – 279 s.
27. Paşayev Q. Seçilmiş əsərləri. VI cild. – Bakı: Təhsil, – 2012. – 680 s.
28. Kitabi Dədə Qorqud. – Bakı: Yazıçı, – 1988. – 265 s.
29. Məlumatçı Mazanlı Sevda Teymur qızı, 1960-cı il təvəllüdlü (Bakı)
30. Məlumatçı Əhmədov Kamil Sücayət oğlu, 1961-ci il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
31. Məlumatçı Cəfərov (Vəlixanlı) Telman Həmzağa oğlu 1963-ci il təvəllüdlü (Yardımlı)
32. Araslı H. Aşıq yaradıcılığı. – Bakı: Birləşmiş nəşriyyat, – 1960. – 136 s.
33. Əlövsət Saldaş. https://www.youtube.com/watch?v=SBRXbax4O5I
34. Məlumatçı Hüseynova Zivər Mehdi qızı, 1935-ci il təvəllüdlü (Bakı)
35. Məlumatçı Xəlilli Xəliyəddin Dəskiralı oğlu, 1948 -ci il təvəllüdlü (Cəbrayıl rayonu, Çullu kəndi)
36. Gəncəvi N. Xosrov və Şirin. – Bakı, Elm, – 1981. – 374 s.
37. Xalqımızın deyimləri və duyumları (tərtibçi M.İ.Həkimov). – Bakı: Maarif, – 1986. – 392 s.
38. Oğuznamə. – Bakı: Yazıçı, – 1987. – 223 s.
39. Xəstə Qasım. – Bakı: Nurlan, – 2010. – 232 s
40. Nizami Gəncəvi. İskəndərnamə. – Bakı: Elm, – 1983. – 650 s.
41. Azərbaycan uşaq ədəbiyyatı antologiyası 3 cilddə. 1 c. – Bakı: Öndər, – 2005. – 248 s.

42. Məlumatçı Xəlilova Kəmalə Zahid qızı, 1947-ci il təvəllüdlü (Akstafa)
43. İslam ilmihali (tərtib. İlhan Apak). – İstanbul: İhlas, – 1990. – 480 s.
44. Məlumatçı İsmayılov Rasim Mustafa oğlu 1973-cü il təəllüdlü (Borçalı)
45. Bünyadov T. Ellərdən almışdım ellərə qaldı. – Bakı, – 2020. – 264 s.
46. Mirzəbəyli İ. Çoxsaylı tərəfdaşlarımız Azərbaycana inanır və etibar edirlər. Xalq qəzeti 2021. 7 fevral, s 1.
47. Məlumatçı Məmmədov Sadir Surxay oğlu 1950-ci il təvəllüdlü (Ağdam)
48. Qətran Təbrizi. Divan. – Bakı: AZ. SSR EA nəşr., – 1967. – 440 s.
49. Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. – Bakı: Azərbaycan, – 1996. – 384 s.

# AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ BÖYÜKLƏRƏ MÜNASİBƏT

Azərbaycan xalqının etnopsixoloji xüsusiyyətlərinə işıq tutarkən araşdırılması zəruri olan məsələlərdən biri də cəmiyyətimizdə böyüklərə münasibətin hansı səpkidə təzahür etdiyidir. Bu məsələyə etnopsixologiya və etnopedaqogika ilə bağlı elmi görüşlərimizdə müəyyən dəyər verilmişdir. Nəzər saldığımız problem hər bir xalqın tarixi keçmişindən üzü bu yana insanlar arasındakı münasibətlərdə mühüm əhəmiyyət kəsb edən əlaqələrlə sıx şəkildə bağlıdır. İnsan toplumu yaşlı nəslin həyat təcrübəsindən faydalanmağı bacarmalı, müdriklərin nəsihətlərinə qulaq asmalı, onların tarixi yaddaşından ibrət dərsi almalıdır.

Böyüklük dedikdə, ilk yada düşən yaş amilidir. Azərbaycan xalqının etnik xarakteristikasında yer alan yaşca və statusca böyüklərə olan xoşrəftar münasibət adət və ənənələrlə sıx əlaqəli şəkildə gündəlik məişətdə gerçəkləşmişdir. Yaş amilindən sonra xalqımızın məişətində böyüklüklə bağlı məqamlar mənəvi ucalıqla ölçülür. Ağsaqqallıq və ağbirçəklik institutlarının yaranması cəmiyyətdə ona olan tələbatla bağlıdır.

İnsanların böyüklərə verdiyi dəyərin təzahür formalarında adət və ənənələrdən gələn qaydalarla yanaşı, müəyyən zamanla formalaşan keyfiyyətlər də özünü gös-

tərmişdir. Məsələn, böyüklər yanında özünü aparmaqla əlaqədar sonrakı zamanlarda formalaşan qaydalardan biri bu idi ki, onların yanında kiçiklərin siqaret çəkməyi, ayağı ayaq üzərinə aşırıb oturmağı, saqqız çeynəməyi hörmətsizlik əlaməti sayılırdı. Lakin əsrlərdən bəri süzülüb gələn bir sıra sabit davranış qaydaları mövcuddur ki, onlar bütün dövrlər üçün xarakterikdir. Bu qəti qərarlaşmış qaydalara uyğun hərəkət etmək cəmiyyət üçün zəruri sayılmışdır. Məsələn, böyüklərin yanında çox danışmamaq, yersiz fikir bildirməmək, məsələyə müdaxilə etməmək, qonağa, qonşuya hörmət və s. kimi qaydalar vardır. Bundan əlavə, müxtəlif məclislərdə onların izni olmadan kiçiklər oturmaz, ayaq üstə dayanardılar. Otağa ağsaqqal (burada yaşlı nəzərdə tutulur) adam, məsələn, müəllim daxil olanda digərlərinin ayağa qalxması daxili tələbatdan – böyüyə hörmətdən irəli gəlir. Bu xüsusiyyətlər demək olar ki, bütün Qafqaz xalqlarında eyni mahiyyət daşıyır (4, 29).

Böyük dedikdə, kimlər nəzərdə tutulur? Ailə daxilində nənə, baba, ata, ana, xala, dayı, əmi, bibi və s. qohumlar böyük sayılmışdır. Eyni zamanda ilk övlad yaşca böyük olduğuna görə o da ailədəki digər uşaqlar üçün ata və ana əvəzi kimi qəbul edilmişdir. Ailə üzvlərindən kənar isə el-obanın ağbirçəyi və ağsaqqalı böyük qismində xüsusi diqqətə layiq görülmüşdür. Qonşudan gələn yaşlı adamlar hər zaman xüsusi hörmətlə qarşılanmışlar.

Mərifət sahibi, sözündə və əməlində etibarlı, mərhəmətli, möhkəm, səbatlı, məsuliyyətli özünü bu və ya digər məsələdə cavabdeh bilən insanların yaşından asılı olmayaraq daşıdığı bu keyfiyyətlərinə görə onlar böyük hesab edilirlər. Onlar tutduğu vəzifəyə görə deyil, sırf qazandıqları hörmətə görə etibar olunan, mötəbər və xətri

sayılan hesab olunurlar. Ciddi görkəmləri, öz hərəkətlərində təmkinliyi ilə fərqlənən, həyata münasibətlərində sabitliyi, möhkəm xarakterə malik, ağırbaşlı olmaları ilə seçilən böyüklərin xalq içində şanı uca olar, şərafətli ad ilə dəyər qazanardılar.

Məişətdə bilavasitə böyüklərdən görülənlər kiçiklər tərəfindən təqlid edilərək davranış tərzinə çevrilirdi. Belə ki, böyüklər onlar üçün şəxsi nümunə təşkil edirdi. Bəzən isə kiçiklər danışanda onları tənbeh edərək "böyük-böyük danışma" deyərlər. Yəni cəmiyyətdə hər kəsin yeri bilinməlidir. Böyük-böyük danışan uşaqlar haqqında el arasında bir böyüyüb, bir kiçilib deyilir (20).

Azərbaycan xalqının mentalitetində böyüklərə hörmət bütün zamanlar üçün səciyyəvidir. Təsadüfi deyildir ki, müxtəlif dövrlərdə yaşayan şair, yazıçı və mütəfəkkirlərin əsərlərində bu özünü qabarıq şəkildə göstərir və bariz şəkildə ifadə olunur. İnsanların mühafizə etdiyi ağsaqqallıq institutu barədə orta əsr müəlliflərinin əsərlərindən xeyli məlumat əldə etmək mümkündür. Məsələn, dahi şairimiz Nizami Gəncəvi "İskəndərnamə" əsərində yaşlıların təcrübəsindən yararlanmanın əhəmiyyətini vurğulamışdır. O yazır:

*Cavan igidlər sərvər olsa da belə,*
*Tədbir axtaran vaxt qocalara sığınar.*
*Qabaq təzə, yaşıl budaqlar ilə oynasa da,*
*Onun başını ucaldan köhnə budaqlardır.*
*Cavan bilikdə nə qədər üstün olsa da,*
*Qocaların məsləhətinə həmişə möhtacdır (1, 367).*

İbtidai cəmiyyətdə Y.Həsənovun qeyd etdiyi kimi "yaşlılara bir qayda olaraq xüsusi ehtiram edilir, onlarla hesablaşırdılar. Ehtimal ki, bu adət həmin yaşlı adamların böyük həyat təcrübəsinə malik olmasından və buna görə

də maddi həyatda hər cür çətinlik və bədbəxtliklərə qarşı mübarizə yollarını daha yaxşı bilməsindən irəli gəlmişdi. Belə adamların şəxsi nüfuzunun böyük ictimai əhəmiyyəti var idi. Onların keçmiş nəsillərdən qalmış adət və ənənələri indi mənsub olduqları insan qruplarında davam edir və hamının ehtiram etməsini tələb edən adət və ənənəyə çevrilmişdi. Etnoqrafik faktlar göstərir ki, bütün bəsit xalqlardakı nüfuza malik olan ağsaqqallar mahir ovçu və döyüşçü, yaxşı həkim (əlbəttə ibtidai mənada) olmaqdan əlavə, həm də həmin qəbilə və ya qrupun adət və ənənələrini yaxşı bilən adamlar idilər. Onlar bu ənənələrin həmin qrup daxilində mühafizə edilib saxlanılmasına xüsusi diqqət verirdilər. Bir çox bəsit xalqlarda kök salmış gənclərin təqdisi adəti də, ehtimal ki, yeni nəsli adət və ənənələrə tabe etmək və onları bu ənənələrin mühafizəçilərinə ehtiram etməyə məcbur etmək məqsədini daşıyırdı" (7, 138). Bu deyilənlər cəmiyyətin sosial mahiyyətini nümayiş etdirir.

Nəsillər arasında mövcud olan sosial münasibətlər axınında kiçiklərin böyüklərə olan ehtiramını, etiqadını nəzərdə tutan əcdad kultunu ağsaqqalların kahin rolunun təcəssümü kimi dəyərləndirmək olar. Ağsaqqala əcdadların ruhları ilə əlaqə yarada bilən vasitəçi kimi baxılırdı. Mədəniyyətin varisliyinin qorunub saxlanılmasının vasitəçisi kimi ona baxılması, həmçinin əcdad kultunun kahini kimi yanaşılması, dini müstəvidə yüksək zirvədə görülməsi ağsaqqala daha başqa xüsusiyyətlər qazandırdığını söyləməyə əsas verir. İlkin dini təsəvvürlərin daşıyıcısı olan ibtidai insanlar tərəfindən onlar canlılarla ölülər arasında bir vasitəçi qismində görülmüşdür.

Təsadüfi deyildir ki, el arasında belə məsəl vardır ki, "Allahsız yerdə otur, ağsaqqalsız yerdə oturma". Bu

fikrin mahiyyəti ondan ibarətdir ki, Allah gözəgörünməz olduğundan onunla bir yerdə oturmaq mümkün deyildir. Amma hər bir ailədə mütləq ağsaqqal babanın və atanın simasında bir başbilən vardır. Bu fikri ağbirçəklərə də şamil etmək olar. Evin ağsaqqalı dünyasını dəyişəndən sonra ağbirçəyi qalarsa, o da övladlar üçün ailə daxili vəhdətin əsasını təşkil edə bilir. El arasında ocaq başına yığışmaq ifadəsindən istifadə olunur. Bu ocaq ağsaqqal və ağbirçəkdir. Çünki hamı onların başına yığışır. Təsadüfi deyildir ki, uzun minilliklər boyu ata-baba qaydalarına riayət edilməsi gənc nəslə tövsiyə olunub. Bu da qədim dövrlərdə ağsaqqalların qoyub getdiyi vahid bir qaydaya əməl olunması deməkdir.

Antik və orta əsr mənbələrində ağsaqqallıq barədə az da olsa, məlumatlara yer verilir. Məsələn, Strabon albanların ümumən qocalığa və valideynlərilə bərabər, yaşlı yad adamlara da böyük hörmətlə yanaşdıqlarını qeyd etmişdir (2, 477). Ağsaqqallıqla bağlı ümumiləşdirmə apararkən filosof Həsən Quliyev haqlı olaraq yazır: "azərbaycanlılar açıq-aydın şəkildə həyatın paternalist təşkilinə üstünlük verirlər, onun çərçivəsində ağsaqqallıq xüsusi statusa malik olur: o, ali müdrikliyin rəmzi, nəslin sabitliyinin və ənənələrin qorunub saxlanılmasının zəmanəti, keçmiş təcrübənin daşıyıcısı, məsləhətçi və gələcəkdən xəbər verəndir" (3, 46).

Dilimizdə hörmət əlaməti olaraq böyüklərə edilən müraciətlər onlara verilən dəyərin nümunəsidir. Məsələn, ağanənə ailənin ağbirçəyinə, hörmətli qadına verilən ad olaraq dilimizdə özünə yer tutmuşdur. Aba isə hörmət üçün bacıya, yaxud yaşlı qadına deyilir. Bəyimbacı da hörmət əlaməti olaraq qonşu və digər yaxın olan qadınlara şamil edilir. Ağacan ataya, böyüyə nəvazişlə edilən

müraciətdir. Bəzi bölgələrimizdə hörmətli ağsaqqal adama qağa deyilir. Dədə və lələ kəlməsi də həmçinin eyni mahiyyət kəsb edir, müasir dövrümüzdə babaya və ataya müraciətlə xitab edilir. Göründüyü kimi, nəvazişli və qayğılı müraciət böyüklərə sevgi və hörmətin əksidir. Bu isə əsrlər boyu adət-ənənəyə hopmuş xalqımızın düşüncə tərzinin bariz nümunəsidir.

Nənəcan və nənəcik xalq arasında qoca qadına mehriban münasibətlə xitab formasıdır. Xalacan xalaya nəvazişlə müraciət, xandostu dayı, əmi və digər qohumların arvadlarına hörmət mənasında verilən addır. Xanım, xanımcan və bəyim isə qadınlara hörmətlə olunan xitabdır. Bundan əlavə cici və ya ciji anaya nəvazişlə edilən müraciət formasıdır. El arasında ümumən yaşca böyüklərə müxtəlif müraciət formaları mövcuddur. Məsələn, badambacı gəlin, qaynana və yaşlı qadınlara hörmət əlaməti olaraq verilən addır. Balabacı qohumlar arasında kiçiklərin böyük qadınlara müraciət formasıdır. Adətən bu cür müraciət formalarından şəxsin adını çəkməmək üçün istifadə olunurdu. Balabibi həm kiçik bibiyə, həm də gəlinlərə ünvanlanan xitab forması kimi işlənmişdir. Baladadaş təzə gəlinin kiçik qaynına müraciət forması olmuşdur. Balaəmi uşaqların kiçik əmilərinə verdikləri addır. Dadaş böyük qardaşa verilən ad olmuşdur. Dayı və əmi qohumları bildirsə də, bəzən müraciət forması kimi dilimizdə yaşca böyük kişilərə də deyilmişdir. Dayıdostu, dayıcanı isə nəzakət əlaməti olaraq dayının həyat yoldaşına ünvanlanmışdır. Bundan əlavə, əmidostu, əmicanı, əmigəlini hörmət əlaməti olaraq əminin arvadına deyilir.

Bəzi insanlar haqqında nurani kəlməsi işlənir. Böyüklərə xitabın bu məzmununda hörmətə layiq, müqəddəs, ağıllı və tədbirli, üzündən nur yağan kimi bir hikmət

dayanır. Yüksək təsir gücünə malik obaya başçılıq edən ağsaqqala obabaşı deyilirdi ki, onlar sözü keçən, havadar, xətirli və nüfuzlu adamlardan seçilirdi. Onlar da örnək nümunə olmaqla öhdələrinə ölçü götürmək, tədbir tökmək, həddi büluğa çatmayan qəyyuma möhtac səğirə arxa durmaq, razılıq əldə etmək kimi vəzifələri icra edirdilər. Onlara nüfuz sahibi kimi etibar olunur, etimad göstərilirdi. Çünki onlar xoşəməl, xoşəxlaqlı olduqları üçün belə böyüklərə yaş, ləyaqət və xidmətlərinə görə ehtiram göstərilir və onları eyni zamanda hörmətkar adlandırırlar. Belələri bir işin başında durub yol göstərərək topluma rəhbərlik edirdilər. Dahi Nizami Gəncəvi deyir:

*Ey könül, böyüklük ələ keçirmədən,*
*Böyüklərin yerində oturmaq yaraşmaz.*
*Əgər böyüklük qazanmaq istəyirsənsə,*
*Böyükləri yada sala-sala nəfəs al (1, 42).*

Şair onu deyir ki, böyüklük qazanmğın yolu böyüklərə hörmət və onları yada salmaqdan keçir. Yəni həyatda olmayan böyükləri də anmaq gərəkdir. Bundan əlavə şair onu da qeyd edir ki, böyüklər cavanlara vaxtında nəsihət verməlidir. Nizami yazır:

*Sən dünyanın sirrini bilə-bilə,*
*Nə üçün nəsihəti ondan gizlin saxladın*
*Cavanlıq adamı coşduran zaman,*
*Günah, susan qocaların boynunda qalar (1, 162).*

Böyüklük etmək özündə bir missiyanı ehtiva edir. Bu əgər qohumlar arasında baş verirsə, burada həm ağsaqqalın, həm ağbirçəyin rolunu qeyd etmək lazımdır. Qohumlar arasında evlilik münasibətlərini tənzimləməklə qohumluğun kəsilməməsini və davamlı olmasını təmin

etmək üçün ortaya düşüb böyüklük etmək etnoqrafik müşahidələr sırasında görülən hadisədir. Evlilik çağına çatmış nəvələrinə vasitəçilik etməklə qohumlarından qız alıb, qız verən ağbirçəklər uyğunluq dərəcəsinə görə xeyir işi gerçəkləşdirə bilirdilər (11). Bundan əlavə öz qohumlarını yanlarında işlə təmin etməklə həm onlardan istifadə olunması, həm də onlara nəzarət edilməsi nizamlanır (12). Bu böyüklərin vasitəçilik missiyasının olduğunu göstərir. Bundan əlavə böyüklərin idarəetmə funksiyası şübhəsizdir. Qarşılıqlı yardım formalarının həyata keçirilməsində ağsaqqalların mühüm rolu olmuşdur. Onların idarəçiliyi ilə təsərrüfatın bu və ya digər sahələrində əhali elliklə yığışar və işlərini başa çatdırardılar.

Ailə qurulmasında mühüm addım olan toy mərasiminin bütün mərhələlərində böyüklər əsas rol oynamışlar. Qızın bəyənilməsindən başlayaraq toyun sonunadək olan bütün işlərdə böyüklərin rəyi sorulmuş, fəaliyyətləri vacib bilinmişdir. Böyüyə hörmət o qədər yüksək olmuş ki, oğlanlar atalarına bəyəndikləri qız barədə məlumat verməyə utanmışlar. Başı bütöv qadının evdən çıxan gəlinin başı üstündən üç dəfə Quran keçirməsi böyüklüyə verilən yüksək diqqətin əlamətidir. Nişan mərasimi zamanı başı bütöv qadın hədiyyələri təqdim edərkən bir-bir onları göstərərək sadalayar. Bu onun yaşına, ağbirçəkliyinə hörmətin bariz nümunəsi olur. Gəlin yanında gedən yengələr yaşlı qadınlardan seçilər. Hörmət əlaməti olaraq böyüklər yanında həyat yoldaşının adı çəkilməmişdir, bəzi bölgələrdə onlardan qadınlar yaşınmışlar. Uşaqlara böyüklərin adı qoyulmuşdur. Hətta adqoymada ata və ananın seçimi deyil, məhz nənə-babanın seçimi əsas götürülmüşdür. Adqoyma mərasimində uşağın qulağına adı böyüklər və ya hörmət sahibi molla söyləmişdir.

Dilimizdə böyüklük kəlməsinə müəyyən məna yüklənmişdir. Yəni böyüklük etməklə bağlı ifadələrin mahiyyətində başqalarına müəyyən yol göstərmək, birinin himayədarlığını edərək onun qayğısına qalmaq, kimisə sığınacaqla təmin etmək kimi keyfiyyətlər cəmləşir. Böyüklük etmək həm də qəyyum olmaq kimi xüsusiyyəti özündə ehtiva edir. Qəyyumlar bir sıra məsələlərin icrasında ixtiyar sahibi sayılır, sərəncam vermək, qərar qəbul etmək, hökm vermək səlahiyyəti olan adam kimi mühümdür. Buna görə də müxtəlif kollektivlərdə rəhbərlik məhz belələrinə tapşırılır. Onlar ictimai mənafeni daha üstün tutan fədakarlardır. Kömək üçün müraciət olunanda, darda qalana yardım etməkdə, çətində qalana əl uzatmaqda mərdanəlik göstərən insanların əməli böyüklük sayılır. Xüsusən qan davasında həlledici qismində el ağsaqqalının fəaliyyəti böyüklük əlamətidir. Bu cür davaların gələcəkdə baş verməməsi üçün məsələni kökündən həll edib yoluna qoymaq məqsədilə böyüklərə öz hörmətini ortaya qoymaq, nüfuzundan istifadə edərək çətin işin öhdəsindən gəlmək lazım olurdu. Bunu məlumatçı da atasının nümunəsində təsdiqləyir (13). Çünki ağsaqqal haqq, mərhəmət əsasında ədalətli hökm verərək insafla davranan insandır. A.Bakıxanov deyir: "elə adamlarla otur-dur ki, böyüklər onları yaxşı hesab edirlər" (21, 352). Deməli, böyüklərin insan sərrafı olduğu qeyd edilir və onların təcrübədə sınadıqları yaxşı adamlarla əlaqə saxlamağın xeyri vurğulanır.

Tarixdə böyük rol oynamış şəxsiyyətlər barədə onlara ünvanlanaraq böyük kəlməsi şamil edilir. Görkəmli ad və şöhrət qazanmış qəhrəmanlar, tarixi şəxsiyyətlər və mədəniyyət xadimlərinə müraciətlə də böyük deyilir. Məsələn, böyük və dahi Nizami Gəncəvi. Bəzən yüksək və-

zifə sahibinə də böyük deyə müraciət edilir. El arasında "əli böyüklər ətəyindədir", "böyüklərlə oturub-durur" deyilməsi məhz buna işarədir.

Böyüklərə xitabın bir sıra müraciət formaları özləri də fərqli xüsusiyyət kəsb etmişdir. Məsələn, əfəndi sözü oxumuş adamlara və ruhanilərə müraciətlə hörmət əlaməti olaraq deyilmişdir. Bundan əlavə, *zat* sözü müəyyən bir şəxsə, dəyərli simaya hörmət əlaməti kimi söylənmişdir. Bu müraciət formaları böyüklük anlamında tətbiq olunmuşdur. *Şeyx* kəlməsi də həmçinin ən ali ruhani böyüklərə deyilir. Heç şübhəsiz belə müraciətlər mühüm hesab edilərək əhəmiyyətli insanlara şamil olunmuşdur. Bilikli, savadlı adamlar danəndə adlandırılmışdır. Həmçinin danişmənd bilikli alim olanlara deyilmişdir. Deməli, hər fəaliyyət sahibinin hörmətinə görə ona müraciət olunmuşdur. Leksikonumuzdakı *dədə* ataya və babaya müraciət kimi işlənmişdir. *Dədə-baba* ifadəsi isə ulu babalara, əcdadlara, yəni böyüklərə mənsubluq bildirir. Məsələn, dədə-babadan qalma adətlər dedikdə, yəni qədim, ulu və köhnə mənasını verir.

Dilimizdə məsuliyyəti üzərinə alan, öhdəsinə zəmanət götürən adamlara *zaminkar* deyilmişdir. Hər adam da zaminkar ola bilməzdi, ağsaqqallıq, böyüklük bu məsələdə nəzərə alınırdı. Bu inanılma və etibar olunmanın bariz nümunəsidir. *İrşad etmək* ifadəsi *doğru yola çəkmək* anlamı kəsb edir. Kəramət sahibi alicənab, lütfkar və xeyirxah adamlar darda çətində qalana əl uzatmış, kömək etmişlər. *Kərim* sözü də elə bunun göstəricisidir ki, müsəlmanlarda *Allah kərimdir* (böyükdür) deyilir. Yəni Allah ən uca, ali, yaradan qüvvədir.

İnsanların böyüklərə hörmətində bir cəhət ondan ibarətdir ki, onlar tarixən bu və ya digər məsələdə ixtiyar

sahibi sayılırdılar, buna görə də hökm, qərar verə bilirdilər. Eyni zamanda onların gördükləri hər hansı işlə bağlı səlahiyyətlərinin çatdığını qeyd etmək olar. Belə adamlar haqqında xalq arasında yolbilən deyirdilər. Yəni beləları çətin vəziyyətdən çıxmaq çarəsini bilən uzaqgörən, şəraitə görə tədbirini qabaqcadan almış adamlar sayılırdılar. Bu cür insanlar nəinki ailə daxilində eyni zamanda hər hansı bir iş başında kollektivə rəhbərliyi bacaranlardır, ictimai mənafe prinsipini əsas götürənlərdir və kömək üçün müraciət edənlərə, darda, çətində qalanlara əl uzadanlardır. Sözündə və işində etibarlı mərd, mərhəmətli, məsuliyyətli, səbatlı, samballı, xətri əziz, mötəbər sayılan böyüklərin haqqı ödənilməyəcək səviyyədədir.

Məclislərdə masabəyi – yəni məclisi idarə edən adam adəti üzrə məhz böyüklərdən seçilir. Hər hansı bir adamın cəmiyyətdə tutduğu mövqeyi onun dərin dərrakəsi, dünyagörüşü, dürüst yanaşma tərzi, mürüvvət sahibi olması, mərd, həqiqi insan kimi davranması, etibar olunan mötəbər bir adam kimi şöhrət qazanmasından irəli gəlir. Böyük məclisləri, toyları idarə edən də böyük sayılan sərpayılar olardı.

Azərbaycanda adətdir ki, hər hansı bir işi tutanda halallıq alınır. Halallıq bilavasitə böyüklərdən alınar. Çünki kiçiklər üzərində onların haqqı vardır. Dastanlarımızda xalq məişətindən gələn xeyli örnəklər vardır ki, onlarda səfərə çıxılanda ata və anadan halallıq alındığı göstərilir. Azərbaycan xalqının şifahi xalq yaradıcılığı nümunələrindən olan alqışlarda böyüklüklə bağlı məişət və mədəniyyətimizdən süzülüb gələn arzular Bəhlul Abdulla tərəfindən belə təqdim olunur: Başbilən olasan. Başıuca olasan. Böyük-böyük adlar alasan. Böyük-kiçik yeri biləsən. Cəmiyyət gözündə ucalasan. Dədə-baba duası alasan. Ehtiramın

uca olsun. El gözündə ucalasan və s. (17, 30-39). Bu cür alqışların sayı çoxdur. Onların içində böyüklüklə, mənəvi ucalıqla bağlı deyilənlər xalqın iç dünyasından süzülüb gəlir. Kitabi-Dədə Qorqud dastanı boyunca Qorqudun el-obaya böyüklük etməsi qeyd edilir (23).

Orta əsrlərin müsəlman dünyasında tərbiyə problemində halal və haram anlayışları mövcud idi. Ərəbcə *həllə – yol verilmək* anlamı kəsb edən halal sözü, islam dininə etiqadı olanlara icazə verilən bir sıra hərəkətlər deməkdir. Hətta müsəlmanlar üçün bir sıra heyvanların ətləri halal, bəzilərininki isə haram sayılmışdır. Halalın əksinə olan haram isə bir sıra hərəkətlərə qadağa və məhrumiyyətlərin qoyulmasıdır. Bunlar əsasən şərab içmək, tiryəkdən istifadə etmək, qumar oynamaq, sələmçilik məqsədilə pul vermək, zina etmək və s. haram sayılmışdır. Əxi təşkilatının numayəndələri dili, əli və beli bağlı olmağı təbliğ etmişlər. Dili bağlı, yəni qeybət etməmək, əli bağlı, yəni oğurluq etməmək və nəhayət, beli bağlı, yəni başqasının qadınına göz dikməmək kimi müddəalar irəli sürülür (8, 211). Bu da böyüklərin tərbiyəsi sayəsində mümkün olurdu.

Zəfər qazanmaq özü bütün dövrlərdə böyüklük, hünər sayılmışdır və bu indi də belədir. Çünki hörmət-izzət onunla daha da çoxalır. Qalib hamı tərəfindən sayılır, onunla bölüşülür. O, da özünü qüdrətli hesab edir. Zəfər hər bir xalqın öz tarixində əzəmətli hadisədir. Qalibiyyət bayrağının ucaldılması insanların sabaha inamını artırır. O, siyasi iradənin, xalqın birliyinin və əzmin təntənəsidir. Nizaminin bu təsvirindəki böyüklük döyüşdə qələbə zəfəri qazanmaqla əldə olunan qabiliyyətlə ölçülür. Şair yazır:

*Görək indi böyüklük kimdədir,*
*Bu döyüşdə qalibiyyət kimindir (1, 93).*

Həqiqətən də zəfər böyüklük, ucalıq simvolu kimi dəyər kəsb edir.

Bəzən hörmətcil, mülayim təbiətli və ağıllı adamlar haqqında böyüklə böyük, kiçiklə kiçik – deyə söyləyirlər. Yəni belələrinin böyüklərlə davranışı bir başqa, kiçiklərlə də onlara uyğun tərzdə olur. Böyüklərə cəmiyyətdə kəsb etdikləri əhəmiyyətə görə dəyər verilmiş, mühüm hesab edildikləri nəzərə alınmışdır. Əhəmiyyət isə onlara məhz əxlaqi keyfiyyətlərinə görə verilmişdir. Yəni, bu yaşadıqları cəmiyyət daxilində onu təşkil edən nümayəndələrlə böyüklərin rəftarı və özünü insanlar arasında layiqli, ağayana aparmasına görə verilən dəyərləndirmədir. İzzətli böyüklər haldan anlamaq üçün ibrətamiz fikirlər söyləmək və ya bəzən də ibrət dərsi verməklə insanları düzgün yola dəvət etmişlər. Bəhlul Danəndə belə obrazlardan biridir. Böyüklərə alqış, dua eləyəndə Allah imanını kamil eyləsin deyirlər.

Dilimizdəki *iltica etmək* sözü birinə yəni, el ağsaqqallına sığınmaq anlamına gəlir. İmdad diləyənə yəni darda qalan adamın köməyinə yetişmək böyüklük sayılmışdır. Xalq dilinə daxil olmuş inayət kəlməsi də məhz bu mərhəmətin, yaxşılıq etmənin və kömək göstərməyin əlamətidir. Məlumatçı Teymur Bünyadov bildirir ki, böyüklərə hörmət vətənə, ailəyə hörmətdir. Biz onları ilahi qüvvə, müqəddəs insan saymışıq. Onlar tərbiyə və təhsilimizdə, həyatımızın bütün sahələrində mühüm rol oynayıblar. Təsadüfi deyil ki, bütün fəaliyyətimizdə onlardan öyrənmişik (10). Daha sonra onun öz bayatısını təqdim edirik:

*Xocalar,*
*Əfəndilər, xocalar.*
*Sizlərdən köklənmişəm,*
*Ey müdriklər, ucalar (16, 5).*

Böyüklərin hər bir hökmü qanun səviyyəsində olurdu.

Dilimizdə *barınmaq* kəlməsi himayə altına girmək, qorunmaq, yedirdilib içirdilmək anlamı kəsb edir. Bu da heç şübhəsiz, böyüklərə sığınmaq yolu ilə gerçəkləşirdi. El arasında su kiçiyin, yol böyüyün deyirlər. Bu da ondan irəli gəlir ki, uşaqlar susuzluğa davam gətirə bilməz, böyüklər isə dözümlü olar. Yolu da uşaqlar onu bilən böyüklərdən öyrənər. Etimada layiq, etibar olunan el-obanı idarə edərək ona başçılıq edən adamlara, yəni ehtirama layiq tayfa başçılarına elbaşı və ya elbəyi deyilirdi. Onlar xalq arasında əziz tutulardılar, əməlisaleh, bütün fəaliyyətlərində doğru, dürüst olduqlarına görə yüksək mərtəbəyə layiq görülərdilər. Əl tutanın əlindən tutarlar kimi atalar sözləri də böyüklərə xitabən qeyd olunmuşdur. Əl tutan böyüklərin də əlindən bir vaxt gələr ki, cavanlar tutardılar.

Müxtəlif mərasimlərlə bağlı işlənən kəlmələr dilimizi bəzəməklə yanaşı, eyni zamanda böyüklərə hörmətin bariz nümunəsidir. Toy mərasimi ilə yaranan süd pulu, bibiyolu və s. gəlin evinə oğlan evinin böyük kimi sayılaraq təqdim etdiyi hədiyyələrdir. Süd pulu anaya verilən haqqdır. Bibiyolu oğlan tərəfin qız bibisinə hədiyyə edilən parçadır. Məlumdur ki, toy zamanı qız üçün göndərilən əşyalarla yanaşı, onun böyüklərinə hörmət əlaməti olaraq nənə, baba, xala, dayı, bibi, əmi, bacı və qardaşına da müəyyən əşyalar gətirilirdi.

Bütün şair və yazıçılarımızın əsərlərində xalqımızın mental dünyasından süzülüb gələn davranış kimi böyüklərə hörmət məsələsi təbliğ olunur. Azərbaycan cəmiyyətində kənd icmalarının idarə olunmasında ağsaqqalların mühüm rolu danılmazdır. Bu xüsusda Q.Rəcəbov kənd icmasının ali orqanının kənd yığıncağı olduğunu, ailə başçısının, ilk növbədə yaşlıların iştirak hüququnun varlı-

ğını qeyd edir. Gənc ailə başçıları tamaşaçı qismində iştirak edirdilər. Şirvanda patronimiyanın ağsaqqalı olan hörmətli adamı "dadaş", yəni qardaş adlandırırdılar. Patronimiyadakı hər bir ailə başçısına da dadaş deyirdilər (6, 132). Müəllif onu da göstərir ki, X1X-XX əsrlərin əvvəllərində kənd icmasının başında duran ağsaqqalı əvvəllər koxa, sonralar yüzbaşı adlandırırdılar (6, 135). Bu deyilənlər icmanın müxtəlif məsələlərinin həllində yığıncaq iştirakçılarının və xüsusən ağsaqqalın rolunun böyük olduğuna dəlalət edir və icmanın böyüyü sayılan ağsaqqalın nüfuz sahibi olduğunu göstərir.

Əbu Əli Həsən ibn Əli xacə Nizamülmülk yazır: "dövləti olan bir şəxs şahdan fəxri fərman almaq, xalq içərisində hörmət qazanıb "böyük", "ağsaqqal" çağırılmaq istəyirsə, ona de ki, hər gün süfrə açsın. Dünyada kim ad qazanıbsa, çoxu çörək verməkdən qazanıbdır" (14, 116). Burada səxavətli olmaq, var olan yerdə onu başqaları ilə bölüşmək təbliğ edilir.

Zəngin təcrübə əsasında ağsaqqalların müdrik nəsihətlərinin çox mühüm təsirə malik olduğu Nizami Gəncəvi tərəfindən də qələmə alınmışdır. "Kərpickəsən qocanın hekayəsi"ndə qoca deyir ki, mən əlimi bu sənətə ona görə uzatmışam ki, heç kimin qabağında dilənməyən, öz zəhmətimlə ruzimi qazanam. Qocanın məzəmmətli sözlərindən cavan oğlan ağlaya-ağlaya gedir (15, 107). Əfzələddin Xaqani isə belə yazır:

*Bir kiçik adama nəvaziş etsən,*
*Sənin böyüklüyün getməz əlindən (9, 252).*
*Böyun böyüklüyü deyildir gərək,*
*Hümmətlə böyükdür hər xırda ürək (9, 252).*

Hümmət sözünün mənası kömək etmək, yardıma qoşmaq, başqasının əlindən tutmaq deməkdir. Xaqani böyüyə hörmətin vacibliyindən yazır:

*Böyüklərlə eylə düzlüklə rəftar*
*Ki, əyri baxmasın sənə də onlar (9, 267).*

Müəllif burada münasibətlərin qarşılıqlı hörmətə söykəndiyini göstərmişdir.

Nizami Gəncəvi yazır:

*Hünər, başıucalıq vaxtıdır.*
*Bilik ardınca get, böyüklük öyrən ki,*
*Gündən-günə sənə yaxşı nəzərlə baxsınlar.*
*Ad və nəsəb (mənşə) kiçik yaşlı üçündür.*
*Böyük ağacın nəsli axtarılmaz.*
*O yerdə ki, böyük olmağın lazımdır,*
*Mənim oğlum olmağının sənə faydası yoxdur (19, 51).*

Nizami Gəncəvi böyük olmağın atanın adıyla deyil, insanın öz qazandığı adla bilindiyini göstərir.

Nizaminin dediyi sözlərdə azərbaycanlıların etnik xarakterindən süzülüb gələn belə bir ifadə var ki, "böyüklük edib kiçiklərin günahından keç" (22, 59). Burada günahdan keçmək, əhvedicilik böyüklərdən umulan, məhz onların edə biləcəyi keyfiyyət kimi qeyd edilir. Əslində doğrudan da böyüklər təcrübəli olduqlarına görə və kiçiklərin səhvlərini başa düşdükləri üçün, bir zamanlar özlərinin də kiçikliyini xatırladıqlarından bu cür davranış sərgiləmək onların üzərinə düşən bir borc kimi qəbul edilir. Əhvedicilik böyüklük sayılır.

Həmid Araslı Abbas Tufarqanlının yaradıcılığından nümunə gətirərək aşığın dövrün əxlaqi görüşlərini təbliğ etdiyini nümunə göstərir:

*Özündən böyüyün saxla yolunu,*
*Düşən yerdə soruş ərzi-halını.*
*Əmanət saxla sən qonşu malını,*
*Qonşu yox istəyən, özü var olmaz (18, 63).*

Yolunu saxla, yəni hörmətini saxla, ehtiram eylə deməkdir.

Dinimizdə böyüklərin haqqının ödənilməyəcəyi, onlara kömək və hörmət edilməsi, halını soruşmaq, onlara dua etmək barədə göstərişlər vardır. Böyüklərə münasibətdə xətaya yol verilməsi ictimai qınaq obyekti olar. Bu da onu edənin gözdən düşməsinə, adının hallanmasına və hətta obadan xaric olunmasına səbəb ola bilər. Böyüklərə hörmət prinsipi ilə yaşamaq zamana möhrünü vurmuşdur. T.Bünyadov el təcrübəsinə əsaslanaraq belə deyir ki, "Ağsaqqalı eşidən yolunu azmaz, Ağsaqqalın məsləhətinə qulaq asan xeyir tapar, Ağsaqqalı eşitməyən yaman günə qalar, Ağsaqqal, ağbirçəyə hörmət ataya, anaya hörmət qədərdi" (16, 142).

Tərbiyə sistemində ağsaqqalların və ağbirçəklərin yeri böyükdür. Bununla əlaqədar xeyli atalar sözləri vardır ki, onlardan bəzilərini təqdim edirik: Ağsaqqal sözünü axıra saxlar. Böyük danışanı kiçik götürər. Böyük sözünə baxmayan, böyürə-böyürə qalar. Böyüklərlə böyük ol, kiçiklərə göstər yol. Böyüyə hörmət elə, sən də böyüyəcəksən. Böyüyün üzünə ağ olanı torpaq götürməz, böyüyü tanımayanı heç kim tanımaz, böyüklərdə güc olar, yalan olmaz, böyüksüz evdə xeyir-bərəkət olmaz (5, 25; 79). Bundan başqa be-

lə atalar sözləri də mövcuddur: Bərəkət harda var? – böyüklü yerdə (5, 80). "Qocaya hörmət elə, sən də qocalacaqsan" və "kiçiklərə hörmət elə, böyüklərdən hörmət qazan" (5, 53). Dilimizdə "o boyda kişi", "dağ boyda adam" deyimləri hörmətli böyüklərə xitabən söylənilir.

Beləliklə, böyüklərə hörmət daxili mənəvi dünyanın çağırışı kimi bir borc hesab edilmişdir. Böyüklər dünyagörmüş, sınaqlardan çıxmış, çətinliklər görmüş, həyat təcrübəsi qazanmış insanlardır. Dilimizdə mövcud olan müxtəlif müraciət formalarının olması məhz onların böyüklük keyfiyyətlərinə, əhəmiyyət dərəcəsinə görə ünvanlanmışdır. Böyüklük özünü darda qalmış bir adamın köməyinə, imdadına yetişmək, inayət edib mərhəmət göstərmək sayılırdı. İslam dinində böyüklərin əhəmiyyəti vurğulanır. Azərbaycan cəmiyyətində minilliklər boyu ağbirçəklik və ağsaqqallıq institutları fəaliyyət göstərmişdir. Azərbaycanlılar böyüyə hörmət ruhunda tərbiyə edilmişdir. Azərbaycan xalqının etnik xarakteristikasında mövcud olan böyüklərə münasibətdə özünəməxsus davranış tərzi varlığını demək olar ki, bütün dövrlərdə qoruyub saxlaymışdır. Böyüklər haqqı ödənilməyəcək insanlardır.

**Ədəbiyyat:**


1. Nizami Gəncəvi. İskəndərnamə. – Bakı: Elm, – 1983. – 650 s.
2. Страбон. География в 17 книгах. Л, Наука, – 1964. – 944 с.
3. Quliyev H. Arxetipik azərilər: mentalitetin simaları. – Bakı: Qanun, – 2010. – 344 s.
4. Bünyadova Ş. Münasibətlər müstəvisi. – Bakı: Mütərcim, – 2018. – 152 s.
5. Atalar sözü (top. Ə.Hüseynzadə). – Bakı: Yazıçı, – 1981. – 336 s.

6. Раджабов Г.А. О системе управления сельской общиной в Ширване. Вопросы истории Азербайджана. – Баку: АН Азерб ССР, – 1966. – с. 131- 144.
7. Həsənov Y. İbtidai-icma tarixi. – Bakı: Azərtədrisnəşr, – 1963. – 210 s.
8. Bünyadova Ş. Orta əsr Azərbaycan ailəsi. – Bakı: Elm, – 2012. – 384 s.
9. Xaqani Şirvani. Seçilmiş əsərləri. – Bakı: Az SSR EA, – 1956. – 477 s.
10. Məlumatçı Bünyadov Teymur Əmiraslan oğlu, 1928-ci il təvəllüdlü (Qazax).
11. Məlumatçı Əhmədova Səadət Qulu qızı, 1969cü il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
12. Məlumatçı Mazanlı Sevda Teymur qızı, 1960-cı il təvəllüdlü (Bakı)
13. Məlumatçı Əhməd Əsgər Sücayət oğlu, 1957-ci il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
14. Əbu Əli Həsən ibn Əli xacə Nizamülmülk. Siyasətnamə. – Bakı: Elm, – 1987, – 208 s.
15. Nizami Gəncəvi. Sirlər xəzinəsi. – Bakı: Elm, – 1981. – 247 s.
16. Bünyadov T. Ellərdən almışdım, ellərə qaldı. – Bakı, – 2020. – 264 s.
17. Abdulla B. Alqışlar... Qarğışlar... – Bakı: Ozan, – 2010. – 220 s.
18. Araslı H. Aşıq yaradıcılığı. – Bakı: Birləşmiş nəşriyyat, – 1960. – 136 s.
19. Gəncəvi N. Leyli və Məcnun. – Bakı: Elm, – 1981. – 290 s.
20. Məlumatçı Hüseynova Zivər Mehdi qızı, 1935-ci il təvəllüdlü (Bakı)
21. Bakıxanov A. Bədii əsərləri. – Bakı: Azərnəşr, – 1973. – 391 s.
22. Nizami Gəncəvi. Xosrov və Şirin. – Bakı: Elm, – 1981. – 374 s.
23. Kitabi Dədə Qorqud. – Bakı: Yazıçı, – 1988. – 265 s.

# AZƏRBAYCANLILARIN DÜNYAGÖRÜŞÜNDƏ ƏSİL-NƏCABƏT

Təqdim olunan məqalə azərbaycanlıların dünyagörüşündə əsil-nəcabət, kök, soy, əsil-nəsil kimi anlayışların kəsb etdiyi əhəmiyyətin təhlili ilə bağlıdır. Elmi istiqamət kimi genealogiya qeyd olunan məsələ ilə məşğul olur. Genealogiya qədim yunan genea – "cins" və loqos – "elm" deməkdir, nəslin mənşəyi haqqında məlumat əldə olunması, ailələrin varisliyi və qohumluğu, şəcərə və ailə tarixçələrinin axtarışı, daha geniş mənada qohumluq münasibətlərinin araşdırılması barədə elm sahəsidir. Ailə üzvlərinin tarixi bağlılıqlarını öyrənmək üçün informantların şifahi məlumatlarından, tarixi sənədlərdən, genetik təhlillərdən istifadə edilir.

Azərbaycanlıların ailə məişətində onun kəsb etdiyi məzmun özünəməxsus şəkildə təzahür edir. Bununla bağlı xüsusən ailə həyatının qurulmasında əsil-nəsil ən əhəmiyyətli məsələ olaraq həmişə ön plana çıxır.

Əvvəla onu qeyd edək ki, ibtidai icma cəmiyyətində qəbilə və tayfa münasibətlərinin formalaşması istər-istəməz ayrı-ayrı nəsillərin birgə fəaliyyətini zəruri edirdi. Qəbilələr tayfa halında birləşmədən də ayrı-ayrı nəsilləri təmsil edirdilər. Lakin ibtidai sürü halında həyat tərzi sürən insanları düşündükdə bərabərliyin varlığı onlar arasında fərqlərin olmadığını söyləməyə imkan verir.

Qeyd olunur ki, "əcdadlar silsiləsi yaxud yüksələn və ya enən nəsillər xətti üzrə qohumluq səcərəsi ibtidai cəmiyyətdə tayfa-qəbilə təşkilinin sosiomədəni və demoqrafik zəmini, əsası kimi çıxış edir. ailələrdən fərqli olaraq tayfa qrupu daimidir, bir çox nəsillər boyu saxlanılır" (13, 324).

Məlum olduğu üzrə patriarxal ailə başçısı (pater familias) əcdad-nəsillərin səcərəsində (genealoji pilləkənində) ailə üzvlərini təmsil edir. Ailə başçısının – sahibinin hakimiyyəti və nüfuzu aqnatik qohumluğa (kişi tərəfindən qohumluq nəzərdə tutulur – Ş.B.) əsaslanır. Ailə başçısının, yaxud sahibinin ikinci planda yaranan iqtisadi hakimiyyəti yox, aqnatik qohumluğu soyadını yaradan başlanğıcdır. Əcdadların soyadına pərəstiş (kult), onların ruhlarına qurban kəsilməsi, ailə ocağı pərəstişi böyük rol oynamışdır. Ata öldükdən sonra ev sahibliyi oğullara keçirdi. Soyadı üzərində ata hakimiyyəti (partia potestas) bütünlüklə oğul-sahibə keçirdi. Odur ki, "soyadı" onun tərkibinə daxil olan ailə üzvlərini deyil, ailənin əmlakını da bildirirdi. Uşaqlar, ana, kölələr yeni sahibin hakimiyyəti altında olan şəxslər sayılırdı. Ev sahibi yaxud başçısı xüsusi hüquq sahəsində ailə kollektivinin şəriksiz nümayəndəsi idi, ailə mülkiyyəti üzərində hüquqa malik idi, işləri aparmaq, alqı-satqı etmək, soyadı daşıyan üzvlərinə münasibətdə olum ya ölüm hökmü çıxarmaq ixtiyarı yalnız ona məxsus idi" (13, 326).

Müəyyən etiket qaydalarına yiyələnmiş, adət və ənənələrə, böyüklərə hörmətlə yanaşan, qəhrəmanlıqda fərqlənən, davranışı, nitqi ilə sayılıb seçilən nəslin nümayəndəsi və nəhayət, son sözün sahibi olmaqla ağsaqqal qəbul edilən, nəsil birliyinə yön verməklə onun təmsilçisi sayılan bir başçı, həm də icmanın əsilli üzvü qəbul edilir-

di. Bu cəmiyyət tərəfindən tam tələbata cavab verən, toplumun qəbul etdiyi qaydalara əməl edən, nəslin adının və əxlaqının keşiyində duran, məsələləri doğru-düzgün tənzimləyən rəhbər qüvvənin olduğunu göstərən amildir. Tayfadakı birlikdə kökü bəlli olan, hardan gəldiyi bilinən qəbilə üzvü öz davranış xüsusiyyətlərinə görə fərqlənirdi. Belə seçilmə istər-istəməz nəslin el arasında hörmətinə dəlalət edirdi. Bu hörmət də onlara daha üstün mövqe tutmağa haqq qazandırırdı.

Azərbaycanda bu cür nəsillərin yaratdıqları patronimiyalar mövcud olurdu. Azərbaycanda patronimiyanın olduğunu təsdiqləyən bir sıra anlayışlar vardır ki, bunlara tayfa, nəsil, kök, ocaq, toxum, törəmə, tüstü, uşağı, evi və s. aiddir (7, 14). Təsadüfi deyildir ki, yer adlarında bu cür sözlərdən istifadə olunur. Böyük kəndlərdə müxtəlif nəsillərin ailələri kök salıb yaşayırlar və ya onlardan bir başqa yerə köçüb məskunlaşanda yenə də öz köklərinin adını saxlayırlar. İnsanlar uzun müddət mənsub olduqları tayfaların adlarını daşımışlar.

Patriarxal ailələrin olmasını gerçəkləşdirən üstünlüklər onun üzvlərinin birgə qorunması, icma arasında vahid güc, qüvvə kimi qəbul edilməsi, daxili yardımlaşma, təsərrüfatın birgə idarə olunmasında əmək bölgüsü və nəhayət, övladların böyüdülməsi və tərbiyəsində kollektivçilik ruhunun aşılanması kimi xüsusiyyətlərdən ibarətdir. Etnoqraf Həsən Quliyevin göstərdiyi kimi, patronimik adətlərin var olduğu keçmişdə çoxlu yer adları mövcud idi. Müəllif tayfa, uşağı, törəmə, əqrəba, evlad, kürək (Əhmədli k. Abşeron), tirə, zu və ya çu (Türkan k. Abşeron), simsar, basalax, basmax, arxa, ova, dinnix (Gəncə, Tovuz, Şəmkir, Qazax), çoğa (Şirvan), oymax (Sabirabad), tabun (Zaqatala, Qax) və s. bu kimi adların

olduğunu qeyd edir. Təkcə Qubada "patronimiyanın müxtəlif adları: tayfa, toxum, şaqqa, nəsil, törəmə, tirə, cədd (azərbaycanlılarda), cins, toxum (ləzgilərdə), tum, şir, əqrəba, övlad (tatlarda), yux (buduqlarda) geniş yayılmışdı" (6, 11). Patronimiya anlayışı ilə "təsərrüfat, ictimai və ideoloji birliyini saxlamış və ümumi patronimik adını daşıyan bir patriarxal ailə icmasının böyüməsi və parçalanması nəticəsində yaranan böyük, yaxud kiçik ailə qrupu ifadə edilir" (13, 325).

Nəsil bir birlikdir, qohumluq bağıdır. Onun şərəfi hər bir fərdinin öhdəsinə düşür. Təsadüfi deyildir ki, qan intiqamı nəslin kişi üzvlərinin boynunda olur. Qan intiqamı bir ailənin vəzifəsi deyildi. Bəzən o, nəsillikcə davam edən bir prosesə çevrilirdi. Barışığın gerçəkləşdirilməsi həyata keçirilmədikcə qan intiqamı davam edirdi. Ağsaqqallar bunun qarşısını almaqdan ötrü çalışırdı ki, bu zaman müqəssir sayılan nəsil ya müəyyən haqq versin, ya da nəsildən bir qızı gəlin olaraq təklif etsinlər.

İdeal təmsilçi olmaqla düzgün adam qismində əksəriyyətin qəbul etdiyi bəy obrazının, onun əsilzadəliyin əhəmiyyəti vardı. Eyni zamanda onun hansı yerdən olduğu ilə də müəyyən bağlılıq var idi. Bayatılardan birində belə deyilir:

*Əslin Qarabağlıdır,*
*Sinəm çarpaz dağlıdır.*
*Nə gedən var, nə gələn,*
*Deyən, yollar bağlıdır?*

Bu bayatıda "əslin Qarabağlıdır" deyilməsi mənsubiyyətin bildirilməsi deməkdir. Hansı yerə aid olmaq burada özünü büruzə verir. Deməli, əslin hardan olduğu və

ya elə müasir dövrümüzdə də "haralısan" soruşulması el-obanın araşdırılması ilə bağlıdır.

Əsilli-köklü adam dedikdə, əksəriyyətlə zadəgan təbəqəsinin nümayəndəsi nəzərdə tutulur. Belə nəsillərin nümayəndələrindən toplum təmizlik, nəciblik, alicənablıq, comərdlik tələb edirdi. Xan, bəy titulu daşıyanlar da əksərən əsilli-köklü hesab olunurdu. Bundan başqa dilimizdə kübar sözü də mövcuddur. Dilimizdə olan kübar sözünün də müəyyən mənası vardır. Kübar deyəndə, əsilzadə, aristokrat, davranışında ölçülü biçimli insan obrazı nəzərdə tutulur. Bu söz incə zövqlü, incə təbiətli kişi və qadınlara eynilə tətbiq edilən ifadədir. Burada təbii olaraq müəyyən qədər maddi cəhətdən zənginlik də nəzərə alınır. Dilimizdəki zat kəlməsi isə əsil, mənşə, kök, nəsil, nəsəb bildirən anlayışdır. Hörmətli, mötəbər, vəzifəli şəxsiyyət anlamında hər hansı bir simaya xitabən deyilən kəlmə olaraq zat özündə müəyyən mahiyyət bildirir. Buradan müəyyən vəzifə daşındığı bəlli olur. Zat-aliləri deyə müraciət olunması məhz bu qəbildəndir. Qeyd edək ki, zat qismən mənfi mənada da işlənir. Məsələn, *zatı qırıq* deyiləndə, bilavasitə əsli-nəsli bilinməyən, nanəcib, fırıldaqçı, kələkbaz, etibarsız adam nəzərdə tutulur. Burada mənşəyi, zatı çürük nəzərdə tutulur ki, xalq arasında da belələrinə qarşı zatına lənət – söyüş ifadəsi işlədilir. T.Bünyadov yazır: "bəd xasiyyət bəd zatdandır" (25, 221).

Nəsil, soy, nəsəb, mənşə kimi sözlər xalqımızın dilində əsrlər boyu var olan kəlmələrdir. Onlar özündə müəyyən bir məna yükü daşıyır və aidiyyatı, mənsubiyyəti bildirir. Nəsəb isə ərəb sözü olub mənşə, nəsil, soy, əcdad kimi mənaları özündə birləşdirir. Bəzən o, ünsiyyətdə əsil-nəsəb kimi də işlənir. Mənşə də həmçinin ərəb dilindən alınma sözdür və özündə bir şeyin çıxdığı, əmələ

gəldiyi, törədiyi yer məzmununu ehtiva edir. Nəslin mənşəyi dedikdə, əsil-kök olaraq insanların etniklik baxımından mənsubiyyəti nəzərdə tutulur. Törənişinə görə hansı qəbiləyə, aid olma mənşə etibarilə haradan gəlmə, bu və ya digər mənşəyə mənsub olan anlamı kəsb edir. Tarixdə də bir sıra türk xalqlarının söykökü axtarılanda məsələn, oğuz türklərinin qayı boyundan, qınıq obasından və s. kimi mənsubiyyət ifadəsi qeyd olunur.

Ehtimal etməyə zəmin vardır ki, endoqam nikahların da əsasında belə bir düşüncə dayanır ki, nəsli bilinən, tanınan adamı qoyub başqası ilə kəbin kəsmənin mənası yoxdur. Ona görə də atalarda belə bir söz var ki, "elini ürküt axsağından yapış". Atalar sözlərində belə bir məqam da təzahür edir ki, "yaxşını yada vermə hayıfdır, yamanı yada vermə ayıbdır" (12, 105). Bu əsasən yaxşı qızın bir tayfadan çıxıb digərinə qismət olmağındansa, elə özlərindən biri irəli durar – deyə ifadə olunmuşdur. Məlumatçı qeyd edir ki, atası oğlanlarına qızı məhz öz qohumlarından almağa çalışırdı (16). Bu ona görə belə olurdu ki, əslini-nəslini tanıyırdı. El arasında bəzən ailə səadəti baş tutmadıqda, əsil-nəsil nəzərə alınmadan kiminsə qızını gəlin gətirəndə boşanma zamanı böyüklər tərəfindən belə deyilirdi: "gör getdi kökümüzü kimə bağladı və ya caladı" (10). Burada vaxtında nəzərə alınsaydı, belə olmazdı fikri baş qaldırır. Dilimizdə belə deyim də var ki, sümüyünü it sümüyünə calamaq. Yəni bu ifadədə "başqa sözlə arzu olunmayan ailə ilə qohum olmaq, xoşa gəlməyən ailə üzvü ilə evlənmək" nəzərdə tutulur (17, 221).

Xalq bütün göstərilən məsələləri öz dilində elə yerli-yerində oturtmuşdur ki, əlavə şərhə ehtiyac duyulmur. Məsələn, dilimizdə nəsil sözü ilə bərabər qohum, əqrəba, toxum və s. kimi sözlər müəyyən məna daşıyaraq bir bir-

liyi təmsil etmişdir. Dilimizdə qohum-əqrəba, qohum-qardaş kimi işlənən anlayışlar öz mahiyyətində ən yaxın əcdad ümumiliyi, qan qohumluğu, söykök birliyi ilə birləşən insanlar arasındakı münasibət formasıdır. Yaxın və uzaq qohumluq deyə fərqlilik tapan əlaqələr də mövcuddur. Dilimizdə mövcud olan ikitirəlik salmaq ifadəsi özündə nifaqı, düşmənçiliyi bildirir.

Dilimizdə nəsillə bağlı xeyli sözlər vardır. Məsələn, *nəsilbənəsil* sözü nəsildən-nəslə, nəsillər boyunca, ulu əcdaddan başlayaraq, ata-babadan qalaraq davam edən mənası kəsb edir. *Nəsildəngəlmə* sözü müəyyən bir nəslə mənsub olan və ya irsi nəzərdə tutulan məzmuna malikdir. Nəsildən-nəslə yəni bir nəsildən başqasına ötürülmə nəzərdə tutulur. Tarixi yaddaş da belə ötürülür. N*əsillikcə* sözü bütün nəslin hamısını ehtiva edir. *Nəsilsiz* yəni, nəsli olmayan, nəsil verməyən, övladı olmayan deməkdir. Nəslən və ya nəsli dedikdə isə yəni, nəslə görə, nəsilcə, nəsildən keçmə bütöv mənada da qəbul edilir (9, 480-481). Nəsli kəsilmək, tamam məhv edilmək, kökü kəsdirilmək, yoxa çıxmaq, qırılmaq deməkdir. Sovet dövründə camaatın halına ağlayan, onun dərdinə şərik olmağa çalışan əsil insanların nəsli kəsilir, izi itirilməyə çalışılırdı. Savadlı adamlar repressiyaya məruz qalır, nəsilləri sürgün olunurdu (11). El arasında belə qarğışlar da vardır nəsliniz qırılsın, kökünüz kəsilsin. Alqışlarda isə “Allah min budaq eyləsin” söylənilir.

Hər bir ailənin söykökü olur. Öz soyadını (familiyasını) insanlar ulu babalarının adından götürür. Miqrasiya edib yer dəyişdikdə belə yeni məskunlaşdıqları yerə öz daşıdıqları adı qoymaq əcdada hörmət, əsil kökü unutmamaq və gələcək nəsillərə unutdurmamaq üçün edilir.

Şifahi xalq yaradıcılığı nümunələri xalqın məişət və mədəniyyətini özündə cəmləşdirən elə bir vasitədir ki, onlarda xalqın siması, ruhu, etnik xarakteri və digər keyfiyyətləri bütün açıqlığı ilə özünü göstərir. Dastanlarımızda, bayatılarımızda, atalar sözlərimizdə və s.də əsil-nəsil barədə xeyli məlumat əldə etmək mümkündür.

Xalq məişətindən süzülüb gələn atalar sözlərində əsil nəcabətə dair xeyli maraqlı fikirlər yer almaqdadır. Məsələn, “əsil al çirkin olsun, bədəsil gözəl alma”, “əsil almaq çətindir, saxlamaq asan”, “əsil olan əsilliyin itirməz”, “əsilzadə sözünün üstə çıxar”, “əsli bəd olana qamçı neyləsin”, “əsli olan dırnağında bildirər”, “əslini danan bicdir”, (bəzən bicdir yerinə xalq arasında namərddir deyilir – Ş.B.) “bədəsildən əsil olmaz, qaçan qızdan – xanım” (12, 62). Belə bir fikir də vardır ki, “nəcabət adamın zatında olar” (12, 63). Buradan çıxan nəticələrdən aydın olur ki, insanda əsas xarici gözəllik deyil, daxili aləminin gözəlliyidir ki, bu da əsilli adamlara xasdır. Beləsini də tapıb almaq o qədər də asan olmasa da, yola getmək mümkündür. Əsli-nəsli yaxşı olan öz qabiliyyətini hər zaman qoruyar və böyüklüyünü, ağayanalığını itirməz. Belələri o qədər Allah adamı olar ki, onun haqqında danışılanın üstünə gəlib çıxar. Bədəsili qamçı ilə də döyüb tərbiyə etmək olmaz. Əsillilik özünü insanların davranışında büruzə verir.

Oğuznamədə deyilir ki, “bəgi el yavuz edər, qışı yel yavuz edər” (19, 71). Yəni bəyi el pis, acıqlı edər, qışı da ki, pis edən külək, yel olar. Buradakı məsəldə o izhar olunur ki, el-oba bəyə qarşı nə münasibətdə olarsa, bundan bəyin davranışı asılı olar. Qasım bəy Zakir “lənət olsun bədəsilə, gövdənə” deyir (21, 144).

İri torpaq mülklərinə sahib olan zadəgan zümrəsi, hərbi döyüşçülərdən ibarət dəstə başçısı, dini rəhbərlər

olan şeyxlər, dövlət idarəetməsində yüksək vəzifə sahibləri əsilli-nəsilli adamlardan seçilirdi. Çünki imkanlı ailələr təhsilə üstünlük verirdilər. İmkan daxilində uşaqlarını təhsil almaq üçün hətta başqa ölkələrə göndərirdilər.

Q.N.Şumkin qeyd edir ki, B.N.Mironovun təsnifatına görə hər bir təbəqənin özünəməxsus hüquqları və sosial funksiyaları olurdu, qanun qarşısında adət ənənəyə tabe idi, hüquqlar irsən keçirdi, zümrələr öz aralarında birləşə bilirdi, xüsusi mental şüura malik idi, özünüidarə və yerli idarəçilikdə iştirak edə bilərdi, xarici görkəmində fərqli olurdu (14, 56). Bu bir zümrə kimi əsilzadə təbəqəsinin xüsusiyyətlərini təcəssüm etdirir. Əslində ümumiləşdirilmiş fikir kimi doğrudur və qəbuledilənddir.

Azərbaycan xalqının və orta əsr Şərqinin əsil-nəcabətlə bağlı düşüncə tərzi orta əsr şairlərinin və mütəfəkkirlərinin də yaradıcılığına sirayət etmişdir. Orta əsr müəlliflərinin əsərlərində rast gəldiyimiz məsələ ailə qurulmasında əhəmiyyət verilməsi gərəkli hesab olunan əslnəcabətə münasibətdir. Məsələn, orta əsrin böyük mütəfəkkiri Qəzzali qadında göstərilən xüsusiyyətlərin olmasını mühüm sayırdı ki, bu da aşağıdakılardan ibarətdir: din, xoşxasiyyətlilik, gözəllik, mehr yüngüllüyü, doğmaq qabiliyyəti, bakirəlik, əsil-nəsəb (4, 73). XIII əsrin tanınmış mütəfəkkir alimi, görkəmli şəxsiyyəti və dövlət xadimi olan Nəsirəddin Tusi özünün məşhur "Əxlaqi-Nasiri" əsərində deyilən məsələ ilə əlaqədar yazır ki, "bakirə bakirə olmayandan daha yaxşıdır: ərin tərbiyəsini qəbul etməyə, onun xasiyyətinə uyğunlaşmağa, qayda-qanuna tabe olmağa daha çox təmayül edər, bunlarla yanaşı, özü gözəl, əsli nəcib, ailəsi dövlətli isə, bütün məziyyətlər bir yerə toplanmış olar, üstünə əlavəyə heç bir ehtiyac qalmaz. Bü xüsusiyyətlərin bəzisi olmasa da, ağıl, iffət

(ismət) və həya mütləq vacibdir. Yerdə qalan üç xüsusiyyəti: gözəllik, sərvət, əsil-nəsəbi o birilərindən üstun tutmaq, din və dünya işlərinə xələl gətirib fəlakət və həlakətə səbəb ola bilər” (1, 152).

XIII əsr Azərbaycan ədəbiyyatının nümayəndələrindən biri İzzəddin Həsənoğlunun zəmanəmizə gəlib çatmış qəzəllərində gözəllərin vəsfi, ona bəslənilən səmimi eşq duyğuları belə əks olunmuşdur:

*And içərəm səndən artıq sevməyim,*
*Sənin ilə xoş keçər canım bənim.*
*Hüsn içində sana manənd olmaya,*
*Əsli yuca, könlü alçağım bənim (2 , 25).*

Burada müəllifin qeyd etdiyi “əsli yuca” – yəni, uca, yüksək əsilə, nəsilə malik olan” deməkdir, “könlü alçağım” isə “təvazökar” mənasında işlənmişdir. Şair göründüyü kimi, burada üstüörtülü də olsa, ailədə əsasən əsilli-köklü, nəcabətli və daxilən, mənəvi cəhətdən zənginliyi ilə seçilərək daim təvazökarlıq nümayiş etdirən xanımlara üstünlük verildiyini göstərmək istəmişdir.

Məhəmməd Füzulinin “Leyli və Məcnun” əsərində toya qədərki el adətlərindən biri olan elçilik haqqında bəhs edilir. Füzuli Məcnunun atasının öz yaxın adamlarını cəm edib Leylini atasından istəməyə getdiyini qeyd etmişdir. Danışıq əsnasında Məcnunun atası əsli-nəsəbi barədə qız evinin məlumatı olduğunu söyləyir (22, 89-90).

Xüsusən qız bəyənilərkən diqqət yetirilməsi vacib olan məsələ kimi əsil-nəsil söhbəti ortaya çıxır. Lakin nəzərə almaq lazımdır ki, xalq arasında elə indi də oğlan tərəfə də qiymət verilərkən onun da hansı nəslin nümayəndəsi olduğuna diqqət yetirilir və namizədliyinin məqsədə-

uyğun görülüb-görülməməsi ailə tərəfindən mühüm şərt kimi qəbul edilir. Bu baxımdan XIV əsrin tanınmış şairlərindən biri olan Arif Ərdəbili yaradıcılığında ötəri də olsa, qeyd olunan məlumatlara diqqət yetirək. Onun "Fərhadnamə" əsərində bu məsələ aşağıdakı şəkildə vurğulanır:

*Fərhadı o görərək əhvalını yazıbmış,*
*Övladından, nəslindən həm də o danısıbmış (3, 27).*

Kişinin əsli-nəcabəti olmalıdır. "Koroğlu" dastanında deyilir:

*Tacirlikdə adı vardı,*
*Dostluğunun dadı vardı.*
*Kişilikdə zatı vardı,*
*Bu gələn Xoca Yaqubdu (8, 285).*

Zat deyərkən də yenə əsl-nəcabətə işarə edilir. Aşağıdakı təsnifdə deyilir:

*Zatında halal,*
*Salmaz qeylü-qal,*
*Halal cah-cəlal*
*Gözəldir, gözəl (18, 70).*

Kitabi Dədə Qorquddda deyilir: "bir gün Tüklü quşun balası (şahin nəzərdə tutulur – Ş.B.), yazıqların ümidi Amit soyunun aslanı, Qaracığın qaplanı, Qonur atın yiyəsi, Uruz xanın ağası, Bayındır xanın kürəkəni, Qalın Oğuzun dayağı, igidlərin arxası Ulaş oğlu Salur Qazan yerindən durmuşdu" (15, 140). Burada bəyin soyu, atasının, qaynatasının adı və fəaliyyətinə görə qazandığı hörmət göstərilmişdir.

Xəstə Qasım əsilliyi ağayanalıq, səxavətlilik, mərdlik kimi görür. O, yazır:

*Namərd cəhdi onu mərdə yetirməz,*
*Qonaq gəlsə, para çörək gətirməz,*
*Ot kök üstə bitər, əslin itirməz,*
*İnanmırsan eyləgilən təftişi (20, 28).*

Və ya

*Namərdə üz salma, üzün götürməz,*
*Namərd qonağına çörək gətirməz,*
*Ot kök üstə bitər, əslin itirməz,*
*Bədəsil də yerişindən bəllidir (20, 29).*

Şair hətta insanların nəcabət sahibi olmasının davranışından bəlli olduğunu qeyd edir. Atalar sözlərində "ot kökü üstündə bitər" deyimi xalq arasında əsil-nəcabətin davamlılığı ilə bağlı tətbiq edilən ifadədir.

Dilimizdə kötük sözü işlənməkdədir. Evin kötüyü deyiləndə ailənin böyüyü nəzərdə tutulur, məsələn, baba. Bundan əlavə, nəslin öz səcərəsi olurdu. Orada nəsli təmsil edənlər və onlardan törəyənlərin adları qeyd edilir. Çox təəssüf ki, bir mənbə rolu oynayan belə səcərələr indiyədək demək olar ki, bir ənənə olaraq çox ailələrdə saxlanılmamış və ya sovet dövründə müsadirə edilmişdir. Ona görə də o, xalqımızın yaddaşından silinib gedir. İndi yeddi arxa dönənini belə tanıyan yoxdur.

Tarixən türk xalqlarında *şəcərələr* mövcud olmuşdur. Mütəşəkkil bir təməl üzərində ümumi əcdaddan törənişi özündə birləşdirən nəsil səcərəsi genetik bağlılığı, qohumluğu, ardıcıllığı, davamlılığı bildirən soykök göstəricisidir. O, başlanğıcın hardan gəldiyini göstərən əsasdır. Təsadüfi deyildir ki, dilimizdə ulubaba, baba, ata,

oğul kimi sözlər vardır ki, o da davam olunan nəsli xətti bildirir. İrsiyyət nəslən ötürülən xüsusiyyətlərdir. Ata, uşaq, nəvə, nəticə, kötükcə, nəbibə, və yadca. Bu ardıcıllıqda dayanan ən son yadcadır. Yəni, artıq yeddi arxa dönür və ulu baba yadlaşır. H.Quliyev haqlı olaraq qeyd edir ki, "ənənəvi azərbaycanlılar nəslin tarixinə lazımi qədər diqqət yetirmirlər və praktiki olaraq uzunmüddətli yaddaşda nəslin konkret tarixinin təsbitinin yazılı yaxud şifahi prosedurlarını həyata keçirmirlər. Təbii ki, onlar gənclərin öz nəsillərinin dəqiq (müfəssəl) tarixi əsasında tərbiyə olunmasına ehtiyac hiss etmirlər" (24, 214-215).

Müasir cəmiyyətdə nəsil-kök axtarışı insanların real maraq dairəsinə daxil deyildir. Ailə tarixinə olan maraq əslində nəsil səcərəsinə marağın təzahürüdür. Belə ki, "ailə yaddaşının hifz olunması və nəsildən-nəsilə ötürülməsi bu tarixə maraq, insanın ona xüsusi həssaslıqla yanaşması, daha çox bilgi əldə etmək üçün bu istiqamətdə fəallıq göstərməyə hazırlıqdan asılıdır. Ailə səcərəsinin tarixi ilə maraqlananlar arasında respondentlərin 52,9%-i maraqlanıb, araşdırıb, 11,5%-i maraqlanıb, araşdırmayıb, 35,5%-i xüsusi marağının olmadığını söyləyib. Araşdıranların əsasən kişilər (59,6%) təşkil edir. Əksəriyyət ali təhsilli olanlardır. Kəndlərdə araşdıranlar 57,6%, şəhərdə isə 49,0-i% göstəricidir" (26, 34). Əvvəlki nəsillərə bağlılıq onları tanımaqdan başlasa da, "ailənizin neçə nəslini tanıyırsınız" sualına respondentlərin 40,6%-i özündən əvvəlki iki nəsli ata-ana və nənə-babalarını tanıdığını, 36,2%-i üç nəsli ata-ana, nənə-baba, ulu nənə-babalarını tanıdığını, 18 %-i dörd nəsli, yəni ulu nənə-babalarından əvvəlkilər haqqında məlumatının olduğunu qeyd edib. Sorğuda iştirak edənlərin 4,9%-i isə ata anadan əvvəlki nəsillər haqda məlumatsızlığını göstərib (26, 36). Bütünlüklə bu məsələnin obyektiv

və subyektiv cəhətləri vardır: xalqımızın unutqanlığı və sovet dövründə unutdurulmaq istənildiyinin nəticəsidir. Yazılı məlumat materiallarının olmaması, sadəcə şifahi bildirişlər, təsdiqləyici kağızların olmaması işi çətinləşdirir.

Türklərdə "soyunuz qurusun", "soyunuza kıran girsin" kimi qarğışlar vardır. Bundan əlavə belə deyirlər ki, soylu soyundan, huylu huyundan vaz keçməz. Yəni, əsil insan soyunu danmaz. Soyu sopu təmiz ifadəsi, yəni yaxşı ailədən olan deməkdir, yüksək soy isə tanınmış nəsli mənalandırır. Soylu adam alicənab kişi haqqında, soysuz söyüşü isə əsilsiz adam haqqında deyilir.

Azərbaycan xalqında ərəb sözü olan *şəcərə* kəlməsindən dilimizdə istifadə olunur. Başkırdlarda şəjərə, kazaxlarda şejire, qırğızlarda sanjıra, tatarlarda şəjərə, özbəklərdə sanjara deyilir. Belə səcərələr şifahi tərzdə yaşlı nəslin nümayəndələri tərəfindən gənclərə deyilir ki, bilinsin və yaddan çıxmasın. O, özündə qohumluq bağlılığının müəyyən məlumatını daşıyır. Nəsil ağacı ata xətti ilə gedən kişilərin adlarının qeyd olunması ilə övladlara ötürülürdü. Nəsil ağacı adlanması da maraq doğurur. Soy ağacı – qeneoloji, nəsil ağacı deməkdir.

Ağac torpağa kök salır, sonra böyüyərək gövdəsindən budaqlar əmələ gəlir, lakin kökə bağlılıq əsas olaraq qalır. Təbii ki, bu bənzətmə yerinə düşür. İnsan nəsli də eyni ulu babadan ulu nənədən törəyərək artıb çoxalmağa başlayır, qohumluq bağı isə məhz bu kökə bağlıdır. Təsadüfi deyil ki, ağacın da, nəslin də kökünün olması, dilimizdə məhz bu şəkildə adlanması elə-belə deyildir. Xalqın dili həm təbiət, həm də cəmiyyət məsələlərini vəhdətdə görərək mənalandırmağa qadirdir. Nəslin *şəcərələri* bilməsi özünə hörməti əks etdirməklə yanaşı, eyni zamanda əcdad kultunun izlərini, varlığını daşıyır. Öz mən-

şəyini bilmək bütün dövrlərdə vacib sayılmışdır. Burada da icmanın ağsaqqallarının mühüm rolu danılmazdır. Salnamələr də əksəriyyətlə belə səcərələr əsasında yazılırdı.

Qafqazda ümumi olan adətlər vardır. Bu adətlər sayəsində formalaşan etnik xarakterlə əlaqədar eynilik özünü göstərir. Sula Benetin məlumatlarında Qafqaz ailələrində möhkəm bağlılığın üstünlüyündən bəhs edilir, böyük ailələrin keçmişdə olduğu kimi mehribanlıq şəraitində yaşamaları, qarşılıqlı kömək və iqtisadi cəhətdən yardımlaşma və birgə fəaliyyət əsasında qurulduğu qeyd edilir. Bundan əlavə müəllif göstərir ki, qafqazlıların gücü, qüdrəti nəslə və kökə bağlılıqlarındadır (5, 337-338; 340).

Türk xalqlarının əksəriyyətində müxtəlif şəkildə də olsa, zadəgan titulu sayılan bəy kəlməsi (bek, beq, bik, bi, bey, bay, biy) işlənir. Aydın Balayev ümumiləşdirərək belə qeyd edir ki, bəy soy başçılarına, əyanlara verilən fəxri titul sayılmışdır və Orxon-Yenisey abidələrində (8 əsr) bəy sözü qəbilə başçısı anlamında işlədilib (23, 36). Sonralar sadəcə müraciət formasına çevrilmişdir.

Türk xalqlarında işlənən el sözü ümumiyyətlə, nəsil birliyini, hətta onların cəmini bildirir, vətən torpağı mənası da vardır. Elat – etnik birlik, tayfa ittifaqı, oturaq həyat tərzi keçirən yarımköçəri maldarlara tətbiq olunub. Elatın başçısına elxan deyilib. Elxan türklərdə və eləcə də monqollarda tayfa başçısı və hökmdar titulu olmuşdur. Azərbaycanda elxan termini elatların ağsaqqalı mənasında işlənmişdir (23, 72-73).

Nəsil qəbristanlığının özü də məhz mənsubiyyət göstərən əlamətdir. Belə ki, eyni nəslin nümayəndələrini seçilmiş bir ərazidə basdırmaq adəti keçmişdən bizə miras qalmışdır. Məsələn, Ağdamda imarətdə sərdabələr aşkar olunmuşdur. O da eyni nəslin nümayəndələrinə aid-

dir. İndi də kəndlərdə qəbristanlıqda ailə və nəsil üçün yer ayrılıraraq çəpərlənir ki, hamı yanaşı dəfn edilsin.

Beləliklə, bu qənaətə gəlmək mümkündür ki, əsil-nəsil, kök dedikdə, xalqın müəyyən zümrəsini təmsil edən, mənsubiyyəti bilinən insanların birliyi nəzərdə tutulur. Xalqın adət və ənənələrinə sadiq olan nəcib, davranışı müvafiq, başçı rəhbər qismində qəbilənin və ya nəslin adının qoruyucusu sayılan təbəqə olmaqla əsilli-köklü insanlar müəyyən missiyanı aparan sosial qrupdur. İrsən keçən daşıyıcılıq, ötürücülük onların əsas qayəsi hesab olunmuşdur. Sadə icma üzvlərindən fərqlənən kübar ailə nümayəndələri içərisində eyni zamanda cəmiyyətdə mühüm yer tutan din xadimləri də əsilli-nəsilli hesab edilirdilər. Əsil-nəsil cəmiyyətdə müəyyən təbəqələşmənin göstəricisidir. Nəsli birləşdirən amillərə eyni ərazidə məskunlaşıb, söykökü davam etdirmək, ümumi məişət və mədəniyyət xüsusiyyətlərinə malik olmağı daxil etmək olar. Nəslin missiyası qoruyuculuq olmuşdur.

**Ədəbiyyat:**


1. Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. – Bakı: Elm, – 1989. – 256 s.
2. Azərbaycan klassik ədəbiyyatı kitabxanası 20 cilddə, 3 c. – Bakı: Elm, – 1984. – 544 s.
3. Araslı N. Arif Ərdəbili və onun “Fərhadnamə” poeması. – Bakı: Elm, – 1979. – 170 s
4. Əliyev R. İslamda ailə və nikah münasibətləri. – Bakı: İrşad, – 2003. – 192 s.
5. Paşayev Q. Seçilmiş əsərləri 7 cilddə, 6 c. – Bakı: Təhsil, – 2012. – 680 s.
6. Quliyev H. Azərbaycanda ailə məişətinin bəzi məsələləri (keçmiş və müasir dövr). – Bakı: Elm, – 1986. – 96 s.
7. Bünyadova Ş. Orta əsr Azərbaycan ailəsi. – Bakı: Elm, – 2012. – 384 s.

8. Koroğlu. – Bakı: Lider nəşriyyat, – 2005. – 552 s.
9. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. III cild. – Bakı: Şərq-Qərb, – 2006. – 672 səh.
10. Məlumatçı Binnətova Zəkiyyə Əmiraslan qızı, 1923-cü il təvəllüdlü (Qazax)
11. Məlumatçı Bünyadov Teymur Əmiraslan oğlu, 1928-ci il təvəllüdlü (Qazax)
12. Atalar sözü (top. Ə.Hüseynzadə). – Bakı: Yazıçı, – 1981. – 336 s.
13. Məmmədov H., Tağıyev A. Antropologiya (dərslik). Bakı, – 2014, – 373 s.
14. Шумкин Г.Н. Категория «сословие» как инструмент изучения стратификации российского общества X1X начала XX в. Петербургский исторический журнал № 2, 2017, с 55-70
15. Kitabi Dədə Qorqud. – Bakı: Yazıçı, – 1988. – 265 s.
16. Məlumatçı Əhmədova Yeganə Miriş qızı, 1963-cü il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
17. Adilov M. Niyə belə deyirik. – Bakı: Azərnəşr, – 1982. – 241 s.
18. Xalqımızın deyimləri və duyumları (tərtibçi M.İ.Həkimov). – Bakı: Maarif, – 1986. – 392 s.
19. Oğuznamə. – Bakı: Yazıçı, – 1987. – 223 s.
20. Xəstə Qasım. – Bakı: Nurlan, – 2010. – 232 s.
21. Azərbaycan uşaq ədəbiyyatı antologiyası 3 cilddə. 1 c. – Bakı: Öndər, – 2005. – 248 s.
22. Füzuli M. Seçilmiş əsərləri 6 cilddə. 2 c. – Bakı: Azərbaycan, – 1996. – 368 s.
23. Balayev A. Tarix terminləri lüğəti. – Bakı: Altun kitab, – 2017. – 336 s.
24. Quliyev H. Arxetipik azərilər: mentalitetin simaları. – Bakı: Qanun, – 2010. – 344 s.
25. Bünyadov T. Ellərdən almışdım ellərə qaldı. Bakı, – 2020. – 264 s.
26. Müasir Azərbaycan ailəsi. Analitik hesabat (red. A.Məmmədov). 1 buraxılış, aprel 2024, sosial tədqiqatlar mərkəzi.

# TARİXİN YADİGARI BAYRAQ

Bütün dünya xalqlarında tarixən bayraqlar mövcud olmuş və müasir dövrdə varlığını qorumaqda davam edir. Tarixin müxtəlif dövrlərində müəyyən dəyişikliyə uğrasa da, onlar təməl mənsubiyyət və göstəriş mahiyyətini qoruyub saxlaya bilmişdir. *Veksillologiya* latın dilindəki *vexillum* sözündən gəlir. Veksillologiya bayraqların, şüarların, hərbi gəminin dor ağacında qaldırılan bayraq və bu qəbildən olan digər əşyaların öyrənilməsi ilə məşğul olan köməkçi tarixi fəndir.

Xalqların əsrlər boyu yaratdığı mədəniyyət çərçivəsində bayraqlar mühüm amilə çevrilmiş, tayfa, dövlət və digər birliklərin fərqləndirici əlaməti olmaqla mühüm əhəmiyyət kəsb etmişdir. Xüsusən dövlətlərin rəmzlərindən biri olan bayraqlar üzərindəki simvol və öz rənglərindəki kəsb etdikləri mənalarıyla müəyyən dəyərə malik olmuşdur. Çünki o, tarixin müəyyən mərhələsində xalqın irəliyə doğru istiqamətinin, tərəqqisinin yoluna çevrilir.

T.Nəcəfli qeyd edir ki, "bayraq sözü, qədim türk dilinə aid "batrak" sözünün deformasiya olmuş formasıdır. "Batrak" sözü də "batırmaq" sözündən yaranmışdır. Mahmud Kaşğari "Divan-i Lüğət-it Türk" əsərində "torpağa sancılan mizraq" (nizə) mənasını verən batraq (bayraq) kəliməsi işlənmişdir. Görünür, müxtəlif ipək parçalardan hazırlanmış bayraqlar nizələrin ucuna bərkidildiyinə görə dövlətçiliyin əsas atributlarından biri kimi "dalğalanan milli simvola çevrilmişdir" (16, 11).

Ümumiyyətlə, xalqların həyatında mühüm əhəmiyyət kəsb edən ilkin bayrağın tarixinin nə zaman yarandığını söyləmək çətindir. Lakin onun bir fərqlilik əlaməti olduğu qətidir. O, insanların toplu halında birləşməsinin göstəricisidir. Bayraqlar bütün dünya xalqlarında var olmuş qəbilələrin və onu təşkil edən nəsillərin hansı əlaməti özlərinə rəmz seçmələrindən asılı olaraq yaranan bir vasitədir. Bayraqlar tarixən təkcə qəbilə, tayfa birləşməsi və nəhayət, dövlət rəmzi olmamışdır, o, eyni zamanda əhalinin sənətkarlıq və ticarətlə məşğul olan hissəsinin sənətini təsdiqləyən bir əlamət hesab edilirdi. Gəmilərdə mütləq şəkildə mənsubiyyət göstəricisi kimi hansı ölkəyə aid olduğunu təsdiqləmək üçün bayraqların olması vacib şərtdir. Belə göstərici eyni zamanda təyyarələrdə də olur.

İlk bayraqlar ideyası beş min ildən çox əvvəl qədim qəbilələrin ovçuları və döyüşçüləri arasında yaranıb. O dövrlərdə bayraqlar quş tüklərindən və ya heyvan dərilərindən hazırlana bilərdi. Bütün zaman ərzində bayrağın əsas funksiyası komunikasiya olaraq qalır (15).

Parçadan hazırlanmış ilk bayraqların çinlilər arasında meydana çıxdığı qeyd edilir. Sonralar əvvəlcə diräklərdə müxtəlif heyvanların təsvirlərindən bayraq kimi istifadə edən Roma legionları, tezliklə parçadan hazırlanmış bayraqları da təqdim etdilər. Bu dövrlərdə bayraqlar daha geniş məqsədlər üçün istifadə olunmağa başlayır. Məsələn, bir dövlətin müstəqilliyini elan edərkən və ya təslim zamanı döyüş meydanında bayraqlar boy göstərir (15).

Göründüyü kimi, tarixdən əvvəlki cəmiyyətdə bayrağın rolu onun təmsil funksiyası idi – yəni, bu və ya digər tayfanın bayrağı uzaqdan görünürdü və bayraqlı qrupun ona tərəf hərəkət etdiyi digər tayfanın adamları artıq aralarında yaranmış münasibətlərə əsaslanaraq nəyə –

dostluq görüşünə ya döyüş üçün hazırlaşmalı olduqlarını başa düşürdülər. Bayraq ideyası min illər əvvəl yaranmışdır: ilk bayraqlar olduqca primitiv idi və bayraqlardan ilk istifadə edənlər müxtəlif tayfaların ovçuları və döyüşçüləri idi. Müxtəlif qəbilələrin istifadə etdiyi ilk bayraqlar heyvan dərilərindən və ya quş tüklərindən hazırlanırdı. Məsələn, qədim Misir döyşçüləri bayraq kimi dirəkdən istifadə edirdilər, onun yuxarısında quş, heyvan və ya hansısa əşyanın təsviri vardı. Parçadan hazırlanmış ilk bayraqların Çin, Hindistan və romalılar arasında meydana gəldiyinə inanılır. Bəzi tarixi faktlar ilk parça bayraqların təxminən eramızdan əvvəl 1100-cü ildə Çində qeydə alındığını göstərir (14).

Hər dövrün özünəməxsus xüsusiyyətləri vardır. Həmin dövrə müvafiq də bayraqlar olmuşdur. Xatırlatmaq yerinə düşər ki, bir simvol kimi bayraq orta əsrlərdə hərbi yürüşlərdə xüsusilə istifadə olunan dəyərli bir əşya olmuşdur. Bəlkə də o, bir inam, təsəvvür mənbəyi kimi iştirak etmişdir. Onsuz döyüşə gedilməzdi, çünki savaşın nəticəsində əldə olunan qələbənin rəmzi kimi yüksəklikdə dalğalanması zəfərin müjdəçisi olduğunu göstərirdi. Bayrağı müəyyən yerə sancdıqdan sonra döyüş başlana bilərdi. “Kitabi-Dədə Qorqud” dastanında döyüşdə məğlub tərəfin bayrağının qılıncdan keçirilməsi belə qeyd edilir: “Qazan bəyin qardaşı kafirin bayrağını qılınclayıb yerə saldı” (6, 149). Bu fikir özü bayrağın döyüş zamanı mövcud olduğunu təsdiq edir.

Məlumdur ki, orduda bayrağı daşımaq, onu yüksəyə sancmaq xüsusi xidməti vəzifə və eyni zamanda qürur mənbəyi sayılır. Bu indi də belədir. Qarabağ zəfərində bölgələrimiz erməni separatçılarından azad edildikcə bayraqlar sancılır və bununla varlıq göstəricisinin kimə

aid olduğu rəmzləndirilirdi. Bütün dövrlərdə əhali arasında onun müqəddəsliyinə inam olmuşdur.

Qadınların əlləri ilə tikdikləri bayraqlar dalğalanaraq bütöv bir xalqın vəhdətini göstərir. Azərbaycanda XX əsrin 80-ci illərində erməni separatçılarına, onların yersiz "miatsum" hərəkatına qarşı etiraz dalğaları başlayanda **Bakıda Hökumət evi qarşısında dalğalanan ilk bayrağı tikən məhz bu məqalənin müəllifi Şirin Bünyadovadır. Məsələ burasındadır ki, bayrağın tezliklə bizim nümayişlərdə boy göstərməsi üçün onu tələsik tikib yoldaşım Əsgər Əhmədə təhvil verdim. O demişdi ki, Bakı univermağından aldıqları üç ayrı parçanı birləşdirim, rənglərin yerlərini müəyyənləşdirib tikim. Düzdür, o vaxt yaşıl əvəzinə alınan parça xaki rəngində idi. Amma olsun. Parçaları tez hissələrə ayırdıq ki, bir neçə bayraq hasil olsun. Mən onları tikdikdən sonra kənarında anamın yardımı ilə dəstək yeri də düzəltdik ki, onu dayağa birləşdirib yuxarı qaldırmaq mümkün olsun. Sonra yoldaşım onu da əlavə etdi ki, təcili düzəlt, çünki üzərinə təbaşirlə ay ulduz şəkli çəkəcəyik. O qədər tələsirdik ki... Bu tələş bizim həyatımızın ən şirin və sevimli dəqiqələri idi. Çünki xalqa xidmətin qürurunu yaşayırdıq.**

Müasir dövlət bayrağımız bərabər enli üç üfüqi zolaqdan: yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdə olmaqla – qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvirindən ibarətdir. Bayrağın mavi rəngi türkçülüyü, qırmızı müasirliyi, demokratiyanı, yaşıl rəng isə İslamı tərənnüm edir.

Aydın məsələdir ki, bayraqlarda müəyyən qaydaların olması gərəklidir ki, bu da onun müəyyən ölçüyə malik ol-

masında özünü büruzə verir. Müasir dövrdə tarix səhnəsindən silinib gedən xalqlar vardır ki, onlar bayrağını yaşada bilməyənlərdir. Mədəniyyətlərindən əsər-əlamət qalsa da, bayraqları heç yerdə dalğalanmır. Onlar tarix səhnəsindən birdəfəlik silinib, yox olub getmişlər. Deməli, bayraq onu əsrlərə daşıyıb yaşadan xalqların qeyrət rəmzidir. Onun varlığı və dəyişə bilməsi tarixlə, siyasətlə sıx bağlıdır.

Azərbaycanın tarixində çox bayraqlar dalğalanıb. Lakin ulu tanrı indiki bayrağımızı qalib etsin, daim qalsın. Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri Məmməd Əmin Rəsulzadə parlamentin açılışında "Bir kərə yüksələn bayraq bir daha enməz" – söyləyib: ""İştə qoy bugünkü gün, milli bayraqlara boyanmış Azərbaycan paytaxtı, o kimi bədbinlərin qəlbini təsfiyə etsin! Bir sənəlik həyat həqiqətən də göstərdi ki, bir kərə açılmış Ləvai-hürriyyət bir daha bükülməz!" (8, 35). Tarixi yaddaşdan süzülüb gələn, xatirələrdən boylanan hadisə barədə Manaf Süleymanovun əsərində qeyd edilir ki, Məmməd Əmin Rəsulzadə "aypara və səkkizguşəli, ulduzlu qırmızı, abı, yaşıl zolaqlı üçrəngli Azərbaycan bayrağını göz bəbəyi kimi qoruyurdu, evdən çıxanda bədəninə alt köynəyinin üstündən səriyib sonra geyinirdi" (9, 378). Azərbaycan Milli Mərkəzinin sədri Məhəmməd Kəngərli (Türkiyədə mühacirətdə olan) Azərbaycan bayrağını Əbülfəz Elçibəyə təqdim edib (3, 71).

Onu da qeyd edək ki, 20 yanvar hadisəsində əhali öz etirazını, hüznünü eyvanlardan asılan qara bayraqlarla göstərməyə çalışdı. Hamı birlik nümayiş etdirib evlərində mövcud olan hər hansı bir qara rəngli parçanı bayraq adına bağlamağı özünə mənavi borc bilirdi. Çünki heç kəsin evində

təbii ki, qara bayraq olmur. Ağ bayrağın da müəyyən məna çaları vardır. O özündə təslimiyyəti mənalandırır.

Bayrağa yüklənən digər məzmun Şah Təhmasibin təzkirəsində belə ortaya çıxır:

*Ey bütün mövcudatı yaradan,*
*Aciz torpağı qüdrətli edən!*
*Kainat sənin bayrağın altında oturmuşdur,*
*Bizim varlığımız səndən, səninsə varlığın zatındadır (10, 38).*

Burada Allaha müraciət edilməklə qeyd olunan *bayraq* sözü bildiyimiz mənada deyil, Yaradanın bayrağı anlamı kəsb edir. Yəni, belə bir fikir əsaslandırılır ki, dini müstəvidə təqdim olunan bayraq Allahın böyüklüyüdür, hamı – bütün kainat əhli bərabər şəkildə onun təsiri altındadır.

Orta əsrlərdə Avropada bayraqlar yüksəlişə çatdı. Bu dövrdə bayraq fəal şəkildə inkişaf edir. Bayraq kral ailələrinin və zadəganların vacib atributuna çevrilir. Bütün bayraqlarda, bir qayda olaraq, nəslin fərqli əlamətləri qoyulurdu. Rəng və ya rəng birləşməsi öz təbiətinə görə deyil, ənənələr və baxışlar nəticəsində bu və ya digər məna qazanır (15). Gürcüstan, İngiltərə, Norveç, İsveç və Danimarka bayraqlarında xaç şəklini görmək mümkündür. Bu xristianlığın işarəsi kimi qəbul olunur. Deməli, bayraqlara dini müstəvidə yanama prinsipi mövcuddur. Göy qurşağı bayrağı göy qurşağının rənglərinə uyğun çoxrəngli bayraqdır. Yeddi rəngin ardıcıllığına əsaslanan bayraq müxtəlifliyi ilə seçilir: qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy, bənövşəyi. Göy qurşağı bayraqları müxtəlif mədəniyyətlərdə vardır. “Sülh Bayrağı” olaraq (sülh hərəkatının simvolu), Amerikanın yerli xalqlarının bayrağını misal göstərmək olar.

Ələm ərəb dilində bayraq deməkdir. O, "rənginə görə bir-birindən fərqlənib (Əməvilərdə ağ, Abbasilərdə qara, Teymurilərdə sarı və qırmızı, səfəvilərdə yaşıl və s.). Ələmləri daşımaq hüququ, adətən, müharibələrdə qəhrəmanlıq göstərən döyüşçülərə verilib. Sonralar ələm bəzi Yaxın Şərq ölkələrində dini mahiyyət kəsb edərək müxtəlif təriqətlərə məxsus əlamətə çevrilib. Misal üçün, Səfəvilər dövlətinin iqtidar simvolu olmuş əl fiquru Ələm adlanır, bu fiqur qara rəngli bayrağın ağacının ucuna taxılır və dini mərasimlər, ilk növbədə məhərrəmlik zamanı arada gəzdirilir. Ələm gəzdirənlərə ələmdar (bayraqdar) deyilir" (2, 83).

Orta əsr mənbələrində qayıdış bayrağı qaldırmaq, cəlalət bayrağı qaldırmaq, və döyüş bayrağı qaldırmaq kimi ifadələrə yer verilir (16, 65-67). Bu da görünür, böyük bir ordu və ya onun bir hissəsi üçün işarə olaraq dönüşü, zəfəri və döyüşə başlamağı mənalandırır.

Qeyd edək ki, "Yaponiya "doğan günəş ölkəsi" kimi tanınır və buna görə də bayrağının ortasında günəşi təmsil edən dairəvi formaya malikdir. Yaponiyanın dövlət bayrağı "Hinomaru" adlanır. Bu bayraq X1X əsrin sonlarına doğru qəbul edilmiş və istifadə olunmağa başlamışdır. Bayraqdakı ağ fonda qırmızı dairə ölkədən çıxan günəşi təmsil edir. Hinomaru sözünün mənası da elə "günəş dairəsi" deməkdir" (12). Bu da bayrağın coğrafi məna çalarını özündə cəmləşdirir.

Bayraq xalqın rənglərə boyanmış milli ruhunun təcəssümüdür. O, tarixən yaranaraq siyasi hadisələrin diktəsilə zamanla tarix səhnəsindən silinib gedə bilir. Bayraq fərqlilik nümunəsidir. O, seçilməni təmin edir. Ümumiyyətlə, bayraqlarda simvolik işarələr, tarixi hadisələrdən doğan reallıq, coğrafi vəziyyət, dini inanc və s. öz təcəssümünü tapır.

Elmi ədəbiyyatda etnik və ya milli bayraq anlayışı mövcuddur. Bunlar əsasən müəyyən etnik qrupun, azlıqların, diaspor hərəkatının rəmzinə çevrilir. Əsas odur ki, "İskəndərnamə" əsərində Nizami Gəncəvi azərbaycanlıların mental düşüncə tərzindən süzülüb gələn belə bir ideyanı göstərir ki,

*Dünyanı namusla saxlamaq lazımdır*
*Onun sayəsində bayraq ucalar (4, 125).*

Şair bu fikriylə dövlətin qalıcı olmasının təməl səbəbini onun ədalətlə idarə olunmasında görür.

Nizami "İskəndərnamə" əsərində bayrağın başında qıvırcıq qotaz olduğunu qeyd edir (4, 122). Bu bayrağın bəzədilməsinə işarədir.

Bayraqlar bir bildiriş rəmzidir. Əslində hərbdə və ya digər yerlərdə bayrağın ucaldılması mərdi-mərdanə onun özlərindən savayı başqalarına da göstərilməsi aydınlığın, aşkarlığın olmasına dəlalət edir. Tayfanın, qəbilənin, xalqın niyyət və amalı məhz bayrağın vasitəsilə bilinir. Əkbər Nəcəf yazır: "türklərdə müqəddəs rənglərin başında qırmızı ilk sırada gəlir. Türk dövlətlərinin əksəriyyətinin bayrağı da məhz qırmızı rəngdə olmuşdur" (7, 186).

Müxtəlif səviyyəli siyasi və diplomatik görüşlərdə bayraqlardan mühüm əhəmiyyət kəsb edərək fərqləndirici amil kimi istifadə edilir. Azərbaycanın ümummilli lideri Heydər Əliyev demişdir: "bu dəqiqələrdə biz tarixi anlar yaşayırıq. Az sonra Azərbaycanın bayrağı Avropa Şurası Sarayının önündə dalğalanacaqdır. Bu bayrağın rənglərindən birinin mənası müasirləşmək, yəni avropalaşmaqdır. Xoşbəxtik ki, hamımızın ümumi səyləri ilə bayrağımız bir daha öz həqiqi mənasına qovuşur, öz həqiqi yerini tutur" (11).

Bayraqlar mahiyyətinə görə müxtəlif olur: milli, idman, hərbi, və s. Bundan əlavə milli yas səbəbiylə onların yarıya endirilməsi faktı da dövlətlərin tarixində qeydə alınan faktdır.

Azərbaycanda Qarabağ hadisələri zamanı 44 günlük mücadilə dövrü boyunca və xüsusilə zəfərin sonunda Türkiyənin dövlət bayrağının Azərbaycanın dövlət bayrağı ilə bərabər dalğalanması R.T.Ərdoğan Türkiyəsinin həm siyasi və mənəvi dəstəyinin, həm də ümumxalq məhəbbətinin, hörmətinin bariz nümunəsi idi. Bundan əlavə, əksər yerlərdə Pakistan bayrağının da var olması sevindirici hadisə idi. Çünki 3 bayrağın sancılması ədalətli mücadiləmiz yolunda onların birlik numayiş etdirmələri, dəstək göstərmələri bu üç millətin xalqımızın nümayəndələri tərəfindən yüksək dəyərləndirilməsinə işarədir. Kaş bu haqq işimizdə əlimizdə qlobus tuta biləydik.

Bayrağın eyni zamanda ruhlandırıcı gücü vardır. Belə ki, o özündə təntənəni, əzəməti ehtiva edir. O, qələbə yolunda tutulan çıraqdır, uğurlu yolun mayakıdır, namus və qeyrət rəmzidir. Bu səbəbdəndir ki, prezidentimiz cənab İlham Heydər oğlu Əliyev bölgələrimizdə onu dalğalandırdıqda əvvəlcə bayrağı öpüb sonra ucaldır. Son zamanlarda Azərbaycan bayrağının azadlığa çıxmış Vətən torpaqlarının hər qarışında yüksəkliyə sancılması qürurverici hadisədir. Hər bayraq asıldıqca xalqımızın ədalətin zəfər çalacağına inamı daha da artır. Çünki İlham Əliyev demiş: bayraq qanımız, canımızdır. Hər bir azərbaycanlı da bunu belə görür.

Mithat Cemal Kuntayın dediyi du dəyərli sözlər dillər əzbəridir: Bayrakları bayrak yapan üstündeki kandır, Toprak eğer uğrunda ölen varsa vatandır (13). Mahnılarımızda bayrağımıza verilən dəyər bu sözlərlə öz ifadəsini tapır: “Qurban olum Azərbaycan bu müqəddəs

bayrağına" və ya "Çırpınırdı Qara dəniz baxıb türkün bayrağına" "Bu üç rəngli bayrağım gözümün işığıdır".

Beləliklə, tarixən bayraqlar tayfaların, hakimlərin, xalqların simvolunu özündə ehtiva edir. O, dövlət atributu olmaqla mənsubiyyət göstərən əlamətdir. Bayrağın üzərində müəyyən rəmz, nişan olmaqla o, özünəməxsus rəng çalarına malik olur. Onlarda dini simvolları görmək mümkündür. Bayraqlara dini baxımdan yanaşma dövlətlərin dünyagörüşündən süzülüb gəlir. Bu da onların rəngindən, üzərindəki işarələrdən bilinir. Bayraq müstəqilliyin rəmzidir. Bayrağı vətənlə bərabərləşdirmək, onların ayrılmazlığını göstərmək, şəhidləri son mənzilə uğurlayanda üzərinə bayraq sərmək türk xalqlarında onun dəyərini əks etdirir. Yəni, tarixin müxtəlif dövrlərində yaranmaqla xalqların həyatında mühüm əhəmiyyət kəsb edən bayraq bir dəyərə çevrilir. Çünki o, rəsmiyyət qazansa da, əslində milli ruhu özündə daşıyır. Azərbaycanın Dövlət başçısı Ilham Əliyevin sərəncamıyla noyabrın 9-u Dövlət Bayrağı günü kimi qeyd edilir. Şanlı bayrağımız daim yüksəklərdə ucalsın.

**Ədəbiyyat**


1. Azərbaycan incəsənəti. – Bakı: İşıq, – 1992. – 344 s.
2. Balayev A. Tarix terminləri lüğəti. – Bakı: Altun kitab, – 2017. – 336 s.
3. Əhməd D. Cumhuriyyət bayrağı. – Bakı: Çapar, – 2023. – 164 s.
4. Gəncəvi N. İsgəndərnamə. – Bakı: Elm, – 1983. – 650 s.
5. İsmayıl M., Bağırova M. Şəki xanlığı. – Bakı: Azərnəşr, 1997.
6. Kitabi Dədə Qorqud. – Bakı: Yazıçı, – 1988. – 265 s.
7. Nəcəf Ə.N. İnanc yaddaşı (köklər və tarixlər). İnanc yaddaşı. – Bakı: İzmedia, – 2014. – 352 s.

8. Rəsulzadə M.Ə. Əsərləri II cilddə, (1909-1914). II c., – Bakı: Şirvannəşr, – 2001. – 528 s.
9. Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. – Bakı: Azərbaycan, – 1996. – 384 s.
10. Şah Təhmasibin təzkirəsi (fars dilindən tərcümə Rəhimov Əbülfəz Haşım oğlunundur). – Bakı: Azərnəşr, – 1996. – 128 s.
11. https://mod.gov.az/az/pre/24822.html
12. https://yenisabah.az
13. https://www.milliyet.com.tr/siirler/on-bes-yili-karsilarken-siiri-mithat-cemal-kuntay-6405067
14. https://masterflag.ru/info
15. https://fr-olymp.ru/blog/istoriya-flagov-znacheniya-tsvetov-reglamentatsiya-pri-izgotovlenii
16. Mirzə Mehdi xan Astarabadi. Cahanı fəth edən Nadirin tarixi (farscadan tərc. İ.N.Quliyev). 1 kitab. – Bakı: Elm və təhsil, – 2023. – 204 s.

# EYNİ XALQIN DİNİ MƏNSUBİYYƏT MÜXTƏLİFLİYİ

Təqdim olunan bu məqalədə Qafqazda yaşayan müxtəlif xalqların mənəvi mədəniyyətinin tərkib hissəsi olan dinlə və dini mənsubiyyətlə bağlı məsələlər araşdırılır. Belə ki, burada zamanla forlaşıb xalqların həyatında müəyyən izlər buraxan dini dünyagörüşünün müxtəlifliyindən söhbət açılır. Vahid xalqda iki fərqli dinin yanaşı, ibadət obyekti olması tarixi və etnoqrafik dəlillərlə təsdiq edilir.

Tarix bəşəriyyətin inkişafı yolunda açdığı səhifələrilə maraqlı təzadlara da imza atmışdır. Bu təzadlar etnik qrupların taleyinə müxtəlif çalarlar qataraq fərqli məzmunda insanların məişət və mədəniyyətinə sirayət etmişdir. Hər bir xalqın mənəvi mədəniyyətində yer alan dinin təsir qüvvəsi özünəməxsus şəkildə etnik şüurda izlər qoyaraq onların məişətində müəyyən istiqamət formalaşdıra bilmişdir. Məlumdur ki, hər hansı din olursa, olsun insanların həyat tərzinə bu və ya digər şəkildə öz təsirini göstərir. Yaşam biçiminə istiqamət verən dini ehkamlara insanların sadiq qalması əsrlər boyu davam edərək dünyagörüşündə özünə müəyyən yer etmişdir. R.Əliyev haqlı olaraq qeyd edir ki, din insanın yaradılış məqsədi, xeyir və şər, gələcək həyatla bağlı Allahla insan arasındakı qarşılıqlı münasibətlər çərçivəsində tələbatdan yaranan bir anlayışdır. Bu tələbat insanın daxilində şüuraltında yaranır və törəniş anından insanların təbiətində proqramlaşır (13, 7).

Qafqazın etnik xəritəsinə ötəri nəzər salsaq, bu ərazinin hələ qədim zamanlardan çoxsaylı xalqların yerləşmə məkanı olduğu aydın olur. Onlar içrə tarix səhnəsindən yox olub gedənlər, digər ərazilərə köç edənlər, digər ərazilərdən buraya miqrasiya edənlər olmuşdur. Bəşər cəmiyyətinin inkişafı boyunca mövcud olan tarixi proseslər xalqların həyat tərzində izlər buraxmışdır. Xalqlar içərisində çoxsaylı və azsaylı adlandırılan və etnoqrafik baxımdan olduqca maraqlı xalqlar yaşamaqdadır. Saylarından asılı olmayaraq, tarixin müxtəlif inkişaf mərhələlərində xalqların həyatında ilkin ibtidai dini təsəvvürlərdən başlamış monoteist dinlərin qəbul edilməsinə qədər böyük məsafə qət edilmişdir. Belə uzun zaman yolçuluğunda dəyişən həyat şərtləri və bütövlükdə yürüdülən siyasət nəticəsində insanların maraq dairəsindən doğan müəyyən səbəblər onların dinə münasibətində də dəyişikliklərə yol açmışdır. Hətta tarixi reallıq zəminində vergi amilinin təsir gücü olmuşdur.

Etnoqrafik baxımdan maraq doğuran cəhətdir ki, dünya xalqları içərisində elələri vardır ki, onlar eyni soy-kökdən olsalar da, və məişət-mədəniyyət ümumiliyinə malik olub vahid dili paylaşsalar da, nəhayət, eyni ərazidə yaşasalar da və hətta eyni özünüdərkə söykənsələr də, bununla bərabər başqa-başqa dinlərə sitayiş edirlər. Bunların içərisində vahid söykökə malik olmaqla bərabər fəqət başqa ərazilərdə yaşayıb dini mənsubiyyəti fərqli olanlar vardır. Bu amil məhz digər xalqlar içərisində tarixi şərtlər daxilində dini mənsubiyyətə təsirlə bağlıdır. Qafqaz xalqları içərisində yaşayan çoxsaylı etnik qruplar arasında elələri vardır ki, onlar vahid mədəniyyətin daşıyıcısı sayılsalar da, ayrı-ayrı dinlərə ibadət edirlər. Onlara misal olaraq gürcüləri, osetinləri, ingiloyları, kalmıkları, kabardinləri, ermənilər və digərlərini göstərmək olar.

Hətta tək-tək adamlara da rast gəlmək mümkündür ki, sonradan azad şəkildə başqa dini qəbul edir.

Ümumiyyətlə, xalqların dini mənsubiyyətində hissəvi və ya fərdi olaraq dəyişikliklərin olması bir faktdır. Məsələn, kalmıkların bəziləri buddist, bəziləri isə pravoslav xristianlardır. Mazdok kabardinləri pravoslav xristiandırlar. Digər kabardinlər sünnü müsəlmanlardır. Rus kazaklarının bir hissəsi isə staroobryadçıdırlar. Hətta Qafqazdan kənarda yaşayan xalqlar arasında da beləlirinə rast gəlmək mümkündür. Məsələn, qaqauzlar. Onların da arasında həm xristianlar, həm də müsəlmanlar vardır. Qaqauzlar digər türk xalqlarında olduğu kimi tanrıçılığa inanmışlar. Sonralar pravoslav dininə ibadət etsələr də, hal-hazırda aralarında sünni müsəlmanlar mövcuddur.

Heç şübhəsiz, göstərilən məsələ bilavasitə tarixin gedişatı ilə əlaqədardır. Tarixi gerçəklik və real hadisələrin xalqların həyatında təsiri güclü olmuşdur. Tarix səhnəsində baş verən hadisələr siyasi vəziyyətə təsir göstərərək öz qanunauyğunluqlarını diktə edə bilmişdir. Buna görə də fikrimizi əsaslandırmaq üçün Qafqazın tarixində baş verən hadisələrin ardıcıllığına qısaca nəzər salsaq, məqsədəuyğun olar.

Qədim insanların yaşayış məskəni sayılan və paleolit dövründən məskunlaşdığı arxeoloji dəlillərlə sübuta yetirilən, əlverişli təbii-coğrafi şəraitə malik bir ərazi olduğundan Qafqazda ilkin dini inamlar və müxtəlif təsəvvürlər məkan və zamana uyğun şəkildə formalaşmışdır. Burada elmi ədəbiyyata animizm, totemizm, fetişizm, magiya kimi daxil olmuş ilkin dini təsəvvürlərin olduğu məlumdur, hətta qalıq şəklində izlərinə bəzən indi də rast gəlmək mümkündür.

İlkin olaraq onu qeyd etmək lazımdır ki, siyasi baxımdan Qafqaz yerləşdiyi məkan etibarilə bütün dövrlər-

də iri dövlətlərin maraq dairəsinə daxil olub. Buraya olan yürüşlər istər-istəməz xalqın dini etiqadına öz təsirini göstərə bilmişdir. Tarixə qısa nəzər salsaq, ardıcıllıqla buraya marağın izlərini Qafqaz uğrunda gedən Roma ilə Parfiya arasındakı rəqabətdə, Sasani, Ərəb, Səlcuq, Monqol, Osmanlı, İran, Rusiya kimi dövlət və sülalələrin yürüşlərinin timsalında görmək mümkün olur. Belə yürüşlər nəticəsində əhali müxtəlif dini təriqətlərin təbliğinə və təşviqinə məruz qalmışdır. Tarixdən bəllidir ki, bu və ya digər xalqı tabe etmənin başlıca yolu əksəriyyətlə onlara din vasitəsilə təsiretmədən keçir.

Qafqaza müxtəlif dinləri yaymaqla mükəlləf olan missionerlərin gəlişi və təbliği öz bərabərində həmin dinlərə sitayişi şərtləndirirdi. Aydın məsələdir ki, dini mənsubiyyətin Qafqaz sakinləri tərəfindən qəbul edilərək seçilməsi prosesi birdən-birə baş verməmişdir. Bu məsələdə müəyyən zamana ehtiyac duyulmuşdur. Monoteist dinlərin müəyyən bir xalq tərəfindən qəbulu zaman alandır. İslam dininin Qafqazda yayılmasını uzun sürən proses kimi dəyərləndirmək mümkündür. İnsanlar məhz onların öz dilində danışan yerlilərinin dini ehkamları mənimsədikdən sonra əhali arasında yayılmasına etibar etmişlər. Bünün üçün isə xeyli zaman keçmişdir.

İslama qədər Qafqazda monoteist dinlərdən xristianlıq və qismən iudaizm yayılmışdı. Xəzər xaqanlığında iudaizm dini qəbul edilmişdi. İslam dini özü də birdən-birə bu ərazidə öz təsdiqini tapa bilməmişdi. Bunun üçün əsrlər keçmiş, Quranın ehkamlarında bu regionun yaşam tərzinə qeyri-uyğun fikirlər olmadığından yerli sakinlər zamanla İslamı qəbul edərək öz adət-ənənələrindən imtina etməmiş və həyat tərzini qoruyub saxlamaq şərtilə dinin rüknlərinə uyğun şəkildə yaşamağa davam etmişlər. Lakin Qafqazda

yaşayan bir sıra xalqlar əvvəlki kimi monoteist xristian dininin nümayəndəsi olaraq qalmışlar. Bu da ondan irəli gəlir ki, monoteist dinlərə münasibətdə İslam tolerantlığı özünü bariz şəkildə göstərir. Ümumiyyətlə, Qafqaz regionunda monoteist dinlər (İudaizm, Xristianlıq və İslam) əhalinin etiqad mənbəyi olaraq hələ də qalmaqdadır. Qafqaz ərazisində bu dinlərin nümayəndələrinin bərabərhüquqluluq şəraitində yaşaması davam etməkdədir.

Dini mənsubiyyət ayrılığı probleminin tarixən şərtlənən səbəbləri mövcuddur. Birincisi odur ki, heç bir xalq ərazisinə edilən hücum aktını və bununla əsası qoyulan kənar diktəni xoşlamır. Məsələn, osetinlərdə müsəlmanların sayı Rusiyanın onların ərazilərini işğalından sonra artmağa başlamışdır. Bir növ əhali etirazlarını bununla bildirməyə çalışmışdır. Lakin elə həmin osetinlərdə bütün Qafqaz xalqlarında olduğu kimi ibtidai dini qalıqlara da rast gəlmək mümkündür. Belə ki, nəsli-ailə kultu, dəfn kultu, aqrar icma kultu, dəmirçi kultu, əkinçilik və maldarlıqla bağlı müxtəlif tanrılara sitayiş, şamanlığın qalıqları və s.ni qeyd etmək olar. Qafqaz ərazisində dini sinkretizm (tarixi inkişafın gedişində müxtəlif məzhəb və inamların dinin təsir prosesində birləşməsi) müasir dövrün reallığına çevrilmişdir. Elə Azərbaycanın özündə də ocaqlara inam, pirləri ziyarət davam etməkdədir. Bu da Qafqaz xalqlarının minillik tarixində var olan inamın və dünyagörüşünün mühafizəkarlığının bariz nümunəsidir.

Hər bir tarixi dövrdə məkana və zamana uyğun dini dünyagörüşünün formalaşması reallıqdır. İlkin dini təsəvvürlər məhz ibtidai-icma quruluşunda yaşayan və təbiətlə sıx bağlı olan insanların ətrafda gördükləri əşyalara və müxtəlif cisimlərə bir məna çaları yükləməsi ilə müşahidə olunur. Sonrakı dövrlərdə ibtidai-icmanın dağılması

ilə təkallaha etiqad ideyası üstünlük təşkil etməyə başlayır və nəticədə geniş yayılır. Bu ideya istər iudaizm, istər xristianlıq, istərsə də İslam dinində bilavasitə özünü təzahür etdirir. Lakin yeni din özünə yer etməsinə baxmayaraq, qalıq şəklində ilkin dini inamların izləri sonrakı dövrlərə də sirayət edir. Lakin udilərdə bu fərqli çalara malikdir. Məsələn, “udilər təkcə xristian dininə məxsus ocaqlara deyil, həm də müsəlmanlara məxsus pirlərə itaət edir, onlara qurban deyirdilər. Məsələn, Nic udiləri Soltan Nuxa kəndindəki Şeşpər baba adlı ocağa gedər, ora qurban aparar, niyyət edib onu ziyarət edərdilər” (4, 164). Deməli, müsəlmanlığı qəbul etməsələr də, udilər müsəlman pirlərini müqəddəs saymışlar.

Dini mənsubiyyət ayrılığının digər səbəbi siyasi xəttdən asılı olaraq tətbiq olunan vergi siyasətidir. Tətbiq olunan vergi siyasətinin stimullaşdırıcı, şirnikləndirici rolu olduğu üçün insanlara təsir gücü vardı. Əhalinin bu və ya digər dinə münasibətdə seçim qarşısında qoyulması danılmaz faktdır. Belə bir münasibət ingiloylara qarşı tətbiq olunurdu. Ona görə də vahid xalq olsalar da, indi onlar arasında müsəlman və xristianlara rast gəlinir. Bu xüsusda Əliağa Məmmədli Ələskərova əsaslanaraq yazır: “tarixi mənbələrə əsasən Rusiya imperatorluğu Azərbaycanı işğal etdikdən sonra çar hakimiyyəti bu regionda məcburi xristianlaşma siyasəti yürüdürdü. Lakin bu siyasət iflasa uğramışdı. Belə ki, 1834-cü ilə qədər yalnız 32 ingiloy xristianlığı qəbul etmişdir. Bu səbəbdən çar hökuməti tərəfindən qərar qəbul olunmuşdu ki, xristianlığı qəbul edənlər vergilərdən azad olunurlar. Qeyd olunan tədbirlər nəticəsində 1850-1856-cı illərdə İlisu sahəsinin Qax, Əlibəyli, Karağan, Kötüklü, Meşəbaş və Şotavar kəndlərində yaşayan əhalinin bir hissəsi xristianlığı qəbul etmişlər”. Müəllif

İ.P.Petruşevskiyə əsaslanıb sözlərinə onu da əlavə edir ki, "1858-ci ildə Tasmalı, Zəyəm, Lələ-Paşa, Mirsaya və Yengiyan kəndlərinin əhalisi xristianlığı qəbul etmişdir".

İradə Əliyeva öz tədqiqatında göstərir ki, "Baryatinski 1859-cu il sentyabrın 30-da pravoslavlığı qəbul etmiş ingiloyların xəzinəyə ödədiyi torpaq, tüstü və digər vergi və mükəlləfiyyətlərdən azad edilməsi barədə Qafqaz komitəsinin sədrinə müraciət edir" (12, 120). Müəllif tezliklə kəndlərdə kilsə tikintisinə başlanıldığını sözlərinə əlavə edir. Aydındır ki, kilsələrin tikilməsi dini icmanın yaranmasına yönəldilmiş addımdır. Eyni zamanda bu pravoslavlığın ərazidə möhkəmlənməsinə isqamətlənmişdir. Əliağa Məmmədli etnoqrafik materiallara söykənərək sonralar əksəriyyətin yenidən İslama döndüyünü qeyd edir (3, 133). Deməli, özlərinə yerli əhali arasında dayaq axtarmaq üçün Rusiya dövlət numayəndələri din amilindən istifadə etməyə çalışır. Vergilərdən azad etməklə əhali arasında məhz din vasitəsilə ayrı-seçkilik, özü də eyni xalqın nümayəndələri içərisində bölücülük siyasəti yeridilir.

Maraqlı faktdır ki, L.T.Solovyevanın qeyd etdiyi kimi inquşlar arasında xristianlığın yayılması nəinki Rusiya imperiyası tərəfindən XIX əsrin əvvəllərindən, hətta daha əvvəllərdə XVIII əsrin ikinci yarısından XIX əsrin əvvəllərinədək Gürcüstan missionerlərinin aktiv fəaliyyətinə məruz qalmış, lakin uğursuz olmuşdur. Müəllif daha sonra qeyd edir ki, Gürcüstanın Mərkəzi Tarix Arxivində 1836-cı ildə inquşların xristianlaşdırılması haqda maraqlı məlumat var. Sənədlərə əsaslanaraq qeyd olunur ki, Qafqaz korpusunun komandirinin hərbi nazirə münasibəti və Vladikavkaz komendantına raportundan yeni xristianlaşmış inquşlarla məhəmmədilər (müsəlmanlar – Ş.B.) arasında qarşıdurma haqda məlumat verilir (10, 386). Müəl-

lifin məlumatlarından bu qənaətə gəlmək mümkündür ki, informantlara görə inquşların xristian dinini qəbul edərkən əsas rol ağsaqqallara məxsus olmuş, onların məsləhətlərinə və digər qonşulara baxaraq xristianlıq qəbul edilmişdir. Hətta qohumlar və ailə içində dini əlamətə görə ayrılma vardı və bu da çox vaxt mübahisələrə gətirib çıxarırdı. XIX əsrdə İnquşetiyada üç dini istiqamət vardı: xristianlıq, müsəlmanlıq və bütpərəstlik (10, 387). Göründüyü kimi, bir xalqın içərisində xristian dinini sadəcə ağsaqqalların hörmətinə və digərlərinin təsirinə məruz qalaraq, həm də mahiyyəti tam dərk olunmadan qəbul etmə xalqın daxili vəhdətini belə poza bilirdi.

XVIII əsrin 90-cı illərinin sonunda Osetiyada xristian maarifçiliyi faktiki olaraq qırıldı, belə ki, çarizm Şimali Qafqazda öz hakimiyyətini möhkəmləndirməkdən ötrü silah gücünə üstünlük verdi və açıqca müstəmləkə siyasətinə keçdi (11, 392). Deməli, yürüdülən siyasətin də xalqın həyatında izləri qalır.

Ümumiyyətlə, Qafqaz Rusiyanın siyasi maraq dairəsinə daxil olduğundan yürüdülən siyasət də məhz müvafiq hal alırdı. T.Mustafazadə yazır: "I Pyotr Xəzəryanı bölgələrdə möhkəmlənmək üçün burada xristian əhalisindən ibarət sosial dayaq yaratmaq niyyətində idi. Hələ cənuba yürüş ərəfəsində çar ermənilər və gürcüləri Xəzəryanı vilayətlərə köçməyə çağırmışdı. Onları Dərbənd və Bakı bölgələrində yerləşdirmək nəzərdə tutulurdu. Bu məqsədlə Rusiya hökmdarı ilk növbədə, çox mühüm strateji əhəmiyyətə malik və Xəzərdə ən böyük liman olan Bakıdan yerli əhalini – azərbaycanlıları sürgün etmək niyyətində idi" (7, 76-77). Göründüyü kimi, dini mənsubiyyət amilindən siyasət aləti kimi istifadə olunurdu. İnsan həyatını, bir etnosun taleyini nəyin bahasına

olursa olsun, mənfur siyasətin qurbanına çevirmək dövlətin xətti kimi onu sonrakı zamanlara qədər gətirib çıxarmaq adil davranış deyildir.

XIX əsrdə Şimali Qafqaz milli-azadlıq hərəkatının başçısı Şeyx Şamil hərəkatının vüsət alması Rusiya çarizminin yürütdüyü siyəsətə cavab reaksiyası olmuşdur. Rusiya çarizminin müxtəlif xalqların nümayəndələri arasında iqtisadi, ticari əlaqələrə zərbə vurmağa çalışması, xalqları parçalayıb, hökm sürməyə can atması Qafqazın yerli sakinlərinin səbr kəsasını doldurmuş və bir sıra xalqların nümayəndələrinin vahid din – İslam ətrafında daha sıx birləşməsini labüd hala gətirib çıxarmışdır.

Tarix dindən istifadə etməklə miqrasiya və başqa dövlət ərazisində yerləşmə ilə bağlı maraqlı hadisələrlə doludur. Məsələn, Ç.Qurbanovanın qeyd etdiyi kimi, I Şah Abbasın vaxtında Azərbaycana karmelitlər (Roma papasının xüsusi missiyası ilə) gəlirdilər (Karmelitlər XII əsrin ikinci yarısında Fələstində əsası qoyulmuş katolik rahib ordeni idi və onun üzvləri XIII əsrin ortalarında Avropada məskən salmışlar). I Şah Abbas Avropa ilə əlaqələri möhkəmləndirmək məqsədilə 1599-cu ildə Səfəvi dövlətində xristianlığın azad ibadətinə fərman verdi (1, 31-32). Göstərilən bu tarixi fakt onu deməyə əsas verir ki, İslam dininin yayıldığı arealda xristianlara ibadət azadlığı təmin olunmuş və onlar sərbəst və azad yaşam tərzi keçirərək bu mənsubiyyətə görə təqib edilməmişlər.

Bir fakta toxunmaq da zəruridir. Alban avtokefal (azad) kilsəsinin və katolikosluğunun ləğvi barədə 1836-cı il qərarının olması maraq doğuran məsələdir (4, 86). Nə üçün belə qərar qəbul olunmuşdur, özü də Azərbaycan ilhaq olduqdan sonra suallarına cavab tapmaq lazımdır. Axı xristian kilsəsi ola-ola onun ləğvinə fərman veril-

məsi nəyin nəticəsi sayıla bilər? Burada zehni düşündürən bir məsələ vardır ki, o da onun azad olmasındadır. Görünür, kilsə prinsipial olaraq vahid mərkəzə tabe olmaqdan imtina etmiş və öz gəlirlərini bölüşmək istəməmişdir. İkinci bir tərəfdən, bunun erməni kilsəsinin təkidi ilə rus pravoslav kilsəsinin müqəddəs sinodu vasitəsilə baş verdiyi qeyd edilməkdədir (4, 32). Deməli, bunun arxasında məkrli bir plan dayanır. Bu öz mövqelərini hakim qılmağa çalışan erməni qüvvələrin əsas məqsədi idi. Onlar kilsə vasitəsilə gəlir mənbəyini özlərinə çəkməyə və öz diktələrini yeritməyə çalışırdılar.

Qafqaz ümumən İslam dininin yayıldığı ərazidir. A.A.Yarlıkapovun qeyd etdiyi kimi "Şimali Qafqaz əksəriyyətlə islam bölgəsidir. Adıgelər, abazilər, çərkəzlər, osetinlərin bir hissəsi, kabardinlər, qaraçaylar, bolqarlar, noqaylar, şimali Qafqaz türkmənləri Hənəfi məzhəbli sünnü müsəlmandırlar. Dağıstanın demək olar ki, bütün xalqları (həmçinin türkdilli kumıklar), çeçenlər və inquşlar Şəfai məzhəbinə mənsub sünnü müsəlmandırlar" (2). Qafqazın bir sıra xalqları vahid dini mənsubiyyətilə sabitqədəmdir. Qafqazda ənənəvi dinlərlə yanaşı, miqrasiyalar zamanı katoliklər, lüteranlar və digərləri peyda olurlar (9).

1944-cü ildə zorakı köçürmə siyasətinə məruz qalan çeçenlər müsəlman dini ətrafında daha sıx birləşməklə xalqın həm də mənliyini qorumağa çalışdılar. Xüsusən XX əsrin 80-ci illərində rəsmən qeydiyyata alınmayan məscidlərin sayı artmağa başladı. İslam dini xalqın demək olar ki, əksəriyyətini birləşdirən vəhdətə çevrildi. Bu vəhdət xalqı müstəqillik meylinə sürüklədi. Deməli, xalq öz mobil birliyini məhz dini zəmində birləşməklə tapa bildi. Buradan belə qənaətə gəlmək mümkündür ki, din siyasi proseslərin gedişatına bilavasitə təsirini göstərə bi-

lən amildir. Aydın məsələdir ki, din cəmiyyətin inkişaf səviyyəsinə bu və ya digər şəkildə öz təsirini göstərir.

Qafqaz geosiyasi məkan olmaqla burada dinin əhəmiyyətli rolu vardır. Din xalqların məişətinə sirayət etmişdir. Bu da bir reallıqdır ki, insanların ictimai və məişət maraqlarının olduğu danılmaz faktdır. Deməli, İslam dini yerli məişətə, adət-ənənələrə uyğun gəlmişdir ki, insanlar xristianlığa ibadətdən imtina etmişlər. Əvvəllər xristianlığı qəbul edənlər sonradan tamamilə müsəlmanlaşa bilmişlər.

Özünün "Din və Şimali Qafqazda milli təhlükəsizlik problemi" adlı namizədlik dissertasiyasında Yelena Serqeyevna Suslova yazır ki, kazaklar, baptistlər erməni icmaları tərəfindən kilsələrin tikilməsinə qarşı çıxırlar (6, 13). Müsəlmanlarla pravoslavlar arasında qarşılıqlı münasibətlər kifayət qədər nəzakət çərçivəsindədir. İki konfessiya da öz aralarında problem görmürlər. Şimali Qafqazda 5000 məscidin olması İslamın dirçəlməsində özünü büruzə verir (6, 14).

Bütün bu deyilənlər real gerçəkliyə söykənir. Lakin tarixi şəraitin doğurdugu faktlardan biri vahid bir xalqın içərisində müxtəlif dinə inananların olmasıdır.

Bir xalqın iki dini mənsubiyyətlə ayrılması prosesi gürcülər arasında da baş vermişdir. Əksər gürcülər məlum olduğu kimi pravoslavdırlar. Lakin Acariyanın gürcüləri müsəlmanlardır (sünnüdürlər) (5). Son illər ərzində Gürcüstana "fereydan" (Fereydan İranda yer adıdır – Ş.B.) adlanan şiə müsəlmanlar köç etmişlər. Onlar şah Abbasın vaxtında İrana getmişlər. Şah Abbas Kaxetiyada yaşayan gürcüləri Fereydan bölgəsinə zorla köçürmüşdür və bunun nəticəsində onlar farslar tərəfindən assimilyasiyaya uğramış və yalnız az bir hissəsi tarixi yaddaşını qoruya bilmişdir. İslamlaşma nəticəsində gürcü etnosunun tərkibindən

lazlar, acarlar və çveneburilər ayrılmışlar (5). Türkiyədə yaşayan gürcü müsəlmanları özlərini "şavşet" və ya "imerxev" və ya vahid ümumi adla çveneburi adlandırırlar.

Hemşin adlanan ermənilər də müsəlmandırlar. Onlar Türkiyədən başqa Gürcüstanda da məskunlaşmışlar (5). Belələrinə Ermənistan ərazisində rast gəlmək mümkün deyildir. Çünki müasir Ermənistan ərazisində ermənilər qriqorian dini altında yaradılan birliyə həm etnik, həm də siyasi baxımdan söykənirlər. Buna görə də monoetnik dövlət kimi fəaliyyət göstərməyə çalışırlar. Başqa dinə mənsub olan erməni mənşəliləri ərazilərinə qəbul etmirlər. Ermənilər arasında katoliklər də vardır. Gürcüstanda da Türkiyədə olduğu kimi müsəlman ermənilər vardır ki, onları "hemşin" adlandırırlar. Bir sıra rus məlumatlarında onların adı "amşen" kimi təqdim olunur. Hemşin adlananların etnik identifikasiyasında özlərini erməni kimi dərk etmə üstünlük təşkil edir, belə ki, müsəlman olsalar da, onlar özlərini erməni bilirlər, başqa sözlə, ermənilərin subetnik qrupu kimi təqdim olunurlar. Türkiyədə kompakt olaraq məskunlaşdıqları ərazilər əsasən Qara dənizin sahil bölgələridir.

Ümumiyyətlə, polietnik və polietnokonfessional bölgədə mühacirətin və geriqayıdışın olması tarixi hadisələrin axınında gerçəkləşmişdir. Bu miqrasiyalar yerli əraziyə və ətraf sosial cəmiyyətə adaptasiya olunma prosesini zəruri hala salmışdır. Bu zəmində təbii ki, dini mənsubiyyətdə də dəyişikliklərin olması baş vermişdir.

Ümumiyyətlə, Qafqazda monoteist dinlərdən Xristianlığın və İslamın ərazidə varlığını saxlaması, bərabər şəkildə yaşaması əsrlər boyu davam etmişdir. A.A.Yarlıkapov göstərir ki, Şimali Qafqazda İslamın yerli forması İslam normalarını və Qafqaz mədəniyyətini çulğalaşdır-

mağı bacardı (14, 304). İslam dininin yayılması hər yerdə eyni vaxtda baş verməmişdir. Başqa müəlliflərin əksinə Osetinlərdə İslamın yayılması tarixinin XIII-XIV əsrlərə gedib çıxdığını söyləyən A.Maqometov onların İslamın xarici formasını (dəfn adətini) əxz etdiklərini qeyd edir. Müəllif həmçinin pravoslav kahinlərlə bərabər Məhəmmədi mollaların olduğunu sözlərinə əlavə edir (8, 469). Müasir dövrdə təkcə Şimali Osetiyada məscidlərin sayı (32) xeyli artmış vəziyyətdədir.

İ.L.Babiçin məqaləsində göstərilir ki, xristian adıqlar pravoslavdır, lakin əsas etibarilə adıqlar protestantdırlar (15, 322). Bundan əlavə, bildirilir ki, Adıq respublikasında dini mozaika müşahidə olunur və müxtəlif submədəniyyətlər və dini identiklik zəminində mənəvi normalar yaranır (15, 338). 1990-2010-cu illər ərzində məscid, kilsə, dua evlərinə münasibət yarandı. Adıq identikliyinin inkişafında İslamın birləşdirici amil olmadığı qeyd edilir. İslamın dirçəlməsi prosesinə münasibət zəminində adıq cəmiyyəti əhəmiyyətli dərəcədə submədəni qruplara ayrılıbdır (15, 340). Adıqlar içrə xristian və müsəlman daha çoxdur, nəinki digər dini təriqət nümayəndələri.

M.M.Mçedlova yazır ki, insanlar tərəfindən dinin və dini təşkilatların mənimsənməsi çox müxtəlifdir: birilərinə bu inam və Allahla ünsiyyətdir, başqalarına başlıca aksent dini institutların siyasi və sosial fəallığıdır, üçüncülər üçün mənəviyyatın kvintessensiyasıdır (cövhəridir), çoxları üçün mədəni-sivil identikliyin meyarı və həmçinin həmrəyliyin formalarının axtarışıdır (16, 147).

Beləliklə, deyilənlərə belə yekun vura bilərik ki, xalqın mənəvi dünyasında, inam və ibadətdə əsas özül dindir. Tarixi hadisələr insanların dini mənsubiyyət seçimində mühüm rol oynamış, onların sərbəst fəaliyyətinə

öz təsirini göstərə bilmişdir. Dini mənsubiyyət məsələsi tarixi gerçəklikdən bilavasitə asılı olmuşdur. İnsanların həyatında dini düşüncə tərzinin mühüm əhəmiyyəti olduğu danılmaz faktdır. İbtidai insanların ilkin dini inamlarından başlamış indiki dövrə qədər bəşər tarixində hələ də din öz əhəmiyyətini qoruyub saxlamaqdadır. Dini təsəvvürlər və bununla bağlı icra olunan ayinlər cəmiyyət həyatının bütün sahələrinə nüfuz edə bilir. Qafqazda yaşayan xalqların taleyində bu göstərilənlər varlığını davam etdirmişdir. Onlar bu və ya digər şəkildə (könüllü və məcburi) ikili dini mənsubiyyətə istiqamətlənmişlər. Bunlar arasında ikili dini mənsubiyyət osetinlər, gürcülər, ingiloylar, kalmıklar, kabardinlər, ermənilər arasındadır. Bunun da səbəblərini tarixi hadisələr zəminində yürüdülən siyasət, zaman və məkan problemi, coğrafi yerləşmə nəticəsində qonşu xalqlarla inteqrə olunma və birgəyaşayışa uyğunlaşma prosesi təşkil edir.

**Ədəbiyyat:**


1. Курбанова Ч. О роли кармелитов в установлении дипломатических отношений сефевидского государства с западными странами в период правления шаха Аббаса 1. Известия АН Азерб ССР «История, философия, право» № 2, – Баку: Элм, – 1974, –с.30-38
2. Ярлыкапов А.А. Верования народов Северного Кавказа http://www.etnosy.ru/node/870
3. Məmmədli Ə. Müasir cəmiyyət və etnomədəni müxtəliflik (etnoloji oçerklər). – Bakı: Afpoliqraf, – 2017. – 224 s.
4. Cavadov Q., Hüseynov R. Udilər. Bakı: Elm, 1999. 256 s.
5. http://kavnews.ru/obshestvo/musulmane-gruzii-chislennost-i-osnovnie-mesta-projivaniya.html
6. Суслова Е. С.Автореферат диссертации на тему «Религия и проблемы национальной безопасности на Северном Кавказе». Москва, 2004.

7. Mustafazadə T. XVIII əsrdə Rusiya imperiyasının işğalçılıq siyasətində dini amillər. Altay dünyası. Beynəlxalq jurnal №3, – Bakı: Altay, – 1998. – s. 75-81
8. Магометов А.Х. Культура и быт осетинского народа. Орджоникидзе, изд. ИР, – 1968. – 568 с.
9. https://fundamental-research.ru/ru/article/view?id=33771
10. Соловьева Л.Т. Христианизация ингушей по архивным данным 1830-х годов. Лавровский сборник. Материалы XXXУ111 и XXX1X Среднеазиатско-Кавказских чтений 2014-2015 г. Этнология, История, Археология, Культурология. СПб. МАЭ РАН 2015, 576 с., 386-390
11. Цаллагова З.Б. Некоторые аспекты влияния православия на становление и развитие просвещения в Осетии. Лавровский сборник. Материалы XXXУ111 и XXX1X Среднеазиатско-Кавказских чтений 2014-2015 г. Этнология, История, Археология, Культурология. СПб. МАЭ РАН 2015, 576 с., 391-393
12. Əliyeva İ. İngiloylar: zorakı xristianlaşdırmaya və gürcüləşdirməyə qarşı mübarizə tarixindən. – Bakı: Turxan NPB, – 2020. – 368 s.
1. Алиев Р. Основы религии. Баку: Иршад, 2003. 232 с.
2. Ярлыкапов А.А. Ислам и традиции на Северном Кавказе. В кн: Этническое и религиозное многообразие России (под ред. В.А.Тишкова, В.В.Степанова). М.ИЭА РАН, 2017 с 301-316
3. Бабич И.Л. Религиозное разнообразие и этническая идентичность на Северном Кавказе (на примере Республики Адыгея). В кн: Этническое и религиозное многообразие России (под ред. В.А.Тишкова, В.В.Степанова). М.ИЭА РАН, 2017, с 316-341
4. Мчедлова М.М. Религиозная ситуация в России и в ее регионах // Этническое и религиозное многообразие России (под ред. В.А.Тишкова, В.В.Степанова). М.ИЭА РАН, 2017, с 146-176

# BİRLİK

*Birlik* kəlməsi müxtəlif məsələlərə tətbiq oluna biləcək anlayışdır. Yəni elmi ədəbiyyatda rast gəldiyimiz ərazi birliyi, etnik birlik, dil birliyi, sosial birlik, sənətkar birliyi, milli birlik, din birliyi, orduda birlik, partiyada birlik və s. kimi mahiyyət etibarilə vəhdəti özündə cəmləşdirən xeyli sayda məfhumlar vardır. Bunlar xalq və ya onun bir qisminin, yəni toplumdakı sosial qrupların, cəmiyyətdə mövcud olan müxtəlif təşkilatların və s. fəaliyyəti ilə əlaqədar olmaqla müəyyən amala xidmət edir, zəruri vəzifəni əks etdirir.

Ərazi birliyi insanların həyatında mühüm amil kimi qəbul edilməlidir. Çünki o, yurd yeri və vətən torpağı anlamı kəsb edir, eyni zamanda gələcək nəsillərin buradakı davamlı inkişafının təminatıdır. O, xalqın torpağı olmaqla yanaşı, eyni zamanda tarixin müəyyən mərhələsində ayrı-ayrı dövlət sərhədlərinə çevrilib parçalana bilir. Azərbaycanımızın ərazilərinin timsalında olduğu kimi, tarixi torpaqlarımız İran, Rusiya, Ermənistan, Gürcüstan tərəfindən öz ölkələrinə aid edilir. Azərbaycana müxtəlif dövrlərdə edilən işğalçı yürüşlər nəticəsində çox təəssüf ki, hal-hazırda torpaqlarımızın əsaslı hissəsi adları çəkilən dövlətlərin tərkib hissəsinə çevrilmişdir. Ərazi birliyinin əhəmiyyəti özünü orada məskunlaşan etnosun etnofora (mədəniyyətin daşıyıcısı) çevrilməsində özünü göstərir. Beləliklə, etnik birlik meydana çıxır.

Etnik birlik dedikdə, əsasən 5 əlamətinin elmi ədəbiyyatda qəbul olunduğu əsas məsələlər qeyd olunur. Buraya 1. ərazi birliyi, 2. dil, 3. məişət və mədəniyyət ümumiliyi, 4. mənşə birliyi, 5. etnik özünüdərk daxildir. Yəni eyni ərazidə yaşayıb vahid bir dildə danışan, tarixən formalaşmış məişət və mədəniyyətə malik, mənşəyi eyni olan və öz etnosuna mənsubiyyətini dərk etməklə fərqlənmək deməkdir. Burada əhalinin iqtisadi təminatı, təsərrüfatın müxtəlif sahələrinin varlığı, sənətkarlığın inkişafda olması, qarşılıqlı yardım formaları, ailə dəyərlərinin qorunması, bir sözlə, həyat tərzi mühüm əhəmiyyət kəsb edir.

Dil birliyi vahid bir etnosun tərkibində müxtəlif xalqların ünsiyyəti deməkdir. Yəni dövlətin rəsmi dilidir. O, eyni zamanda müxtəlif xalqlar arasında körpü rolu oynayır və birləşdirici amildir. Xalqların dil təsnifatında müxtəlif dil ailələri, budaqlar, qruplar mövcuddur. Təsadüfi deyildir ki, Azərbaycan dili nəinki öz ölkəmizdə yaşayanlar içində yayılmışdır. O, vaxtilə bütün Qafqazda xalqlararası ünsiyyət vasitəsi kimi fəaliyyət göstərmişdir. Müasir dövrümüzdə türk dili türk xalqları arasında geniş yayılmağa başlayır. Bu da daha böyük gələcəyə birlik yolunda açılan pəncərədir.

Sosial birlik dedikdə, geniş məzmun kəsb edən bir sıra məsələlər nəzərdə tutulur ki, bunlara da əsasən nəsil birliyi, qonşuluq icması, yazıçılar birliyi, tələbə birliyi, bir sözlə, ictimai institutların yaratdıqları qrup və s. təşkilatlar daxildir. Bunların fəaliyyəti heç şübhəsiz müəyyən dəyərlərə, tələbata, mənafeyə söykənir və insanların həyat tərzinə öz güclü təsirini göstərir. Ümumiyyətlə, bu qeyd olunanlar sosial birlik problemlərin həlli yolunda maraqların, dəyərlərin reallaşdığı bir tamlığı özündə ehti-

va edir. Burada qarşıya qoyulan bütün məqsəd və vəzifələr təbii olaraq vəhdətə xidmət edir.

Yazıçılar birliyi dedikdə, ziyalalarımızın ədəbiyyatımızın çiçəklənməsi uğrunda daim mübarizə aparan qurum nəzərdə tutulur. Xalqın həyatının lövhələrini öz əsərlərində yaratmaqla, həm tariximizi, həm mədəniyyətimizi, həm də dəyərlərimizi təbliğ edərək yaşatmağa çalışmaq əzmi şair və yazıçılarımızın əsas qayəsidir. Eyni zamanda burada tənqidi yanaşmalar, nəzəri məsələlərin həlli istiqamətində elmi araşdırmalar və s. də öz izahını tapır.

Sənətkar birliyi xüsusən orta əsrlər dövründə qardaşlaşma, təşkilatlanma formasında fəaliyyət göstərirdi. Məsələn, əxi təşkilatlarını qeyd etmək olar. Orta əsrlərin reallığından biri də sənətkarların birləşərək təşkilatlanmaları faktıdır. Avropada sex, Azərbaycanda əsnaf, Türkiyədə lonca adlanan birliklər fəaliyyət göstərmişdir. Bu birliyin öz dövrü üçün əhəmiyyətli rolu və fərqləndirici xüsusiyyətləri var idi. Öz əsasnamələri olan və cəmiyyətdə tutduqları mövqe ilə seçilən sənətkarlar dövlətə qonaq gələndə belə öz bayraqları ilə onu qəbula çıxırdılar. Deməli, onların cəmiyyətdə müəyyən yerləri vardı.

Birliyin fövqündə duran ən əsas məsələ heç şübhəsiz, milli birlikdir. Çünki milli birlik bilavasitə cəmiyyətin özünün var olmasının təminatçısıdır. O olmasa, xalqı sındırmaq, məhv etmək onun düşmənlərinə çox asandır. Milli birlik vahid etnik ərazi daxilində irqi, dini, siyasi, sosial göstəricilərdən asılı olmayaraq vahid amal, məqsəd uğrunda insanların əksəriyyətinin vəhdətini təşkil edir. Arzulanan vahid ideyaya söykənmə birliyin mahiyyətini əks etdirir. Xüsusən ərazilərinə işğalçılıq edənlərə qarşı Vətən torpaqları uğrunda mübarizə milli birliyin təməlindədir. İkinci Qarabağ müharibəsində milli birliyin bariz

nümunəsini öz həyatlarında yaşayan insanlar hərbi qüvvələrə kömək etməyi, qaçqın düşən bölgə əhalisinə, maddi və mənəvi dəstək verməyi bir borc hesab edirdilər. Bu mənəvi tələbatdan irəli gələn ülvi hisslərdir. Çünki "el gücü, sel gücü", "birlik olmayan yerdə dirilik olmaz", "birlik harda dirilik orda", "qüvvət birlikdədir" kimi atalar sözləri xalqın birliyə verdiyi dəyərin göstəricisidir.

Tarixi zaman kəsimində ibtidai dini təsəvvürlərdən sonra insanların inandığı monoteist dinlər meydana gəlir. İlk insanların məskunlaşdıqları zamandan indiyə qədər müasirlərimizin də həyatlarına rəng qatan dini görüşlər fövqəltəbii qüvvələrə olan münasibətin bariz təzahürüdür. İnsanların həyatında dini düşüncə tərzinin mühüm əhəmiyyəti olduğu danılmaz faktdır. Dini mənsubiyyət əsasında bir sıra dövlətlər belə öz siyasi qərarlarını verə bilirlər. Məsələn, sırf Xristian birliyinin təsiri özünü bir sıra ölkələrin siyasətində yanlış qərar verməkdə göstərir. Bir sıra ölkələr və ümumən insanlar rəğbətlərini dini müstəvidə gerçəkləşdirir. Hətta hadisə və proseslərə yanaşmada ikili standartlar, dini təəsübkeşlik özünü bütün aydınlığı ilə göstərməkdədir.

Orduda birlik qələbənin qarantıdır, rəhnidir. O, zəfərə gedən yolda güclü əzmin bəhrəsidir. Çünki əks-təqdirdə xalqın həyatında ağır nəticələr doğrula bilər. Orduda hərc-mərclik baş versə, təklənmə, əmri yerinə yetirməmə halları olsa, bütövlükdə nizam-intizam qalmaz və bu həyati vacib məsələ daxildə zəifləməyə gətirib çıxarar.

Partiya birliyi də sosial birlik olmanın əlamətlərindən biridir. Burada əsasən xalqın maraqları müdafiə olunmalıdır, nəinki daxili maraqlar. Lakin partiya daxilində sadəcə vəzifə tutmaq üçün can atmaq, gəlir əldə etməyə xidmət etmək, öz marağını hər şeyin fövqündə görmək gec-tez görü-

nən olduğu üçün nüfuzun ciddi zədələnməsinə səbəb olur. Ona görə də xalqın bir bayraq altında birləşməsi zəruridir.

Dövlətlər birliyi dünya xalqlarının həyatında ən faydalı bir orqan kimi fəaliyyət göstərməlidir. Məsələn, Birləşmiş Millətlər Təşkilatı. Əslində dünya xalqlarının arasında körpü olmalı, hüquqi baxımdan beynəlxalq sülhü və əminamanlığı qorumağa mükəlləf olan bir qurum kimi ciddi fəaliyyət göstərməlidir. Onların yaxınlaşmasına və bir-birilə əməkdaşlıq fəaliyyətinə təkan vermək əvəzinə heç bir birlik fəaliyyətinə malik olmayan davranış göstərməsi, müharibələrin qarşısını ala bilməməsi, bir hüquqi mexanizmə malik olmaması olduqca üzücüdür. Əslində, adında birləşməni təmsil etsə də, fəaliyyətində diktələrin sayəsində ayaqda durduğu bəllidir. Verdiyi qərarların həyata keçirilməsinə nəzarət edə bilməmək çox təəssüf ki, onun funksional yetərsizliliyin göstəricisidir.

Beləliklə, onu deyə bilərik ki, insan həyatının bütün sahələrində birliyin təmin olunması toplumun irəliyə doğru inkişafına, tərəqqiyə aparan yol kimi qiymətləndirilməlidir. O, sosial həyatda insanın yerini müəyyənləşdirməklə mühüm əhəmiyyət kəsb edir və milli dəyərlərin qorunması yolunda əsas amildir. Birliklər özündə mənsubiyyəti bildirir, onun nümayəndələrinin həyata bıxışını, düşüncə tərzini əks etdirir. Bununla yanaşı, o, həyat yolunda insanların mücadiləsini özündə ehtiva edir. Birlik tamlığı, bütövlüyü özündə cəmləşdirən məqsəddir. O, toplumun təməl dəyərlərinə söykənən, onun arzu və istəklərini realizə edən vasitədir, xalqın müdafiəsi, onun sabit, stabil həyat şəraiti uğrunda davamlı mücadiləsinin bariz təminatıdır. Birlik olmayanda cəmiyyət məhvə, zəifləməyə və uduzmağa məhkumdur. Bu amildən düşmənlər istifadə edib daxili müvazinatı pozmağa çalışırlar.

# ETNİK ƏRAZİ AMİLİ

Təqdim olunan məqalədə etnik ərazi amili və onun xalqların həyatındakı əhəmiyyətli yeri məsələsi haqqında elmi tədqiqat aparılır. Elmə məlumdur ki, hər bir etnosun birlik məzmununun təməlində ilk növbədə etnik ərazi amili dayanır. Bu məsələ bilavasitə coğrafi məkanla sıx surətdə bağlıdır. Lakin bununla yanaşı, böyük bir proses nəticəsində və müəyyən zaman kəsimindən sonra etniklik əraziyə şamil oluna bilir. Çünki məskunlaşmış hər bir ərazi etnik ərazi deyildir. Hələ ibtidai insanlar adlandırılan sürü təbiətlə təmasda mənimsəmə təsərrüfatı ilə, ovçuluq, yığıcılıq və balıqçılıqla məşğul olurdusa, onu qane edən əsas məsələ qida məhsullarının əldə olunması idi. Miqrasiya onun yaşamaq əzminin, varlıq uğrunda mücadiləsinin qayəsi yoluna çevrilirdi. Heyvanların arxasınca yönəlməklə ibtidai insanlar müəyyən ərazilərdə, təbii mağaralarda yerləşməyə, qorunmağa çalışırdılar.

Ümumiyyətlə, insanlar tərəfindən məskunlaşdırılmış ərazi oykumen adlanır. Müəyyən ərazidə toplu şəkildə yaşamaqla özünəməxsus məişət və mədəniyyət yaratmağa çalışan etnos həyat tərzini və eyni zamanda həyat səviyyəsini formalaşdırmağa çalışır. O, ailənin, xüsusi mülkiyyətin və dövlətin yaranması ilə birliyə nail olur. Nəsillər, qəbilə və tayfalar birləşərək ittifaq qururlar və nəticədə müəyyən sərhədlər daxilində dövlət yaranır. Bu birlik vahid adət və ənənələrə söykənən qəbilə və tayfa it-

tifaqının vəhdətini zəruriləşdirir. Bu təməl amal üzərində xalqın əraziyə bağlılığı yaranır. Onu özününkü saymaqla sahiblənərək əraziyə etniklik qazandırır.

Təbii mağaralara sığınmaqla ilkin insanlar eyni zamanda əraziyə sahib olmalarını gerçəkləşdirməyə çalışmışlar. Əraziyə sahib olmaq insanlar üçün bir növ birliyə nail olmaq, bərabərliyi davam etdirmək məzmunu kəsb etmişdir. Atalar sözlərində deyildiyi kimi güc birlikdədir. Əlaqələrin davamlılığının təmin olunması həyati vacib məsələ hesab olunurdu. Ümumiyyətlə, ərazi sığınacaq yeri olduğundan o, insanların oturaqlaşması üçün zəmin yaradır. Xalq bir yerdə yurd yeri salır, davamlı yaşadığı ərazini vətən torpağı adlandıraraq onun keşiyində durmağı, düşməndən qorumağı ali borc hesab edir. Tarix boyu istənilən etnosun yaranması bilavasitə ərazi amili ilə sıx surətdə bağlıdır. Deməli, insanın formalaşması – antropogenez prosesində, həmçinin xalqın etnogenezində məskunlaşmanın əhəmiyyətli yeri vardır.

Ayrıca ərazi öz-özlüyündə heç nəyi ifadə etmir. O məskunlaşdıqca müəyyən dəyər kəsb edir. İnsanlar da o zaman ərazini vətən qılır ki, həyat tərzini qura bilsin. Bunun üçün əlverişli təbii-coğrafi şəraitin olması, təsərrüfatın xüsusilə əkinçilik və maldarlıq sahələri üçün yararlılığı gərəklidir. Vahid bir ərazidə bir xalq əkinçilik mədəniyyətini və bununla bağlı müəyyən sistem yarada bilirsə, bu sahədə kənd təsərrüfatı alətləri düzəldirsə, o etnik ərazini qoyub gedə bilməz, çünki o torpağa bağlanır və məhsulun yetişməsində maraqlıdır. Çünki gündəlik həyat şəraiti bilavasitə təsərrüfatdan, məhsul bolluğundan asılıdır və bunun davamlı olması üçün insanlar əmək sərf edir. Bu iqtisadi amil xalqın həyatında başlıca stimula çevrilir. Eyni zamanda yanaşı olaraq maldarlıqla da məşğul olur-

sa, xalqın bu coğrafi məkan daxilində yayılma arealı genişlənir, onun bir məişət və mədəniyyəti formalaşır. Bu isə onu etnofora, yəni xalq mədəniyyətinin daşıyıcısına çevirir. Mədəniyyətin bu cür ötürücülüyü gələcək nəsillər üçün qəti qərarlaşmış sabit əlamətdir.

Əraziyə etniklik verən burada yaşayan xalqın məişət və mədəniyyətini mühafizə etmək istəyilə bağlıdır. Qarşılıqlı yardımlaşmanın, ağsaqqallar şurasının, qazanılan təcrübənin varlığı sayəsində dəyərlər sistemini qorumaq, sabitliyi hifz etmək və bu xüsusiyyətləri əsrlərə daşımaq xalqın əsas qayəsini təşkil etmişdir. Bunları vahid ərazidə minilliklər boyu davam etdirməklə xalqın qoruyuculuq və ötürücülük missiyasını öhdəsinə götürməsi etnikliyin əraziyə də şamil edilməsini şərtləndirir. Bir əraziyə müxtəlif ərazilərdən zamanla köç edib məskunlaşan xalqlar da olur. Onlar ya etnik xalqın içərisində seyrək və ya kompakt şəkildə yaşayır. Belə yerləşmədə çox vaxt məcburi köçürmə siyasətinin izləri sezilir. Bəzən isə təbii şəraitdən doğan problemlər də (quraqlıq, zəlzələ, epidemiya və s.) köçə yol açır, etnik qrupları yerdəyişməyə məcbur edir.

İnsanların bioloji varlıq olmaqdan əlavə sosial varlığa da çevrilməsi mühüm əhəmiyyət kəsb edən məsələdir. Məhz bu prosesin nəticəsində özünü müəyyən toplum kimi dərk edən insanların birliyinin formalaşması və yaşadıqları ərazini sahiblənmə duyğusu gerçəkləşir. Bu real vəziyyət ərazinin etnikləşməsi yolunda əsas amilə çevrilir. Ərazi müəyyən dəyər qazanır. Psixoloji cəhətdən emosional yanaşma özünü bariz şəkildə bəyan edir. Vətən torpağı uğrunda mübarizə, onu heç kimsə ilə bölüşə bilməmək, gücə malik olmağa çalışmaq, gələcək nəsillərə problem yaratmamaq əzmi həyati vacib məsələyə çevrilir. Ulu babalardan qalan mirasa xilaf çıxmamaq, əc-

dadların ruhuna hörmət, qəbir yerlərinin qorunması kimi dəyərlər torpağa möhkəm bağlılıq yaradır.

Arxeoloji qazıntılar zamanı Azərbaycan ərazisində dairəvi ev tikintisinin aşkar edilməsi ailənin yaranmasının tarixini müəyyən etmək üçün dəlil hesab olunur. Alimlərimiz bəzən bu tikilini neolit, bəzən isə eneolit dövrünə aid edirlər. Hər halda belə maddi mədəniyyət elementləri ərazidə insanların oturaqlaşmasının və yaşamın davam etməsinin göstəricisidir. Həyat davam edirsə, deməli, ərazinin etnikləşməsi zərurəti də yaranır.

Coğrafi mühitin xarakterik xüsusiyyətləri mənəvi mədəniyyətin ayrı-ayrı sahələrinə və etnosun psixiki tərzinə müəyyən təsir göstərir. Bundan əlavə coğrafi mühitin etnik özünüdərkə təsiri olduğu alimlər tərəfindən qeyd edilir (3, 40). L.N.Qumilyov etnosu landşaftla bağlı, ona adaptasiya olunmuş coğrafi varlıq hesab etməyi irəli sürür. Bundan əlavə orta əsrlərdə konsepsiya kimi insanların sosial-mədəni təyini ideyasının yarandığını qeyd edir (7, 17). Əslində coğrafi məkanın kəsb etdiyi vətən anlayışı insanların oranı tərk etmək istəməməsindən, torpağın əhəmiyyətindən doğan bir məsələdir. Coğrafi məkandan ziyadə qurulu həyat tərzini, yaşamı və yaratdığı çoxşaxəli mədəniyyəti tərk etməyin ağırlığı azərbaycanlılarda təsadüfi deyildir ki, qəribçilik duyğusunun formalaşmasına gətirib çıxarmışdır. Yurdsevərlik və torpağa bağlılıq azərbaycanlıların qanında, canındadır. Atalar sözlərində deyildiyi kimi "vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır" və ya, "el içində – öl içində" (8, 13).

Ərazinin etnikliklə bağlılığı ilə əlaqədar olaraq elmi ədəbiyyatda yerli sakin mənasını verən aborigen və avtoxton kimi kəlmələr işlənir. Bu sözlər bəzən müstəmləkə siyasəti nəticəsində rezervasiyalarda yaşamağa məhkum

edilən xalqlara şamil edilir. Lakin burada etnik ərazilər (məhz onlara mənsub olan) gəlmə xalqların çoxluğu tərəfindən zamanla tamamilə işğala məruz qalır. Yerli və gəlmə xalqların birgəyaşayışı tarixin gedişatı ilə bağlıdır. Ona görə də zənnimcə belə əraziləri sonradan gələnlərin etnik ərazisi hesab etmək olmaz. İbtidai yaşam tərzini davam etdirən belə xalqların müasir dövrdə sayı xeyli azalmış, öz ənənəvi mədəniyyətlərini dəyişmədikləri və modernizasiya prosesinə qoşulmadıqları üçün əlahiddə ərazilərə sıxışdırılmış və cüzi dövlət müavinatına «layiq» görülmüşlər.

Etnik ərazinin itirilməsi qorxusu buradakı məskun xalqın yaşam mücadiləsinin başlıca qayəsini təşkil etmişdir. Çeboksarovlar haqlı olaraq göstərirlər ki, etnik ərazilər müharibələr, epidemiyalar, yaşanılan ağır əmək şəraiti nəticəsində azalırdı (1, 13). Bunu elə Azərbaycanın timsalında da görmək mümkündür. İşğallara məruz qalma nəticəsində itirilmiş ərazilərimiz indi də müxtəlif siyasi təsirlərə məruz qalır. Lakin yenə də etnik ərazi olmaqdan kənarlaşmır. Belə ki, yenə də Dağıstan, İran, Gürcüstan ərazisində ənənəvi məskunlaşdıqları torpaqlarda məhz azərbaycanlılar yaşamaqda davam edirlər. Deməli, bu qənaətə gəlmək mümkündür ki, vahid dövlət sərhəddindən çıxsa da, ərazi etnikliyini itirmir. Bir coğrafi məkanda tarix boyu müxtəlif dövlət qurumları yaranır və zamanla tarix səhnəsindən silinib gedə bilir. Lakin bu o demək deyildir ki, etnik ərazi də yox olur. Ərazini etnikləşdirən məhz, xalqın oradakı davamlı və fasiləsiz varlığıdır. Yeri gəlmişkən xatırladaq ki, Azərbaycan tarixşünaslığında tarixi vətən torpaqları, itirilmiş ərazilər konsepsiyası mövcuddur.

Hakim dairələrdə kimin oturmasından asılı olmayaraq etnik ərazidə yerli sakinlər həyat tərzini sürdürür. Məsələn, sasanilərin, ərəblərin, səlcuqların, monqolların

və s. Azərbaycan torpaqlarına gəlişi və köçürmə siyasəti yürütməsi yerli sakinlərin dəyişməsi anlamı vermir. Yerli sakinlər səlcuqlar gəlincə türkləşə bilməzdi. Çünki bu məsələdə dövriyyəyə dil daxil olur. Dil isə birdən-birə var olmur, onu tezliklə aradan qaldırmaq mümkün deyil və o, daim inkişafdadır. Etnodil prosesi uzunmüddətli sabit qalma özəlliyinə malikdir. Məsələn, müasir dilimiz xeyli təsirlərə məruz qalsa da, orta əsrlər dövrünün dilindən belə fərqlənir. Təbii olaraq orta əsr dilimiz də əvvəlki dövrlərin dilindən seçilmiş olur. Etnodil prosesi bütün xalqlarda gedir. Qloballaşma prosesi sayəsində müasir dillərdə istifadə olunan ortaq sözlərə rast gəlinir. Etnologiya elmi sahəsində də belə sözlər var. Dil mədəniyyətin elə ünsürüdür ki, o sabit, stabil qalma xüsusiyyətinə malikdir, mühafizə olunur. Onun köklü dəyişməsi üçün minilliklər, uzun əsrlər lazımdır.

Etnik ərazi anlayışını dəqiqləşdirmək üçün ilk növbədə etniklik məfhumunu müəyyənləşdirmək lazımdır. Müəlliflər qeyd edirlər ki, etniklik müəyyən ərazidə tarixən qərarlaşan mədəniyyətin ümumi, nisbi stabil xüsusiyyətlərinə malik (həmçinin dil) insanların cəmi kimi qəbul edilir. Eyni zamanda psixika və öz birliyinin və başqalarından fərqliliyin dərk olunması, yəni özünüdərk göz önündə dayanır. Belə birlik müştərək insan nəsillərinin tarixi təcrübəsi kimi, bu birliyin maddi və mənəvi atributlarının təcrübəsi, onun nümayəndələrinin şüurunda həkk olunan təcrübəsi kimi qarşımızda canlanır. Bunun üçün etnikos kəlməsi irəli sürülüb. Etnikos xalqa məxsus olan deməkdir. Bununla hətta insan qruplarının yeni əraziyə köçdükdə belə mühafizə etdiyi etnik əlamətlərin kompleksi nəzərdə tutulur. Etnikoslar real həyatda onları təşkil edən ictimai strukturlardan kənar mövcud olmurlar. Etnos və

sosial birliklər – ailədən dövlətədək – simbiozda mövcuddurlar (3, 32). Simbioz müştərək həyat, birgəyaşayış anlamı kəsb edir. O, ətraf mühitlə qarşılıqlı təmasda yaşayan qrupların birgə fəaliyyətinin uyğunluq dərəcəsi kimi ölçülür.

Etnik ərazi zamanla yerli xalqın ona verdiyi adlarla fərqlilik qazanır. Ərazi amilinin əhəmiyyəti özünü toponimlərdə göstərir. Toponimlər yəni ərazilərə verilən yer adları etnosun dili, tarixi keçmişi, mədəniyyəti haqda müəyyən mənbə təşkil etməklə həmin etnik ərazidə məskunlaşmış xalqlar haqda təsəvvür yaradır. Etnonim isə xalqlara verilən ad deməkdir. Bu da etnik ərazi daxilində baş verir. Bəzən adlar yerlərə şamil edilir, bəzən də ərazi adlarını xalqlar daşıyır. Ona görə də itirilmiş torpaqlarda dövlət siyasəti olaraq ilk növbədə xalqların oradakı yer adları dəyişdirilir. Bundan əlavə etnik ərazi dövlətin yaranması yolunda əsaslı amilə çevrilir. Dövlət o yerdə yaranır ki, oradakı məskun xalq öz idarəetməsini, hüquq sistemini qurmağa çalışır. Dövlətin müəyyən ərazi çərçivəsində sərhədləri müəyyənləşir. Vahid ərazi çərçivəsində, eyni dövlət daxilində müxtəlif etnik qruplar da yaşaya bilər. Lakin aparıcı qüvvə hər zaman çoxluğun təmsil etdiyi xalqdır. Filosof H.Quliyev yazır ki, “həyatın əmin-amanlığı əsasən məkan duyğusunun kəsərindən – məkanda istiqamət götürməyin səmərəliliyindən asılı idi” (2, 304). Doğrudan da, məkan və orada qalma həyatı davam etdirmək üçün zəruridir. Sovetlər birliyi zamanı sürgün olunanlar sonrakı dövrlərdə bəraət qazandıqları zaman öz doğma yurdlarına geri qayıdırdılar. Deməli, yurd yeri onların mənsubiyyətilə bağlıdır, qohumluq, birlik əlaqələrinin təməl daşıdır, emosional gücdür.

Dünya üzrə miqrasiyaların, yerdəyişmələrin özü ərazi vahidi ilə sıx surətdə bağlıdır. İnsanların köçməsinə

səbəb təbiətdə baş verən quraqlıq, zəlzələ, sel basması, kütləvi xəstəliyin yayılması ola bilər. Bundan əlavə siyasi baxımdan işğala məruz qalma nəticəsində (məsələn, səlcuq türklərində olduğu kimi) ərazini tərk etmə tarixən mövcud olan vəziyyətdir. Miqrasiyaların ərazi vahidinə müəyyən təsiri vardır. Bu şübhə doğurmayan fakt xalqların həyatında müəyyən izlər buraxır. Onların qarşılıqlı münasibətlər qurmasına təkan verir. Mədəniyyət məhz belə münasibətlər sayəsində çulğalaşır.

Tarixdən məlumdur ki, özünə dayaq yaratmaq məqsədilə etnik ərazidə köçürmə siyasəti yürüdülmüşdür. Bu əsasən işğallar nəticəsində baş verirdi. Digər etnoslardan istifadə üçün bilavasitə tayfaların tamamilə köçürülməsi prosesi sonralar onların bu və ya digər şəkildə yerli xalqın təsirinə məruz qalması ilə nəticələnirdi. Bu da məişət və mədəniyyət ümumiliyinə gətirib çıxarırdı. Gəlmələr istər-istəməz, orada özlərindən əvvəlki etnik qrupun təcrübəsindən yararlanır. Çünki coğrafi məkana uyğun olaraq təsərrüfatın idarə olunmasında onların bilik və təcrübələri daha çox olur. Müxtəlif vaxtlarda Azərbaycan ərazilərinə köç edənlər burada çox gec və könüllü şəkildə assimilyasiya prosesinə qoşulmuşlar. V.V.Pokşişevskiy haqlı olaraq göstərir ki, "əhalinin etnik rəngarəngliliyi onun vacib xüsusiyyəti kimi o qədər aydındır ki, hər hansı ölkənin, rayonun və ayrıca şəhərin əsaslı coğrafi xarakteristikasında nəzərə alınır" (9, 181).

Arxeoloji məlumatlar etniklik barədə bizə o qədər də yardım edə bilmir. V.İ.Kozlov qeyd edir ki, "arxeoloji və paleoantropoloji materiallar çox nadir hallarda qədim əhalinin təxmini də olsa, doğum və ölüm səviyyəsini müəyyən etməyə imkan verir" (5, 10). Müəllif fikrində haqlıdır. Məsələn, Azərbaycanda ən qədim ibtidai insan

izlərini özündə əks etdirən Azıx adamıdır. Azərbaycan ərazisində digər paleolit düşərgələri olsa da, hər halda biz qədim insanların demoqrafik göstəriciləri haqqında kifayət edəcək fikirlər söyləyə bilmirik.

A.N.Moçalov öz məqaləsində dövlət ərazisinin təşkilində etnik amilin əks etdirilməsinin problemli məsələlərindən bəhs edir, burada etnik mənsubiyyətin, etnik icmaların, habelə onların kollektiv hüquqi subyektinin mahiyyətinin dərk edilməsinə müasir yanaşmalar təhlil edilir, etnik icmaların ərazi ilə əlaqəsi araşdırılır. Etnik mənsubiyyətə dair konstruktivist baxışlara sadiq qalaraq və onu hər bir insanın fərdi seçiminin nəticəsi kimi dərk edərək müəllif, dövlətin siyasi və ərazi quruluşu ilə bağlı prosesləri təhlil etmək üçün "etnik qrup" kateqoriyasından istifadə etməyi məqbul hesab edir (4, 33).

Ərazidə mövcud etniklərarası münasibətlərin belə bölgüsü təqdim olunur: "Polietnik ərazidə etnik təmasların dörd variantı mümkündür: yanaşı yaşama, assimilyasiya, metisləşmə, qaynayıb qarışma" (6, 125). Əslində iki əsas seçim vardır: miqrasiya nəticəsində gələn xalqların etnik ərazini vətən bilib uğrunda mübarizə etməsi və əksinə, başqa dövlətin daxilinə qoşulmaq arzusu. Burada əsas məsələ etnoslararası əlaqələrdəki seçimdən ibarətdir. İnsanlar müəyyən ərazidə yaşayaraq münasibətlər qururlar. Belə münasibətlər müxtəlif şəkildə davam edə bilir. Bəziləri gəldiklərini dərk edərək həyat tərzini davam etdirir və heç bir ərazi iddiasına düşmür, nadir xalqlar var ki, ermənilər kimi əraziyə gəlmə olduqlarını bildikləri halda, oranı özlərininki hesab edirlər. Ona görə yersiz iddia labüd olaraq konflikt doğurur.

Deməli, hər bir etnos müəyyən ərazidə məskunlaşaraq yaşamağa çalışır. Bu onun birlik kimi formalaşması

üçün ən vacib məsələdir. Ərazi bir sığınacaq yeri olmaqla bərabər, bir ocaqdır. Azərbaycanlılar el ocaq başına yığışar deyirlər. Onun varlığı insanları bir yerə toplama məqsədi daşıyır. Ərazinin tərk edilməsi ağrılı prosesdir, doğma yurda qayıdış isə sevinc gətirir. Etnik ərazi həmin məskunlaşma məkanında yaşayan etnosun fasiləsiz və davamlı varlığıdır. Etnik ərazi, istənilən etnik birliyin məskun olduğu ərazi, əsasən onun formalaşma və kompakt şəkildə mədəniyyətini yaydığı məkanı, eyni zamanda digər xalqlarla qaynayıb-qarışdığı vahid ərazilər deməkdir.

**Ədəbiyyat:**


1. Чебоксаров Н.Н., Чебоксарова И.А. Народы, расы, культуры. – Москва: Наука, – 1985. – 271 с.
2. Quliyev H. Arxetipik azərilər: mentalitetin simaları. – Bakı: Qanun, – 2010. – 344 s.
3. Бромлей Ю.В., Подольный Р.Г. Человечество – это народы. – Москва: Мысль, 1990. – 391 с.
4. Мочалов А.Н. Территория, этничность и феномен «многонациональных» государств // Науч. Ежегодник Ин-та философии и права Урал. отд-ния Рос. акад. наук, 2017. Т. 17, вып. 4. – с. 33-52.
5. Козлов В.И. Особенности воспроизводства населения в доклассовом и раннеклассовом обществе. В книге Этнос в доклассовом и раннеклассовом обществе (под ред. Ю.В.Бромлей, Л.Е.Куббель, А.И.Перщиц). – Москва: Наука, – 1982. – с. 9-32
6. Əfəndiyev V., Nağıyev S. Əhali coğrafiyası (dərslik). – – Bakı: Bakı Universiteti, – 2006. – 338 s.
7. Гумилев Л.Н. География этноса в исторический период. – Ленинград: Наука, – 1990. – 279 с.
8. Atalar sözü (top. Ə.Hüseynzadə). – Bakı, Yazıçı, – 1981, – 336 s.
9. Покшишевский В.В. Население и география (теоретические очерки). – Москва: Мысль, – 1978. – 315 с.

# İNKULTURASİYA PROSESİNƏ DAİR

Müasir dövrdə etnologiya elminin inkişaf prosesi davam etməkdədir. Bu elm yeni-yeni nailiyyətlər qazandıqca bir sıra mühüm məsələlərin araşdırılmasına da zərurət yaranır. Bəzi anlayışların mahiyyətinə varmaq onların təməlini, özəyini nəyin təşkil etdiyini bilmək zərurətini ortaya çıxarır. Belə anlayışlardan biri də *inkulturasiya*dır. Bu anlayışın mahiyyətinin açıqlanması elmi cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Adından da bəlli etdiyi kimi *inkulturasiya* sözü xarici kəlmədən (enculturation) götürülüb mədəniyyətin içində məzmununu özündə ehtiva edir. Məlumdur ki, bəşəriyyətin uzun inkişaf mərhələlərində hər bir xalqın əsrlər boyu yaradıb inkişaf etdirdiyi özünəməxsus mənəvi dünyası və mədəniyyəti vardır. Xalqın içində yaşamadan heç bir fərd onun mənəvi aləmini öz içində əridə bilməz. Təsadüfi deyildir ki, müasir dövrümüzdə miqrasiyalar nəticəsində fərqli dünyaların müxtəlif xalqları içərisində müəyyən müddət ərzində də olsa, yaşayıb onlarla bərabər vahid məişəti paylaşdıqdan sonra yerli xalqın dünyagörüşünü dərk etməyə və mənimsəməyə çalışan insanlar vardır.

Bir nəzəri anlayış kimi inkulturasiya sözü M.Herskovits tərəfindən 1948-ci ildə "İnsan və onun işi. Mədəni antropologiya elmi" əsərində elmi ədəbiyyata daxil edilmişdir (11). J.J.Honigmanın da fəaliyyəti bu sahədə öz sözünü deyir (12). C.Klakhon isə mahiyyətcə uyğun anlayış seçərək onu "kulturalizasiya" adlandırmışdır. Çünki

mövcud “sosiallaşma” anlayışı bu prosesi tam əhatə edə bilmirdi. Bu xüsusda mədəniyyət anlayışının mahiyyətinin açıqlanması barədə müxtəlif fikirlərin olduğu Y.V.Bromley tərəfindən də araşdırılma aparılaraq qeyd edilmişdir (20, 88-108). Göstərilən əsərlərin elmi nəzəri dəyəri onunla ölçülür ki, onlar adı çəkilən alimlər tərəfindən gələcək tədqiqatlarda özül rolu oynayacaqdır. Elmi araşdırmalar genişləndikcə yeni nailliyyətlərlə zənginləşən tədqiqatlar artmaqda davam edəcəkdir.

Dar mənada inkulturasiya uşaq tərəfindən körpəlikdən etibarən tərbiyə vasitəsilə öz xalqının ailə-məişət tərzinin, mədəni qaydalarının və öz sosiumundakı dəyərlərinin mənimsənilməsi deməkdir. Geniş mənada isə o, yalnız uşaqlıq dövrü ilə məhdudlaşmayan bütövlükdə insanların bütün həyatları boyunca həm ailə, həm də sosial mühitdən aldıqları əsas təzahürlər deməkdir. Eyni zamanda bu anlayış altında yaşlı fərdlər tərəfindən əxz olunan mədəni proses başa düşülür.

İnkulturasiya bilavasitə xalqın mədəniyyəti ilə sıx surətdə bağlı məsələdir. Görkəmli alim Taylor qeyd edir ki, mədəniyyət və yaxud sivilizasiya geniş etnoqrafik anlamda bütövlükdə biliklərlə, inamlarla, incəsənətlə, mənəviyyatla, qanunlarla, cəmiyyətin bir üzvü olan insan tərəfindən əxz olunmuş adət və ənənələrlə, vərdişlərlə formalaşır (2, 18). Doğrudan da bütün bunlar olmasa, hansı inkulturasiyadan danışmaq olar.

Azərbaycanda da kulturoloqlar, filosoflar, psixoloqlar və eləcə də etnoloqlar mənəvi zənginlik, milli dəyərlər, etnogenetik əlaqələr və s. məsələlərlə bağlı tədqiqatlar aparırlar. Xüsusən Əliağa Məmmədlinin əsərini misal göstərmək olar (13). Dövri mətbuatda nəşr olunan ayrı-ayrı məqalələrdə də mənəvi mədəniyyət və dəyərlər-

lə bağlı əhəmiyyətli məsələlər yer almaqdadır. Ümumən dəyərlər mövzusunda filosof Ziba Ağayevanın və etnoqraf Şəhla Nuruzadənin tədqiqatları əhəmiyyət kəsd edir. Ziba Ağayeva haqlı olaraq göstərir ki, "insan varlığına, bütövlükdə cəmiyyətə təsir mənəvi dəyərlərin, mənəviyyatın soxsaylı funksiyaları humanistləşdirici, tənzimləyici, müəyyənedici, idraki, tərbiyəvi, kommunikativ və s. vasitəsilə həyata keçirilir" (21, 15). Müəllif öz ümumiləşdirməsində bütün əsaslı məsələləri birgə vermişdir.

Saleh Arslan qeyd edir ki, "hər bir xalqın dəyərlər sistemi onun kimliyini ortaya qoyan əsas elementdir, cəmiyyətdə var olan birliyin təməl daşlarıdır. Sosioloji baxımdan o, xalqın, yaxud toplumun fərdlərinin formalaşdığı modellərin, hədəflərin və məqsədlərin başqa mədəni baxışlarla fərqini ölçən alətdir. Mənəvi dəyərlər insanın gedəcəyi yolu müəyyən edən kompasdır" (23, 3). Doğrudan da bir xalqın həyatının bütün sahələrindəki dəyərlər onun kimlik göstəricisi sayıla bilər.

Təbiətlə iç-içə yaşayan qədim insanlar birgə fəaliyyət göstərməklə qruplar şəklində həyatlarını sürdürmüşlər. Həyat uğrunda varlıq mücadiləsi verən ibtidai insanlar ağır həyat şəraitinə qarşı birgə mübarizə aparmışlar. İcma daxilində müəyyən münasibətlər qurulmuşdur. Əvvəlcə qəbilə sonra tayfa, qonşuluq kimi icma birlikləri yaranmışdır. Burada münasibətlərin qarşılıqlı səmərəlilik əsasında var olması əhəmiyyət kəsb edirdi. Münasibətlər əmək bölgüsü zəminində və yazılmamış qanunlara söykənən adət hüququnun formalaşması nəticəsində tənzimlənirdi. Onlar zamanla öz mədəniyyətlərini yaratmış və tərəqqiyə uyğun şəkildə inkişaf etdirmişlər.

Hər bir insanın öz xalqının mədəni dəyərlərinə, mənəvi aləminə daxil olması və ona tam mənasıyla yiyələnə

bilməsi ani olaraq baş verən proses deyildir. Bunun üçün müəyyən bir zaman məsafəsinin keçməsi lazımdır. Özü də hər bir ictimai quruluşun öz dövrünə məxsus qanunauyğunluqları və inkişaf xüsusiyyətləri vardır. Bu qanunauyğunluqlar həmin dövrlərdə yaşayan cəmiyyətlərin davranışlarına təsir edir və psixoloji vəziyyətlərinə öz damğasını vurur. H.Quliyev haqlı olaraq ənənənin əsas vəzifəsinin davranış nümunələrinin irsən ötürülməsi ilə bağlı olduğunu qeyd edir (22, 7).

İnsanların əsrlər boyu formalaşan etnik xüsusiyyətləri onun mənsub olduğu xalqın mədəni səviyyəsini nə dərəcədə əxz edə bilməsindən asılıdır. Yəni, həyat tərzi, milli dəyərlər, mədəni irsinə qayğı, insanların fəaliyyətindən doğan davranış formaları mühüm əhəmiyyət kəsb edən əsas meyarlardır. Bunlar da etnosun xarakterinə təsir edən amillərdir. Xüsusilə, coğrafi mühit və onun xalqın həyat tərzinə təsiri şübhəsiz öz sözünü deyir.

Fərdin öz etnik birliyinə "girməsi" prosesi elmi ədəbiyyatda "sosiallaşma" və "inkulturasiya" adlanır. Özü də insanların öz sosial-mədəni əhatə dairəsini mənimsəmək deməkdir. Lakin bu iki proses olan sosiallaşma ilə inkultursiyanı bir-birilə bərabərləşdirmək olmaz. Onların hər ikisində oxşar və fərqli cəhətlərin mövcud olduğu bir gerçəklikdir. İnkultursiya sayəsində insan onu əhatə edən etnik dairədə fəaliyyət azadlığına malik olur, özündən əvvəlki nəsillər tərəfindən yaradılan mədəniyyət əşyalarını istifadə edə bilir, fiziki və əqli əməyin nəticələrini mübadilə edə bilir və nəhayət, başqa xalqlarla qarşılıqlı münasibət qura bilir (1, 176).

Yer üzərində mədəniyyətin subyekti sayılan insan bir sosial varlıq kimi artan tələbatı sayəsində maddi və mənəvi aləmini yaratmışdır. O, yaşadığı coğrafi məkana

sadəcə uyğunlaşmaqla kifayətlənməmiş, məskunlaşdığı torpaqda cəmiyyət yaratmış, dövlətə sahib olmuş və müəyyən münasibətlər sistemi qurmuşdur. Uşaq təbiətin bəxş etdiyi müəyyən özünəməxsus bədən quruluşu, ata və anasından aldığı genetik xüsusiyyətləri irsən qazanır. Lakin təbii (anatomik-fizioloji) istedad əlamətləri onun yaşadığı həyat içərisində böyüklərindən aldığı müəyyən şərait daxilində inkişaf edə bilir. Burada da obyektiv tarixi şərait öz sözünü deyir.

İnkulturasiya prosesindən insan uşaqlıq vaxtından vərdişlər əldə edərək keçməyə və varlığını sürdürməyə başlayır və bu onun bütün ömrü boyu davam edir. Bu böyük prosesdə iki mühüm mərhələ vardır: 1. ilkin uşaqlıq, 2. yetkinlik. Birinci mərhələdə uşaqlar geniş yayılmış həyati vacib mədəni elementləri mənimsəyirlər. Burada əsas rol uşağa məqsədyönlü şəkildə yönəldilən tərbiyə vasitəsidir. Burada etnopedoqogikanın əhəmiyyəti xüsusilə önə çıxır. Uşağa yaşadığı normal cəmiyyət daxilində, yaşadığı həyat tərzində ictimai rəy nəzərə alınmaqla necə davranmaq tərbiyə olunur. Bu mərhələ üçün bütün mədəniyyətlərdə sosial qaydalar, inkultursiya üsulları mövcuddur. Bu zəmində gündəlik tərbiyədə qazanılan bilik və vərdişlər xüsusilə ön plana çıxır.

Hər bir xalqın özünəməxsus həyat tərzi, məişət qaydaları və eyni zamanda dini münasibətlər müstəvisi mövcuddur. İnsanlar müəyyən yaşam çərçivəsində özünəməxsus şəkildə fəaliyyət göstərirlər. Onların bu fəaliyyət içərisində yaratdıqları mərasimləri, ayinləri, adət və ənənələri formalaşır. Müxtəlif inamlardan, təsəvvürlərdən və dini mənsubiyyətdən doğan davranış stereotipləri qərarlaşır.

İnsan mədəniyyətinin ilk nailiyyətləri bəlkə də uşaq tərbiyəsi ilə bağlı olmuşdur. Başqa cür ola da bilməz.

Nəsillərin varisliyi ictimai təcrübənin uşaqlara verilməsi zəminində mümkündür. Bu sahədə ailə mühüm rol oynamışdır. Qeyd edək ki, "Ailə tərbiyəsi pedaqogikası müxtəlif elmlərlə sıx bağlıdır, lakin onun inkişafında iki elm sahəsi – etnoqrafıya və psixologiya xüsusilə mühüm rol oynamışdır. Hər bir xalqın uşaq tərbiyəsi, o cümlədən, oğlan və qız tərbiyəsi haqqında özünəməxsus təsəvvür və anlayışları, adət və ənənələri vardır. Bu təsəvvür və anlayışlarda, adət və ənənələrdə xalqın pedoqoji fikirləri etnoqrafik qaydalarla üzvi surətdə birləşir" (3, 272-273).

İnsanın tərbiyəvi xüsusiyyətləri, əxlaqi keyfiyyətləri onun nitqində, təfəkküründə, ünsiyyətində yaşam tərzində büruzə verir. Zaman keçdikcə həmin keyfiyyətlər yetkinləşir, onun mənəvi simasını əks etdirir. Tərbiyə insanın cəmiyyətdə özünü təsdiq vasitəsi və bir növ şəxsi möhürüdür. Eyni zamanda "bütün millət və xalqlara milli, xüsusi və ümumbəşəri keyfiyyətlər xasdır. Milli kalorit məişətin milli ünsürlərini, millətin psixi həyat tərzini əks etdirməklə, bütün insanlara xas olan bir çox mənəvi əxlaqi sifətləri də əks etdirir" (4, 45).

İnkulturasiya prosesi xalqın keçdiyi həyat tərzinin özündədir. "Həyat tərzi – insanların fəaliyyət formalarının, bu fəaliyyətin şəraiti ilə birgə götürülmüş və bu şəraiti dəyişə bilən məcmusudur" (5, 302). Bu həyat tərzində isə özünəməxsus adət və ənənələr icra olunur. Adət və ənənə xalqın şüurunda möhkəm yer tutarsa, onu məişətdən silib atmaq çox çətindir. Bu da onun uzun ömürlü olmasını təmin edir. Belə ki, "hələ müasir mənada pedaqoji elmlərin olmadığı vaxtlarda insan təcrübəsi davranış nümunələrinin intəhasız təkrarlarından elə normalar, elə qaydalar, elə qadağalar və öyüd nəsihətlər xalq pedaqogikasının məğzini təşkil etmişdir ki, onlar, hər şeydən əv-

vəl, mütərəqqi adət və ənənələrdə etnoqrafik və tarixi materiallarda, xüsusilə folklorun atalar sözü, məsəllər, nağıllar, dastanlar, bayatılar, tapmacalar və şer janrlarında öz ifadəsini taparaq tarix boyu minlərlə nəsillərin, həmçinin ən görkəmli fikir adamlarının, bədii söz ustalarının formalaşmasında müstəsna rol oynamış və cilalana-cilalana bu günə qədər gəlib çatmış, indi də tərbiyəvi əhəmiyyətini itirməmişdir" (6, 9-10).

Ailə tərbiyəsi minilliklər boyu mənəvi mədəniyyətimizin tərkib hissəsi olan tarixi miras kimi əbədiyaşar adət və ənənələrin güclü təsirinə məruz qalmışdır. Çünki hamı tərəfindən qəbul edilən adət və ənənələr əsrlərdən bəri süzülüb gələrək məişət tərzinin əsası kimi insan psixologiyasına daha dərindən nüfuz edə bilmiş və gündəlik yaşam tərzinin bir parçası olmuşdur. Belə ki, "adət və ənənə – xalqın mənliyinin meyarıdır. Onları xalq yaradır, yaşadır, nəsildən-nəslə ötürür. Böyüyən nəslin tərbiyəsində güclü vasitələrdən biri kimi istifadə edilir. Adət-ənənələrdən elələri var ki, yarandığı ictimai quruluşdan asılı olmayaraq, bütün dövrlərdə böyük tərbiyəvi əhəmiyyət kəsb edir. Bunlar bu gün də tərbiyəyə müsbət təsir göstərir." (7, 23) Çünki "adət və ənənələr, o cümlədən bayram və mərasimlər insan həyatının sosial mənəvi tərəflərini özündə cəmləmiş, mühafizə edərək əsrlərdən-əsrlərə, nəsildən-nəslə ötürə bilmişdir. Xüsusilə, bir çox sosial-mədəni vərdişlərlə yanaşı, ədəbiyyatın, musiqinin, teatrın müxtəlif folklor nümunələrinin xəzinəsinə çevrilmişdir» (18, 17). Xüsusən şifahi xalq yaradıcılığı nümunələri xalqın həyatında mühüm rola malikdir.

İlk vaxtlar uşaq körpə ikən ətraf mühitə onun qayda və qanunlarına uyğunlaşma prosesi başlayır. Bu zaman uşaq çox kövrək olur. Realla xəyali olanın çulğalaşdığı

bir zamandan böyüyərək obyektiv aləmi kəşf edir, yavaş-yavaş sosial dünyaya atılır. Bu zaman oyunlar əsas rol oynayır. Qeyd etməliyik ki, körpə uşaqlar böyüklərindən gördüklərini təqlid etməyə çalışırlar. Bayramlar, oyunlar və əyləncələr bizə insanların məişətini əks etdirir. Oyunların növləri isə müxtəlif olur.

– fiziki oyunlar,
– strateji oyunlar,
– riskli oyunlar.
– ifası, rolu olan oyunlar.
– sözsüz oyunlar (pantomima) və s.

Fiziki oyunlar fiziki fəaliyyətin artırılmasına xidmət edir, cəldlik, döyüşkənlik, qəhrəmanlıq ruhunu artırır. Azərbaycanda xüsusən orta əsrlərdə daha da geniş tətbiq olunan zorxana oyunlarını, çovqanı və s. misal göstərmək olar. Strateji oyunlar, istənilən fəaliyyətin nəticələrini proqnozlaşdırmanı inkişaf etdirən oyunlardır, məsələn şahmat kimi. Riskli oyunlar uğurlu şəraitdən asılı olaraq oyun gedişində əldə olunan maraqlı yekunla sonlana bilən çətin addımlardır. İfası rolu olan oyunlar isə məlum olduğu kimi aktyorluq məharətinin olmasını gərəkli edir. Bu oyunlar gələcəkdə uşağın həll edəcəyi vəzifələrin öncədən mənimsənilməsinə yönəldilən istiqamətdir. Bu oyunlarda şəxsiyyətə xas olan müxtəlif keyfiyyətlər inkişaf edir, məs, intellekt, təhsilə maraq, təxəyyül, aktyorluğa meyl yaranır.

İnkulturasiya prosesində əməyə münasibət də mühüm rol oynayır. Beləliklə, uşağın inkulturasiyası yetkinliyə keçid yolunda ilkin təməl daşıdır. İnsan o zaman yetkin hesab olunur ki, müəyyən keyfiyyətlər əldə edir:

– fiziki yetkinliyə çatır.
– şəxsi həyatını təmin etmək üçün müəyyən vərdişlər əldə edir.

– mədəni biliklər sahəsində (din, hüquq, əxlaq, elm, incəsənət) məlumatlar əldə edir.

– sosial birliklərdən birinə mənsub olur.

– etnik özünüdərkə çatır.

İnkulturasiyanın ikinci mərhələsinin birinci mərhələdən başlıca fərqli cəhəti cəmiyyət tərəfindən qəbul olunmuş qaydaların fərd tərəfindən müstəqil mənimsənilməsidir. Yetkin bir şəxs kimi hər bir kəs bilik və bacarıqlarını müəyyənləşdirə bilir, müstəqil qərar qəbul edə bilir və müəyyən hərəkatlarda iştirak etmə hüququ qazanır. O, cəmiyyətin bərabər və tamhüquqlu fərdinə çevrilir. Burada ailə ilə yanaşı, toplumun da təsir gücü vardır.

Birinci mərhələ mədəniyyətin stabilliyinin qorunmasını təmin edir. İkinci mərhələ isə cəmiyyət üzvlərinə müxtəlif miqyaslı dəyişikliklər edərək mədəniyyətdə eksperiment etməyə görə üzərinə məsuliyyət götürməyə təminat verir. Hər iki mərhələnin ardıcıl davam etməsi şəxsiyyətinin mentalitetinin formalaşması ilə yekunlaşır. Həm düşünmək, hiss etmək və dünyanı müəyyən şəkildə qəbul etmək fəaliyyəti qazandırır (1, 176-177). Deməli, inkulturasiya konkret özünəməxsus mədəniyyət daxilində insanların yetişməsi prosesidir. O, tədrici gedir. İnkulturasiya prosesində fərd tərəfindən bilavasitə müşahidənin böyük rolu vardır. Əgər insan öz mədəniyyəti daxilində yaşayıb fəaliyyət göstərirsə, onun içində əriyirsə, deməli, o bu mədəniyyətin daşıyıcısına (etnofora) çevrilir.

Məlumdur ki, hər bir xalqın mədəniyyəti fərqli xüsusiyyətlərə malikdir. İnkulturasiya prosesinin daxili və xarici tərəfləri olmaqla müəyyən uyğunlaşma zamanı vardır. Bu o deməkdir ki, hər bir insan onu illərcə əhatə edən öz yaşadığı mühit daxilindəki mədəniyyətə uşaqlıqdan bəri içində yaşayaraq daxil olur. Bu təbii haldır. Bir

də elə hallara rast gəlmək mümkündür ki, insan xarici ölkəyə müəyyən səbəblə gedib qaldıqda o mühitə daxil olmağa çalışır. Bu isə xarici ölkənin qaydalarına bütünlüklə "girmək", öyrəşə bilmək və onu əxz edə bilmək deməkdir. Bunun üçün müəyyən zaman gərəkli olur. Xarici ölkənin mədəniyyətinə uyğunlaşmanın da yolları vardır. Eyni zamanda burada ölkələrin dil və mədəniyyət yaxınlığı məsələsinin də təsiri nəzərə alınmalıdır. Bu isə ailələrin və onun üzvlərinin təfəkkür tərzindən və yaş həddindən asılıdır. Azərbaycanlı üçün Türkiyə mühitinə adaptasiya olmaq daha asan olur, nəinki Avropa mühitinə. Çünki adət-ənənə və dil yaxınlığı şəraiti onlar üçün bir qədər doğmalaşdırır.

Miqrasiya nəticəsində başqa ölkələrə köç edənlərin qarşısında yeni mühitə uyğunlaşma çətinliyi dayanır. Çünki onları əhatə edən yeni həyatın sosial qanunlarına uyğunlaşmaq mümkündür. Lakin başqa xalqın adətlərini mənimsəmək, milli dəyərlərinə vaqif olmaq nisbətən çətindir və onu tamamilə özününküləşdirmək insanlara çox vaxt müyəssər olmur. Burada adaptasiya, yəni uyğunlaşma prosesi gedir. İnsanlar sosiallaşa da bilir, lakin inkulturasiya getmir.

İnkulturasiyanın başqa xüsusiyyəti də vardır. Bu da ondan ibarətdir ki, xaricə köçmüş və öz mədəniyyətindən uzaqda yaşayanların övladları böyüyüb başa çatdıqları ölkənin mədəni mühitinə daha tez daxil ola bilirlər, nəinki yaşlı nəslin nümayəndələri. Yaşlı nəsil üçün vətən həsrəti, öyrəşdikləri sosial çevrə xiffəti daha təsiredici olur. Bəzən elə ailələr tapılır ki, yeni mühitə uyğunlaşa bilmədikdə öz ölkələrinə ailələri ilə birgə geri qayıdırlar. Bəzən isə onlar mənimsədikləri öz mədəniyyətlərini tamamilə unudaraq xarici ölkədə yerli mədəniyyətin bir parça-

sına çevrilə bilirlər. Bu da ailələrin sosial vəziyyətindən, dünyagörüşündən, bilik səviyyəsindən asılıdır. Əgər insanlar müəyyən səbəblərdən dolayı, xarici ölkələrə üz tuturlarsa, doğma dil belə ailə daxili məcburi ünsiyyət vasitəsinə çevrilir. Yeni nəsil, ailənin azyaşlı uşaqları başqa xalqın içərisində qaynayıb-qarışmağı bacarırsa, o digər bir xalqın mədəni mühitinə daxil olur. Bu zaman artıq böyük nəsil mənəvi sıxıntı çəkir, ya qismən sosiallaşır, ya sadəcə kənara çıxmır, yaxud da dözməyib geri qayıdır. Deməli, yaş xüsusiyyəti özünü göstərir.

Sosiallaşma şəxsiyyətin formalaşmasıdır, onun tərəfindən sosial qaydaların, bilik və vərdişlərin mənimsənilməsidir. O, həyatın müxtəlif sahələrində cəmiyyət daxilində fərdin sərbəst fəaliyyətinin tənzimlənməsidir. Hətta bir başqa ölkəyə gedən emiqrantın sosial yaşamla ayaqlaşa bilməsi daha tez baş verir, nəinki onun digər mədəni norma və adətlərini mənimsəməsi prosesi. Burada adaptasiya, yəni uyğunlaşma prosesi özünü göstərir. Adaptasiya özünü həm sosiallaşmada, həm də inkulturasiyada göstərir. Lakin sosiallaşmada fərd sosial şəraitə, inkulturasiyada isə mədəni mühitə uyğunlaşmalı olur.

Bəs inkulturasiyanın akkulturasiyadan fərqi nədir? İnkulturasiya fərd tərəfindən, akkulturasiya isə xalq tərəfindən mənimsəmədir. Azərbaycanda inkulturasiya prosesində əhəmiyyət kəsb edən məsələlərə qısa nəzər salaq.

Əvvəla, uşaq göz açdığı andan etibarən öz ailəsinin üzvlərinin və ana dilinin əhatəsində olur. Sonralar isə böyüyüb cəmiyyətə atılır. İlk məktəb illərində inkulturasiyanın getməsində əhəmiyyətli rol oynayan yeni təhsil ocağının qoynuna atılır. Mədəniyyət təhsillə sıx surətdə bağlıdır. Ailə qədər orta və ali məktəblərin də inkulturasiya prosesində öz yeri vardır. İstənilən xalqın milli dəyər-

lərinin mənimsənilməsində onun çoxəsrlik mədəni irsinin məktəbliyə aşılanması humanitar biliklərin öyrədilməsi vasitəsilə həyata keçirilir. Məktəbin etnosun dil və mədəniyyətinin sistemli şəkildə çatdırılmasında rolu böyükdür. Təhsil məktəblinin inkulturasiya prosesində, onun mükəmməl yetişməsində, məktəblinin etnomədəni identifikasiyasında müstəsna rol oynayır. Mədəniyyət mərkəzləri və milli muzeylər vasitəsilə etnosun mədəniyyəti canlandırılır. Milli məktəblərdə tarixi taleyin və mədəni irsin ümumiliyinin hiss etdirilməsi və məktəbliyə dil, ənənə və mənəviyyat qaydalarının aşılanması təmin edilir. Burada əxlaqi davranış tərbiyə olunur.

Mənsub olduğu xalqın təmsilçisi kimi şərəf və güclü ləyaqət hissinin olması əxlaqın sabit xətt üzrə inkişaf etdiyini sübuta yetirir. İnsanın münasibətlərə uyğun müvafiq qərarlar çıxarması onu fərdlərdən şəxsiyyətə doğru yetişdirdiyi əxlaqa borcludur. O, milli adət və ənənələr ruhunda tərbiyə alır, onlara əsaslanaraq fəaliyyət göstərir və müəyyən vərdişlər əldə edir. Nəticədə məktəbli müəyyən həyat tərzinin daşıyıcısına çevrilir. İnkulturasiya prosesində orta və ali məktəblərin əhəmiyyətli rolu danılmazdır. Xüsusən humanitar fənlərin tədrisində şagird və tələbələrə yüksək səviyyənin təqdim olunması, tarixi keçmişin, ədəbi və mədəni irsin təbliği və qorunması istiqamətində görülən işlər mühüm və məsuliyyətli vəzifədir.

Körpəlik vaxtından uşağın ailədən götürdüyü keyfiyyətlər gələcək inkişafı dövründə də qorunub saxlanılır. “Kitabi-Dədə Qorqud” dastanında haqlı olaraq belə deyilir:

*Qız anadan görməyincə öyüd almaz.*
*Oğul atadan görməyincə süfrə çəkməz.*
*Oğul atanın yetirməsi, iki gözünün biridir.*
*Ağıllı oğul olsa, ocağının gözüdür (16, 129-130).*

Uzun əsrlər boyu xalqımızın adət və ənənələrinə uyğun olaraq Azərbaycan ailəsində uşaqlara tətbiq olunan tərbiyə üsulları bunlardan ibarət olmuşdur:

1. Məsuliyyət hissinin aşılanması.
2. Yaxşı və pis hərəkətin mahiyyətinin açıqlanması.
3. Mənfi cəhətlərdən uzaqlaşdırılmasına nail olunması.
4. Nizam-intizama alışdırılması.
5. Böyüklərə hörmət və qayğı göstərilməsi.
6. Qonaqpərvərliyə riayət edilməsi
7. Vətənpərvərlik hissinin aşılanması və s.

İnsanların inkişaf mərhələsində keçdikləri yol uzundur. Bu yolda yaş həddi məsələsi də əhəmiyyət kəsb edir. İnsan psixologiyasının formalaşmasında yaş həddinin rolu danılmazdır. Çunki insan çox şeyi müəyyən zaman keçdikdən sonra dərk edir. Nizami Gəncəvinin oğlu Məhəmmədə nəsihətində deyilir:

*Ey on dörd yaşlı gözümün işığı!*
*İki dünya elmlərində tam yetkin,*
*O gün ki yeddi yaşındaydın,*
*Çəməndəki gül kimi idin.*
*İndi ki on dördünə çatmısan,*
*Sərv kimi yüksəkliyə baş qaldırmısan,*
*Qafil oturma, oynamaq vaxtı deyil,*
*Hünər, başıucalıq vaxtıdır.*
*Bilik ardınca get, böyüklük öyrən ki,*
*Gündən-günə sənə yaxşı nəzərlə baxsınlar.*
*Ad və nəsəb (mənşə) kiçik yaşlı üçündür.*
*Böyük ağacın nəsli axtarılmaz.*
*O yerdə ki, böyük olmağın lazımdır,*
*Mənim oğlum olmağının sənə faydası yoxdur.*

*Aslan kimi özün ordu qıran ol!*
*Öz xislətinin övladı ol!*
*Səadət istəyirsənsə, səbəbini mühafizə et!*
*Allahın xalqı ilə ədəblə riayət et! (8, 51)*

Nizaminin bu ibrətaiz fikirləri orta əsrlər dövründə tərbiyənin nə qədər böyük rola malik olduğunu göstərir. Maraqlı cəhət budur ki, şair bu fikirlərilə yaş həddinin fərqini də qeyd edir. Yeddi yaşla on dörd yaşlının bir olmadığını göstərir.

Yaşla bağlı fikirlərə orta əsr müəlliflərinin əsərlərində yer verilməsi insanın inkişafı yolunda keçdiyi müəyyən mərhələlərin olduğunu təsdiq etmələri bir həyat həqiqətidir. Belə ki, müəyyən zaman çərçivəsində uşaqlarda mənlik şüuru formalaşmağa başlayır. Bu həm ailənin, həm də cəmiyyətin təsiri ilə formalaşır. Yaş həddi insanın mənəvi simasının getdikcə kamilləşməsini əks etdirir. Bu həmçinin zamanla daha da inkişaf edən insanın öz duyğularına, tələbatına, qabiliyyətinə və s. şüurlu şəkildə yanaşmasıdır, münasibət göstərməsidir. Bildiyimiz kimi, əqidə, ideal, maraq, meyl bütün bunlar müəyyən yaş həddi boyunca formalaşır. Nizaminin fikri maraq doğurur:

*Ömür iyirmidən və ya otuzdan ki, keçdi,*
*Daha qafillər kimi yaşamaq yaramaz.*
*Ömrün şadlığı qırxślədək olur,*
*Qırx yaşında qol-qanad tökülür.*
*Əllidən sonra sağlamlıq olmaz,*
*Göz kütləşər, ayaq susdalar.*
*Altmış ki, çatdı, oturmaq vaxtıdır,*
*Yetmiş olan kimi alət işdən düşür.*
*Səksənə, doxsana elə ki, yetdin*
*Dünyadan çoxlu məşəqqətlər görərsən.*

*Əgər oradan mənzili yüzə çatdırsan,*
*Zahirən diri olsan da, ölü kimisən (9, 53).*

İnsanlar mənsub olduqları cəmiyyətin təfəkkür tərzini, dünyagörüşünü, psixoloji məqamları gündəlik həyatda əks etdirərək dövrə uyğun şəkildə yaşatmışlar. Onu da qeyd edək ki, zamanla öz təsrini göstərən inkişafa baxmayaraq, hər bir xalqın mədəniyyətində məhz ona xarakterik olan və onun daxili mahiyyətindən doğan xüsusiyyətlər qorunub saxlanılmış və təfəkkür tərzinə sirayət etmişdir.

İnformant bildirir ki, xarici ölkədə olanda öz doğma vətəni üçün darıxır (25). Azərbaycandan kənarda yaşayan yurddaşlarımızdan Türkiyədə müəllimlik edənlər vardır ki, vətənə geri qayıdacaqları günü səbirsizliklə gözləyirlər, hətta öz övladlarına toyu Bakıda qohumlar arasında edəcəklərini söyləyirlər (26). Bəziləri təqaüdə çıxdıqdan sonra artıq geriyə dönmüşlər. Aydın məsələdir ki, yaşlı nəsil ömrünün qalan hissəsini aid olduğu yerdə görmək istəyir.

İnkulturasiya prosesinin fərd tərəfindən mənimsənilməsində oyun və əyləncələr qədər xalq bayramlarının da öz yeri vardır. Bu günkü nəsillərə əmanət qalan mənəvi mədəniyyətin tərkib hissələri bayramlardan, oyun və əyləncələrdən, dini baxışlardan, elmi biliklərdən, adət-ənənələrdən və sairədən ibarətdir. Bayramlar xalqımızın mədəni-məişət həyatında dərin izlər buraxmışdır və tarixən bütün insanlar tərəfindən həvəslə qeyd edilmişdir. Ənənəvi mədəniyyətin öyrənilməsinin əhəmiyyəti burada özünü büruzə verir.

Qeyd edək ki, "mədəniyyət – tarixən dəyişən, sosial tələblərlə şərtlənən geniş anlayış olub, konkret tarixi

dövrün məhsulu, onun siyasi və iqtisadi təsirinin nəticəsidir. O, insanın şüuru, psixikası və davranışı ilə bağlı olmaqla yanaşı, həm də dövlətin və xalqın maddi prosesləri, tarixi inkişafı ilə sıx əlaqədədir. Hər bir dövr, hər bir xalq və hər bir nəslin öz mədəniyyəti və onun haqqında öz təsəvvürləri var. Mədəniyyət insan şüurunu, fərd, cəmiyyət və dövlətin həyat, məişət və fəaliyyətini, texnologiyaları, istehsal və maddi vasitələri, iqtisadiyyat və siyasət, həyat tərzi, ənənələr, millət və xalqların adətləri və mədəni irsi, milli və bəşəri ruhi dəyərlər, hüquqi, etik və estetik normaları, ictimai və beynəlxalq münasibətləri əhatə edir. Sosial fenomen və noumen olan mədəniyyət həyat və fəaliyyətin müəyyən sahəsində onun keyfiyyətini ifadə edən, kontekstual anlamda da öz əksini tapır. Bunun üçün aşağıdakıları yada salmaq kifayətdir: istehsal, intellektual, siyasi, iqtisadi, etik, hüquqi, tibbi, ekoloji, idarəetmə mədəniyyəti, məişət mədəniyyəti, sülh mədəniyyəti, qender mədəniyyəti, məsuliyyət mədəniyyəti, şəxsiyyət mədəniyyəti və s.” (19, 15).

Fərdin öz mədəniyyətinə daxil olmasında əsas xüsusiyyətlərdən biri yemək mədəniyyətinin də mühüm rol oynadığı şübhə doğurmur. Yeməyin vaxtı, hazırlanma qaydası, tərkibi və s. fərqlidir. Maddi mədəniyyətin digər elementlərilə də xalqlar bir-birindən fərqlənir. Maddi nümunələr isə insan zəhmətinin və qabiliyyətinin göstəriciləridir. İnsan fəaliyyətinin məhsulu kimi yaranan maddi mədəniyyət elementlərinin formalaşmasını zəruriləşdirən ona olan tələbatdır. İnsanları motivə edən tələbat əmək prosesində tarixən müəyyən ənənəvi formaların adət və vərdişlərin yaranmasını da labüd edirdi. Təbiətlə təmas insanın həyat və fəaliyyətinin ən əsas vasitəsidir. Maddi mədəniyyət bir növ istehsal deməkdir və insan həyatının

inkişafı üçündür. Hər bir xalqın maddi mədəniyyət elementləri özünəməxsus şəkildə unikal və orijinaldır (14, 54). Belə ki, "mədəniyyətin başqa sahələri kimi, maddi mədəniyyət də cəmiyyətin təbii və sosial mühitə uyğunlaşması mexanizmini təşkil edir. Başqa sözlə, onda həm etnosun məskunlaşdığı təbii coğrafi mühit, həm də onun ictimai-iqtisadi inkişafının səviyyəsi, siyasi quruluşu, əhatəsi və digər konkret tarixi şərait öz əksini tapır. Maddi mədəniyyət anlayışı mədəniyyətin yalnız istehsal və tələbat sahəsində maddi gerçəkləşən varlığını deyil, həmçinin onunla bağlı olan insan fəaliyyətinin forma, təcrübə və istiqamətlərini əhatə edir" (15, 6).

İbtidai dini təsəvvürlərdən sonra Azərbaycanın orta əsr həyatına daxil olan islam dini tədricən yayılmağa başlamış və bu dinin rolu artmışdır. İslamın əhəmiyyəti onun birləşdiricilik mahiyyətindədir. Xalqlar arasında vahid dinə söykənən əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində dini fəaliyyətin artması məişət-mədəniyyət ümumiliyinin güclənməsini təmin etmişdir. Ə.Məmmədli də VII əsrdən etibarən Azərbaycanda yaşayan bütün əksər etnosların etnomədəni yaxınlaşmasında islam dininin mühüm rol oynadığını qeyd etmişdir (13, 82). Din amili xilafət ölkələrinin nəinki mövcud ticarət, hətta elmi münasibətlərinin artmasını da təmin etmişdir.

İnkulturasiya prosesində fərd tərəfindən bilavasitə müşahidənin böyük rolu vardır. Əgər o öz mədəniyyəti daxilində yaşayıb fəaliyyət göstərirsə, onun içində əriyirsə, deməli, bu mədəniyyətin daşıyıcısına çevrilir. Ufuk Şimşek qeyd edir ki, "dünya millətlərinin böyük çoxluğu təbiətlərini etnik və yurddaş millət təməlində şəkilləndirmişdir. Bu gün insanların çoxu sivil-ərazi, ya da etnik-sosial təməllər tərəfindən şəkillənmiş millətlərə aiddirlər" (17, 93).

Q.A.Niqmatullina haqlı olaraq yazır ki, stabil inkulturasiya sisteminə malik olmayan cəmiyyət üzvləri arasındakı ayrılıqla, qeyri-ümumiliklə xarakterizə olunur, o vahid mənəvi dəyərlər özülündən məhrumdur (10, 13). Dövlətin gənclərin inkulturasiya prosesində dövlət siyasətində və mədəniyyət sahəsində rolu məsələsi öz gələcək tədqiqatlarını gözləyir.

Araşdırmalar onu deməyə əsas verir ki, insan toplumu müəyyən əlaqələrin yaranmasında və qorunub saxlanılmasında olduqca maraqlıdır. Çünki cəmiyyət üzvləri bir-birindən üzvü surətdə asılıdır və mənəvi tellərlə bağlıdır. Eyni zamanda bu bir gerçəklikdir ki, onlar istər-istəməz cəmiyyətlə, yaşadıqları toplumla hesablaşmalı olurlar. Bu və ya digər münasibətlər təbii olaraq insanları davranış etibarilə müəyyən qəlibə salır (24, 5).

Beləliklə, haqqında bəhs etdiyimiz inkulturasiya prosesinin öyrənilməsinin əhəmiyyəti ondan ibarətdir ki, o, Azərbaycan mədəniyyətinin bütövlüyü və gələcək inkişafı üçün şəxsiyyətin formalaşmasında əvəzsiz rola malikdir. Nəzəri əsasların işlənib hazırlanması elmi cəhətdən vacib məsələdir. İnkulturasiya prosesinə təsir edən amillər mövcuddur. Xüsusən adət-ənənələrin, məktəbin və sağlam cəmiyyətin inkulturasiya prosesində rolu böyükdür. Sosial yaşam tərzinə adaptasiya nisbətən tez, yabançı dəyərləri mənimsəyərək ona adaptasiya, yəni inkulturasiya isə çətin və gec gedən prosesdir. İnkulturasiya insanın mədəniyyətə tədrici yolla gedən cəlb olunmasıdır, müəyyən tarixi dövr üçün qaydalar, vərdişlər, davranış tərzi və təfəkkür formasını mənimsəməsidir. Bu gün dünyada gedən qloballaşma ənənəvi mədəniyyətin təsirini azaltmış, ölkəmizdə bir sıra mədəni dəyərlərin itməsinə gətirib çıxarmışdır. Cəmiyyətin üzvlərini təşkil edən fərd-

lərin sosiomədəni xüsusiyyətlərində də müəyyən dəyişikliklər nəzərə çarpacaq dərəcədə aydın sezilməkdədir. İnkulturasiyanın çətin və mürəkkəb bir proses olduğunu qeyd etmək olar. Nəzərə almaq lazımdır ki, hüquqi, bədii, dini, estetik dünyagörüşün cəmiyyət üzvlərinə təsiri çoxmənalıdır. Sosial-iqtisadi və siyasi şəraitin mühüm rolu vardır. Dövlət institutları tərəfindən planlı fəaliyyətin həyata keçirilməsinin əhəmiyyəti böyükdür və o, aktuallıq kəsb edir.

**Ədəbiyyat:**


1. Садохин А.П. Грущевицкая Т.Г. Этнология. – М.: Академия, – 2001. 304 с.
2. Тайлор Э.Б. Первобытная культура. – М.: изд. Политической литературы, – 1989. – 573 с.
3. Əlizadə Ə. Abbasov A. Ailə. – Bakı: Maarif, – 1989. – 312 s.
4. İsrafilov M. Mənəvi zənginlik. – Bakı: Gənclik, – 1980. – 72 s.
5. Руткевич М.Н. Диалектика и социология. М. Мысль, 1980.
6. Həşimov Ə., Sadıqov F. Azərbaycan xalq pedaqogikası. – Bakı: Ünsiyyət, – 2000. – 272 s.
7. Qaralov Z. Tərbiyə. 2 c. – Bakı: Pedoqogika, – 2003. – 304 s.
8. Gəncəvi N. Leyli və Məcnun. – Bakı: Elm, – 1981. – 290 s.
9. Gəncəvi N. Xosrov və Şirin. – Bakı: Elm, – 1981. – 374 s.
10. Нигматуллина Г.А. Особенности процессов инкультурации российской молодежи на современном этапе: Дис. канд. филос. наук: 24.00.01: Казань, – 2004. – 161 с.
11. Herskovits M. Cultural Anthropology. – New York: Alfred, A. Knopr. Inc. Ltd. – 1955.

12. Honigman J.J. Culture and Personality. – N.Y., Harper & Brothers, – 1954.
13. Мамедли А. Современные этнокультурные процессы в Азербайджане: основные тенденции и перспективы. – Баку: Хазар, – 2008. – 246 с.
14. Bünyadova Ş. Azərbaycanın təsərrüfatı və maddi mədəniyyəti. XII-XVI əsrlər. – Bakı: Elm, – 2007. – 360 s.
15. Nəsirli M. Azərbaycan SSR Şəki-Zaqatala zonası əhalisinin yaşayış evləri. – Bakı: Elm, – 1975. – 267 s.
16. Kitabi-Dədə Qorqud. – Bakı: Yazıçı, – 1988. – 265 s.
17. Ufuk Şimşek. Milliyetçilikler ve Milletin oluşumu üzerine bir inceleme. Atatürk Universitesi Sosyal Bilimler Enstitüsü Dergisi. 2009 13 (2) s. 81-96
18. Hüseynov İ. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. – Bakı: Mars-Print, – 2002. – 305 s.
19. Məmmədov F. Kulturologiya effektivli həyat və fəaliyyətə aparan yol kimi. – Bakı: "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası, – 2006
20. Бромлей Ю.В. Очерки теории этноса. – М.: Наука, – 1983, – 412 с.
21. Ağayeva Z.B. Mənəvi dəyərlər və sosial-siyasi gerçəklik. – Bakı: Elm, – 2014. – 186 s.
22. Quliyev H. Arxetipik azərilər: mentalitetin simaları. – Bakı: Qanun, – 2010, – 344 s.
23. Saleh Arslan. Mənəvi dəyərlərin təbliği: keçmişə, yoxsa özünə qayıdış. – Bakı: Tuna, – 2018. – 214 s.
24. Bünyadova Ş. Münasibətlər müstəvisi. – Bakı: Mütərcim, – 2018. – 152 s.
25. Məlumatçı Əhməd Əsgər Sücayət oğlu, 1957-ci il təvəllüdlü, (Ağdamın Zəngişalı kəndi)
26. Məlumatçı İbrahimova Nailə Saleh qızı, 1962-ci il təvəllüdlü, Bakı.

# AZƏRBAYCANLILARIN DÜNYAGÖRÜŞÜNDƏ QƏRİBLİK

Təqdim olunan məqalədə azərbaycanlıların həyat tərzində, etnik psixologiyasında mövcud olan qəribçiliklə bağlı fikirlər etnoqrafik müşahidələr, xalq yaradıcılığı nümunələri, şair və yazıçılarımızın əsərləri əsasında təhlil süzgəcindən keçirilir. Etnoqrafik ədəbiyyatda ilk dəfə nəzərə alınan bu mövzu indiyədək işıqlandırılmadığı üçün aktuallıq kəsb edir.

Azərbaycanlıların, eləcə də digər türk xalqlarının baxış bucağında, məişət tərzində və etnik şüurunda özünə yer eləyən müxtəlif amillərdən biri də emosional baxımdan mühüm əhəmiyyət kəsb edən *qəriblik* duyğusudur. Aydın məsələdir ki, hamıya bəlli olan bu emosional vəziyyətin arxasında dayanan hikmətin, mənanın insanların həyat fəlsəfəsindən süzülüb gəldiyini inkar etmək olmaz.

Qərib deyəndə nəyi nəzərdə tuturuq? Niyə o xalqların dünyagörüşündə yaranıb və varlığını qoruyub saxlayan bir münasibət formasına çevrilib? Bu suallara cavab axtarmaq üçün xalqın məişət və mədəniyyətində kök salan vacib məsələyə aydınlıq gətirmək lazımdır ki, o da vətən sevgisidir.

Əvvəla, vətən anlayışının kəsb etdiyi əhəmiyyət barədə məlumat verək ki, qəribliyin məna çalarına işıq tuta bilək. İnsanın doğulub boya-başa çatdığı yer, torpaq, əra-

zi onun vətəni sayılır. Hər bir kəsin mənsub olduğu vətən torpağına borcluluq, sevgi, öyrəşmə, mənafeyinin müdafiəsi yolunda canından belə keçə bilmə hissi vətənpərvərliyin məzmununu təşkil edir. Xalqın mənafeyini hər şeydən üstün tutmaq insanların daxili mənəvi tələbatından irəli gəlir. Vətənpərvərlik iftixar, qürur doğuran bir hissdir. Hər bir namuslu insan dəyər verdiyi vətən torpağının keşiyində durmaq kimi əhəmiyyətli vəzifənin ağırlığını çiyinlərində daşıyır. Azərbaycan dilində vətənin ana, doğma, əziz, can sözləri əlavə olunmaqla vurğulanması onun mahiyyətinə verilən dəyərin bariz nümunəsidir.

İnsanların vətənə münasibəti cəmiyyətdə tutduğu statusla daha da müəyyənləşir. Xüsusən ziyalıların vətənə duyduğu hisslər məcburən qəribçilikdə olarkən onların yazılarından sezilməkdədir. Onlar – mühacirlər vətəni tərk etmir, içlərində aparır, daxili dünyalarında yaşadır, xaricdə belə onun təəssübünü çəkir. Repressiya illəri zamanı vətəndən sürgün olunmuş Azərbaycan ailələrinin əksər hissəsi sonralar (1950-ci illər) yenidən doğma ellərinə dönmüşlər. Bu da onların vətənə və köklərinə bağlılığından irəli gəlir.

Dilimizdə işlənən *qərib* sözü özgə, yad, gəlmə mənasında başa düşülür. Bundan əlavə qəribliklə bağlı müxtəlif məna çaları kəsb edən deyimlər də vardır. Məsələn, *qəribanə* – itaətli, *qərib-qürəba* – başqa yerdən gələn, *qəribsəmək* – özünü kimsəsiz tənha bilib darıxmaq, *qəribnəvazlıq* – qəribləri himayə edən şəxs, *qəribçılıyə salmaq* – etinasız şəkildə birinin dediklərinə əhəmiyyət verməmək kimi kəlmələr ünsiyyətdə işlənir.

Məsələnin şərhinə ilkin olaraq həyat təcrübəsi və etnoqrafik müşahidələr sayəsində əldə olunan materiallarla başlayaq. Qəribçilik dedikdə, əslində qürbət eldə məkana adaptasiya ola bilməmək, uyğunlaşma prosesin-

də çətinlik çəkmək, doğma yurdun xiffətini daxilən hiss etmək, yeni mühitin doğurduğu həyat burulğanında baş çıxara bilmək, mənəvi dəstək olmadan bilinməzliklər içində kəşfiyyat aparmaq, tanınmayan bir cəmiyyətdə özünü təsdiq etməyə səy göstərmək deməkdir ki, bu da zaman alan və müəyyən vaxt aparan bir şeydir. Bunun da başlıca səbəbi qeyri-müəyyənliyin doğurduğu şəraitdir. Bəzən qürbətdə insanın səbri tükənir, bəzən də əksinə, qarşısına qoyduğu amal, məqsəd, ən ülvi hisslər onun mücadilə vermək əzmini daha da gücləndirir. Azərbaycanlılarda bu hiss yad mühitlə əlaqəli olsa da, bəzən doğma vətənin ayrı-ayrı şəhərlərində də qəribçilik hissi baş qaldırır, müvəqqəti məkan olsa da, mühit yorucu gəlir.

Məlumatçılar da təsdiq edirlər ki, dünyanın harasını da gəzsələr, dincliyi ana torpaqda tapırlar. Bəzən xaricə daimi yaşamaq üçün gedib tezliklə geri dönənlər olur (5). Xüsusən də yaşlı nəslin nümayəndələri övladları ilə bağlı getdikləri xarici ölkədən doğma vətənə qayıdanda (övladları yanında olmasalar belə) hədsiz dərəcədə sevinirlər (6). Çünki onlar yad mühitə uyğunlaşa bilmirlər. Keçdikləri inkulturasiya prosesi onların başqa mühitə uyğunlaşmasına (bəlli bir yaşdan sonra) müəyyən mənada əngəl törədərək qəbulolunmaz kimi görünür. İnkulturasiya prosesi dedikdə hər bir xalqın öz mədəniyyətinə daxil olması nəzərdə tutulur. Mənsub olduğu mədəniyyətinin içindən ayrılaraq kənar mədəniyyətin ağuşuna atılmaq qəribçilik hisslərinin baş qaldırma səbəbidir. Xüsusən tələbələrin başqa ölkələrə getdiyi anda ailədən uzaq yeni mühitə uyğunlaşma prosesi, sosiallaşa bilməsindəki çətin məqamlar, sıxıcı gələn şərait onları müəyyən qədər tənhalığa qapılmağa sövq edir. Zamanla məsələ həll olunsa da, ilkin anlar qəribçilik hissini onlara yaşadır.

Müvazinatın pozulması cəmiyyət və insan arasındakı münasibətlər heç də hamı üçün və hər zaman arzu olunan səviyyədə qurulmur. Həyatın reallıqlarını bütün aydınlığı ilə dərk etdikcə məlum olur ki, sıxıntılı həyatın daxili çırpıntıları mənəvi dünyalarına nüfuz etdiyindən bu hal ömür boyu qəriblərin yaşam biçiminə sirayət edir.

Həyat öz axarı ilə davam edir və qəriblər başqa yurdlarda bəlkə də sərvət və imkan sahibi olsalar da, vətən həsrəti onların içində tüğyan edir. Elə bu səbəbdir ki, olduqları ölkələrdə diaspora fəaliyyəti ilə məşğul olaraq müəyyən qədər təskinlik tapırlar. Kənarda olmaqla xalqa müəyyən qədər xidmət etmək onların düşüncəsinə hakim kəsilən ümdə məsələyə çevrilir. Onlar vətəni öz daxili dünyalarında daşıyırlar. Vətənlə bağlı təəssübkeşlik hissi diasporanın mövcudluğuna təsir edən amildir. O, insanların birliyinin təminatçısıdır, xalqın assimilyasiyaya uğramasının qarşısını alır.

Qəribçiliyin doğurduğu qəmli, niskilli həyat tərzi atalar sözlərinə, bayatılara, dastanlara göz yaşı kimi süzülərək hopa bilmişdir. Şifahi xalq yaradıcılığı nümunələrində qəribin psixoloji halı, həyəcanlı vəziyyəti təsvir baxımından o qədər canlıdır ki, istər-istəməz onun emosional vəziyyətini dərk etməyə imkan yaradır. Aydınlaşır ki, tam mənasıyla qəriblik həyat reallığının şifahi xalq yaradıcılığı nümunələrində inikasıdır.

Şifahi xalq yaradıcılığı nümunələrində qəribçiliklə bağlı çoxsaylı təsvirlərin, deyimlərin olması etnoqrafik baxımdan maraq doğurur. Məsələn, atalar sözlərində bilavasitə qəribliklə bağlı deyilən fikirlərə müraciət edək. Burada vətənlə və həmçinin qürbətlə bağlı incə məqamlar, kövrək duyğular özünü bu şəkildə göstərir:

*Vətəni yadına düşən qərib ağlamasın neyləsin?*
*Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır.*
*Qərib dərdin tək ağlar*
*Qərib iti yad məhəllədən qovarlar*
*Qəribə bir salam, min tüməndən yaxşıdır.*
*Qəribi baxışından tanıyarlar.*
*Qəribi vurmuşlar, "vay Vətən" demiş.*
*Qəribin boynu uzun olar, dili qısa.*
*Qürbət – adı bəd!*
*Qürbət yerdən Vətən olmaz!*
*Qürbət görməyən adam Vətən qədri bilməz.*
*Qürbətdə keçən ömür, ömür sayılmaz.*
*Özüm qürbətdəyəm, gözüm Vətəndə.*
*El içində – öl içində (1, 13).*

Bütün bu deyilən fikirlərdə vətən məhəbbəti, qəriblərin dərdlərini içində çəkdikləri, utanaraq bir simsar adamla bölüşə bilmədikləri, dillərinin qısa olması, baxışlarında kədər hissinin donub qalması, adı bəd olan qürbətin heç vaxt Vətən olmaması, oradakı sürülən həyatın ömür sayılmaması və nəhayət, eldən uzaq düşməmək, öləndə də öz doğma yurdunda son nəfəsini tapşırmaq kimi dərin məzmunlu fikirlər izhar olunmuşdur. Heç də təsadüfi deyildir ki, bütün bu deyilənlər yaşanılan həyat həqiqətləri nəticəsində bəlkə də məhz qəriblərin özlərinin yanıqlı deyimləri sayəsində ərsəyə gələrək atalar sözlərinə çevrilmişdir. Bütün bunların arxasında həyat reallıqları dayanır desək, yanılmarıq. Bundan əlavə atalar sözlərində deyilir ki,

*Evli evdə yatar, qərib harda axşamlar?*
*Qərib ölkədə kefdə dolanan, doğma yurdunda*
*qüssədən ölər.*

*Qərib quşa yuvanı Allah yetirər.*
*Qərib kor olur.*
*Qəriblik ağıl artırar.*
*Qəriblik cənnət olsa, yenə vətən yaxşıdır.*
*Qürbətdən vətənə qayıdanda sevinmək olmasaydı, qürbət səfəri haram olardı.*
*Yersiz qərib olmaz, qəribsiz yer olmaz (11).*

Bundan başqa "Qərib hara, yerliyə şərik hara. Qəribin qəbri bilinməz. Qərib nədi qəbir nədi. Qərib baxar, yerli tıxar. Qəribin çarəsi ağlamaq, dəlinin çarəsi çağırmaq" kimi atalar sözləri də vardır (27, 125). T.Bünyadovun öz deyimlərində vətən, qürbət və el ilə bağlı xeyli sayda ürək yanğısından hayqıran ifadələr vardır (31, 21-29).

Xalq yaradıcılığı incisi kimi dastanlarda qəriblik məsələsi özünü bütün çalarlarıyla büruzə verir. Belə ki, təkcə "Aşıq Qərib" dastanında Təbriz şəhərindən Tiflisə öz butasının dalınca gələn Rəsulun macərasından danışılır və qərib diyarda ona Qərib adının qoyulmasından orada bu adla tanınmasından söhbət gedir. Dastan boyu qəribçiliklə əlaqədar həyat tərzinin çətinliyi və ağırlığı bütün təsvirlər boyunca görünməkdədir (3, 5-61). Aşıq Qəribin dililə deyilsə,

*Ayrıldım elimdən çıxdım qürbətə,*
*Ağlaram, sızlaram, kimsəm yox mənim.*
*Qərib deyə düşdüm dildən dillərə,*
*Ağlaram, sızlaram, kimsəm yox mənim (3, 42).*
*Xaraba qalasan, ay qərib ölkə,*
*Heç səndə oynayıb gülən yox imiş.*
*Bülbül susub, bağ pozulub, gül solub,*
*Yad bağların etibarı yox imiş (3, 27).*

Eyni hisslər “Kitabi-Dədə Qorqud” dastanından da sezilir. Dastanda belə deyilir:

*Ağ alınlı Bayındır xanın divanına gecə getdin,*
*bəylər ilə yedin-içdin.*
*Hərə öz qohum-qardaşı ilə deyib-güldümü?*
*Qəriblikdə təklənmək xətrinə dəydimi (15, 276)?*

Deməli, insan öz yurdunda “çox”dur, böyükdür, arxalı-dayaqlıdır. Ondan kənarda isə təkdir, tənhadır.

Qəriblik hissinin bayatılarda da yer alması təbii haldır. Məsələn, “Qarabağ” folklorundan bir nümunədə belə deyilir:

*Eləmi bu dar məni,*
*Həm sıxar bu dar məni.*
*Qürbətdə qalan canım*
*Hər yetən budar məni (4, 324).*

Göstərilən nümunələrdə qəriblik hissinin həm insanların özlərinin daxilində hiss etdiklərini, həm də düşdükləri məkanda onlara münasibətdə sezmək mümkün olur. Belə ki, qərib deyə bəziləri ona köməklik edər, bəziləri isə ehtiyatlılıq üzündən yad davranmağa çalışar. Bu da təbii haldır. Özgə adamın cəmiyyətə zərər verə bilmə ehtimalı ona qarşı münasibətdə yad davranışa, şübhəli baxışlara səbəbiyyət verir.

Bayatılarda qəribçiliklə bağlı deyilir:

*Doldum yaşa vətəndə,*
*Boya-başa vətəndə.*
*Yüz il qərib olunca,*
*Beş gün yaşa vətəndə (24, 36).*

Bayatılardan birində də belə deyilir ki,

*Əzizim ulu dağlar,*
*Çeşməli, sulu dağlar.*
*Burda bir qərib ölüb,*
*Göy kişnər, bulud ağlar.*

Deməli, qəribin kimsəsi yoxdur ki, onu təbiət özü ağlayır.

*Əzizim Vətən yaxşı,*
*Geyməyə kətan yaxşı.*
*Gəzməyə qərib ölkə,*
*Ölməyə Vətən yaxşı.*

Xalqın psixologiyasında doğma torpağa gömülmək ən istənilən və vəsiyyət olunan son arzu kimi yer tutur.

Başqa bir bayatıda belə deyilir:

*Çay qırağı çətənə,*
*Gül yolladım vətənə.*
*Mənim yazığım gəlir*
*Qərib yerə gedənə (30, 17).*

Bu bayatıda qərib yerə gedənə qarşı heyfslənmək duyğusu, ürək yanğısı boy göstərir. Xüsusən gəlin gedən qızlara xitabən deyilir.

*Belədimi qürbət el,*
*İgid oğul, qürbət el.*
*Adamı tez qocaldır*
*Qərib ölkə, qürbət el (21, 17).*

Bayatıdan da göründüyü kimi azərbaycanlıların dünyagörüşündə qərib ölkənin insanı tez qocaltdığı əks olunur. Bu isə xiffətin, həsrətin doğurduğu haldır. Q.Qədirzadə deyir ki, necə olur olsun, xalqımız qəribliyi heç sevməmiş, "divarın arxası da qəriblikdir" – demiş və ən ağır andlardan biri kimi qəribçilikdə olanın canına and içməyi saymışdır. Övladı qəribçilikdə olan anna qəlbi kövrək olur, "qəriblikdə balam var" deyib, hər kəslə xoş münasibət saxlamağa çalışır (26, 68).

Təsniflərin birində belə deyilir:

*Qürbətdə qalmaq,*
*Xəyala dalmaq.*
*Qeyrisin almaq*
*Yalandı, yalan (27, 69).*

Qəribliklə əlaqədar fikirlərə Azərbaycan məişətini yaradıcılıq nümunələrində yaşadan orta əsr şairlərimizin əsərlərində də rast gəlmək mümkündür. Görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin Xeyir və Şərlə bağlı "Yeddi gözəl" əsərində belə bir təsvir vardır ki, gözlərini müalicə edən şəxsin yanında nə qədər qalıb onun xidmətində dursa da, qərib olduğu üçün Xeyir yenə də öz yurduna geri qayıtmağı üstün tutur. Şair burada təsvir etdiyi qəhrəmanının diliylə belə söyləyir:

*Sənin xidmətindən rüsxət istəyirəm.*
*Xeyli vaxtdır öz vilayətimdən,*
*Həm də işimdən və kifayətimdən uzaqdayam.*
*Niyyətim var ki, sabah səhər*
*Evimə tərəf yola düşüm (2, 231).*

Deməli, elə-obaya dönmək zərurət sayılır.
Nizami Gəncəvi qəribliklə bağlı yazır:

*Qəriblik zillətinə dözməkdənsə,*
*Öz yurdunun iti olmaq yaxşıdır (25, 143)*

Burada qəribliyin zillət kimi verilməsi maraq doğurur. Bundan əlavə şair deyir ki,

*Bir yandan qəriblərin qəmini,*
*Digər tərəfdən rəqiblərin dərdini çəkirəm (25, 170).*

Bir insan kimi qəriblərin halına acımaq humanist duyğuların tərənnümüdür.

Maraqlı fakt kimi Nizaminin dediyi bu sözlər diqqəti cəlb edir:

*Sənin xatirinə qürbəti qəbul etdim (25, 201).*

Şair burada qürbəti qəbul etməyin ən əziz insanın xatirinə edildiyini vurğulamışdır. Bununla yanaşı, onun "Mən acizəm, mən qəribəm" deməsi qəriblərin həyat şərtləri qarşısında özlərini necə aciz hiss etməsinin təcəssümüdür (25, 166).

Əfzələddin Xaqani isə bu xüsusda belə yazır:

*Xaqani qürbətə basalı ayaq,*
*Olmuş tək qapılı bir evdə dustaq.*
*Nə evin içində rahət olur can,*
*Nə də var bayıra çıxmağa imkan (13, 139).*

Yusif Balasaqunlu belə yazır:

*Tanış-biliş gərək bizə hər yerdə,*
*İllah ki, qəribə yad bir şəhərdə.*

*Ay doldu pərişan gəzdi aləmi,*
*Saraltdı üzünü qəriblik qəmi (14, 50).*
*Ey yerli bilәgәn, sәnindir bu yer,*
*Əziz tut qəribi, yemək-içmək ver (14, 50).* Və ya

*Tanışsız-bilişsiz gəzib şəhərdə.*
*Yoxsa bir həmdəmi neyləsin qərib,*
*Dolaşar şəhəri qəmgin, müztərib (14, 50).*

Sədi Şirazi isə belə deyir:

*Əmirin, vəzirin və hökmdarın,*
*Səbəbsiz dolaşma ətrafında sən.*
*Dərban da, köpək də qəribi tutar.*
*Birisi yaxadan, biri ətəkdən (16, 174).*
*Dövlətli dağda da qərib deyildir,*
*O hara gedərsə hörmət qoyular.*
*Hər kəs ki, məhrumdur dünya malından,*
*Doğma evində də qəriblik duyar (16, 249).*
*Dəvələr yollandı, artdı qəm-kədər,*
*Qəribin həmdəmi olar qəriblər.*
*Qəribə o adam verər əziyyət,*
*Ki, özü görməmiş ömründə qürbət (16, 251-252).*

Əndəlib Qaracadaği yazır:

*Neyləyim mən bəxtiqara,*
*Düşdüm vətəndən avara,*
*Canım atəşi-rüxsara –*
*Yanar ay mədəd, ay mədəd (22, 500).*

Şair vətəndən ayrı düşməyi bəxtiqaralıq kimi göstərir.

H.Araslı Aşıq Qərib dastanına müraciət edərkən belə yazır: “öz doğulduğu şəhərdən, vətənindən uzaq düşməyə məcbur olub, Hələb şəhərində pul qazanmaq məcburiyyətində qalan Qərib vətənini bir an belə unutmur. Onun üçün vətən son dərəcə əziz və mehribandır. Ərzrum şəhərində söylədiyi bir qoşmada aşıq vətənə olan məhəbbətini belə ifadə edir:

*Sizin ellər, dağlar, daşlar virandır,*
*Zalım fələk mərdə tələ qurandır.*
*Bayırda qar, çovğun, dolu, borandır,*
*Vətəninmdən ayrı düşdüm ağlaram” (23, 68).*

M.V.Vidadi, F.Köçərli, M.Hüseyn, M.İbrahimov, Mir Cəlal, R.Rza, N.Rəfibəyli, İ.Şıxlı və onlarca başqa ədiblərimizin yaradıcılığında bu və ya digər şəkildə qəribçiliklə əlaqədar xatırlamalar vardır. Qasım bəy Zakir qəribçiliklə bağlı hisslərini bu şəkildə izhar edir:

*Ayrı düşmək vətənindən yamandı,*
*Diyari-qürbətdə öldüm amandı.*
*İtirmişəm yarı xeyli zamandı,*
*Axtarıram yanə-yanə ay mədəd (28, 143).*

Qəribçilik hissi yaxın qohumlardan, dostlardan uzaq düşmək, uşaqlıq xatirələrindən sanki uzaqlaşmaq, həyatının bir parçası saydığı və öyrəşdiyi təbii və sosial mühitdən bölünüb parçalanmaq, bir sözlə, itirilmiş əlaqələrə görə niskillənmək kimi dərk olunur. Qəriblərin keçmişindən boylanan el şənlikləri, qarşılıqlı yardımlaşma, bayramlar, oyun və əyləncələr, məzəli əhvalatlar, bir sözlə həyat tərzi, bütün bunlarla bağlı olan təəsüratlar yada düşdükcə onların daxilində həzin bir kövrəlmə duyğusu baş qaldırır.

Bioloji baxımdan da insan anadan olub boya-başa çatdığı torpaqdan uzaqlaşanda dəyişdiyi yeni mühit ona mənfi mənada təsir göstərir. Xüsusən havanın kəskin fərqi bədənin daxili müvazinatının qorunmasına yönələn immunitetin nisbətən zəifləməsinə səbəb olur. Bu da coğrafi amilin təsiri ilə bağlı olan məsələdir. Çünki heç şübhəsiz, hər bir fərd öz coğrafi məkanının yetirməsidir.

Ağdam şəhərini erməni qoşunları işğal etdikdən sonra qaçqınçılığın özündə də bir qəribçilik duyğusu özünü büruzə verməkdədir. Məlumatçı qeyd edir ki, Ağdamdan uzaq düşəli yurd yeri üçün adamın burnunun ucu göynəyir (17). Qaçqınçılıq yenidən doğma yurda qayıdışı içində yaşayaraq dözməkdir. Qürbətdə yaşayan orada müvəqqəti olduğunu hər zaman içində yaşayır. Məlumatçı qeyd edir ki, yaxınlıqda olan adamı belə sezmirsən. O isə əksinə sənin bütün keçirdiyin əhval-ruhiyyəni elə müşahidə edir ki, hətta dilxor dolandığını üzünə vurur (18). Azərbaycanlıların əksəriyyəti vətən torpağını qürbətə dəyişə bilməyib, xüsusən də sovet dövrünün ən ağır repressiya şəraitinə dözüb xaricə getməyiblər (19). Digər məlumatçının bildirdiklərindən aydın olur ki, Sovet hakimiyyəti qurulan dövrdə, xüsusən də 30-cu illərin ağır repressiya illərində atasına Türkiyəyə köc etmək təklif olunanda o belə cavab verir ki, bu boyda nəsli, eli-obanı qoyub mən heç hara gedə bilmərəm. Sonralar atasını həbs edib güllələdilər (20).

Xalqımızda qəribçiliyin körpəyə ad qoyarkən belə izlərini görmək olur. Ümumiyyətlə, ad qoyulanda Qərib adının verilməsini anadan olanın qəribçilikdə doğulduğunun işarəsi kimi qiymətləndirmək olar. Sonralar isə uşaqlar böyüklərin (babaların) adını daşıdığına görə ad verilməsi qəribçiliklə bağlı olmaya da bilər.

Qərib diyarlarda ölən adamların dəfn yeri də el içində "qərib məzarlar" adı altında xatırlanır. Bundan əlavə qəribçilikdə vəfat edən adama boş məzar qoyulması da mövcuddur. Belə ki, Qazax bölgəsinin ikinci Şıxlı kəndində ikinci dünya müharibəsindən dönməyən qardaşına boş məzar və başdaşı qoydurma xüsusiyyəti nadirən də olsa, vardır (7).

Vətən torpağına bağlılıq özünü qərib diyarlara torpaq aparmaqda büruzə verir. Etnoqrafik məlumatlar da deyilənləri dəstəkləyir (8). Xüsusən qürbətdə vəfat edənlərin üstünə doğma vətən torpağından aparıb səpmək adəti mövcuddur. Məlumatçı qeyd edir ki, İkinci dünya müharibəsi zamanı Çexoslavakiyada həlak olan və oradaca dəfn edilən qardaşının məzarına Azərbaycandan torpaq aparılması ricası ilə Novruz Gəncəli qonşusuna müraciət etmişdir. Bundan əlavə Üzeyir Hacıbəyovun qohumlarının qəbrinə də torpaq aparılıb səpilmişdir (10). Bəzən can üstə olan insana qərib diyarlarda yaşayan övladlarından doğmasını gəlib görə bilməyəndə o, rahat olsun deyə, həmin diyardan torpaq gətirildiyi söylənilir ki, bəlkə xəstə müəyyən qədər dinclik tapa bilsin (9).

Türkiyədə məzara tapşırılan Azərbaycan Xalq Cumhuriyyətinin qurucularından biri Məmməd Əmin Rəsulzadə son nəfəsini verərkən Azərbaycan kəlmələrilə canını tapşırmışdır. Bu kəlmə qəlbində qübar salan həsrət, nisgil, nigarançılığın onun ali məqsədindəki narahatçılığının təzahürü kimi səslənir.

Qərib diyarlarda Azərbaycanın görkəmli ixtisaslı kadrlarına yüksək maaşlı, sərfəli iş təklif olunanda onlardan imtina cavabı verilirdi. Bu da ondan irəli gəlir ki, onlar qürbəti vətəndən artıq tuta bilmirdilər. Təsadüfi deyildir ki, uzun ayrılıqdan sonra geri qayıdış zamanı diz çökərək əyilib torpağı öpmək həsrətin qübar etdiyinin göstəricisidir.

Azərbaycandan kənarda yaşayan yurddaşlarımızdan Türkiyədə müəllimlik edənlər vardır ki, vətənə geri qayıdacaqları günü səbirsizliklə gözləyirlər, hətta öz övladlarına toyu Bakıda qohumlar arasında edəcəklərini söyləyirlər (29). Bəziləri təqaüdə çıxdıqdan sonra artıq geriyə dönmüşlər. Aydın məsələdir ki, yaşlı nəsil ömrünün qalan hissəsini aid olduğu yerdə görmək istəyir.

Q.Qədirzadə həzrət Əlinin tərif etdiyi qəriblik məsələsinə toxunaraq belə qeyd edir: "bir məmləkətdə qapısı açılmayan məscid qəribdir, bir evdə oxunmayan Quran qəribdir, yad məmləkətdə olan məzar qəribdir, zahiri inananların yanlarında bir iç mömini qəribdir" (26, 69).

Müasir dövrdə elmi ədəbiyyatda mədəni şok adlanan nəzəriyyə mövcuddur ki, o alimlər tərəfindən irəli sürülən yeni konsepsiya kimi təqdim olunur. Halbuki dilimizdə olan qəribçilik zamanın dərinliklərindən sınanılaraq bir həyat reallığı kimi türkdilli xalqların dilinə elə hopub ki, onu yeni biçimdə nəzəriyyə olaraq təqdim etmək bizlərə qəribə görünür.

Mədəni şok nəzəriyyəsinin mahiyyəti nədir? Bu nəzəriyyə 1960-cı ildə amerikalı tədqiqatçı Kalervo Oberq tərəfindən elmi ədəbiyyata daxil edilmişdir. Onun fikrincə mədəni şok sosial qarşılıqlı fəaliyyətin bütün simvol və işarələrinin itirilməsi nəticəsində meydana gələn həyəcanın nəticəsidir və fərd yeni mədəniyyətə daxil olanda insanda xoş olmayan duyğular meydana çıxır, pessimizmə yol açılır (12).

Beləliklə, yuxarıda göstərilənlərə belə yekun vurmaq mümkündür ki, ortaq mədəniyyətin daşıyıcı olan bir sıra xalqlarda var olan qürbət və qəribçilik anlayışları bir duyğu kimi mühacir həyat tərzinin bir parçasıdır. Vətəndən uzaq düşmək insanların düşüncə tərzində qəbulolunmaz bir şey kimi həkk olunmuşdur. Qürbətdə özünü yad hiss

etmə duyğusu insanlara xarakterik xüsusiyyətdir. Doğma yurda qayıdışı səbirsizliklə gözləmək, başqa mühitə uyğunlaşa bilməməkdən irəli gəlir. Vətənə bağlılıq ali bir vəzifə borcu kimi xalqın nümayəndələrinin daim içində yaşadığı hissdir. Bütün bunlar həyatda yaşanılan örnəklər nəticəsində xalqın folkloruna, şair və yazıçılarımızın əsərlərinə də sirayət etmişdir. Mənəvi tellər, dövlət mənafeyi və iqtisadi amillər qəriblikdə nəzərə alınan məsələlərdir.

**Ədəbiyyat:**


1. Atalar sözü (top. Ə.Hüseynzadə). – Bakı: Yazıçı, – 1981. – 336 s.
2. Nizami Gəncəvi. Yeddi gözəl. – Bakı: Elm, – 1983. – 359 s.
3. Azərbaycan dastanları 5 cilddə, 3 c. – Bakı: Lider, – 2005. – 328 s.
4. Azərbaycan folkloru antologiyası (Qarabağ folkloru). 5 kitab. – Bakı: Səda, – 2000. – 414 s.
5. Məlumatçı Əsgər Sücayət oğlu Əhməd, 1957-ci il təvəllüdlü, (Ağdam)
6. Məlumatçı Qasımova Tamara Əşrəf qızı, 1936-cı il təvəllüdlü (Bakı)
7. Məlumatçı Hüseynova Zivər Mehdi qızı, 1935-ci il təvəllüdlü (Bakı)
8. Məlumatçı Sadıqova Adilə Məşədi Abbas qızı, 1941-ci il təvəllüdlü (Bakı)
9. Məlumatçı Musayeva Esmira Ələkbər qızı, 1949-cu il təvəllüdlü (Binəqədi kəndi)
10. Məlumatçı İmanova Gülarə İsrafil qızı, 1948-ci il təvəllüdlü (Bakı)
11. https://www.testbook.az/proverb/proverbtype/104/qeriblik-haqqinda-atalar-sozleri
12. Oberg K. Practical Anthropology. New Mexico, 1960.
13. Əfzələddin Xaqani. Seçilmiş əsərləri. – Bakı: EA nəşr, – 1956. – 477 s.

14. Balasaqunlu Y. Qutadqu bilik (poema). – Bakı: Gənclik, – 2003. – 404 s.
15. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. – Bakı: Öndər nəşriyyat, – 2004. – 376 s.
16. Sədi Şirazi. Gülüstan. Seçilmiş əsərləri. – Bakı: Öndər nəşriyyatı, – 2004. – 400 s.
17. Məlumatçı Əliyeva Gözəl Əşrəf qızı, 1946-cü il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
18. Məlumatçı Nağıyev Firdovsi Əşrəf oğlu, 1957-ci il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
19. Məlumatçı Əhmədov Kamil Sücayət oğlu, 1961-ci il təvəllüdlü (Ağdam)
20. Məlumatçı Binnətova Zəkiyyə Əmiraslan qızı, 1925-ci il təvəllüdlü (Qazax)
21. Azərbaycan bayatıları. – Bakı: XXI – Yeni Nəşrlər Evi, – 2004. – 304 s.
22. Azərbaycan klassik ədəbiyyatı kitabxanası 20 cilddə, 8 c. – Bakı: Elm, – 1988. – 568 s.
23. Araslı H. Aşıq yaradıcılığı. – Bakı: Birləşmiş nəşriyyat, – 1960. – 136 s.
24. Kərkük folkloru antologiyası. – Bakı, Azərnəşr, – 1987. – 367 s.
25. Gəncəvi N. Leyli və Məcnun. – Bakı: Elm, – 1981. –290 s.
26. Hacı Qadir Qədirzadə. Dünya və insan: Başlanğıcın sonu, sonun başlanğıcı. – Naxçıvan: Əcəmi, – 2016. – 200 s.
27. Xalqımızın deyimləri və duyumları (tərtibçi M.İ.Həkimov). – Bakı: Maarif, – 1986. – 392 s.
28. Azərbaycan uşaq ədəbiyyatı antologiyası 3 cilddə. 1 c. – Bakı: Öndər, – 2005. – 248 s.
29. Məlumatçı İbrahimova Nailə Saleh qızı, 1962-ci il təvəllüdlü, (Bakı)
30. Sözlü, nağıllı gecələr (top. Loğman Ağalı). – Bakı: İşıq, – 1991. – 120 s.
31. Bünyadov T. Ellərdən almışdım, ellərə qaldı. – Bakı, 2020. – 264 s.

# RƏNGLƏRİN DİLİ, DİLİMİZİN RƏNGİ

Təqdim olunmuş məqalə Azərbaycan xalqının etnoqrafik irsində özünəməxsus yer tutan mənəvi dünyamızın təzahürlərindən olan rənglərlə bağlı şərhlərə və eyni zamanda dilimizdə mövcud olan deyimlərin hansı şəkildə ifadə olunduğu müxtəlif məqamların izahına həsr olunmuşdur. Burada dilimizdə rənglərlə bağlı simvolizm məsələsi araşdırılmışdır. Rənglərlə əlaqədar məişət və mədəniyyət elementləri psixoloqların, sosioloqların diqqətini cəlb etdiyi kimi, etnoqrafları da düşündürür. Müxtəlif xalqların mədəniyyətində rənglərin çoxluğu müsbət bir əlamət kimi qəbul edilə bilər. Bu zənginliyə işarədir.

Hər bir xalqın öz coğrafi məkanının yetirməsi olduğu bəllidir. Yarandığı etnik ərazi daxilində yaratdığı mədəniyyət çərçivəsində hər bir xalq rənglərlə bağlı təsəvvürlərə malik olmuş, onların dilini özünəməxsus şəkildə izah etməyə çalışmışdır. Eyni zamanda dilimizin özündə rənglərdən doğan o qədər ifadələr vardır ki, onlar xüsusi məna kəsb etməklə gündəlik məişətdə dönə-dönə işlənməkdədir. Əhəmiyyəti onunla ölçülür ki, rənglər bayraqlarda rəmzləşərək dəyərə çevrilir. Bəzən isə dini məzmun daşıyaraq bayraqlara müəyyənlik qazandırır. Onlar həyatın demək olar ki, hər sahəsində – maddi mədəniyyət elementlərində, ailə məişətində və mənəvi mədəniyyət ünsürlərində müəyyən məzmun qazanaraq öz varlığını əks etdirir.

Hələ qədim dövrlərdən təbiətin özündə olan rənglərlə tanışlıq sayəsində onun yaratdığı palitraya insanların münasibəti formalaşmışdır. Bu isə hər bir xalqda özünəməxsus tərzdə təcəssüm etmişdir. Məişətdən gələn xüsusiyyətlər, mədəniyyətin formalaşaraq püxtələşməsi, rənglərlə bağlı təsəvvürlərin sabitləşməsi bir proses kimi ötən zaman axınından başlayaraq indiyədək xalqların gündəlik həyatında yer tuta bilmişdir. Belə ki, ümumiyyətlə xalqlar mərasimləri, ayinləri rənglərin köməyilə bildirməyə, həyata keçirməyə çalışmışlar. İnsanlar mifoloji obrazları rənglərlə əlaqələndirməyə başlamışlar. Məişətin müxtəlif sahələrində rənglər tətbiq olunmuşdur və zamanla onların daha çox çalarlarından istifadə edilmişdir. İbtidai xalqların nümayəndələri bədənlərinə döymə vurduraraq yəni, ona əlavə rəng verməklə qəbilə mənsubiyyətini və ya hansısa totemi göstərməyə çalışmışlar.

İnsanlar təbiətdəki zənginliklərdən faydalanaraq onlarda mövcud olan rənglərə öz əqidələrincə məna qazandırmışlar. Bu mənalandırmada ikili xüsusiyyət özünü göstərir – müsbət və mənfi. Məsələn, qara rəng əksəriyyətlə qaranlıq, zülmət, matəm kimi mənfi xüsusiyyətlərlə yanaşı, eyni zamanda böyüklük, əzəmət, genişlik kimi müsbət anlam da kəsb etmişdir. Türk xalqlarının əksəriyyətində qara sözü işlənməkdədir. Hətta geniş bir ərazidə toponimik adlara tarixən qara sözü tətbiq olunmuşdur.

Xalq arasında rənglərə verilən dəyər onun yer adlarına da verilməsində özünü göstərir. Toponimik yerlərə rəng adlarının verilməsi burada toplumun etnik mənsubiyyətini müəyyənləşdirmək üçün də əsas verir. L.Rasonyi rəng adlarını daşıyan çaylara Balkanlardan Çin səddinə qədər rastlandığını qeyd edir: məsələn, Karasu, Bozyılqa, Yeşilügüz (öz) (3, 21). Deməli, türklərin yayıldığı bu ge-

niş arealda vahid mədəni təzahürlər öz təcəssümünü yer adlarında da tapmışdır. Bu onların yayılma arealını təsdiq edən xüsusiyyətdir. Yer adlarının rənglərlə bağlılığının olması xalqımızın rənglərə münasibətini müəyyən qədər göstərir. Məsələn, təkcə Ağdamın (Qarağacı (Qarahacılı), Qaratəpə, Qarazeynallı, Sarıçoban, Qaradağlı, Göytəpə, Sarıcalı, Sarıhacılı, Qarapirimli, Qaralar, Yeni Qaralar, Qaraqaşlı, Qızılı Kəngərli) timsalında xeyli sayda yer adlarının varlığını söyləmək olar. Füzuli yaxınlığındakı Qaraköpəktəpə, Qazax bölgəmizdə Qararyazı yer adı, Ağköynək, Qarapapaq, bununla yanaşı, Gürcüstanda azərbaycanlıların yaşadığı Ağbulaq, Qaraçöp və s. kənd adları vardır. Xüsusən qara sözü ilə bağlı Azərbaycanda xeyli sayda kənd və qəsəbə adları vardır: Qaraarx (Göygöl), Qaraağac (Sabirabadda kənd), Qarababa (Şahbuzda kənd), Qarabaqqal (Göyçayda kənd), Qarabağlar (Naxçıvanda kənd), Qarabörk (Ucarda kənd), Qarabəyli (Laçında kənd), Qaravəlli (Ağcabədidə kənd), Qaraqullar (Daşkəsəndə kənd), Qaraqurdlu (Xaçmazda kənd), Qaradaş (Tovuzda kənd), Qaradonlu (İmişlidə kənd), Qarakollu (Füzulidə kənd), Qaramanlı (Yevlaxda kənd), Qaraməmmədli (Yevlaxda kənd), Qaraməryəm (Göyçayda kənd), Qarasaqqal (Kürdəmirdə kənd), Qaraxanbəyli (Füzuli və Naxçıvanda kənd), Qaraçala (Salyanda qəsəbə), Qaraçı (Xaçmazda kənd), Qaraçuq (Naxçıvanda kənd), Qaracallı (Qubadlıda kənd), Qaracalar (Saatlıda kənd), Qaracəmirli (Şəmkirdə kənd), Qaraqaya (Yardımlıda kənd).

Qaragözlülər (İranda yaşayan türkdilli tayfa), qaramanlılar (Kiçik Asiyada yaşayan türkdilli xalq), Türkmənistanda Qaraqum yer adı, qaraqalpaqlar adlı xalq və s. türklərdə qaranın böyük əhəmiyyət kəsb etdiyini göstərir. Qara sözünün bütün türk xalqlarında çoxsayda var olması

onun daha çox əzəməti, genişliyi təcəssüm etdirməsindən irəli gəlir.

Ümumən, yer adlarında Qarabağ, Ağdam, Ağdaş, Ağsu, Qara daşlar, Qarabulaq, Sarıbulaq, Göygöl, Göyçay, Bozdağ və s. vardır. Bundan əlavə, dövlət adlarında isə mövcud olan Ağqoyunlu və Qaraqoyunlu sülalə hakimiyyətini qeyd etmək olar. Ağqoyunlu tayfa ittifaqının başçısı Bayandur tayfasından olan Qara Yuluq Osman, Qaraqoyunlu tayfa ittifaqının başçısı Baharlı tayfasından Qara Məhəmməd, dövlətinin ilk hökmdarı isə Qara Yusif idi. Azərbaycanda Ağ Aşıq, Sarı Aşıq fəaliyyət göstərmişdir. Azərbaycan tayfalarından biri qaradolaqlar idi. Buradakı qara sözü əzəməti, böyüklüyü və genişliyi özündə ehtiva edir.

Nəsil adlarında (Sarıvəlli, Qaraqaşlı) rənglər öz təcəssümünü tapmışdır. Bununla yanaşı, aşıq yaradıcılığında (Sarıtel), xalq musiqilərində (Sarıgəlin, Alagöz, Qaragilə) rənglər öz sözünü deyir. Qızlara və oğlanlara verilən adlar (Ağca, Qaraca, Qaratel, Sarıtel, Alagöz, Qaragöz, Qaragilə, Qara, Qarabala, Qaraxan, Qarabəy) rənglərlə bağlıdır. Kitabi-Dədə Qorqud dastanında Qara xan, Qara Budaq, Qaraca çoban kimi adlar vardır.

Cəsarətli, güclü adamlara adının yanında qara deyilməsi müasir dövrümüzdə də davam edir. Məsələn, Qara Rəşid, Qara Tofiq və s. Akademik Teymur Bünyadov "a qara oğlan" deyə kiməsə müraciət edəndə onun hünərliliyini qeyd edirdi (11).

Qara türk etnonimlərində istifadə olunan sözlərdən biridir. Məsələn, qara kitay, qara qırğız və s. tamlıq, bütövlük mənasında da işlənən sözdür, bundan əlavə tatarlarda büsbütün mənası da var (30, 169). A.N.Kanonov türk dillərində qaranın mənalarını qeyd edir: malqara,

kütlə, xalq, ordu, torpaq, təpə, kiçik dağ, yüksək təpə (30, 161). İstisna deyil ki, qaranın belə çox mənaları ola bilsin ki, tarixi inkişaf prosesində semantik kontaminasiyanın (iki forma və ya ifadə elementlərinin birləşməsi vasitəsilə yeni, forma və ya ifadənin əmələ gəlməsi) nəticəsidir. Qaranın böyük, əzəmətli, güclü, heybətli (zəhmli), təmiz, quru mənaları var (30, 162-165). Təmiz, quru mənası bizdə işlənən qara qışa uyğun gəlir. Həm soyuq həm də sakit, təmiz mənasında işlənir. Türklər də digər xalqlar kimi tərəfləri bildirmək üçün rəng qeosimvolikasından istifadə edirdilər.

Qara rəngin xalq dilində müxtəlif deyilişləri vardır. Məsələn, kömür kimi qara deyəndə əsil qara qeyd edilir. Bundan əlavə zil qara, qır qarası kimi sözlər də məhz tünd qaranı bildirir. Bəzən bir şey haqda (məs, saç) şəvə kimi qara deyirik. Buradakı şəvə təbiətdə mövcud olan qara rəngli şəvə daşıdır. Qarabəniz, qarabuğdayı, qarayağız, qarayanız, qaramtıl, qarasov, qaratəhər, qara sayaq, qaramtıl, qaraşın, qaraca kimi sözlərlə isə qaranın bənzəri olan, onun xeyli açıq olduğu çalar bildirilir.

Zamanla qara rəng dəfn mərasiminin atributuna çevrilmişdir. Oğuz elinin yas əlamətinin qara paltar geymək olduğu, Səlcuqlarda, Monqollarda, Teymurilərdə, Qaraqoyunlu, Ağqoyunlu və nəhayət, Osmanlılarda görünməkdədir. Bundan əlavə F.Sümər mənbələr əsasında göstərir ki, türklərin qara rəngə nifrət etdiyini bilən Avstriya elçisi Busbek onların qara rəng geyinənə heyrətlərini bildirdiklərini yazır və deyir ki, "Türkiyədə heç kim iri məbləğdə pul ziyanına uğramasa, yaxud ağır xəstəliklərə məruz qalmasa, qara paltar meydana çıxmaz. Yaşıl rəng kübarlıq əlaməti sayılır. Lakin hərb zamanında ölüm işarəsi kimi qəbul olunmuşdur" (4, 384-385).

Məişətdən məlumdur ki, qara bayram mərhumun vəfat etdiyi andan sonra qeyd olunan birinci bayram zamanına düşür. Bu zaman mərhum yad edilir, ocağında ona ehsan verilir və qəbri üstə gedilərək ziyarət edilir. İkinci dünya müharibəsi dövründə itkin düşən adamların və ölənlərin ölüm xəbəri gələn ailəyə qara məktub gətirilirdi. Əslində məktubun rəngi qara deyildi, sadəcə acı xəbərə görə o belə adlanırdı.

Ümumən, dilimizdə qaraya qoşulan sözlər müxtəlif mənalar verir. Məsələn, pis niyyətli insanlara, hər şeydə bir mənfini görənlərə qəlbiqara deyilir. Bu da dilimizin rəngindəki çalarlardır. Bundan əlavə qaraqabaq sözü qaşqabağı yerlə gedən, üzü gülməyən adamlara şamil edilir. Üzüqara rüsvayçılığı, pis, əskik işi olmağı ehtiva edir. Qanqaralıq sözü dedikdə, burada acıqlandırmaq, dilxor etmək, pərt etmək, əsəbiləşdirmək mənaları izhar olunur. Qara basmaq isə qorxulu yuxu görməklə əlaqəli deyilən fikirdir. Bəzən yuxuda adamı qara basır. Ümumən qara basmaq, qarabasan insanda boğulma və narahatçılıq hissi verən dəhşətli hadisələrin baş verdiyi çox qarmaqarışıq, qorxu yaradan yuxu deməkdir. Gün ərzində yaşanan müəyyən narahatçılıq qarabasmaya səbəb ola bilər. Yuxudan əvvəl və ya dərhal sonra (nə tam ayıq, nə də tam yuxulu) meydana gələn müvəqqəti hal olmaqla qarabasan qorxu yaradır. Sanki qara tüstü gəlib insanın daxilinə sızmaq istəyir. Ünsiyyətdə işlənən qarasınca danışmaq birinin arxasınca söz söyləməkdir. Bəzi adamlar haqda belə ifadə tətbiq olunur ki, "elə deyir ki, qatıq qaradır". Yəni ağ rəngdə olanı qara görür və yalanında israrlıdır.

Atalar sözlərində deyilir ki, "qara xəbər tez yetişər" (1, 30). Yəni ölüm, xəstəlik, qəza haqda xəbər tez yayılır. Bəzən bir narahatçılıq olanda deyirlər ki, pis bir şey ol-

saydı, indiyə qədər xəbəri çıxardı (13). Bundan əlavə "qara pulu, qara günə saxlarlar" deyimi də maraq doğurur (1, 123). Qara pul Azərbaycanda mis sikkələrə aid edilir. Mis və bürünc sikkələrə xalq arasında bəzən qara pul deyirdilər (36, 170). Müasir dövrdə də ənənəvi olaraq xalq psixologiyasına görə qazanılan puldan bir miqdar zamanla yığıb "qara gün" üçün saxlarlar. Ya xəstəlik, ya qıtlıq, ya müharibə, yaxud da ölüm hadisəsi olarsa, ailə üzvlərinin təlaşa qapılmaması məqsədilə kənara pul qoymaq nəinki bizdə, əksər xalqların nümayəndələrində bir adət kimi hələ də qalmaqdadır. Qara gün üçün kənara yığılan pula el arasında "kəfən pulu" da deyilir. Məlumatçı da xalq içində belə adətin olduğunu təsdiqləyir (11). Əlbəttə, kənara müəyyən pul qoymaq təkcə bu mənfi təzahürlərlə bağlı edilmir. Analar ailə həyatı quracaq övladları üçün də kənara pul və ya zinət əşyaları qoyurlar.

Bir iş qeyri müəyyən olanda el içində "eybi yox, ağla qara məlum olar" deyirlər (12). Yəni əvvəl-axır bilinər, həqiqət müəyyən olar. Kimin pis, kimin yaxşı olduğu üzə çıxar.

Qarayaxan – bir insana olmayan şeyləri aid edən, onun haqqında yalan danışana deyilir. Dilimizdə qaragözlük gəlmək "başqa sözlə, aldatmaq, aldatmağa cəhd etmək, təqsirkar olduğu halda başqasını günahlandırmaq" mənasında söylənilir (8, 87). Bundan əlavə "qaratikan koluna dönmək" ifadəsi var ki, o da istəklilər arasında əngəl maneə yaratmaq anlamı kəsb edir. Gecə qara, cücə qara dedikdə, xəlvət, gizli olan nəzərdə tutulur.

Təbiət hadisəsi kimi göy qurşağı rənglər çələngindən ibarətdir. Belə ki, M.Adilovun qeyd etdiyi kimi "göy qurşağının yaranması yağış və dumanda olan su damlalarında müstəqim günəş (bəzən də ay) şüalarının sınması

nəticəsində meydana çıxan optik hadisədir. Yağış damlalarından keçən günəş şüası bu damlalarda sınaraq spektrin ayrı-ayrı rəngdə olan şüalarına çevrilir. Göy qurşağının rəngləri adətən belə sıralanır: xarici tərəfdən əvvəl qırmızı rəng gəlir, sonra narıncı, sonra yaşıl, sonra mavi, sonra göy və nəhayət, içəri tərəfdən kənarda bənövşəyi və ağ rəng olur. Bəzən də çox sıx dumanda xırda-xırda damlalardan ibarət tamam ağ rəngli göy qurşağına təsadüf edilir" (8, 90). Deməli, təbiət özü rəng çalarları təqdim edir. Xətayi yazır: qövsi-qüzeh açdı tər qumaşın (31, 118). Göy qurşağının parça kimi rəngbərəng olduğuna işarə edir. Xətayi deyir:

*Al ilə yaşıl geyindi bağlar,*
*Ağ ləçəyi sərpə saldı dağlar (31, 117).*

Burada təbiət təsviri rənglərin dililə təqdim olunur.

Məlumdur ki, səmada qara bulud görünəndə yağış yağır. Bu təbiətdə sezilərək təcrübədə sınanılmış fikirdir. Atalar sözlərində də deyilir ki, "qara bulud yağış yağdırar" (1, 123). Deməli, səma qaralanda ağlayır, yaş tökür. Səmanın qaralması təbiətdə mövcud olan rəngin bir bildirişidir ki, yağış yağacaq.

Rənglər təbiətlə üzvi sürətdə bağlıdır. O, həmçinin kənd təsərrüfatı ilə əlaqədardır. Təsərrüfatda istifadə olunan qara kotan böyüklüyünə görə belə adlandırılmışdır. Bundan əlavə Azərbaycanda çəltiyin ağ çilə, qırmızı çilə, ağ beybu, qırmızı beybu, qırmızı çitim, ağ çitim, qırmızı çiləyi, ağqılçıq, sarıqılçıq, qaraqılçıq növləri yetişdirilirdi. Azərbaycanda sarıbuğda, qaraqılçıq, ağ buğda, qaragiləbuğda, ağ arpa, qara arpa növləri əkilib becərilirdi. Abşeronda yetişdirilən üzüm sortlarından ağ şanı, qaraşanı,

qaraaldərə üzümü, Azərbaycanda qədim alma sortu qaraturş, qaraçörəkotu, qara istiot, iynəyarpaqlı ağac cinsi qara şam və s. yetişir. Qaramal, qaradolaq qoyun cinsi, qarabatdaq quş növü, qaraqurd zəhərli hörümçək isə ölkəmizdəki heyvan növləridir.

Maddi mədəniyyət nümunəsi kimi qaradam yaşayış evləri XX əsrin ortalarınadək mövcud olmuşdur. Alaçığın bir növü isə qarakeçə adlanmışdır.

Qaravəlli satirik məişətdən bəhs edən meydan teatrı əsrlərcə mövcud olmuşdur. Bundan başqa qarazurna musiqi aləti, Qaraçı-aşıq havası, Qarabağ şikəstəsi mənəvi mədəniyyət elementləri kimi varlığını sürdürür.

Müasir gənclərin fikrini öyrənərkən məlum oldu ki, qara rəngi sevən də vardır (14; 16), əksinə sevməyən də vardır (15). Xətayi qara sözü əvəzinə siyah işlədir (31, 117). Türklər qara rəngə siyah deyir. Sürməyi də qara və göy arasında tünd rəngdir.

Ağ ilə qaranın zidd rənglər olduğu dilimizdə bu sözlərlə təmsil olunur: ağgün (xoşbəxt), qaragün (bədbəxt), ağbəxt (xoşbəxt), qarabəxt (bədbəxt) və s. Atalar sözlərində deyilir: "Ağ gün adamı ağardar, qara gün qaraldar" (1, 122). Yəni ağ gün adamı cavan saxlar, qara gün qocaldar. Daha sonra "heç kəsin qara papağı yanmasın" deyimi də vardır (1, 340). Bununla yanaşı, "hər ağaran qar olmaz" deyimləri də vardır (1, 340). Ağlı qaralı günlər, ağlı bozlu dağlar kimi deyimlər də özündə yaxşı və pisi birgə əks etdirərək eyni mahiyyətə malikdir və eyni motivə söykənir. Gəlinlik paltarının da rəngi ağdır, kəfənin də. Xalq içində gəlin gedən qızlara xitabən belə nəsihət də var idi ki, ağ gəlinliklə gedib ər evindən ağ kəfənlə çıxarsan. Yəni, bu fikirlə bədbəxt olub ata evinə qayıtmayasan, ailən dağılmaya arzu edilir.

“Oğuznamə”də deyilir: “ər qərədən qorqar, övrət aqdan qorqar” (29, 48). Yəni ər qaradan, arvad ağdan qorxar. Bundan başqa “qara düzən ev bozmaz” deyimi də maraq doğurur (29, 142). Məzmunu budur ki, qara geyən ev dirçəlməz. Yəni, çox da qara geyinmək məsləhət deyil.

Müqayisə üçün qeyd edək ki, P.X.Akievanın bildirdiyi kimi “semiotik statusa malik olmaqla ağ və qara rənglər inquşlar tərəfindən gözəl və çirkini, xoşbəxtlik və bədbəxtliyi, həqiqət və yalanı, xeyir və şəri, həyat və ölümü mənalandırmaq üçün istifadə olunurdu. Gün işığı günəşli, isti, aktiv, gecə qaranlığı isə soyuq, passiv kimi başa düşülürdü. Buradan da əksər mədəniyyətlər üçün ağın ağlığın, aydınlığın, səmaviliyin müsbət mənaları və qaranın, tutqunluğun, dünyəviliyin mənfi mənalarının sabit kompleksi izah olunur” (18, 211). Bu cür baxış bucağı nəinki inquşlarda Qafqazın bir sıra xalqlarında, həmçinin bizlərdə eyni mahiyyətlidir.

Azərbaycan dilində ağ rəngin özünəməxsus yeri vardır. Ağ qar, süd, təbaşir rəngləri ilə eyniləşdirilir. Bundan əlavə onun tərtəmiz, yazılmamış mənası da vardır. Məsələn, ağ kağız, ağ dəftər. Bəzən deyirlər ki, uşaq ağ kağızdır, nə istəsən yaza bilərsən (20). Xəstə olan adama da şamil edilərək “rəngi ağappaq idi” söylənilir. Bədəndə və ya gözdə ağ ləkələr də əmələ gələndə müəyyən xəstəliyin əlaməti sayılır. Şahmat fiqurlarının da fərqləndirici rəngləri ağ və qaradır. Bundan əlavə xalqımız ağ yalan deməklə ifrata varmaq mənasını bildirir. Bəzən camaat arasında “ağ eləmə” deməklə, məhz bu fikri izhar etməyə çalışılır ki, yəni bu qədər də şişirtmə (21). Bir işdə saç ağartmaq onu hərtərəfli öyrənərək yaşa dolmaq mənası kəsb edir. Saçına dən düşmək isə seyrək ağ tüklərin əmələ gəlməsinə işarədir.

Birinə ağ gün ağlamaq, onu ağ günə çıxarmaq – xoşbəxt etmək, ehtiyacdan qurtarmaq mənaları kəsb edir. Bundan başqa ağa ağ, qaraya qara demək – düzünü demək, həqiqəti olduğu kimi izhar etmək mənası kəsb edir. Ağı qaradan seçməmək – yaxşını yamandan ayıra bilməmək, ağına-bozuna baxmamaq – yaxşı-yamanına baxmamaq, ayırd etməmək, heç bir şeyi nəzərə almamaq, heç bir şeylə hesablaşmamaq və s. kimi mənalara malikdir.

Ağ ümumiyyətlə, müxtəlif məişət əşyaları üçün istifadə olunan ağ rəngli parçaya da deyilir. Bundan başqa süddən hazırlanan məhsullara (şor, qatıq, qaymaq, pendir və s.) xalq dilində ağarantı və ya ağartı məhsulları deyilir. Ağarmaq – ağ olmaq, ağ rəng almaq anlamında işlənir. Ümumən ağ sözü yerinə görə müxtəlif anlam kəsb edir. Məsələn, onun boyamaqla ağartmaq, yumaqla ağartmaq mənaları vardır. Ağla bağlı daha bir məna çaları qarla örtülməklə əlaqəlidir. Məsələn, hər tərəf ağa bürünüb deyəndə, qarın yağdığına işarə edilir. Daha bir deyilişdə əgər dağların başı ağarır ifadəsi varsa, öz ağlığı ilə nəzərə çarpır, görünür deməkdir. Ağ rənglə əlaqəli həmçinin yuyulub təmizlənmək, rəngi açılmaq mənaları da vardır. Saçın saqqalın ağarması da ağ rənglə bağlıdır. Ağarmaqla əlaqədar eyni zamanda rəngi getmək, solmaq, bozarmaq kimi dilimizdə ifadələr də var. Dan yeri ağarır deməklə, səhərin açılması qeyd edilir. Qorxudan və ya pərtlikdən üzün rənginin qaçmasına da ağarmaq sözü tətbiq olunur. Qorxaq, cəsarətsiz adama ağciyər adam deyilir.

Üzü ağ olmaqdan Xətayi belə yazır:

*Pir nəfəsin dinləyənin,*
*Üzünü edər ağ bir söz (31, 114).*

Yəni, sufi təriqət numayəndələrinin başçısı pirin sözlərini dinləyənlərin üzü ağ, vicdanı təmiz, alnı açıq olar. Kiminsə üzünə ağ olmaq isə tamam başqa – mənfi məzmun ifadə edir. Kiminsə üzünə ağ olmaq ona olunanı itirmək, yalan demək, üzünə durmaq kimi mənaları bildirir.

Ağ rənglə bağlı qoyulan adlar müxtəlif heyvanlara (ağ ayı, ağ delfin, ağ toyuq, ağgözlər sərçə növü), bitkilərə (həmişəyaşıl iynəyarpaqlı ağ şam, ağ söyüd, Naxçıvanda yerli üzüm sortu ağ aldərə, ağ xəlili üzümü, Abşeronda ağ şanı, payızlıq ağ arpa sortu) tətbiq edilir. Əlavə olaraq digər məsələlərə də aid edilir. Məsələn, Ağ ev dedikdə, dövlətə məxsus bina nəzərdə tutulur. Ağ yel quru və isti küləyi bildirir. Ağ çay, Ağgöl də ağ rənglə bağlıdır.

Xalq arasında məlum olan bu ifadələrdə müxtəlif duyğu yüklü deyimlərin təcəssümünü görürük. Bundan əlavə məişətdə təcrübə sayəsində bilinən "ağ libas tez çirk olar" ifadəsi misala çevrilmişdir (1, 122). Bir də "qara kişmişi cibə tökərlər, ağ ayranı itə" məsəli də ünsiyyətdə istifadə olunan deyimlər sırasındadır (22). Adətən bu ifadəni dərisi nisbətən qara qızlar özlərini üstün görmək üçün belə deyirlər. Ağ rəngi yumurta ilə də eyniləşdirirlər, bəzən ağ dərili qızlara "yumurta kimi ağdır" deyirlər (23). Bəzən müraciət şəklində "ay saqqalı ağarmış" deyə xitab edilir (12). Bu deyim həm hörmət mənasında, eyni zamanda da umu-küsü mənasında işlənir. Yəni "ay saqqalı ağarmış harda qalmısan" ifadəsi özündə istənilən adamın niyə gec gəldiyi və ya çoxdan gəlmədiyi sual olunur. Bu deyim özündə həm istəyi, həm də gileyi birləşdirən deyimdir.

Azərbaycan xalqının etnopsixologiyasında rənglərlə bağlı xüsusiyyətləri izah edərkən ünsiyyətdə işlətdiyimiz və dilimizin rənginə hopan maraqlı ifadələri diqqətə

almaq lazımdır. Belə ki, dilimizdə təkcə ağ rənglə bağlı o qədər söz vardır ki, bunların mərkəzində ağ rəng durur, lakin ağın da çalarları olduğu üçün onu el arasında qar bəyazı, pambıq kimi ağ, yumurta ağı ilə bərabərləşdirirlər (13). Bundan əlavə apağ (tamamilə ağ olan), ağımsov, ağımtıl (yəni tam ağ deyil, ağa çalır) ağın rəng çalarlarıdır.

İnsanlarla əlaqədar xüsusilə də qadınlara xitabən deyilən o qədər kəlmələr dilimizə hopub ki, saymaqla bitməz. Məsələn, ağyayız (ağbəniz), ağmaya (ağ və kök), ağca və ya ağmatan (dərisi ağ), ağnavaz (solğun), ağsifət (sifəti ağ olan), ağüzlü, ağbəniz, ağcavaz (rəngi solğun), ağcalıq (albinizm, yəni tüklərinin də rəngi ağ olan), ağcamaya, ağcamatan, ağşın (ağbəniz) kimi sözləri qeyd etmək olar. Bundan əlavə dilimizdə var olan ağsaqqal, ağbirçək mənəvi anlamda böyüklük mənası verir.

Bir obraz kimi ağsaqqal sayılan şəxsin dedikləri və onun ömür boyu göstərdiyi fəaliyyət cəmiyyət üzvləri tərəfindən əsas götürülmüşdür. Hətta ölümündən sonra belə, bir mənəvi ata qismində onun xatirəsi cəmiyyət üzvləri tərəfindən hər zaman əziz tutulmuşdur. Insanların düşüncə tərzinə yer etmiş və belə bir fikir formalaşmışdır ki, ağsaqqalsız cəmiyyət başsız hesab olunar. Bunu təsəvvür etmək belə qeyri mümkün sayılır. Bu xüsus cəmiyyətin idarə olunması ilə yanaşı, eyni zamanda qədim ibtidai cəmiyyətdə mövcud olan ulu ata-baba sitayişindən irəli gəlir və cəmiyyətdə vacib şərt kimi qəbul olunan amil hesab edilir. Çünki, cəmiyyətin stabilliyi müdrik ağsaqqalın olmasından və onun qüdrətindən asılıdır (5, 15). Ağsaqqal və ağbirçək icmanın sayılan adamları kimi böyük hörmətə malik olurlar. Ağ sözünün saqqala və birçəyə əlavə olunması özündə müəyyən dəyəri ehtiva edir.

Xətayi “ağ donunu geydi yasəmənlər” dedikdə, çiçəyin bəyaz rəngdə olduğunu fərqləndirməyə çalışır (31, 116). Çox gülən adam haqda deyirlər ki, “bütün günü dişi ağarır”. Gözünün ağı-qarası deyəndə, aman-zaman bir övladı olduğu təsdiq edilir. Göz ağartmaq hədələyici baxışı ehtiva edir. Gözünə ağ salmaq əzab, əziyyət vermək anlamındadır.

Dilimizdə qırmızı ilə bağlı da xeyli sözlər mənalandırılmışdır. Misal üçün, qanqırmızı, qıpqırmızı, al rəng də məhz qırmızını mənalandırır. Dilimizdə al dililə aldatmaq ifadəsi vardır. Bəzən bu ifadə uşağın başını qatmaq üçün istifadə edilir ki, misal üçün “al dililə aldıdıb yeməyi yedirtdim” deyilir (28). Allı sözündə də qırmızı rəng var. Məsələn, bu deyiliş al rəngli paltar geymiş adama xarakterik olur. Allı-əlvanlı, al-əlvan dedikdə, gözəlləri vəsf edərkən, cəmənzarı bildirərkən və s. hallarda istifadə olunur. Allı-güllü sözü bəzəkli, ala-bəzək, güllü-çiçəkli mənalarında deyilir. Allıq isə al rəngli şeyin halı, qırmızılıq kimi deməkdir, bundan əlavə allı-şallı sözü də dilimizdə işlənməkdədir. Kərpici rəng də qırmızının bənzəri sayılır. Ünsiyyətdə gülgün, gülçöhrə, gülüzar dedikdə, əslində qırmızı gülün rəngi nəzərdə tutulur. Moruq rəngində isə qırmızının bir qədər açıq olanıdır. Lalərəng qırmızı rəngində olanı bildirir. Lalərux və laləyanaq da qadınlara xitabən (üzün al olması) işlənən sözdür. Gülrəng – açıq qırmızını, gülü – çəhrayını, bildirir. Türk mədəniyyətindəki ən qədim rənglərdən biri “al” rəngdir (33). Çəhrayı rənginin özü də qırmızının açıq rəngidir ki, çox təəssüf ki, bəzən onu ruslarda olduğu kimi rozovıy adlandırırıq. Türklərdə isə onun qarşılığı pənbədir.

Sovet dövründə qırmızı rəng özünəməxsus məna kəsb etməyə başlamışdı. SSRİ-də sosializm yarışının qa-

liblərinə qırmızı bayraq mükafatı verilirdi. Qırmızı sözü qəzet, müəssisə, kənd və s. verilirdi. Qırmızı Aypara cəmiyyəti yaradılmışdı. Sovet dövründə qırmızı guşə olurdu, ora siyasi və mədəni-maarif işçiləri üçün ayrılmış otaq idi. Qubada yəhudilərin yerləşdiyi ərazi Qırmızı qəsəbə adlanır. Nəsli kəsilən bitki və heyvan adları və onların şəkilləri qırmızı kitabda toplanır.

Bəzən bitki, çiçək adları ilə rəng çalarlarını göstərməyə çalışan xalqımızın dilində müxtəlif sözlər yer alır. Məs, almayanaq yəni yanaqları qırmızı olan deməkdir, burada üz qırmızı alma meyvəsinə bənzədilir. Xalq bayatılarından birində deyilir:

*Əzizim, gül yanağa,*
*Ağ buxaq, gül yanağa.*
*Fələk də həsrət qoydu,*
*Yar deyə, gül yanağa (10, 34).*

Buradakı *gül* sözü qırmızı rəngi simvolizə edir.

Qızarıb-bozarmaq – xəcalətdən və ya hirsdən rəng verib rəng almaq, qırmızı olmuş, qırmızı rəng almış, qızarmış yanaqlar üzə çökmüş qırmızılığı bildirir. Qızarmış gözlər bir növ özündə xəstəliyi göstərən əlamətdir. Xüsusilə təzyiq artanda, içki içiləndə adətən gözlər qızarır. Dilimizdə qızartdaq sözü dedikdə, qırmızıya çalar sarı, kürən rənglər başa düşülür. Dəridə qızartı yenə qırmızı rəngi əks etdirir. Metallar çox qızmaqdan qırmızı rəng alır. Bəzən uzsüz adamlara qırmızı deyilir. Mehdi Hüseyn "Hop-hop"da qırmızı saqqalı Kərbəlayi obrazını canlandırır (34, 152). Heç şübhəsiz, burada xınanın rəngi nəzərdə tutulur. Çünki xınayi rəng də dilimizdə işlənir.

Bənövşəyi çiçəyin rəngindən alınan sözdür. Daha sonra yasəmən, innabı, narıncı, turuncu və s. də bitkilərə bənzədilən rənglər sırasındadır.

*Açıq* sözü hər rəngin önündə işlənirsə, həmin rəngin tündlükdən nisbətən kənar olduğu, rəngin tünd, tutqun olmayan halı bildirilir. Bəzən dilimizdə rənglərə sarımtıl, bozumtul və s. kimi adlar qonulur və yaxud ağa çalan, qaraya çalan və başqa rəng uyumluğu ilə rəngin xüsusiyyəti qeyd edilməyə çalışılır. Burada rəngin qətiliyinə şübhə oyanır, ona tam deyil də, bənzərlik xüsusiyyəti tətbiq edilir. Dilimizdə bəzi sözlərin əvvəlində düm əlavəsi işlədilir. Bu hissəciyi sözlərə əlavə etməklə rəngin daha da yüksək, şiddətli dərəcəyə aidlik mənası bildirilir. Məsələn, dümağ, dümqara, dümqırmızı və s. Bundan başqa fars dilindən alınma dürəng sözü iki cür rəngli, ikirəngdən ibarət olan mənasında işlənir. Eyni zamanda insana tətbiqən ikiüzlü, riyakar adamlara da dürəng deyilir. Dü farsca iki deməkdir.

Xalqımız rənglərə qarşı münasibətdə öz dilində yaradıcı əlavələr etməklə özünəməxsus etnik ünsiyyət mənzərəsi canlandıra bilmişdir. Rənglərin vasitəsilə etnodil prosesini öyrənməklə daxili ifadə tutumunu müəyyənləşdirmək olur. Ümumxalq dili daim inkişafdadır. Ədəbi dildən fərqli olaraq onda müxtəlif çalarlar öz əksini tapır. Dil etnosemiotik sistem kimi mühüm əhəmiyyət kəsb edir.

Dilimizdəki rənglər sırasında olan abı – açıq-göy, mavi rəng deməkdir. Ala isə qarışıq rəngli, məsələn, tükünün bir hissəsi ağ, o biri hissəsi başqa rəngdə olan mənası verir. Lakin eyni zamanda mavi, yaşıl gözlü insanlara ala göz sözü tətbiq edilir. Misal üçün ala gözlü, qələm qaşlı ifadələri mahnılarımızda yer alır. Dilimizdə mürəkkəb rəngi sözü də yazı yazmaq üçün istifadə olunan xüsu-

si boya rəngini mənalandırır və o qələmin mürəkkəbinin əsasən tünd göy, tünd bənövşəyi olduğunu göstərir.

Ala rənglə bağlı xalq ifadələri haqda B.Abdullanın verdiyi nümunələr yerinə düşür: "alapaça – paçalarının arası ağ olan kəhər və ya kürən at; alaçiy – tam bişməmiş; alaağac – ölkələri ayıran, sərhədlərə basdırılmış ağ-qara zolaqlı ağac (dirək); alanəm – qurumamış, yaş: ala-kölgə – həm işıqlı, həm kölgəli yer və s. Arxada "ala göz"dəki "ala"nın da rəng bildirdiyini demişdik. Daha bir neçə örnək: "Ala itdən məşhur", "Ala ördək". "Ala qaz", "Alaboyun", "Alabaş" (it adı) və s." (27, 430).

Xalq dilində belə bir deyim var ki, "bir gözü ala dağa baxır, bir gözü qara dağa". Bunu cəhətlərlə, səmtlərlə (şimal, cənub) əlaqələndirən də vardır, insani münasibətlərdə seçim məngənəsində qalanları bildirmək üçün deyənlər də. Yəni seçəcəyi tərəfi müəyyən edə bilməyənlərə şamil edilir. İfadənin başqa cür deyilişi isə belədir: "bir gözü şimala baxır, bir gözü cənuba".

Qadınların üzlərinə, dodaqlarına sürtdükləri qırmızı boya, ənlik də aladır. Daha sonra ala-bula sözü də dilimizi bəzəyir ki, o da rəngbərəng xallardan, zolaqlardan ibarət, cürbəcür rənglərə boyanmış, anlamı verir. Məsələn, Abdulla Şaiqin şerində belə təsvir vardır:

*Ala-bula boz keçi*
*Ay qoşa buynuz keçi*
*Yalqız gəzmə, dolanma*
*Dağa-daşa dırmanma*
*Bir qurd çıxsa qarşına*
*Sən nə edərsən ona?*
*Çoban açınca gözün*
*Qalar iki buynuzun (25, 69).*

Bununla yanaşı, ala-bəzək yəni, müxtəlif rənglərdən ibarət, rəngbərəng olan rəng də dilimizdə işlənir. Alalı sözü alası olan, xalları olan, al-əlvan isə rəngbərəng, ala-bəzəkli mənası verir. Dilimizdə altun və ya qızıl rəngli deyəndə, sarı rəng başa düşülür. Pipiyi qan yəni, qırmızı rəngi simvolizə edir. Gözləri mərcan dedikdə qırmızı, çəhrayı, şaftalı və narıncı rənglərinin çalarlarının qarışığıdır. Gəzəli rəng nar qabığına bənzər rəngi olan deməkdir. Bu da qırmızı ilə bağlıdır. Xətayi gəlinlərin başına örtdükləri duvağı belə təsvir edir:

*Gülgün duvağın başına örtmüş (31, 117).*

Burada şair duvağın qırmızı rəngdə olduğuna işarə edir.

Qasım bəy Zakir gözəldəki rənglərlə bağlı fikirlərini belə qeyd edir:

*Can üzüldü gələ gör ki, sevdiyim,*
*Gülgəz yanağını könlüm arzular.*
*Bəyaz püstanını, mərmər sinəni,*
*Nəsrin buxağını könlüm arzular (31, 143).*

Burada gülgəz yanaq al rəngi, nəsrin də ağı bildirir.

Bayatıda deyilir:

*Bu gələn səmənd atdı,*
*Boz atdı, səmənd atdı.*
*Qovdu tuta bilmədi,*
*Axırda kəmənd atdı (24, 37).*

Burada atların səmənd və boz rəngində olması göstərilir. Sırf atlara aid edilən rənglərdir.

Qeyd edək ki, "insanlar təbiətdə mövcud olan hər bir şeyi gözlərilə gördükləri sabit rənglərlə yaddaşda saxlamağa çalışmışlar. Zaman və məkana uyğun olaraq inkişaf edən mədəniyyətdə rənglərə müəyyən məna yüklənmişdir və bu dilimizdə əsrlər boyu qorunub saxlanılmışdır. Xalqın minilliklərdən gələn məişət tərzində şəraitə uyğun rəng çələngi müəyyən dəyər kəsb edərək simvollaşdırılmışdır. İnsanlar rəngləri nəyəsə bənzətməklə onlara bir məzmun, bir əlamət qazandırmışdır... Rənglərin simvolikasında insanın vəziyyəti, ilahi qüvvəyə və təbiətə münasibət, ayin və mərasimlərin məzmunu, magik güc, işarəvi əlamət və eyni zamanda xalqın dili özünü inikas etdirir" (9, 121).

Rənglər hər bir xalqın mədəniyyətində yer alan xüsusi amildir. Məişətdə rənglər o qədər əhəmiyyət kəsb edir ki, hətta bayramların rəmzlərinə çevrilir. Salim Küçük qeyd edir ki, Avropada yaşayan türk mənşəli etnik qruplarda novruz bayramı zamanı bir gecə əvvəl ənənəvi olaraq uşaqlara sarı lent taxırdılar, ertəsi gün onu qırmızı lentlə dəyişdirirdilər. Beləliklə, bədliyi təmsil edən sarı rəng atılır, yerinə sağlığı təmsil edən qırmızı ilə yeni ilə girilir (2, 202). Özbəklərdə də bizdə olduğu kimi novruzun rəngi yaşıl hesab olunmuşdur. Hüseyn Cahid Yalçına əsaslanan F.Sümer göstərir ki, türklərdə "ağ, sarı, mor, qurşuni rənglər daha uğurlu hesab edilmişdir" (4, 385). İslam dini yayıldıqdan sonra isə yaşıl rəng onun rəmzinə çevrilmişdir. Göründüyü kimi, rənglərə dini zəmində də müəyyən məna yuklənir və o, həmin dinlə özləşir. P.X.Akieva tərəfindən haqlı olaraq qeyd edilir ki, "rəng kateqoriyalarının ümumi cəmi etnik mədəniyyətin inkişaf tarixi səviyyəsindən bilavasitə asılıdır" (18, 211).

Məişətdə və eləcə də mənəvi mədəniyyət elementlərində rənglərin dili ayrı-ayrı vasitə ilə danışır. Məsələn, Novruz bayramında səməni boyanması, yumurtaların rənglənməsi yaşıllığa, bolluğa işarədir.

Məişətin elə bir sahəsi yoxdur ki, orada rənglər öz sözünü deməsin. Geyimlərdə, xalçaçılıqda, boyama sənətində rənglərin dili sanki danışır. Xüsusilə, rəssamlıqda ifadə edilən rənglər, kölgə effektini yaratmağa, emosional məzmunu təcəssüm etdirməyə, hər hansı obrazın və ya təbiətin və yaxud müəyyən tarixi hadisənin dolğunluğunu təqdim etməyə, harmoniyanı rənglərin dili ilə verməyə, şəxsiyyətləri real şəkildə göstərməyə, zaman və məkan fərqliliyini əks etdirməyə xidmət edir. Qeyd olunanların hamısında rənglərin fərqli çalarlarından istifadə edilir. Xalça sənətində rənglərin dilindən həmin sənət əsərinin hansı məktəbə aid olunmasını söyləmək mümkündür. Məsələn, nümunə üçün Abşeron məktəbi xalçalarını qeyd edək. Burada mavi rəng dənizin, qəhvəyi rəngin açıq tonu isə qumun göstəricisidir. Çünki toxucu xanımlarımız öz əl işləri olan xalçalarda gördükləri təbiəti əks etdirməyə çalışmışlar. Qarabağ xalçalarında əsasən qırmızı rəngin üstünlüyü özünü büruzə verir. Qeyd etmək yerinə düşər ki, "ustalar parlaq rənglərdən biri olan al qırmızını "alışdım-yandım" adlandırmışlar. Bundan başqa xalçaçıların işlətdikləri "ağ ilə yaşıl xoş yaraşır", "qırmızı-sarı, çağırma barı", "ağ ilə sarı, it yasarı" kimi ifadələr onların rəng qavrayışını və əlaqələrin münasibətini aydın göstərir" (19, 76).

Xalqımızın əsrlər boyu yaratdığı mədəniyyət çərçivəsində dövlətin rəmzlərindən biri olan bayraqlar öz rənglərindəki kəsb etdikləri mənalarıyla müəyyən dəyər qazanır. Xalqın irəliyə doğru istiqamətinin, tərəqqisinin

yoluna çevrilir. Müasir dövlət bayrağımız mavi, qırmızı, yaşıl rəngdən ibarətdir. Onun ortasında ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Mavi türkçülüyü, qırmızı müasir cəmiyyəti, demokratiyanı, yaşıl isə İslamçılığı tərənnüm edir.

Beynin rəngləri qavraması, gözün görməsi ilə bilavasitə əlaqədardır. Çünki görməyən göz üçün əsas rəng qaradır.

Orta əsrlərə aid miniatür sənəti nümunələrində təsvir olunan əsas rənglər qırmızı, sarı, göy, yaşıldır. Miniatürlərdəki istər geyimlərdə, ev və ya digər maddi mədəniyyət nümunələrində, istərsə də təbiət təsvirlərdə göstərilən rənglər hakimdir. Bu da onların xalqımızın həyatında həmin rənglərin kəsb etdiyi əhəmiyyətlə ölçülür.

Dilimizin məna rəngində öz sözünü deyən kəlmələrdə bilavasitə rəng adı olmasa da, rənglə bağlı deyimlər vardır. Qızarmaq və bozarmaq kimi sözlərin öz kəsb etdiyi bir məzmun vardır. Məsələn, qızarmaq utancaqlıq əlamətini ehtiva edir, bozarmaq isə əksinə kiminsə üzərinə səs yüksəltmək deməkdir. Maraqlıdır ki, qızarmaq sözündə heç bir rəng adı yoxdur, lakin özü qırmızılığı mənalandırır. Bozarmaq sözündə isə boz rəngin adı var, amma mahiyyətində tamam başqa məzmun daşıyır.

Xalq dilində o qədər deyimlər əmələ gəlib ki, bunlar etnosun dünyagörüşünü, təbiətə münasibətini, mifoloji düşüncə tərzini sezməyə əsas verir. El arasında tez-tez işlənən rəngin avazıması, saralması (xəstəlik), üzün qızarması (utancaqlıq), gözün qızarması (içki), qanın qaralması (əhvalın pisləşməsi, əsəbilik) və digər söz və ifadələr minilliklərdən süzülüb gələn dil yaddaşımız, söz yaddaşımızdır.

Orta əsrlər boyunca "tarixi faktlardan bəlli olur ki, rənglərin rəmzi mənaları həmişə bir olmamış, ayrı-ayrı

dövrlərdə müxtəlif mahiyyət kəsb etmişdir. Məsələn, hazırda birisi başdan ayağa qara rəngli paltar geyirsə, bunu biz matəmlə bağlayırıq. Lakin keçmişdə (xüsusən, 1X-X yüzillikdə) qara ən sevimli rəng olmuş, ağ və mavi rənglər isə matəm əlaməti sayılmışdır. Mənbələr göstərir ki, birisi öldükdə səlcuqlar üç gün yas saxlayıb ağ atlasdan əlbisə geyərmişlər. Tarixdən səlcuq sultanı Ələddin Keyqubadın dəfn mərasimində də matəm əlaməti olaraq camaatın ağ libas geydiyi məlumdur" (6, 73). Deməli, "hər bir mədəniyyət özünün xüsusi rəngləri ilə "rənglənmişdir" və onun arxetipik kaloriti o cümlədən rəng qammasının özünəməxsusluğu ilə ifadə olunur. Mentalitetin rəngliliyi amili müəyyən dərəcədə rəsmi (dövlət) atributikası (bayrağın, gerbin, mərasimlərin və s.) ilə təsbit olunur. Bunun sayəsində bir çox dövlətlər və mədəniyyətlər vizual rəng simvollarına malikdirlər. Bu göstərir ki, rəng xalqın (ölkənin) özünəməxsusluğunun koduna (ifadəçisinə) çevrilir ki, bunun da xüsusi semiotik əhəmiyyəti var" (7, 318-319).

Müasir dövrdən fərqli olaraq orta əsrlərdə xalqlar dini mənsubiyyət əlamətinə görə müxtəlif geyimlərlə seçilirdilər. Ağ papaqlar müsəlmanlar üçün, yaşıl papaqlar isə yalnız müsəlmanlar arasında seyidlər üçün nəzərdə tutulub. Buna görə də qeyri-müsəlmanlara haram rənglərdir. Qeyri-müsəlmanların baş rəngi ümumiyyətlə sarı olmuşdur. Nəticədə yəhudilər üçün sarı, xristianlar üçün mavi, yəhudi məzhəbindən olan samirilər üçün isə qırmızı rəng məcburi oldu. Nəticədə ilk İslam dövlətlərində qeyri-müsəlmanlar üçün məhdudiyyətlər yarandı və sonrakı İslam dövlətlərinə də təsir etdi (17, 12).

Mədəniyyətin daşıyıcısı olan etnosun nə üçün məhz "öz" rəngini seçməsi maraq doğurur. Bu həmən rəngə

həsrətləmi əlaqəli yoxsa, onun təbiətdəki varlığının çoxluğu iləmi bağlıdır sualını izah etmək çətindir. Bundan əlavə xalqın içindən çıxan nümayişçilər özlərinə turuncu rəngi seçərkən nəyi düşünərək etiraza məhz bu rəngin dililə getməyi planlayır? Buradan aydın olduğu kimi rənglər şikayəti bildirir.

Rənglərin özünün təsir dairəsi güclüdür. Belə ki, qırmızı rəngə buğaların verdiyi reaksiya əyləncələrdə özünü göstərir. Sfetoforun rənglərinin mənası var: sarı-diqqət, qırmızı təhlükə, qadağa, yaşıl təhlükəsizlik. Bundan əlavə yaşılın həmçinin ekologiyanı təmsil etməsi bilinir. Çünki ekologiya ilə bağlı fəaliyyət edənlər yaşıllar adlanır. Dini ibadət obyektlərinin rənglənməsi, şəkillərlə bəzədilməsi, müxtəlif rəngli əşyalardan istifadə edilməsi, mozaika, çiçək buketinə seçiləcək güllərin dəsti, dəfn mərasimindəki çələng bütün bunlar əksər müasir xalqların həyatda görünən reallıqlardır ki, rənglər onların vasitəsilə dil açır.

Əhval-ruhiyyəni göstərmək üçün çiçəklərin rənginin mühüm mənası vardı. Məsələn, sarı çiçək ayrılıq rəmzi sayılmışdır. Bəzən rənglər haqqında sakit tonlar deyilir. Bu da əsasən açıq rənglərə aiddir və gözün baxdıqca sakitlik tapdığı çalarlardır. Rənglər siqnal vermə məzmunu da daşıyır. Ağ bayrağın qaldırılması müasir dövrdə bütün dünya xalqlarında təslim əlaməti olaraq qəbul edilir. Qara bayraq isə kədəri simvolizə edir.

Qeyd edək ki, "araşdırmalar göstərir ki, XVIII əsrdə və sonralar tikmələrimizdə istifadə edilən rənglər tək bədii xüsusiyyət kəsb etməmiş el-oba arasında onlar müxtəlif mənalar da daşımışdır. Məsələn, sevgilisinə sarı rəngli tikmələrlə bəzədilmiş yaylıq göndərən gənc aşiq olduğunu, saralıb solduğunu bildirmişdir. Yaşıl rəngli

tikmə – arzu, mavi – ümidli və şəkli qaldığına işarə idi" (19, 187). Hər bir rəngin öz dili olduğunu məhz belə maddi nümunələr vasitəsilə müəyyən etmək mümkündür.

Şifahi xalq yaradıcılığı nümunələrində xeyli sayda rənglərlə bağlı məqamlara toxunulur. Nağıllarımızda, eləcə də yazıçılarımızın əsərlərində ağ div obrazı təqdim edilir. "Əsli və Kərəm" dastanında qara keşiş mənfi obrazı verilir ki, burada o, maneə, əngəl törədən bir qüvvə kimi təqdim edilir. Dilimizdə ağı qaradan seçmək ifadəsi işlənir ki, yəni yaxşını pisdən ayırd etmək başa düşülür. Hətta Kitabi-Dədə Qorqud dastanında belə bir deyim var "ağlı, qaralı seçilən çağda" (26, 132). Bundan başqa ağa-ağ, qaraya-qara demək eyimi də vardır ki, o da düzünü deməyi mənalandırır. Daha sonra dilimizdə qara camaat, qara qoşun, qara fəhlə, qara qış, qara yel, qara quş, qara torpaq və s. ifadələri də yer almaqdadır. Yaz fəslinin başlanğıc mərhələsi qara yazı adlanırdı və aprelin ortalarınadək davam edirdi (37, 172).

Məlumdur ki, "qədim zərdüştilik – dualist fəlsəfəsinə görə ağ rəng müsbət qüvvələri, qara isə mənfi qüvvələri təmsil edirdi (qara basmaq, qara qüvvə, günü qara olmaq və s.). Odur ki, ağ Hörmüzdün – gündüzün, qara isə Əhrimənin – gecənin rəmzi hesab olunurdu" (8, 10). Orta əsrlər dövründə orucluq zamanı "ağ və qara sapı götürüb yanaşı tuturdular. Bu saplar bir-birindən seçilmədikdə axşamın düşdüyü qərarına gəlir və yeməyə başlayırdılar" (8, 10).

Sarının da dilimizdə özünəməxsus yeri var. Sarı rəngi tanımlamaq üçün limon və ya qızıl sözləri söylənilir. Bitkilərin, yarpaqların yaşıl rənginin sonralar solarkən sarı rəngə çevrilməsi payızın əlamətidir. Xalqımızın görkəmli şair və aşıqlarının, yazıçılarımızın əsərlərində saçın sünbülə bənzədilməsi sarı rəngin mənalandırılması de-

məkdir. Samanı rəng dedikdə, yəni samana oxşayan sarıya çalan rəngin bir çaları nəzərdə tutulur.

Saralmaq özü də bir əşyanın sarı rəngini ehtiva edir. Məsələn, saralmış vərəqlər. Saralmaq meyvənin yetişdiyini göstərən əlamət kimi də dilimizdə işlənir. Saralıb-solmaq xəzan olmaq və eyni zamanda insana aid edilərək dərddən qəmdən pis günə düşmək deməkdir. Xəstəlikdən və ya qorxudan da insanın bənizinin saralması sarı rənglə əlaqəli deyilmişdir. Saraltı uzaqdan sarı rəngdə hər hansı bir şeyin görünməsinə şamil edilir. Saraltmaq sözü də dilimizdə vardır ki, məsələn, saçı boyamaq məzmunu kəsb edir. Birinin dedikləri başqasına ləzzət verəndə "ürəyinə sarı yağ kimi yayılır" deyilir. Burada məmnunluq hissi boy göstərir. Dilimizdəki deyimlərdə "sarı simə toxunmaq" ürəyindən xəbər vermək bir sözü, işi, mətləbi çox incə tərzdə çatdırmaq deməkdir. Heyvan və bitkilərə verilən adlarda da sarı rəngin öz yeri var ki, bu da sarıbülbül, sarıcaotu, sarıçiçək, sarıdimdik, sarıdöş, sarısüsən, sarı bənövşə, sarıgilə, sarıkol, sarıkök, sarıköynək və ya sarısəndəl (quş), sarıköynək (yemiş növü), sarı-kürən qonur, açıq şabalıdı rəngli (at haqda) şəklindədir. Bəzən qız haqqında fikir bəyan ediləndə "sarı sulu qızdır" deyirlər. Sarıbaş saçları sarı olan adama deyilir. Sarıbənizli, sarımsov və ya sarışın isə dərisinin rəngi nisbətən sarı olanlara xitabən işlənən sözdür. Sarı-bozumtul sarıya və boza çalan, boza yaxın rəngdir. Sarı-bozumtul, sarı qırmızı, sarı qızılı rəng çalarları vardır ki, bunlar da əksəriyyətlə parçalar haqqındadır. Azərbaycanda insanlara müxtəlif ləqəb taxmaq adəti vardır. Məsələn, saçı ağ olana ağbaş, sarı olana sarıbaş şəklində. Bundan əlavə tibbdə mövcud olan sarılıq xəstəlik adıdır. O, qaraciyərlə bağlı olan infeksion xəstəlikdir.

Yaşıl təbiətdə meşə, çəmən rəngində olan şeylərlə mənalandırılır. Bu rənglə də bağlı xeyli sözlər deyimlər şəklində təzahür edir. Dilimizdə yaşılın yetişməmiş kal olan mənası da vardır. Yaşılbaşlı, yəni başı yaşıl olandır, ördəyin erkəyinə deyilir. Şairlərimizin istifadə etdikləri yaşılbaşlı sonanı misal göstərmək olar. Yaşılgözlü dedikdə, bilinir ki, gözlərinin rəngi yaşıldır. Yaşılımsov, yaşılımtraq və yaşılımtıl isə yəni yaşıla çalan rəngdə olan deməkdir. Yaşıl-mavi göründüyü kimi, hər hansı əşyanın iki rəngə – yaşıla və maviyə çalan rəngdə olduğu aydın olur. Yaşılla bağlı yaşıllamaq (yaşıl rəngə boyamaq), yaşıllaşdırılmaq fəaliyyətilə məşğul olmaq (bitkilərlə yaşıllıq yaratmaq, park salmaq, ağac, kol və s. bitki əkdirilərək) nəzərdə tutulur. Dilimizə sonralar daxil olmuş xaki (hərbçilərin paltarının rəngi) bozumtul yaşıl rəngi bildirir.

Göy rəngin də rənglər içərisində öz yeri var. Dilimizdəki gömgöy tünd-göyü bildirir. Sözün yaşıl mənası da vardır. Maraqlıdır ki, yaşıl rəng ola-ola, bəzən göyərtiyə də qısaca göy, və ya göy-göyərti deyirik. Gömgöy otlar, budaqlar deyə söyləyirik. Soyuqdan, əsəbdən göyərmiş adamlara da gömgöy (xüsusilə dodaqları) olmuşdu deyilir. Zərbədən bədəndə əmələ gələn qematoma da göy adlandırılır. Gömgöy göyərmək də bunu bildirir. Gömgöylük – tünd-göy rəngdə olandır. Eyni məzmunu şəhla sözü də əvəz edir. Məsələn, iri tünd mavi gözlüyə şəhla gözlü deyilir. Qarabağda xəsis adama göy deyilir (13). Qazaxda isə göy kürəkəndir. Xətayi göstərir ki, "bağlar ağacı göyərtdi şaxın" (31, 116). Burada göyərtmək yaşıl etdi mənası kəsb edir. Yəni ağaclar öz şaxlarını yaşıllaşdırdı deməkdir. Mavi gözlüyə göygöz deyilir. "Allah səni göyərtsin" demək, yəni övladla sevindirsin şəklində alqışlardan biridir (32). Mavi açıq göy rəngdir ki, onun da mavimsov və mavimtraq adıyla daha açıq

tonları vardır. Bu rəngin dilini firuzəyi əvəzləyir. Firuzəyi təbiətdə mövcud olan firuzə daşının adından götürülüb. Türkiyədə mavi turkuaz adlanır. Onu da qeyd edək ki, mavi Qazaxıstanın müasir dövlət bayrağının rəngidir.

Dilimizdə işlənən sözlər içrə göyəmi deyə rəng də vardır ki, göyəm meyvəsinin rəngində olan deməkdir. Göyzəmin isə yerliyi göy rəngində olan deməkdir. Müasir dilimizdə mor (bənövşəyi), lacivərd (tünd göy) sözləri işlənmir. Lakin əvvəllər var olduğu qətidir. Türkiyədə hələ də bu rəng adları olduğu kimi qalır.

Dilimizdə qəhvəyi rəng sözü vardır. Lakin məlumdur ki, bu söz qəhvənin Azərbaycan ərazisində yayılmasından sonra işlənmişdir. Bəs ona qədər bu rəng çaları hansı sözlə ifadə oluna bilərdi. Ehtimalımızda yanılmarıq ki, bu tünd qəhvəyi rəngi mixəyi (ədviyyat bitkisi) və şabalıdı sözü ilə işlətmişlər.

Boz dedikdə, kül rəngində olan, qara ilə ağın qatışması vasitəsilə yaranan rəng çaları nəzərdə tutulur. Hava bozdur deyəndə tutqun, dumanlı, çiskinli olduğu qeyd edilir. Boz rənglə xalqımız bitki örtüyü olmayan çılpaq çölləri əlaqələndirir. Boz sözünü adama da şamil edirlər, məs, utanmaz, həyasız, heç nədən çəkinməyən kobud adam haqqında boz sifət göstərir deyirlər. Boztövr, bozumtul, bozumsov, bozumtraq dedikdə, boza çalan, boza yaxın olan nisbətən açıqlığı ilə fərqlənən rəng önə çıxır. Bozarmaq, yəni solmaq, rəngi qaçmaq mənasını da ifadə edir. Bozartı sözü də məhz bozarmış rəngli hər hansı bir şeyi bildirir. Bəzən boz rəngi göstərmək üçün külü və ya külrəngi sözlərindən də istifadə edirlər. Bu bozla qaranın qarışımıdır. Çal isə qarışıq boz rəngi özündə birləşdirir. Bununla bağlı dilimizdə çalbaş, çalbığ, çalsaqqal, çalpapaq kimi sözlər var.

Dilimizdə kəmrəng sözü də işlənməkdədir. Məsələn rəngi açıq, az olan deməkdir ki, bunu da adətən rəngsiz çay haqqında deyirlər. Bundan əlavə şəffaf sözü də vardır ki, o da havanın, suyun rəngidir. Gözlə görünməyən rəngdir, lakin şəffaflıq bir başqa məzmunda münasibətlərdəki açıqlığı, aydınlığı göstərir. Parıltı çalan rənglərə isə xalqımız məzəli adlar verir, məsələn, gendədur. Güləbətin isə qızıl və gümüşün qatışığından olan sarı-qızılı mənasında işlənir. Dilimizdə pürrəngi (qəhvəyi), noxudu (sarı-boz), püstəyi (yaşıl), nəsrin (ağ), xurmayı (açıq qəhvəyi) kimi sözlər məhz rəngləri ehtiva edir. Qazi Bürhanəddinin "Divan"ında orta əsrlərdə işlənən müxtəlif rəng adlarına rast gəlmək mümkündür. Məsələn, əzrəq (göy, mavi), əsvəd (qara), əhmər (qırmızı), müləmmə (ala-bula, parlaq), rummani (nar dənəsi rəngi), suri (qırmızı), xizab (tünd qırmızı boyaq), həmra (qırmızı) (38, 642-654).

Çalan sözü rənglərə əlavə ediləndə oxşarlıq əks etdirilir. Məsələn, sarıya çalan, dedikdə, rəngin bənzəri qeyd olunur. Bu da xalqımızın dilində rəng ad və çalarlarının nə qədər çox olduğunu göstərir. Ümumiyyətlə, bəzən heç bir konkret rəngi bildirməsə də, saya sözündən istifadə olunur. Bu əsasən bir rəngli mənası verir. Üzərində heç bir bəzəyi olmayan parçalara saya deyilir. Çoxrəngli isə alabəzək, saya olmayan, müxtəlif rənglərdən ibarət olandır. Poladı deyilən rəng sözü də tətbiq edilir ki, bununla onun gümüşü boz olması nəzərdə tutulur. Dilimizdə həmrəng eyni rəngli olanı, həmrəng olmaq isə uyğunlaşmağı, münasibliyi göstərir.

Metin Ekici yazır: "zamanla içindəki mənalarında bəzi dəyişikliklər meydana gəlsə də, bir xalqın həyat tərzi və inancları ilə əlaqədar ən qədim kainat və dünyaya yönəlmiş qavrama rənglərin adı olan sözlərin göy anlamla-

rında daşıdıqları görünür"(33). Rəşad Gənc türk simvolik dəyərlər olaraq rənglər barədə göstərir ki, yalnız, yaşılın yerinə hər halda göy də keçə bilərdi; beləliklə, mavi və yaşılın, yəni göyün və otun rəngləri eyni olurdu (34, 1076).

Ə.Nəcəf yazır: "türk inanc sistemində rənglərin də öz ruh sistemləri var. Bu gün də türklər daxil, bir çox xalqlarda paltarların rəngi insanların psixologiyasına uyğun seçilir. Türklərdə paltarlar rənginə uyğun olaraq geyilirdi. Qara geyinmək matəmə, qırmızı toya, ağ ayrılığa işarədir. Evlənən qızın ağ gəlinliklə ata evindən köçməsi ayrılığı təmsil edirdi. Türklərdə əqrəbalar və qohumlar arasındakı evliliklərdə gəlin qırmızı geyinirdi. Bu da ayrılığın olmadığını göstərirdi" (36, 187).

Rəng (fars sözüdür) sözünün özü hər hansı bir əşyanın malik olduğu çaları bildirir. Lakin dilimizdə rənglə bağlı xeyli ifadələr yer alır. Adətən rəng sözünün özünün xalq dilində müxtəlif mənaları vardır: rəsmdə boya (yağlı rəng, sulu rəng), muğamda müstəqil musiqi parçası, xüsusiyyət. Qadınların dodaqlarına, üzlərinə çəkdikləri, əsasən, qırmızı boyanı bildirmək üçün dodağına rəng çəkmək ifadəsindən istifadə olunur. Rənglə bağlı o qədər deyimlər vardır ki, onlar gündəlik ünsiyyətdə tez-tez işlənməkdədir. Məsələn, rəngə çalmaq dedikdə, rəngə oxşamaq, yəni bənzərlik əlaməti göstərilir. Rəngi qaçmaq isə öz rəngini itirməsidir. Rəng vermək yəni, başqa məna verməkdir. Məsələn, siyasi rəng vermək, don geyindirmək və s.qeyd etmək olar. Rəng yaxmaq – böhtan atmaqdır. Rəng verib rəng almaq və ya rəngdən rəngə girmək müxtəlif rənglərə çalmaq rəngi dəyişmək deməkdir. Rəngi açılmaq birinin gözəlləşməsi, xəstəlikdən sağalması, düzəlməsi mənasında işlənir. Rəngi ağarmaq, rəngi qaçmaq, rəngi dəyişmək, rəngi külə dönmək, rəngi üzündən

götürülmək, rəngi saralmaq kimi ifadələr qorxudan, həyəcandan, üzüntüdən insanın öz rəngini itirməsi, rəngin qaçması mənasındadır. Bəzən üzündən sevinc duyulan adama rəngi duru deyilir. Rəngarəng, rəngbərəng isə mahiyyətcə müxtəlif rənglərdə olan, cürbəcür və əlvan sözlərilə eyniləşir, bərabərləşir. Dilimizdə ölüm rəngi, meyit rəngi deyə yer alan deyim bənizin saralmasını, qanın qaçmasını bildirir.

Seyid Əzim Şirvani yazır:

*Türkdə bir gözəl məsəldir bu:*
*At yanında ki, bağladın yabu,*
*Rəngi bir olmasa, olur həmxu (35, 240).*

Yəni şair burada atalar sözlərində də deyildiyi kimi "atı atın yanına bağlasan, həmrəng olmasa da, həmxasiyyət olar" fikrini qeyd etmişdir. Buradakı həmrəng sözü eyni rəngli olana şamil edilir.

Hətta Şərqdə yaranan florioqrafiya özü sözsüz bir ünsiyyətdir. Florioqrafiya (çiçəklərin dili) simvolizmdir, müəyyən əhval-ruhiyyəni, hissləri və ifadə ediləcək fikirlər üçün müxtəlif rənglərə verilən mənadır. Bir sözlə, duyğulara çiçəklərin, xüsusən onların rənglərinin vasitəsilə bir tərcümandır.

Beləliklə, nəticə olaraq deyə bilərik ki, rənglər zamanla sevinc, kədər, hiss, ümid, həyəcan, nifrət, məhəbbət rəmzi kimi müəyyən məna kəsb etməyə başlayıb. Rənglərin dili xalqların tarixi ənənəsi ilə sıx şəkildə bağlıdır. Bundan əlavə onların dinlə də sıx əlaqəsi vardır. Hətta o, etnosun fərqləndirici xüsusiyyəti kimi ortaya çıxır. Xalqın məişət və mədəniyyətinin müxtəlif sahələrindəki dünyagörüşündə rənglər özünəməxsus şəkildə dəyər

qazanır. Əlbəttə, dilimizin zəngin söz inciləri içərisində rənglərlə bağlı ifadələr, deyimlər xüsusi yer tutur. Rənglər təbitədə olan bitkilərilin adlarını özündə cəmləşdirir. Bu da bizə etnosun yaşadığı coğrafı şərait, təsərrüfat sahələri, mədəni mirası və s.haqda fikir söyləməyə imkan verir.

**Ədəbiyyat:**


1. Atalar sözü (top. Ə.Hüseynzadə). – Bakı: Yazıçı, – 1981. – 336 s.
2. Salim Küçük. Eski Türk Kültüründe Renk Kavramı. Ordu Üniversitesi, Fen-Edebiyat Fakültesi, TDE Bölümü, Perşembe/ORDU sakucuk@hotmail.com *bilig,* Yaz / 2010, Sayı 54
3. Laszlo Rasonyi. Tarihte türklük (3 baskı). Ankara. Türk kültürünü araşdırma enstitüsü, 1993, 420 s
4. Farüq Sümər. Oğuzlar. – Bakı: Yazıçı, – 1992. – 432 s.
5. Bünyadova Ş. Münasibətlər müstəvisi. – Bakı: Mütərcim, – 2018. – 152 s.
6. Əfəndi R., Əfəndi T. Azərbaycan bəzək sənəti. – Bakı: BP, – 2002. – 80 s.
7. Quliyev H. Arxetipik azərilər: mentalitetin simaları. – Bakı: Qanun, – 2010. – 344 s.
8. Adilov M. Niyə belə deyirik. – Bakı: Azərnəşr, – 1982. – 241 s.
9. Bünyadova Ş. Nizami Gəncəvinin əsərlərində rənglər. Mütərcim ədəbi, elmi, tərcümə jurnalı, 47, – Bakı: Mütərcim, – 2021. – 116-122 s.
10. Kərkük folkloru antologiyası. – Bakı: Azərnəşr, – 1987. – 367 s.
11. Məlumatçı Bünyadov Teymur Əmiraslan oğlu, 1928-ci il təvəllüdlü (Qazax).
12. Məlumatçı Hüseynova Zivər Mehdi qızı, 1935-ci il təvəllüdlü (Bakı)

13. Məlumatçı Əhmədova Fazilə İbrahim qızı, 1938 -ci il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
14. Məlumatçı Əhmədova Fazilə Kamil qızı, 2001-ci il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
15. Məlumatçı Əhmədova Fidan Vasif qızı, 1998-ci il təvəllüdlü (Bakı)
16. Məlumatçı Əhmədov Orxan Kamil oğlu, 1994-ci il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
17. Ömer Faruk Bozkurt. Osmanlı imparatorluğunda gayrimüslümlerin kiyafet düzenlemeleri (XVI – XVII yüzyillar). Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü Tarih Anabilim Dalı. Yüksek Lisans Tezi, Ankara, 2014
18. Акиева П.Х. Архетипы цветовидения ингушей. Лавровский сборник. Материалы XXXУ1 и XXXУ11 Среднеазиатско-Кавказских чтений 2012-2013 г. Этнология, История, Археология, Культурология. СПб. МАЭРАН 2013, 624 с, 210-216
19. Azərbaycan incəsənəti. – Bakı: İşıq, – 1992. – 344 s.
20. Məlumatçı Mazanlı Sevda Teymur qızı, 1960-ci il təvəllüdlü (Bakı)
21. Məlumatçı Əhmədov Kamil Sücfyət oğlu, 1961-ci il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
22. Məlumatçı Əfəndiyeva Nabat Qara qızı, 1942-ci il təvəllüdlü (Qazax).
23. Məlumatçı Hacızadə Günay İlham qızı, 1984-cü il təvəllüdlü (Bakı)
24. Xalqımızın deyimləri və duyumları (tərtibçi M.İ.Həkimov). – Bakı: Maarif, – 1986. – 392 s.
25. Abdulla Şaiq. Keçi. Azərbaycan uşaq ədəbiyyatı antologiyası 3 cilddə, 2 c. XX əsr uşaq şeri. – Bakı: Öndər, – 2004. – 264 s.
26. Kitabi Dədə Qorqud. – Bakı: Yazıçı, – 1988. – 265 s.
27. Abdulla B. Rənglər. Azərbaycan etnoqrafiyası (3 cilddə). 3 c. – Bakı: Şərq-Qərb, – 2007, 568 s., – s. 423-436

28. Məlumatçı Əhmədova Səadət Qulu qızı, 1969cü il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
29. Oğuznamə. – Bakı: Yazıçı, – 1987. – 223 s.
30. Канонов А.Н. Семантика цветообазначений в тюркских языках. Тюркологический сборник. 1975, с. 159-17
31. Azərbaycan uşaq ədəbiyyatı antologiyası 3 cilddə. 1 c. – Bakı: Öndər, – 2005. – 248 s.
32. Məlumatçı Əhmədova Təzəgül Balış qızı, 1968-cü il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
33. Metin Ekici Türk Kültüründe "Al" Renk. https://dergipark.org.tr/tr/pub/egetdid/issue/42807/517380 Yıl 2016, Cilt: 16 Sayı: 2, 103-107, 01.01.2016
34. Reşat Genc. Turk inanışları ile milli geleneklerinde renkler ve sarı-kırmızı-yeşil. dergipark.org.tr/ Yıl 1997, Cilt: 9 Sayı: 27, s 1075-1176
35. Azərbaycan uşaq ədəbiyyatı antologiyası 3 cilddə. 3 c. – Bakı: Öndər, – 2005. – 240 s.
35. Nəcəf Ə.N. İnanc yaddaşı (köklər və tarixlər). İnanc yaddaşı. – Bakı: İzmedia, – 2014. – 352 s.
36. Balayev A. Tarix terminləri lüğəti. – Bakı: Altun kitab, 2017. – 336 s.
37. Bürhanəddin Q. Divan. – Bakı: Azərnəşr, – 1988. – 656 s.

# AZƏRBAYCANLILARDA ƏMANƏT ANLAYIŞI

Təqdim olunan məqalə azərbaycanlıların dilində işlənən *əmanət* kəlməsinin izahına və onun xalqın dünyagörüşündəki, məişət və mədəniyyətindəki yerinin müəyyənləşdirilməsinə həsr olunmuşdur. İnsanların minilliklər boyu fəaliyyəti nəticəsində özünəməxsus mədəniyyəti yaranmışdır. Bu mədəniyyətin ən vacib ünsürlərindən biri də dildir. Dil mədəniyyətimizin özünəməxsus çalarları və tarixi inkişaf mərhələləri mövcuddur. Bir bütövlük mahiyyəti daşımaqla real həyatda münasibət qurmaq üçün gərəkli vasitə kimi dilin böyük əhəmiyyəti bəllidir. Çünki hər bir kəlmədə həyat təcrübəsindən qayqanlanan məsələlər boy göstərir. Azərbaycan dilində işlənən xeyli sayda sözlər vardır ki, onlardan biri də əmanət kəlməsidir.

İlk olaraq onu qeyd edək ki, ərəblərin İslam dinini yayması ilə onların ərazilərimizə yürüşləri dilimizdə alınma sözlərin ünsiyyətdə işlənməsinə də yol açmışdır. Məlumdur ki, əmanət ərəb sözüdür və mahiyyət etibarilə kiməsə etibar edib hər hansı bir şeyi və ya insanı müvəqqəti olmaq şərtilə vermək və ya tapşırmaq məzmunu daşıyır. Bununla bağlı da dilimizdə müxtəlif sözlər yaranıb. Məsələn, əmanət almaq – müvəqqəti istifadə üçün almaq. Əmanət vermək – müvəqqəti istifadə üçün vermək. Əmanət qoymaq – bir şeyi müvəqqəti olaraq inandığı adama və ya-

xud yerə tapşırmaq, qoymaq. Əmanət saxlamaq – başqasının malını, pulunu müvəqqəti olaraq olduğu kimi qoruyub saxlamaq. – At elin, torba əmanət; Bizim daha nəyimiz var? (Atalar sözü) (2, 107). Yəni, göründüyü kimi, əmanət qorunmaq üçün etibar edilərək başqasına verilir.

Əmanətin xalqımızın məişət və mədəniyyətində kəsb etdiyi özünəməxsus məzmun kaloriti vardır. Onu müxtəlif şəkildə istifadə etmək mümkündür. Bu sözün dini müstəvidə bir anlam kəsb etməsi Allaha müraciətlə bağlıdır. Məsələn, Allahın zaminində olmaq, Allah əmanəti və yaxud Allaha əmanət, Allah amanında ol kimi deyimlər İslam dininin yayılması ilə bağlı yaranan kəlamlardır. Yəni bu müraciətlərin məzmunu budur ki, səni Allah özü qorusun, saxlasın.

Əmanətin İslam aləmi üçün müqəddəs sayılan əşyaları vardır ki, bunlar Müqəddəs Əmanətlər adlanır. **Müqəddəs Əmanətlər** və ya **Əmanət-i Mübarəkə** – Məhəmməd peyğəmbərə, dostlarına və bəzi peyğəmbərlərə aid olub, İslam dinində müqəddəs sayılan əşyalardır. Topqapı sarayının Qəbul otağında nümayiş etdirilən müqəddəs əmanətlər bunlardan ibarətdir:

- Hırka-i Səadət – Məhəmməd peyğəmbərə aid olduğu düşünülən əba
- Hırka-i Səadətin saxlanıldığı qızıl sandıq
- Qədəm-i Şərif – Məhəmməd peyğəmbərin ayaq izi
- Saqqal-ı Şərif – Məhəmməd peyğəmbərin saqqalı
- Dəndan-i Səadət – Məhəmməd peyğəmbərin Ühüd döyüşündə qırılan dişinin bir parçası
- Məhəmməd peyğəmbərin qəbir torpağı
- Mühr-ü Səadət – Məhəmməd peyğəmbərin möhrü
- Nal-i Səadət – Məhəmməd peyğəmbərin səndəlləri
- Məhəmməd peyğəmbərin qılıncının qını

- Məhəmməd peyğəmbərin qılıncları
- Məhəmməd peyğəmbərin ox və kamanı
- Namə-yi Səadət – Məhəmməd peyğəmbərin yalançı peyğəmbərə göndərdiyi məktup
- Məhəmməd peyğəmbərin qızı olan Fatimənin səccadəsi, əbası və köynəyi
- Sancağ-ı Şərif
- Səhabə-i Kiramın qılıncları
- Hacerül-Esvedin mühafizəsi
- Kəbənin qızıl su qabı
- Kəbənin açarı və qıfılları
- Kəbənin qapılarından biri
- Məscidül-Nəbinin maketi
- Məscidül-Əqsanın maketi
- Davud peyğəmbərin qılıncı
- İbrahim peyğəmbərin qazanı
- Musa peyğəmbərin əsası
- Yusif peyğəmbərin cübbəsi (18).

Dinin yayılmasının insanların məişətinə sirayət etməsi nəticəsində müqəddəs yerlər özünəməxsus dəyər qazanır. Belə yerlər İslam aləmində xüsusən azərbaycanlılar üçün Məşhəd, Kərbəla, Məkkə olmuşdur. Bu yerləri ziyarət etmək imkan daxilində dindar əhalinin daim istədiyi arzusu idi. Ona görə də bəzən ziyarətə gedənlər həmin yerlərdə dəfn olunmaq istəyirdi. Çünki son məkanın imanla bağlılığı və həmin yerlərin müqəddəsliyinə inam insanlarda bir sakitlik və hüzur yaradırdı. Onlar üçün sanki o biri dünyada mənəvi rahatlıq tapmağa inam daha güclü və təsirli idi.

Quranda əmanətlə əlaqədar qeyd olunan fikirlərdə deyilir: “Allah Təalə buyurur: “Biz əmanəti göylərə, yerə

və dağlara təklif etdik. Onlar onu daşımaqdan qorxub imtina etdilər. Lakin insan onu boynuna götürdü. Doğurdan da o, zalım və cahildir. Bu əmanət insana ona görə verildi ki, Allah münafiq kişiləri və münafiq qadınları, müşrik kişiləri və müşrik qadınları cəzalandırsın, mömin kişiləri və mömin qadınların tövbələrini qəbul etsin. Allah Bağışlayandır, Rəhmlidir". (Əhzab, 72-73) Bu kainata – səmasına, yerinə və dağlarına ağır bir yük, böyük bir məsuliyyət və təhlükəli bir iş təklif edildi, lakin onu daşımaqdan çəkindilər. Allah Təalənin əzabından qorxaraq onu yerinə yetirməkdən imtina etdilər. Bu əmanət Adəmə (ə.s) təklif edildi və Adəm (ə.s) onu boynuna götürdü və məsuliyyətini öz üzərinə aldı. Allah Təalə buyurur: "Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm verməniz əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir" (Nisa, 58). Bu mübarək ayə bütün əmanətləri öz içinə almışdır. Əmanətlərin ən böyüklərindən biri də vəzifələr, məqamlar və bunların haqlarıdır. Kim bu vəzifələrdə Allahın haqlarını yerinə yetirərsə, özü üçün doğru olanı tapmış və Axirəti üçün xeyir qazanmışdır. Vəzifəsinin və məqamının haqlarında və vəzifələrində qüsurlu davranan, rüşvət alan, ya da müsəlmanların mallarını oğurlayan özünü aldatmışdır. Özünə xəyanət etmiş və zülm etmişdir. Rəsulullah (s.ə.s) demişdir: "Allah Qiyamət günü əvvəlkiləri və sonrakıları bir yerə toplayaraq hər xəyanət edən üçün bir sancaq qaldırılır və "Bu, filan oğlu filanın xəyanətidir" deyilər" (Səhih Müslim) (19).

İslam dininin geniş yayılması nəticəsində əmanət eyni zamanda dəfn adətinə də sirayət etmişdir. Belə ki, Azərbaycanda mövcud olan adətə əsasən müqəddəs yer-

lərdə dəfn olunmaq istəyən adamları əvvəlcə müvəqqəti olaraq öldüyü yerdə basdırır, sonra isə imkan daxilində onun vəsiyyətini yerinə yetirməyə çalışan yaxınları tərəfindən meyidin cəsədi arzu etdiyi torpaqlara əbədi dəfn olunurdu. Mərhumun müvəqqəti olaraq basdırıldığı yer xalq arasında əmanət qəbir adı ilə tanınır. Belə qəbirlər isə çox dərin qazılmırdı. Aydın məsələdir ki, vəsiyyət insanın son arzusudur. Xalqımızın mental dünyasında vəsiyyətə əməl olunması ölənə son mənəvi borcun yerinə yetirilməsi kimi qəbul edilir.

Əmanət qəbirlərin mövcudluğunun tarixini dəqiq müəyyənləşdirmək mümkün deyildir. Çünki belə qəbirlər müvəqqəti olurdu və yeri qalmırdı. Lakin ehtimalımızda yanılmarıq ki, onların yaranması bilavasitə dinin məişətə daha dərindən nüfuz etdiyi zamanlara təsadüf edə bilər. Hər halda bu tarix orta əsrlər dövrünü əhatə edir. Əmanət qəbirlərə müasir dövrdə də rast gəlmək mümkündür. Qala kəndində yerləşən muzey ərazisində də əmanət qəbrin yeri mövcuddur. Məlumatçı bildirir ki, Hövsan ərazisində əmanət qəbirlər vardır (5). Hövsandakı əmanət qəbirlər xüsusilə sovet dövrü zamanında sərhədlər bağlandıqdan sonra gediş gəliş olmadığı üçün elə həmin yerində qalmaqdadır. Vəsiyyətləri yerinə yetirilməyən mərhumların qəbirləri əmanət kimi dəfn olunmuşdur.

Əmanət qəbirlərin son dövrlərdə varlığı xüsusilə ermənilərin Qarabağ torpaqlarına işğalları ilə əlaqədar idi. Belə ki, insanların sağlığında etdiyi vəsiyyətlərin bir hissəsi öz doğma yurdu ilə bağlı yaxınlarına edilən müraciətləri idi. Ermənilər tərəfindən işğal olunmuş ərazilərdə, öz yurdunda basdırılmaq istəyənlər torpaqlarımız geri alındıqdan sonra orada dəfn olunmalarını vəsiyyət edirdilər. Bu məqsədlə də onları müvəqqəti olaraq köç etdikləri

yerlərdə dəfn edirdilər (5). Qayıdışa inam, torpağa məhəbbət güclü olduğundan insanlar özlərini sanki qəribçilikdə hiss edir və meyidlərinin öz əcdadlarının yanında torpağa tapşırılmasını istəyirdilər.

Ailə məişətində müxtəlif mərasimlər övlad dünyaya gəldikdən sonra icra olunurdu. Onlardan biri olan adqoyma mərasimi mühüm əhəmiyyət kəsb edir. Xatırladaq ki, "adqoyma insanların fərqliliyini ortaya çıxararaq onların digərlərindən seçildiyinin göstəricisidir. Bu isə əsasən ilk növbədə uşaqlıqdan etibarən tətbiq olunan bir adət şəklini almışdır. Doğulan uşağa ad verilməsi bir növ mənsubiyyət və kimlik nümunəsidir. Adlar özündə müəyyən məna və çalarları ehtiva edir. Hər bir şəxsə körpəlikdən verilən və dəyişilməz qalan ad mühüm bir əlamətdir" (6, 148). Qızlara müxtəlif adlarla yanaşı, Əmanət adı da verilir.

Məişətdə əmanətlə bağlı o qədər həyat reallıqları vardır ki, saymaqla bitməz. Burada etnoqrafik müşahidələr və məlumatçıların verdikləri məlumatlar öz sözünü deyir. Məsələn, şəhərə gələndə öz evini göz-qulaq olsun deyə, müvəqqəti olaraq bacısına tapşıranlar olur (9). Onu da qeyd edək ki, bəzən şəhərə toya gələn adamın kənddəki evində kimsə qalmasa belə, qonşular oğru gəlməsin deyə, ayıq-sayıq olur, evin keşiyində durur (10). Bundan əlavə bir yana müəyyən müddətə gedən adamlar mütləq öz evlərində qohumlardan birini müvəqqəti olaraq qoyardılar. Evdəki qız uşaqları onlara əmanət edilirdi (4). Məlumatçı deyir ki, istirahət etmək üçün bir aylıq harasa gedəsi olanda qonşuya açarı əmanət verərdik ki, gəlib evdəki gül-çiçəyə su versin. Bundan əlavə qonşu bir yerə gedəndə öz qiymətli zinət əşyalarını qonşuya etibar edirdi (3). Etibar etmə hissi o qədər güclü idi ki, heç kəsin ağlına belə gəlməzdi ki, kimsə öhdəsinə düşən vəzifədən kənara çıxa bilər.

Ailə yadigarı olan əşyaların əmanət kimi məzmun daşıması baxımından onların bir xatirə olaraq nəsillərdən-nəsillərə ötürülməsi ənənəsi hələ də qalmaqdadır. Bu ənənə bir sıra ailələrdə dəyər qazanır. Bu ailə ənənəsinə münasibətin təzahürüdür.

Xeyir və şər mərasimləri zamanı qonşular bir-birindən əmanət olaraq, masa, miz, qab-qacaq və s. alırlar (10). Bu da qonşular arasında yardımlaşmanın olduğunu göstərir. Bir sıra qadınlar toy mərasimlərinə gedəndə nümayiş etdirmək üçün, eyni zamanda özlərini sındırmamaq düşüncəsilə özlərində olmasa belə, əmanət olaraq yaxın qonşu və qohumlardan zinət əşyaları alıb taxardılar. Vacib iş olanda uşağı qonşuya əmanət qoyardılar. Məsələn, toy mərasimi zamanı ev sahibi öz körpəsini məcburiyyət qarşısında qalaraq qonşuya qoya bilirdi.

Məişətdə işlənən amanatabəndin mahiyyəti ondan ibarətdir ki, bu söz birinin oturuşuna görə, əşyanın qoyuluşuna görə deyilir, müəyyən bir təkanla yıxıla biləcək, düşə biləcək səviyyədə olan deməkdir. Bundan başqa bir şeyi etməyə hazır, bəhanə gözləyən, bir himə bənd, yaxud, işarəyə bənd olan adamlara da amanatabənd sözü şamil olunur. Həmçinin sınıq-salxaq, davamsız, uçulmaq, dağılmaq, yıxılmaq üzrə olan əşyalara da həmin söz tətbiq edilir. Bu vaxt "elə bil amanatabənddi" deyirlər. Xalq arasında himayəyə götürülən uşağı əmanət (xalq arasında amanat) adlandırırdılar. Yəni bu söz yaxın, ən əziz adamın, ölüb getmiş insanın qoyub getdiyi canlı varlıq, əmanət mənasında işlənir (17, 55). Əmanətlə bağlı məişətdə işlənən müxtəlif məzmunlu fikirlərdən biri də budur ki, bəzən el arasında "sən mənə kiminsə (hər hansı bir şəxsin) əmanətisən" deyilir, yəni "onun yadigarısan" mənası kəsb edir. Bu əsasən qohumlar və ya dostlar arasında söz-

lü razılaşma ilə təsdiq olunur. Mənim əmanətimə (oğluma, qızıma və s.) sahib çıx, arxa dur şəklində rica edilir. Bundan əlavə qorunulması gərəkli olan tarixi abidələr bizim nəsillər üçün keçmişdən qalan əmanətlərdir, yəni mirasdır (21).

Azərbaycanlıların düşüncəsində belə bir sabitləşmiş hökm var ki, "əmanətə xəyanət olmaz" (1, 243). Bu o deməkdir ki, əmanət verilən və ya alınan hər bir şey sahibinə qaytarılmalıdır. Onun arxasına keçmək, danmaq olmaz. Həm də alınan əmanət gecikdirilməz. Nizami Gəncəvi əmanətlə bağlı "Yeddi gözəl" əsərində maraqlı əfsanə təqdim etmişdir. Burada şair əmanətin qaytarılmasını insanlıq şərti kimi göstərir:

*O dedi: "insanlıq şərti budur ki, onun paltarını,*
*Qızıl, zinət və əmmaməsini*
*Tamamilə bir yerə yığıb saxlayım*
*Və ailəsindən bir nəfərə verim.*
*Soruşub öyrənərəm ki, evi hardadır*
*Və ailəsindən bir nəfərə təhvil verərəm.*
*Məndən onun özünə kömək dəymədisə də,*
*Onun əmanətinə xəyanət etmərəm" (24, 175).*

Bizlərdə olan eyni atalar sözü kərküklərdə də olduğu kimi səslənir: Əmanət ata minən tez düşər (8, 110). Yəni, özünün olmayan ata, kiminsə əmanətinə güvənmək olmaz. Atalar sözlərində deyilir ki, "qız özgə əmanətidir" (1, 75). Bu fikirdə izah olunan məsələ odur ki, qız yeni ailə qurur. Ona görə də vaxtı çatanda ata evini əmanət imiş kimi tərk edir. Buna uyğun xalq arasında qız başqa evin çırağını yandırar deyimi də vardır (11).

Sözün məişət və mədəniyyətimizdəki yeri və əhəmiyyəti təbii olaraq folklora da sirayət etmişdir. Əmanət kəlmə-

sinə xalq yaradıcılığı nümunələri ilə yanaşı, eyni zamanda şair və yazıçılarımızın əsərlərində də tez-tez rast gəlmək mümkündür. Məsələn, Kitabi-Dədə Qorqudda deyilir:

*Otuz doqquz igidim əmanət qalsın, ay kafir!*
*Birini əskik görsəm, yerinə onunu öldürərəm,*
*Onunu əskik görsəm, yerinə yüzünü öldürərəm*
*ay kafir!*
*Otuz doqquz igidim əmanət olsun, ay kafir! (22, 158).*

Burada igidlərə arxa çıxıldığı onların əmanət olaraq müvəqqəti əsarətdə qaldığı izhar edilir.

Dastanlarımızda yer alan məqamlara dair fikrimizi misallarla sübuta yetirək:

*Ayaq torpağına ziyarətim var,*
*Dildə kəlmə, gözdə işarətim var,*
*Nə müddətdi səndə əmanətim var,*
*Üzüm gəlmir deyəm sözün hesabı (12, 181).*

Aldı Lələ:

*Lətif zara gəlmiş, bir məkansız quş,*
*Pünhan sirr içində olubdu beyhuş;*
*Kərəm qıl, soltanım, etmə fəramuş,*
*Müntəzirdi, əmanətə gəlmişəm (12, 243).*

Aldı Qərib:

*Canım ana, gəl əylətmə sən məni,*
*Eyləyirəm haqqa əmanət səni,*
*Tapşırıram sənə butam Sənəmi,*
*Gedirəm qürbətdə gəzəm bir zaman (14, 34).*

Aldı Qərib:

*Dön bəri, dön bəri, bir üzün görüm,*
*Al yanaqlarının qurbanı olum;*
*Bir əmanətim var, qoy sənə verim,*
*Getdim, yar, əyləndim, bəlkə gəlmədim (14, 31).*

Bundan əlavə "Səlim şah üzüyü tanımışdı. Saleh sövdəgər üzüyün əmanət olduğunu ona söylədi. Yəhya ilə Məhəmməd bu vaxt cəllad idi. Saleh sövdəgər çölə çıxıb, Yəhya ilə Məhəmmədi göndərdi ki, gedib Əfruz xanıma qaraul çəksinlər. Özü isə şahın hüzuruna gəldi. Gecə Səlimşahla Saleh sövdəgər söhbət elədilər. O biri tərəfdən Məhəmmədlə Yəhya gecə qaraul çəkən zaman gördülər ki, yuxu bunları tutacaq. Bir-birinə başlarına gələn qəzavü-qədərdən söhbət eləməyə başladılar" (14, 237).

Daha bir misal: "Safqan olduqca insaflı və ədalətli insan idi. Həm də çox bacarıqlıydı. Buna görə Süleyman peyğəmbər onu Misirə padşah göndərdi. Süleyman gecə-gündüz dua eləyirdi ki, Allah-taala Safqana bir oğul versin. Allah Süleymanın duasını qəbul eləyib, ona bir oğul verdi. Uşağın adını Asim qoydular. Bu münasibətlə Süleyman Safqana bir boğça hədiyyə göndərdi və dedi: – Ey Safqan, bu hədiyyəni yaxşı saxla, məndən sənə əmanətdir. Elə ki, oğlun böyüdü, evləndi, övladı oldu, onda sən bu boğçanı Asimin övladına verərsən" (15, 149). Bundan əlavə

*Güzar düşdü, özgə xanə gedirəm.*
*Göy üzü buluddu, bəd oldu hava,*
*Yarın əmanətin verməzəm bada,*
*Həqq özü yetişsin dada, fəryada,*
*Düşüb oda yana-yana gedirəm (15, 40).*

Aldı AşıqYığbal:

*O nədir ki, üç ay dağlar bürünür?*
*O nədir ki, əl dəyməmiş hörülür?*
*O nədir ki, əmanətən verilir?*
*O nədir ki, o da onun gülüdü*?

Aldı Aşıq Alı:

*O qardır ki, üç ay dağlar bürünür,*
*O könüldü əl dəyməmiş hörülür,*
*O uruhdu əmanətən verilir,*
*İlqar-iman diriliyin gülüdü (15, 258).*

Burada uruhdu, yəni ruhdur başa düşülməlidir. Deməli, el içində ruhun əmanət kimi verildiyinə inanılır.

Molla Pənah Vaqif belə deyir:

*Bağlamışam din-imanı zülfinə,*
*Mənim kimi heyran hanı zülfinə,*
*Tapşırıb gedirəm canı zülfinə,*
*Yaxşı saxla, səndə əmanətimdir (16, 132).*

Xəstə Qasımın şerində əmanətlə bağlı belə deyilir:

*Dəli könül, məndən sənə əmanət,*
*Deme bu dünyada halım yaxşıdı.*
*Bir gün olar, qohum-qardaş yad olar,*
*Demə ulusum var, elim yaxşıdı (13, 177*)

Həmid Araslı Abbas Tufarqanlının yaradıcılığından nümunə gətirərək aşığın dövrün əxlaqi görüşlərini təbliğ etdiyini nümunə göstərir:

*Özündən böyüyün saxla yolunu,*
*Düşən yerdə soruş ərzi-halını.*
*Əmanət saxla sən qonşu malını,*
*Qonşu yox istəyən, özü var olmaz (20, 63).*

Burada qonşuluq münasibətlərinin əhəmiyyətində əmanət saxlamağın da mövcud olduğu vurğulanır.

Azad Nəbiyev yazır: "Sufi ideologiyasına görə Allah yaratdığı, can verdiyi, həyat verdiyi insana bu canı əmanət vermişdir, bir gün həmin insan öz tanrısına qovuşmağa məhkumdur. Sufilik allah sevgisini və allaha aşiqlik düşüncəsini elə qüdrətli bir əxlaq tərzi kimi cəmiyyətə təlqin etdi ki, bu aşiqliyi vəsf eləyən sənətkarlar xalq içərisində böyük şöhrət qazandılar" (13, 23). Deməli, Sufilər canın Allah tərəfindən əmanət verildiyini qəbul edirdilər. Türklərdə "əmanəti təslim etmək" ölmək anlamı kəsb edir.

Nizami Gəncəvi "bir əmanətin xəzinədarı olan hər iki əminin" dedikdə, əmin sözünü əmanəti saxlayan mənasında işlətmişdir və "şair burada Cəbrayıl ilə Məhəmmədi Allahın əmini adlandırır" (24, 298). Yəni, yer üzündə Məhəmməd Allahın əmanətidir.

Azərbaycanda mənəvi mədəniyyət ünsürü kimi müxtəlif oyunlar mövcud olmuşdur ki, "bunlar içərisində "Əmanətə xəyanət olmaz" öz məzmun dolğunluğu ilə seçilir (13, 284). Əmanətə xəyanət etmək dində böyük günahlardan biri sayılır" (23, 471). Bütün bu qeyd olunanlar əmanətin məişətə nə qədər təsiri olduğunu söyləməyə yetər.

Əmanətlə əlaqədar əmanətdar sözü də yaranıb və dilimizdə yaşama hüququ qazanıb. Əmanətdar ərəb əmanət və farsca dar kəlmələrindən ibarət olub əmanəti saxlayan adam, yəni əmanətçi mənası kəsb edir. Müasir döv-

rümüzdə əmanət bankların kassalarına qoyulan pul və qızıl şəklindədir. Deməli, o, bir şəxsə deyil, dövlət qurumuna əmanət olaraq etibar edilir.

Sovet dövründə repressiyadan qorxan adamlar özlərinə məxsus ailə sənədlərini başqalarına əmanət olaraq müvəqqəti saxlamaq üçün verirdilər (7). Bu həmin dövrün çox mürəkkəb sistemi ilə bağlı idi. İnsanlardakı qorxu onları buna vadar edirdi.

Dilimizdə "məndən sənə əmanət" sözü ünsiyyətdə işlənən ifadələrdən biridir. Bu deyimin mahiyyəti onun nəsihət, tövsiyyə mənası kəsb etməsidir. Yəni, bu ifadə "sözümə yaxşı qulaq asıb yadından çıxarma, dediklərimə diqqət yetir, gələcəkdə xatırla" anlamı verir.

Beləliklə, saxlanmaq üçün birinə müvəqqəti olaraq tapşırılan şey və yaxud özgənin tapşırdığı şey olan əmanət xalq məişətində həm əşyaya, həm də insana xarakterik xüsusiyyət kəsb edir. Məqalədə dilimizdə var olan əmanət sözünün məişət və mədəniyyətimizdəki əhəmiyyəti öz əksini tapır. Şifahi xalq yaradıcılığı nümunələrində və şairlərin əsərlərində əmanətlə bağlı fikirlər xalqımızın düşüncə tərzini əks etdirir. Əmanətin nəsihət anlamı kəsb etməsi ünsiyyətdə işlənən ifadələrdəndir. Hər bir sözdə olduğu kimi, əmanət kəlməsində də bir eyham, işarə, nəsihət əks olunur. Əmanətlə bağlı Quranda qeyd olunanlar İslam aləminin mənəvi dünyasını əks etdirir. Əmanət özündə etibarlılığı təcəssüm etdirir. O eyni zamanda mənəvi yük və məsuliyyət anlamı kəsb edir.

**Ədəbiyyat:**


1. Atalar sözü. – Bakı: Yazıçı,– 1981. – 336 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. II cild. – Bakı: Şərq-Qərb, – 2006. – 792 s.

3. Məlumatçı Hüseynova Zivər Mehdi qızı, 1935-ci il təvəllüdlü (Bakı)
4. Məlumatçı Mazanlı Sevda Teymur qızı, 1960-cı il təvəllüdlü (Bakı)
5. Məlumatçı Həsənov Vüsal Paşa oğlu, 1981-ci il təvəllüdlü, (Gürcüstanın Qaraçöp kəndi)
6. Bünyadova Ş. Orta əsr Azərbaycan ailəsi. – Bakı: Elm, – 2012. – 384 s.
7. Məlumatçı Binnətova Zəkiyyə Əmiraslan qızı, 1925-ci il təvəllüdlü (Qazağın Şıxlı kəndi)
8. Kərkük folkloru antologiyası. – Bakı: Azərnəşr, – 1987. – 367 s.
9. Məlumatçı Əhmədova Təzəgül Balış qızı, 1968 il təvəllüdlü, (Ağdamın Zəngişalı kəndi)
10. Məlumatçı Əfəndiyeva Nabat Qara qızı, 1942-ci il təvəllüdlü (Qazax).
11. Məlumatçı Əhmədova Fazilə İbrahim qızı, 1938 -ci il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
12. Azərbaycan dastanları. Beş cilddə. I cild. – Bakı: Lider nəşriyyat, – 2005. – 392 s.
13. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı II hissə (orta əsr və yeni dövr folklor yaradıcılığı), – Bakı: Elm, – 2006. – 685 s.
14. Azərbaycan dastanları. Beş cilddə. III cild. – Bakı: Lider, – 2005. – 328 s.
15. Azərbaycan dastanları. Beş cilddə. V cild. – Bakı: Lider nəşriyyat, – 2005. – 344 s.
16. Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. III cild. – Bakı: Avrasiya press, – 2005. – 440 s.
17. Bünyadova Ş. Münasibətlər müstəvisi. – Bakı: Mütərcim, – 2018. – 152 s.
18. https://az.wikipedia.org/wiki/ Müqəddəs Əmanətlər
19. Tərcümə etdi: Əli Zülfüqar https://islamevi.az/?p=1202
20. Araslı H. Aşıq yaradıcılığı. – Bakı: Birləşmiş nəşriyyat, – 1960. – 136 s.

21. Məlumatçı Əhməd Əsgər 1957-ci il təvəllüdlü (Ağdamın Zəngişalı kəndi)
22. Kitabi Dədə Qorqud. – Bakı: Yazıçı, – 1988. – 265 s.
23. İslam ilmihali (tərtib. İlhan Apak). – İstanbul: İhlas, – 1990. – 480 s.
24. Gəncəvi N. Yeddi gözəl. – Bakı: Elm, – 1983. –360 s.

Çapa imzalanıb: 13.08.2024.
Format: 84x108 1/32. Qarnitur: Times.
Həcmi: 12,5 ç.v. Tiraj: 100. Sifariş № 177.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az